Dino Bussati

# TATAR ÇÖLÜ





downloaded from KitabYurdu.org

Dino Bussati

Tatar Çölü

Görkəmli İtaliya yazıçısı Dino Bussatinin ilk romanı olan "Tatar çölü" dünya ədəbiyyatının şedevrlərindən sayılır.

Bastiani qalasında sıxıntılı günlər keçirən, əvvəlcə heç bir gün də qalmaq istəməyən gənc leytenant Covanni Droqo burada ancaq dörd ay qala biləcəyinə qərar verir. Amma yaşadığı o dörd ayın hadisələri, hərbçi qüruru və Tatar çölünün vəhşi cazibəsi ayları illərə çevirir.

"...Qalanın qoruyucu məntəqələrindəki üzücü həyat, ölgün şimal çölünü nəzərdən keçirməsi, həyatda uğur qazana bilmədiyinə görə ümidsizliyə qapılması, uzun illər gözləməsi ona boş bir şey kimi gəldi..."

Roman həyatın mənasına və insanın taleyə boyun əyməsinə tamam başqa yönümdən nəzər salır.



downloaded from KitabYurdu.org

Dino Bussati

# Tatar Çölü

## I

Bir sentyabr səhəri təzəcə zabit rütbəsi almış Covanni Droqo şəhərdən çıxdı və Bastiani qalasına — ilk təyinat yerinə yola düşdü.

Bir gün əvvəl onu tezdən oyatmağı tapşırmışdı, alaqaranlıqdan oyandı və ilk dəfə leytenant paltarını geydi. Geyinəndən sonra ağ neftlə yanan lampanın işığında güzgüdə özünü nəzərdən keçirdi, amma gözlədiyinin əksinə olaraq heç bir sevinc hissi keçirmədi. Evə qulaqdələn sükut çökmüşdü, yalnız qonşu otaqdan nəsə xışıltı gəlirdi: anası idi, onunla vidalaşmaq üçün yataqdan qalxırdı.

Neçə illər ərzində gözlədiyi gün gəldi, indi əsl həyat başlayırdı. Hərbi akademiyadakı qüssəli, yeknəsəq günləri haqda düşündü, azad, yəqin ki, xoşbəxt adamların gəzib dolaşdıqları küçənin səslərinə qulaq verərək axşam məşğələlərində oturmağın necə cansıxıcı olması yadına düşdü. Qışda soyumuş yataqxanada həyəcan siqnalı ilə ayağa qaldırılmalarını və orda dolaşan dözülməz



downloaded from KitabYurdu.org

cəza kabusunu xatırladı. Qalan günlər elə bezikdirici dərəcədə ağır keçirdi ki, ona elə gəlirdi bu günlərin sonu olmayacaq.

Nəhayət o, zabitdir və daha kitablarla əlləşmək, serjantın səsindən diksinmək lazım gəlməyəcəkdi. Amma zaman keçirdi. Onun bu qədər nifrət elədiyi həyat həmişəliyə keçmişə qovuşmuşdu. Axı onlar geri qaytarılması mümkün olmayan aylardan və illərdən ibarət idi. Əlbəttə, o, indi zabit idi, onun pulu olacaqdı və ola bilsin ki, gözəl qadınlar ona diqqət yetirəcəkdilər, amma hər halda, Covanni Droqo ən yaxşı illərinin, ilk gənclik illərinin artıq qayıtmayacağını hiss eləyirdi. Bu hisslərlə Droqo güzgüdə öz sifətinə baxdı; sifətində heç olmaya cəlbedici nəsə tapmağa ümid eləyirdi, amma yalnız əzablı gülüş görə bildi.

Hər şey olduqca mənasız idi: axı nəyə görə anası ilə vidalaşarkən bir zabitə yaraşan tərzdə ona qayğısız halda gülümsəyə bilmədi? Nəyə görə onun məsləhətlərini qulaq ardına vurdu, yalnız onun səsini içinə çəkdi, o doğma, isti səsini? Nəyə görə saatını, qamçısını, furajkasını axtarmaq üçün otaqda əsəbicəsinə və boş yerə vurnuxdu, hərçənd həmişə olduğu yerdəydilər? Axı o, müharibəyə getməyə hazırlaşmırdı. Onlarla eynən onun kimi leytenantlar,



downloaded from KitabYurdu.org

onun yoldaşları da indi öz doğma ata evlərini tərk eləyirdilər, amma şən, gülər üz idilər, sanki bayram eləməyə hazırlaşırdılar. Nəyə görə anası ilə söhbət eləyərkən ona mehriban, ruhlandırıcı sözlər demək əvəzinə, yalnız şit, mənasız sözlər deməklə kifayətləndi? Dünyaya gəlişi ilə ən xoş ümidlər doğurduğu qədim evləri ilə ilk ayrılığın acısı, həyatdakı istənilən dəyişikliyin yaratdığı adi qorxu, anası ilə ayrılmağın həyəcanı onun varlığına hakim kəsilmişdi, amma hər şeydən güclü qəribə, onu rahat buraxmayan hiss, hansısa fəlakətli hadisələrin ola biləcəyinin ürəyinə dammasıydı, sanki gedərgəlməzə yola düşürdü.

Ən yaxın dostu Françesko Veskovi onu atla bir qədər yola saldı. At nallarının səsləri boş küçələrə yayılırdı. Dan yeri sökülürdü, şəhər hələ yatırdı, amma hardasa yüksək mərtəbələrdə pəncərələr açılır və pəncərələrdən doğan səhərin valehedici mənzərəsini bircə anlığa etinasız baxışlarla seyr eləmək üçün yorğun sifətlər boylanırdı.

Dostlar susurdular. Droqo bu Bastiani qalasının necə bir qala olduğunu təsəvvür eləməyə çalışır, amma bir şeyə nail ola bilmirdi. O hətta qalanın harda yerləşdiyini, qalayadək nə qədər yol olduğunu belə dəqiq bilmirdi. Bəziləri deyirdilər atla bir günə



downloaded from KitabYurdu.org

getmək olar, bəziləri daha tez getməyin mümkün olduğunu düşünürdülər, amma hər şeyə görə belə nəticə çıxarmaq olardı ki, onun soruşduqlarının heç biri orda olmamışdı.

Şəhər darvazasının yaxınlığında Veskovi boş şeylər haqda qızğıncasına danışmağa başladı, sanki Droqo gəzməyə gedirdi, sonra birdən sözarası dedi:

— Bax, o yaşıl dağı görürsən? Hə-hə, həmin o dağı. Görürsən, lap o zirvədə tikiləni? Bax elə o da Qalanın bir hissəsi, ön mövqedəki istehkamıdı. İki il bundan əvvəl həmin yerlərdə dayımla ov elədiyimi xatırlayıram.

Onlar artıq şəhəri tərk eləmişdilər. Yol boyunca qarğıdalı tarlaları, çəmənliklər, payız yarpaqlarının qızartdığı meşəliklər uzanırdı. Günəş şəfəqlərinə qərq olmuş ağ yolla yanaşı gedirdilər. Onlar uşaqlıqdan dostluq eləyirdilər: uzun illər qonşu olmuşdular, özləri kimi uşaqların dəstəsində birlikdə oynayardılar və təsadüfi günlərdə görüşməzdilər. Sonra Veskovilər ailəsi varlandı, Droqo zabit olmağı qərara aldı və dostlar beləcə bir-birlərindən ayrı düşdülər. Veskovinin keçirdiyi qayğısız təmtəraqlı həyat Droqoya yad idi: irəlidə onu naməlum və mühüm işlər gözləyirdi. Covanniyə elə gəlirdi ki, hətta onların atları da müxtəlif cür addımlayırlar,



downloaded from KitabYurdu.org

onun atı addımını ləng və ağır, nəsə... həyəcanlı, gərgin atırdı; görünür, hətta heyvan da indi hər şeyin başqa cür olacağını hiss eləmişdi.

Yol yoxuşa dirənirdi. Yoxuşun ən hündür nöqtəsində Droqo geri boylandı və günəşdən gözlərini qıyaraq şəhərə baxdı: evlərin damları üzərindən səhər tüstüləri qalxırdı. Uzaqdan belə o, öz doğma evlərini gördü, öz otağının pəncərəsini ayırd eləyə bildi. Yəqin orda indi bütün pəncərələr açıqdı, qadınlar otaqları qaydaya salırdılar. Onun yatacaqlarını yığışdıracaq, paltar şkafına qoyacaqdılar, sonra pəncərələri bağlayıb rəzələrini çəkəcəkdilər. Uzun aylar otağa heç kim baxmayacaqdı, hər yerdə mövcud olan toz əşyaların üzərini örtəcəkdi — yalnız günəşli günlərdə ora ensiz günəş zolaqları düşəcəkdi. Onun uşaqlığının balaca dünyası qaranlığa qərq olacaqdı. Anası onun gəlişinə qədər hər şeyin necə varsa, elə də qalmasına çalışacaqdı ki, o, uzun ayrılıqdan sonra yenidən özünü uşaq kimi hiss eləyə bilsin. Hə, əlbəttə, anası keçmişdə qalmış xoşbəxtliyin toxunulmazlığını həmişəliyə qorumaq və zamanı dayandırmaq istəyir. Ona elə gəlir oğlu qayıdanda hər şeyin əvvəllər olduğu kimi olması üçün qapı və pəncərələri açmaq kifayət eləyər.



downloaded from KitabYurdu.org

Nəhayət Veskovi ilə hərarətlə vidalaşdı və dağlara doğru uzanan yoluna tək davam elədi. Qalaya aparan vadiyə enəndə artıq günəş ən yüksək nöqtədə idi. Sağda, dağın zirvəsində Veskovinin göstərdiyi istehkam görünürdü. Hər şeydən belə məlum olurdu ki, yolundan az qalıb.

Droqo mənzil başına çatmaq üçün səbirsizləmişdi və hətta yeməyə belə dayanmadan yorulmuş atını dəhmərləyirdi, yol getdikcə daha da yoxuşa dirənir, hər iki tərəfdəki qayaların şaquli divarları ilə sıxılırdı. Getdikcə yolçulara daha az-az rast gəlirdi. Covanni hansısa arabaçıdan Qalaya qədər daha nə qədər getməli olduğunu soruşdu:

— Qalaya qədər? — yolçu təkrar soruşdu. — Hansı qalaya qədər?

— Bastiani qalasına qədər, — Droqo cavab verdi.

— Yaxınlıqda heç bir qala yoxdur, — arabaçı cavab verdi. — Heç vaxt onun haqqında eşitməmişəm.

Görünür o, buraları yaxşı tanımırdı. Droqo yenidən yoluna davam elədi. Axşamın yaxınlaşması ilə qəlbində narahatçılıq baş qaldırmışdı. Vadinin hər iki tərəfindəki hündür qayalıqlara baxır, hələ də qalanı görəcəyinə ümid eləyirdi. Xəyalında qədim qalanı hündür divarlarla əhatə olunmuş halda



downloaded from KitabYurdu.org

təsəvvür eləyirdi. Amma vaxt keçdikcə daha çox əmin olmağa başlayırdı ki, Françesko ona düzgün istiqamət verməyib; onun, haqqında danışdığı istehkam çox ehtimal ki, arxada qalmışdı. Hava isə artıq qaralmağa başlayırdı.

Bu Covanni Droqoya və onun atına baxın — getdikcə daha yüksələn, daha əlçatmaz olan dağların fonunda necə də cırtdan kimi görünürlər... O yuxarıya qalxmağa davam eləyir, nə qədər tamam qaranlıq düşməmişdi, özünü qalaya çatdırmaq istəyirdi, lakin dağ dərəsinin dərinliklərindən selin hayqırtı ilə axdığı yerdən kölgələr yuxarı qalxır, onu qabaqlayaraq ondan daha cəld hərəkət eləyirdilər. Hansısa anda, dərənin o biri sahilindəki kölgələr Droqo ilə bir bərabərdə olurdu, belə təəssürat yaranırdı ki, kölgələr onun sonuncu ümidini də kəsməmək üçün öz hərəkətlərini birdən ləngidirlər, amma sonra yenə də sıldırımlarla və qaya çıxıntılarıyla yuxarı sürünür, atlının üstünü örtürdülər.

Bütün dərəyə artıq yasəməni rəngli alatoranlıq çökmüşdü, yalnız təsəvvüredilməz hündürlükdə olan otla örtülmüş təpələri hələ də günəş işıqlandırırdı. Burda birdən Droqonun qarşısında axşam səmasının təmiz fonunda olduqca köhnə və adamsız görünən



downloaded from KitabYurdu.org

nəhəng hərbi tikinti dikəldi. Covaninin ürəyi çırpındı. Yəqin, bu elə həmin qaladır — o düşündü, amma nəyə görəsə bütün ətraf, divarlar və mənzərə özü belə tutqun, hətta xoşagəlməz görünürdü.

Darvazanı tapmaq üçün qalanın ətrafında dolaşmağa başladı. Artıq qaranlıqlaşmasına baxmayaraq, heç yerdə nə işıq gələn pəncərə, nə də uca divarlardakı gözətçi məntəqələrində bir işartı görünürdü. Yalnız ağ buludun fonunda yarasa uçurdu. Nəhayət, Droqo səsini çıxarmağı qərara aldı:

— Ehe... ey! Burda kimsə varmı?!

Bu zaman divarın dibindəki qatı kölgədən görkəmindən avaraya, dilənçiyə oxşayan bir adam çıxdı, ağ saqqalı vardı, əlində çanta tutmuşdu. Alaqaranlıqda onun gözlərinin ağı işıldayırdı, başqa nəsə seçmək çətin idi. Bununla belə, onu görməsinə Droqo çox sevindi.

— Cənab, siz burda kimi axtarırsız? — adam soruşdu.

— Mənə qala lazımdır. Bu, həmin qaladır?

— Burda artıq qala yoxdur, — naməlum adam mehribancasına cavab verdi, — hər yeri bağlayıblar... on il olar ki, gediblər.



downloaded from KitabYurdu.org

— Bəs onda qala hardadır? — Droqo hirslənmiş halda soruşdu, sanki bu adam onun qarşısında günahkar idi.

— Hansı qala? Bəlkə onu deyirsiz? — Naməlum adam əliylə uzaqları göstərdi. Artıq zülmətə bürünmüş bir-birinə yaxın olan iki qayanın, xaotik olaraq üst-üstə yığılaraq yüksəklərə qədər ucalmış qaya parçalarının arasındakı dar yarıqdan sonuncu günəş şəfəqləri sanki füsunkar gözəlliyini göstərərək Covanni Droqonun qarşısında çılpaq təpəni işıqlandırırdı və təpənin başında həndəsi dəqiqliklə çəkilmiş hansısa sarıya çalan qəribə rəngdə olan qırıq xətt görünürdü. Bu, həmin Qalanın cizgiləri idi.

Oxx, o, necə də uzaqda idi! Allah bilir, ora qədər neçə saata getmək olardı, at isə artıq tamam gücdən düşmüşdü. Droqo ovsunlanıbmış kimi uzaqlara baxaraq özündən soruşurdu: bütün dünyadan gizlənən bu tək-tənha qalacığaz nəyiylə onun üçün maraqlı ola bilər? Bu arada isə artıq axşam düşürdü. Günəşin sonuncu şəfəqləri də uzaq təpənin arxasına sürünürdü və yaxınlaşan gecənin çəhrayı çalarları Bastianinin sarı divarlarını ani sürətlə udmağa başlayırdı.



downloaded from KitabYurdu.org

## II

Qaranlıq onu yolda yaxaladı. Vadi dar idi və qala yolun üzərində asıla qalan dağların arxasında gizlənmişdi. Heç yerdən işartı gəlmirdi, gecə quşları susmuşdular, yalnız bəzən dağ çaylarının uğultusunu eşidə bilirdi.

Qışqırmağı qərara aldı, amma əks-səda səsinə yad bir çalar verərək özünə qaytarırdı. Covanni atını yolun kənarındakı kəsilmiş ağacın kötüyünə bağladı, burda bir az ot var idi, arxası üstə maili döşə uzandı və yuxusunun gəlməsini gözləməyə başladı. Hələ bundan sonra gedəcəyi yol haqda, Qalada tanış olacağı adamlar haqda, gələcək həyatı haqda düşünməyə başladı və bu düşüncələri ona fərəhli heç nə vəd eləmirdi. At arada ayağını yerə vurur və hər dəfə də Droqo nalın çıxardığı bu qəribə və xoşagəlməz səsdən diksinirdi.

Hava işıqlaşarkən yenidən yoluna davam eləyəndə, qarşıdakı yamacda təxminən elə həmin zirvəyə gedən başqa bir yol da gördü, bir müddətdən sonra isə orda hərəkət eləyən nəsə bir şey gördü. Günəş hələlik dərəni işıqlandırmamışdı və dərəyə qatı kölgələr çökdüyündən, orda nəyin olduğu kimi ayırd eləmək çətin idi. Amma Droqo atını qamçılayaraq, hər halda, həmin anlaşılmayan



downloaded from KitabYurdu.org

kölgənin bərabərinə çatdı və bunun atlı bir zabit olduğunu gördü.

Nəhayət ki, canlı bir varlığı, öz adamını görə bilmişdi, onunla deyib-gülə, zarafat eləyə, gələcək həyat haqda, ov, qadınlar, şəhər haqda danışa biləcəkdi. Hə, şəhər haqda, artıq Droqonun yaddaşında harasa uzaqlara... uzaqlara, tamam başqa dünyaya getmiş şəhər haqda.

Dərə sona çatırdı, hər iki yol yaxınlaşırdı və Droqo artıq baxıb atlının kapitan olduğunu da görə bildi. Əvvəlcə tanımadığı adamı səsləməyi münasib bilmədi — bu, ona yersiz və nəzakətsiz görünə bilərdi və yalnız bir neçə dəfə əlini furajkasının günlüyünə qaldırdı, amma atlı cavab vermədi. Yəqin o, Droqonu görmürdü.

— Cənab kapitan! — Droqo özünü saxlaya bilməyib qışqırdı və yeridən hərbi salam verdi.

— Nəydi? — dərənin o biri sahilindən atlının səsi gəlib ona çatdı. Kapitan atını saxlayaraq ona nəzakətlə təzim elədi və izahat gözlədi. Onun sualında ciddilik yoxdu, yalnız heyrət var idi.

— Nəydi? — kapitanın səsi yenə də dərə boyunca yayıldı, amma bu dəfə səsində bir qədər əsəbilik duyulurdu.



downloaded from KitabYurdu.org

Covanni dayandı, ovcunu ağzına tutaraq səsi gəldikcə qışqırdı:

— Heç nə! Mən, sadəcə, sizinlə salamlaşmaq istədim!

Kapitan üçün axmaq, hətta onu incidə biləcək izahat alındı, kapitan ələ salındığını da düşünə bilərdi. Droqo dərhal da öz nəzakətsizliyinə görə heyifsiləndi. Sənə tək olmaq darıxdırıcıdır deyə adam özünü necə axmaq vəziyyətə qoya bilərmiş... — siz kimisniz? — kapitan qışqırdı.

Droqo məhz bu sualdan qorxurdu. Dərənin üzərindən bu qəribə söhbət bununla da hansısa istintaqa oxşar bir şəkil alırdı. Xoşagəlməz başlanğıc idi, hər şeydən əvvəl də ona görə ki, kapitan Qaladan idi. Amma indi heç yerə əkilə bilməzdi, cavab vermək lazım idi.

— Leytenant Droqo! — Covanni ucadan özünü təqdim elədi.

Kapitan onu tanımırdı və belə uzaq məsafədən onu eşitməyə də bilərdi, amma hər şeyə görə belə güman eləmək olardı ki, cavab onu sakitləşdirdi, çünki kapitan razılıqla başını tərpədərək təzədən yoluna davam elədi, sanki demək istəyirdi: “Tezliklə görüşərik”. Doğrudan da yarım saatdan sonra



downloaded from KitabYurdu.org

dərənin tamamilə daraldığı yerdə Covanni körpünü gördü, burda iki yol birləşirdi.

Elə ordaca onlar görüşdülər. Kapitan atını Droqonun yanına sürdü və atdan düşmədən əlini ona uzatdı. Bu, qırx yaşlarında, bəlkə daha yaşlı olan nəcib, mərd sifətli adamdı. Əynindəki mundiri sadəydi, amma əyninə yaxşı oturmuşdu.

— Kapitan ortis, — o, özünü təqdim elədi.

Droqo onun əlini sıxarkən düşünürdü: "Budur, nəhayət, Qala dünyasına daxil oluram". Bu, hələlik ilk qarşılaşma, ilk tanışlıq idi, bundan sonra isə tamamilə müxtəlif adamlarla tanış olacaqdı və burda onu öz adamları hesab eləyəcəkdilər.

Kapitan dayanmadan yoluna davam elədi, Droqo da onun arxasınca yola düşdü, özündən yüksək rütbəliyə hörmət əlaməti olaraq bir az arxada qalmışdı. O, hələ də gözləyirdi ki, kapitan onun söhbətə başlamaq üçün elədiyi yersiz təşəbbüsə görə narazılığını bildirəcək. Kapitan isə susur, bəlkə də danışmaq istəmirdi, ya da anadangəlmə utancaqlığından nədən başlayacağını bilmirdi. Yol dik yoxuşa dirəndiyindən və günəş yandırmağa başladığından atlar ağır hərəkət eləyirdilər. Nəhayət, kapitan ortis sükutu pozdu:



downloaded from KitabYurdu.org

— Mən uzaqdan sizin adınızı elə də dəqiq eşitmədim... Droqodı, əgər səhv eləmirəmsə?

Covanni cavab verdi:

— Droqo, "D" hərfi ilə başlayır, Covanni Droqo. Cənab kapitan, siz gərək bağışlayasız ki, mən sizi səslədim, — pərt halda əlavə elədi, — dərənin o tərəfindən sizin rütbənizi ayırd eləmək çətin idi.

— Doğrudan da elədi, — Droqonun çətin vəziyyətdə qoymaq istəməyən ortis onunla razılaşdı və gülümsədi.

Beləcə, onlar özlərini o qədər də sərbəst hiss eləmədən bir qədər getdilər. Sonra ortis soruşdu:

— Beləliklə, siz hara gedirsiz?

— Bastiani qalasına. Düzmü gedirəm?

— Başqa hara gedə bilərsən ki?

Onlar yenidən susdular. İsti düşmüşdü. Hər tərəfdən onları çöl otları ilə örtülmüş nəhəng dağlar əhatəyə almışdı.

Ortis dedi:

— Deməkk, siz Qalaya gedirsiniz? Hansısa məktub aparırsınız?

— Yox, cənab kapitan, mən orda xidmət eləmək üçün təyin olunmuşam.

— Qarnizonun şəxsi heyətinə təyin olunubsunuz?



downloaded from KitabYurdu.org

— Düşünürəm ki, hə, şəxsi heyətə. Bu, mənim ilk təyinatımdır.

— Di onda şəxsi heyətə, əlbəttə... Nə demək olar, bu yaxşıdı... Belə çıxır, sizi təbrik eləmək olar...

— Təşəkkür edirəm, cənab kapitan.

Yenidən bir müddət danışmadan getdilər. Covanni susuzluqdan yanırdı, kapitanın atının yəhərindən isə əsgərlərin istifadə elədiyi ağac mehtərə asılmışdı, mehtərədə su qurtuldayırdı: bluk-bluk.

— İki illiyə? — ortis soruşdu.

— Bağışlayın, cənab kapitan, iki illiyə nə deməkdir?

— Necə yəni nə deməkdir? Burda xidmət eləmək iki illikdir. Elə deyilmi?

— İki il? Bilmirəm, mənə müddəti deməyiblər.

— Bu öz-özlüyündən aydındır. Bütün yeni təyin olunan leytenantlar burda iki il xidmət eləyir, sonra gedirlər.

— Hamı üçün qayda belədir? Məhz iki il?

— Di, belə məlum olur, xidmətləri isə dörd il hesablanır. Axı məhz buna görə də siz bura gəlməyi xahiş eləyirsiz, əks halda kim bura gələrdi? Nə demək olar, mənsəb xatirinə Qalaya da alışmaq olar, elə deyilmi?



downloaded from KitabYurdu.org

Droqo bu haqda heç nə bilmirdi, amma hər ehtimala qarşı yaxasını heç nə ifadə eləməyən sözlərlə qurtarmağı qərara aldı:

— Əlbəttə, olar...

Ortis söhbəti kəsdi. Görünür bu mövzu onu zərrəcə də olsun, maraqlandırmırdı. Amma indi aralarındakı buz ərimişdi və Covanni, hər halda, ona sual verməyi qərara aldı:

— Doğrudanmı Qalada xidmət eləyənlərin hamısının bir ili iki il hesab olunur?

— Hamısının, yəni kimin?

— Mən zabitləri nəzərdə tuturam.

Ortis:

— Hm, — dedi, — necə yəni hamının? Söz danışırsan da! Təbii ki, kiçik zabitlərin. Əks halda bura gəlməyi kimsə xahiş eləməzdi.

Droqo dedi:

— Mən xahiş eləmədim.

— Necə yəni? Siz ərizə verməmişdiniz?

— Yox, cənab kapitan. Yalnız iki gün bundan əvvəl mənə dedilər ki, mən Qalaya təyin olunmuşam.

— Düzünü desəm, bu qəribədir. Hətta...

Onlar yenidən susdular. Görünür, hərə özü haqda düşünürdü. Birdən ortis qeyd elədi:

— Məgər...



downloaded from KitabYurdu.org

Covanni hərəkətə gəldi:

— Bağışlayın, cənab kapitan, nə demək istəyirdiniz?!

— Mən demək istəyirdim məgər başqa arzu eləyənlər tapılmadı ki... onlar sizi özləri göndərdilər?

— Tamamilə ola bilər, cənab kapitan.

— Hə, yəqin ki... Görünür, belədi ki, var. Həqiqətən də.

Droqo yolun tozunda hər addımlarını atanda sanki baş əyən iki atın, iki başın kölgəylə dəqiq çəkilmiş rəsmlərini görür, nalların asta taqqıltılarını, atlara yapışıb qopmayan böyük milçəklərin zəhlətökən vızıltılarını eşidirdi, vəssalam. Yol uzandıqca uzanırdı. Zaman-zaman döngələrdən irəlidə, uzaqlarda, dik qayalarda çəkilmiş rəngbərəng lentləri görmək olurdu. Amma həmin yerə qədər gedib yuxarı baxanda, yol yenidən gözünün qarşısına gəlir və yenidən dağlara doğru sürünürdü.

— Bağışlayın, cənab kapitan, — Droqo dedi.

— Hə-hə, mən sizi eşidirəm.

— Hələ çoxmu gedəcəyik?

— Elə də yox. Belə getsək, iki saat yarıma, bəlkə də üç saata. Hə də, düşünürəm, günortaya çatarıq.



downloaded from KitabYurdu.org

Yenidən aralığa sükut çökdü. Atlar tərləmiş, kapitanın mindiyi at isə lap yorulmuşdu, ayaqlarını güclə atırdı.

— Siz Kral akademiyasındansınız, elə deyilmi? — ortis soruşdu.

— Bəli, cənab kapitan, akademiyadanam.

— Onda deyin görüm, polkovnik Maqnus hələ ordadırmı?

— Polkovnik Maqnus? Nəsə, beləsi haqqında eşitməmişəm.

Dərə daralmağa başlayır, artıq günəş şüaları dərəyə düşmürdü. Zaman-zaman divar kimi dik qayalarda yandakı tutqun dərələrin ağzı açılırdı, bu dərələrdən buz kimi soyuq külək əsirdi. İrəlidə və yuxarıda olduqca sərt konusaoxşar dağlar görünürdü, adama elə gəlirdi onlar o qədər yüksəkdədilər ki, üç gün də getsən, bu dağların zirvəsinə yetişə bilməzsən.

— Leytenant, deyin görüm, — yenidən ortis sükutu pozdu, — mayor Basko hələdəmi ordadır və əvvəllər olduğu kimi atəş hazırlığı dərslərini keçir?

— Yox, cənab kapitan, mən beləsini də tanımıram. Atəş hazırlığını bizə simmerman keçirdi, mayor simmerman.



downloaded from KitabYurdu.org

— Ah, simmerman, bu soyadı mən eşitmişəm. Doğrudan da... Neçə il keçib... Aydın işdir, hamısını çoxdan əvəz eləyiblər.

Yenidən hər ikisi öz düşüncələrinə daldılar. Yol indi günəşli yamaca doğru aparırdı, dağların arxasından daha sərt, sıldırımlı yeni dağlar yüksəlirdi.

— Mən onu dünən axşam uzaqdan gördüm, — Droqo dedi.

— Nəyi? Qalanı?

— Hə, Qalanı. — Droqo nəzakət xatirinə bir qədər susdu, sonra davam elədi: — Qala mənə nəhəng, əzəmətli göründü.

— Əzəmətli? Siz nə danışırsınız?! Bu, çoxdan tikilmiş olan ən kiçik qalalardan biridir. Sadəcə, haçan ki uzaqdan baxırsan, elə təsir bağışlayır, — kapitan cavab verdi və fikrə gedib əlavə elədi, — hə, Qala çox köhnədir, bütün mənalarda köhnəlib.

— Amma bu, əsas qalalardan biridir, doğrudumu?

— Yox-yox, bu qala ikinci dərəcəlidi, — ortis cavab verdi. Elə görünürdü Qala haqqında pis danışmaq kapitana məmnunluq bəxş eləyirdi, amma bu zaman onun səsinin tonu necəsə xüsusi olurdu: adətən, ata oğlunun çatışmazlıqlarını belə qeyd



downloaded from KitabYurdu.org

eləyir, çünki onun saysız-hesabsız yaxşı cəhətlərinin yanında bunların boş şeylər olduğunu düşünürdü.

— Bizim sahəmiz ölü sərhəddə yerləşir, — kapitan əlavə elədi. — Bura heç vaxt baxmayıblar; yüz il əvvəl necəydisə, eləcə də qalıb.

— Ölü sərhəd nə deməkdir?

— O sərhəddir ki, onu qorumağa ehtiyac yoxdur. Sərhəddən o tərəfə tamamilə səhradır.

— Səhra?

— Hə, daşlar və qupquru qurumuş torpaq; “Tatar çölü” adlanır.

— Niyə “tatar”? — Droqo soruşdu. — Nədi, burda tatarlarmı olub?

— Qədim vaxtlarda bəlkə də olublar. Amma çox ehtimal ki, bu əfsanədir. Heç bir müharibədə heç kim bizim üstümüzə bu tərəfdən gəlməyib.

— Demək, Qala heç kimə lazım deyil?

— Heç kimə, — kapitan cavab verdi.

Yol üzüyuxarı dirəndiyindən getdikcə daha az ağaclara rast gəlirdilər və nəhayət, ağaclar tamamilə yoxa çıxdılar; gah orda, gah da burda seyrək kollar görünürdü. İrəlidə isə günəşin yandırdığı çəmənliklər, qayalar, qırmızı torpağın qırıntıları uzanırdı.



downloaded from KitabYurdu.org

— Bağışlayın, cənab kapitan, bəs yaxınlıqda hansısa bir kənd varmı?

— Yaxınlıqda yox. Buralarda balaca bir kənd var — san-Rokko, amma ona qədər də otuz kilometrlik yoldu.

— Ümumiyyətlə, mən belə görürəm, sizdə ürək açan nəsə yoxdur.

— Hə, doğrudan da, yoxdu.

Hava təmizlənirdi, dağların yamacları daha maili olurdu; belə hiss yaranırdı ki, axırıncı zirvə o qədər də uzaqda deyil.

— Cənab kapitan, siz orda darıxırsınızmı? — Covanni səsinə inamlı bir ahəng verərək soruşdu və gülümsədi, sanki bununla onu belə şeylərin az narahat elədiyini hiss elətdirmək istəyirdi.

— Öyrəşməkdən asılıdır, — ortis cavab verdi və öyüdverici tərzdə əlavə elədi, — mən artıq on səkkiz ilə yaxındı ki, burdayam, lap dəqiq desək, düz on səkkiz ildi.

— On səkkiz il? — Covanni heyrətlə səsləndi.

— On səkkiz il, — kapitan təsdiq elədi.

Başları üzərindən qarğa sürüləri uçaraq dərənin dərinliklərində yoxa çıxdılar.

— Qarğalardı, — kapitan dedi.



downloaded from KitabYurdu.org

Covanni cavab vermədi; onu burda nələr gözlədiyi haqda düşünürdü, bu dünyanın, bu təkliyin, bu dağların ona necə də yad olduğunu hiss eləyirdi.

— Bəs kiçik zabitlərdən necə, — o soruşdu, — sonra kimsə qalırmı?

— İndi elə də çox yox, — ortis cavab verdi. Artıq Qala haqqında yaxşı danışmadığı üçün heyifsilənirdi, çünki Covannidə yanlış təsəvvür yarandığını hiss eləyirdi. — Ümumi götürəndə, heç kim. Hamı gözəl qarnizon həyatı arzulayır. Nə vaxtsa Bastiani qalasında xidmət eləməyi şərəf məsələsi hesab eləyirdilər, indisə bu xidməti sanki cəza kimi çəkirlər.

Covanni susmuş halda qulaq asır, kapitan isə ara vermirdi:

— Axı biz sərhəddə xidmət eləyirik. Kadrlar da bizdə, əsasən, seçmədilər. Sərhəd sərhəddir. Həm də...

Droqo susurdu, birdən qəlbində narahatçılıq hiss eləməyə başladı. Üfüqlər açılır, uzaqdan sıldırımlı dağların müəmmalı cizgiləri görünürdü, səmanın fonunda ayrı-ayrı sərt zirvələr üst-üstə qalanırdı.

— İndi orduda hər şeyə ayrı cür baxırlar, — ortis davam elədi. — Bəli, vaxt olub, Bastiani qalasında



downloaded from KitabYurdu.org

xidmət eləməyi olduqca şərəfli hesab eləyiblər, indisə deyirlər: ölü sərhəd, ölü sərhəd... Amma unutmaq lazım deyil ki, ölü sərhəddə də hər iş baş verə bilər, qabaqcadan hər şeyi bilmək olmaz.

Yol dağ çayından keçirdi. Atları suvarmaq üçün dayandılar, özləri isə atdan enərək keyiyən ayaqlarını ovuşdurmağa başladılar.

— Əvəzində bilirsinizmi bizdə nə əladır? — ortis gülərək soruşdu.

— Nə, cənab kapitan?

— Mətbəx. Bax Qalada necə yeməklər verildiyini özünüz də görəcəksiniz. Hə də... Elə bunun ucbatından da tez-tez Qalada yoxlamalar olur, hər iki həftədən bir mütləq hansısa general gəlir.

Droqo nəzakət xatirinə gülümsədi. O, hec nə başa düşə bilmirdi, ya ortis axmaqdı, ya da nəyisə ondan gizləyirdi, ola bilsin, sadəcə, ağlına gələni çərənləyirdi.

— Bax bu, əla oldu, — o dedi, — mən yaman acmışam!

— Di indi az qalıb. Bax, çınqıllarla örtülmüş o təpəni görürsən? Qala düz onun arxasındadır.

Yenidən yollarına davam elədilər. Çınqıllı təpənin arxasında zabitlər, doğrudan da, yüngülcə



downloaded from KitabYurdu.org

maili olan yaylaya çıxdılar və beş yüz addımlıqlarında Qalanı gördülər.

Qala, doğrudan da, Droqoya bir gün əvvəl axşam gördüyündən xeyli kiçik göründü. Mərkəzi istehkamdan — görünüşünə görə bu uzaq məsafələrlə bir-birindən ayrılan, pəncərələri olan adi bir kazarmaydı — yan istehkamları birləşdirən elə də hündür olmayan iki diş-diş divar uzanırdı. Beləliklə də, hər iki tərəfdən eni təxminən yarım kilometr olan, aşırımdakı hündür sıldırım qayalarla sıxışdırılan qala divarları qalanın müdafiəsi üçün etibarsız idi.

Sağda, sərt sıldırımın lap ayağındakı yayla heyvanların belindəki çuxuru xatırladan çökəklik idi, orda nə vaxtsa aşırımdan keçən qədim yol olubmuş, indisə yol Qalanın divarlarına dirənmişdi.

Qala sükuta və günorta yerində dayanıb divarların kölgəsinin düşməsinə imkan verməyən günəşin şəfəqlərinə qərq olmuşdu. Qaladan hər iki tərəfə çılpaq, sarımtıl divarlar uzanırdı (şimala baxan fasadını görmək mümkün deyildi). Borulardan güclə hiss olunan tüstü qalxırdı. Mərkəzi binanın bütün yuxarı kənarları, divarlar və istehkamlar boyunca tüfəngli əsgərlərin hər biri öz balaca sahələrində nizami addımlarla irəli-geri



downloaded from KitabYurdu.org

addımlayırdılar. Onların saat kəfgirini xatırladan hərəkətləri sanki hər şeyi unutduran təkliyin sehrli ovsununa xələl gətirmədən vaxtın gedişini ölçürdü.

Sağda və solda göz işlədikcə sərt dağlar silsiləsi uzanırdı və hər şeyə görə bu dağların əlçatmaz olduqları hiss olunurdu. Dağlar da, hər halda, günün bu vaxtı solğun və yanmış kimi görünürdü.

Covanni Droqo ixtiyarsız olaraq atını saxladı. Baxışlarını tutqun divarların üzəriylə ağır— ağır sürüşdürərək bu dağların ona nəyi xatırlatdıqlarını heç cür təsəvvür eləyə bilmirdi. Başında həbsxana və ya hansısa tərk edilmiş kral qəsrləri haqda düşüncələr dolaşdı. Yüngül külək bayraq ağacından asıla qalan bayrağı tərpədirdi. Uzaqdan şeypur səsi eşidilirdi. Əsgərlər öz nizami addımları ilə addımlayırdılar. Girişin qabağındakı meydançada üç, ya da dörd nəfər (uzaqdan ayırd eləmək olmurdu: əsgərdilər, ya yox) kisələri arabaya yükləyirdilər. Amma bütün ətraf hansısa qəribə bir heyrət içində donub, qalmışdı.

Kapian ortis də dayanıb Qalaya baxırdı.

— Bu da Qala, — nəyə görəsə dedi.

Droqo düşündü: “İndi o, məndən soruşacaq: necədi, Qala xoşuna gəlir, ya yox?” Təkcə bunu



downloaded from KitabYurdu.org

düşünəndə özünü pis hiss elədi. Amma kapitan susurdu.

Yox, Bastiani qalası özünün alçaq divarları ilə qorxunc görünmürdü, sadəcə onda belə tikililərə qüllələrin və bürclərin verdiyi heç bir gözəllik, şairanəlik yox idi, gözə xoş gəlsin deyə, bu çılpaqlığın eybini örtəcək heç nəyi yox idi... tamamilə heç nəyi. Hər halda, dünən dərənin dibindən sanki sehrlənmiş halda Qalaya baxarkən olduğu kimi indi də qəlbinin izah olunmayan bir sevinclə dolduğunu hiss eləyirdi.

Bəs irəlidə daha nələr var idi? Gözünün qabağını kəsən bu qaşqabaqlı tikilinin, bu dişli divarların, qazamatların, barıt dolu zirzəmilərin arxasında? Onların arxasında hansı dünya var idi? Heç kimin heç vaxt keçmədiyi daşlı səhra, şimali krallıq necə görünürdü? Droqonun dumanlı halda xatırladığına görə xəritədə sərhədin o tərəfində olduqca nadir işarələrlə qeyd olunmuş geniş rayonlar var idi, amma bəlkə Qalanın yüksəkliyindən, hər halda, hansısa kəndi, çəmənliyi, evi görmək olacaqdı? Ya da orda eləcə həyat olmayan səhra var idi?

O, birdən özünün tənhalığını hiss elədi və bütün ordu sərbəstlikləri — əvvəllər olduğu kimi kazarma həy atının üzüntüsüz və qayğısız davam eləməsi, öz rahat evi olanda dostlarının məclislərində iştirakı və



downloaded from KitabYurdu.org

bağlardakı balaca gecə sərgüzəştləri, — birdən onu tərk elədi. Qala onun qarşısında müəmmalı dünyalardan biri kimi dikilib qalmışdı; ona görə yox ki, bu dünya ürəyincə deyildi, sadəcə onun alışdığı həyatdan uzaqdı və sonsuza qədər ona yaddı. Bu dünya düzxətli qanunları daxilində heç nə vəd eləmədən onu çox şeyə məcbur eləyirdi.

Qayıtmaq! Hətta Qalanın kandarıına ayaq basmadan düzənliyə, öz şəhərinə, alışdığı yaşayışa qayıtmaq... İlk olaraq Droqo bu haqda düşünürdü, qoy onun bu zəifliyini əsgər üçün utancverici hal hesab eləsinlər. Əgər lazım gələrsə o, bunu açıqca etiraf eləməyə də hazırdı, təki ona tezliklə burdan getməyə icazə versinlər.

Şimaldan gələn ağ duman üfüqləri görünməz eləyərək xəndəklərin üzəriylə sürünür, zirvədən boylanan günəş isə sakit idi. Əsgərlərin addımları atəş açan avtomatları xatırladırdı. Droqonun atı kişnədi. Yenidən araya qulaq dələn sükut çökdü.

Nəhayət, Covanni baxışlarını Qaladan çəkib, ruhlandırıcı sözlər eşitmək ümidiylə baxışlarını kapitana dikdi. Ortis də hərəkətsiz halda dayanmışdı və sarı divarlara diqqətlə baxırdı. Burda on səkkiz il xidmət eləmiş kapitan divarlara elə baxırdı, sanki möcüzəli bir şey görürdü. Elə görünürdü bu



downloaded from KitabYurdu.org

divarlara tamaşa eləmək kapitanı heç vaxt təngə gətirməyəcəkdi və onun sifətini fərəhli, eyni zamanda da, qüssəli bir təbəssüm tədricən işıqlandırmağa başladı.

## III

Qalaya ayaq basan kimi də Droqo böyük adyutant mayor Mattinin yanına getdi. Keşik xidmətinin leytenantı — Karlo Morel adlı şən və diribaş cavan oğlan — onu Qalanın mərkəzi hissəsinə apardı. İçəridəki böyük boş evin qapısından enli və sonu olmayan dəhlizə keçdilər. Hardansa ensiz pəncərələrdən düşən işıq zolaqlarının doğradığı tavan yarıqaranlıq idi.

Yalnız ikinci mərtəbədə qarşılarına əlində kağız olan hansısa əsgər çıxdı. Çılpaq divarlar, rütubət, sakitlik, tutqun işıq... Elə görünürdü burda hamı dünyanın harasındasa çiçəklərin açdığını, qadınların güldüyünü, öz evlərinin qapılarını qonaqpərvərliklə taybatay açdıqlarını çoxdan unutmuşdular. Bu qalada hamıya özünü təcrid eləmə ruhu nüfuz eləmişdi, amma nəyin xatirinə, hansı rifahın naminə?



downloaded from KitabYurdu.org

Onlar artıq üçüncü mərtəbəyə qalxmışdılar və eynən birinci mərtəbədəki dəhlizin surəti olan dəhlizlə addımlayırdılar. Bəzən hardansa divarların arxasından uzaq məsafənin boğduğu, burda səslənməsi, nəsə, inanılmaz olan gülüşlər eşidilirdi.

Mayor Mattinin sifətində mübaliğəli səmimi gülüş olan gonbul adam olduğu məlum oldu. O, geniş kabinetdə üzərinə səliqə ilə kağızlar çinlənmiş böyük yazı stolunun arxasında oturmuşdu. Divardan kralın yağlı boya ilə çəkilmiş rəsmi və mayorun qılıncı asılmış, qılıncı divardan asmaq üçün divara xüsusi mıx vurulmuşdu.

Droqo hərbi salam verdi, özünü təqdim elədi və sənədlərini mayora uzatdı. Sonra başladı izah eləməyə ki, ümumiyyətlə, Qalaya təyin edilməsini xahiş eləməyib (o, özlüyündə artıq qərara almışdı ki, elə ilk fürsətdə başqa yerə təyinat alsın), amma Matti onun sözünü kəsdi:

— Leytenant, axı mən sizin atanızı tanıyırdım. Alicənab adam idi. Onun adına layiq olacağınızdan əminəm. Əgər səhv eləmirəmsə, o, Ali məhkəmənin sədri idi?

— Yox, cənab mayor, — Droqo cavab verdi, — mənim atam həkim idi.



downloaded from KitabYurdu.org

— Ah, hə, lənətə gəlmiş, mən hamısını qarışdırdım, əlbəttə, həkim idi, əlbəttə.

Matti necəsə bir anlığa tutuldu, Droqo isə onun elə hey sol əlini köynəyinin boyunluğuna doğru apardığını sezməyə imkan tapdı, mayor sinəsindəki dairəvi və açıq-aşkar təzəcə düşmüş yağlı ləkəni gizlətmək istəyirdi. Amma mayor tez də özünü ələ aldı.

— Sizi burda görməyimə şadam, — o, sözünə davam elədi. — Bilirsinizmi zati-aliləri Üçüncü Petro nə deyib? «Bastiani qalası — mənim tacımın qaşıdır». Mənsə əlavə eləyə bilərəm ki, bu Qalada xidmət eləmək böyük şərəfdir. Leytenant, ümid eləyirəm, mənimlə həmfikirsiniz?

Bütün bunları o, açıq-aşkar hərdənbir təkrar edilməsi lazım gələn çoxdan əzbərlədiyi dərsi danışırmış kimi, adət elədiyindən danışırdı.

— Elədir ki, var, cənab mayor, — Covanni dedi, — siz tamamilə haqlısınız, amma boynuma almalıyam ki, bütün bunlar mənim üçün bir qədər gözlənilməzdir. Mən ailəmi şəhərdə qoymuşam, əgər mümkün olarsa başqa yerə...

— O, hə, siz hələ gəlib çatmağa macal tapmamış, artıq bizi tərk eləmək istəyirsiniz. Belədi, deyilmi?



downloaded from KitabYurdu.org

Boynuma alıram ki, bu, məni kədərləndirir, tamamilə kədərləndirir.

— İş təkcə mənim arzulamağımda deyil... Mən müzakirə eləməyə cürət... Mən yalnız istəyirdim...

— Hər şey aydındır, — mayor köks ötürərək dedi, sanki hiss elətdirmək istəyirdi ki, belə söhbətlər onun üçün yeni deyil və hətta onu başa düşməyə də hazırdır... — Hər şey aydındır: siz Qalanı özlüyünüzdə başqa cür təsəvvür eləyirmişsiniz və indi bir qədər ruhdan düşübsüz. Amma düzünü deyin, əgər cəmi bir neçə dəqiqə bundan əvvəl bura gəlibsinizsə, siz Qala haqda necə mühakimə yürüdə bilərsiniz? Yalnız düzünü...

— Cənab mayor, — Droqo cavab verdi, — mənim Qalaya heç bir iradım yoxdur... tamamilə heç bir iradım. Amma mən şəhərdə və ya heç olmasa, şəhərə yaxın olan bir yerdə xidmət eləməyə üstünlük verərdim. Məni başa düşün. Mən sizinlə tam açıq danışıram və sizin mənə kömək eləyəcəyinizə bel bağlayıram...

— Di, əlbəttə, əlbəttə! — Matti qəhqəhə ilə gülərək dilləndi. — Buna görə də bizi bura qoyublar!

Biz burda zorla heç kimi saxlamırıq, hətta əsgərləri də. Sadəcə mənim heyfim gəlir, mənə görə siz yaxşı oğlansınız...



downloaded from KitabYurdu.org

Mayor sanki vəziyyətdən çıxış yolu axtarmaq üçün bir dəqiqəliyə susdu. Bu zaman da Droqo başını yüngülcə sola döndərərək daxili həyətə açılan pəncərədən çölə baxdı və digərləri kimi sarı olan əks tərəfdəki divarlarda da günəş işığını şəfəqləndirən az miqdarda qara çərçivəli düzbucaqlı pəncərələri gördü. Bir də günortaçağını, ikini göstərən saatı, divar boyunca irəli-geri gəzişən çiynitüfəngli əsgəri. Binanın üzərindən isə uzaqlarda isti gündə ilğımlanan sıldırım dağlar görünürdü. Yalnız dağın zirvəsi görünürdü, özlüyündə bu zirvə xüsusi heç nə demirdi. Amma hər halda, bu sıldırımlı zirvə Qalanı təhdid eləyən əfsanəvi şimal dövlətinin Covanni Droqonu qıcıqlandıran ilk əlaməti oldu. Bəs orda, o tərəfdə nə vardı? Ordan qatı tüstünü yararaq hansısa tutqun bir işıq düşürdü. Bu zaman mayor yenidən danışdı:

— Deyin görüm, siz burdan mütləqmi getmək istəyirsiniz, ya bir neçə ay gözləyə bilərsiniz? Təkrar eləyirəm, bizim üçün fərqi yoxdu... əlbəttə, rəsmiyyət nöqteyi-nəzərindən, — sözləri tamam yersiz çıxmasın deyə o əlavə elədi.

— Di, bir halda ki, mən gedə bilərəmsə, — heç bir əngəlin olmadığına sevinc içində heyrətlənən



downloaded from KitabYurdu.org

Covanni cavab verdi, — bir halda ki, gedə bilərəm, onda, lütfən, bunu dərhal yoluna qoyaq.

— Necə istəyirsiniz, — mayor onu sakitləşdirdi.

— Amma əgər siz dərhal getməyi qərara alıbsınızsa, onda ən yaxşısı, sizin özünüzü xəstə göstər- məyinizdir. Yoluxucu xəstəliklər üçün olan xəstəxanada yatar, bir-iki gün orda vaxt keçirərsiniz və həkimdən arayış alarsınız. Axı çoxları yüksək dağ iqliminə dözə bilmirlər...

— Doğrudanmı, mütləq özümü xəstəliyə vurmalıyam? — hər cür fırıldaqları sevməyən Droqo soruşdu.

— Mütləq? Yox! Amma bu, məsələni olduqca sadələşdirir. Əks halda, siz başqa yerə təyin olunmağınız halda raport verməlisiniz, bu raportu Ali komandanlığa göndərmək lazım gələcək, sonra Ali komandanlığın cavab verməsini gözləmək lazım gələcək... ümumilikdə bu işə azından iki həftə gedəcək. Amma ən əsası, cənab polkovnikin işə qarışması lazım gələcək! Bax mən məhz bunu istəmirəm. Belə şeylər onun ürəyincə olmur, bunu öz Qalasına təhqir kimi qəbul eləyərək o, çox mütəəssir olur, hə-hə, məhz mütəəssir olur. Bax belə, sizin yerinizə olsam — bütün səmimiyyətimlə deyirəm — mən bundan qaçmağa cəhd elə....



downloaded from KitabYurdu.org

— Bağışlayın, cənab mayor, — Droqo cavab verdi, — mən ki bilmirdim. Əgər mənim gedişim mənə ziyan vuracaqsa, onda başqa məsələ.

— Heç bir halda, leytenant. Siz məni başa düşmədiniz. Sizin mənsəbiniz bundan heç bir zərər görməyəcək... Burda... necə daha yaxşı izah eləyim... bu nüansı... Əlbəttə, necə ki mən sizə dedim, belə əhvalat cənab polkovnikə məmnunluq bəxş eləmir. Amma əgər siz qəti qərara gəlibsinizsə...

— Yox, yox, — Droqo səsləndi, — əgər məsələ belədirsə, siz deyən kimidirsə, onda yaxşısı tibbi arayış almağımdır.

— Yalnız əgər... — Matti gizlincə gülümsədi və sözünü bitirmədi.

— Nə?..

— Yalnız siz burda dörd ay qalmağa razılaşacağınız halda bu, vəziyyətdən ən yaxşı çıxış yoludur.

— Dörd ay? — Droqo bir qədər ümidi boşa çıxmış halda təkrar soruşdu. Axı onun qarşısında burdan tezliklə çıxıb getmək perspektivi açılmışdı.

— Dörd ay, — Matti təsdiq elədi. — onda bütün prosedur xeyli sadələşir. Başa düşürsünüzmü, bizdə ildə iki dəfə hamı həkim müayinəsindən keçir. Bu, nizamnamədə nəzərdə tutulub. Növbəti müayinə



downloaded from KitabYurdu.org

dörd aydan sonra olacaq. Sizin üçün məncə, bu ən yaxşı variantdır. Qaldı ki, bizim şəraitdə sizin xidmətə yararsız olmağınızı komissiyanın təsdiq eləməyinə, icazə verin, bu məsələni də mən yoluna qoyum. Siz tamamilə sakit ola bilərsiniz. Bundan əlavə, — o, bir qədər fasilə verəndən sonra davam elədi, — dörd ay bu müddət xarakteristika vermək üçün tamamilə kifayətdir. Cənab polkovnikin onu sizə verəcəyinə şübhə eləmirəm. Sizin sonrakı xidmətiniz üçün ilk xidmət yerinizdən verilən xasiyyətnamənin necə əhəmiyyətli olduğunu özünüz də başa düşürsünüz. Amma sonra anlaşılmazlıq olmasın deyə, gəlin şərtləşək: bu, yalnız mənim məsləhətimdi, amma siz qərar qəbul eləməkdə tamamilə azadsınız...

— Bəli, cənab mayor, — Droqo cavab verdi. — Mən sizi çox yaxşı başa düşdüm.

— Bizdə yaşamaq çətin deyil, — mayor sıxıntı içində dedi, — bizim əsas işimiz, keşik xidməti aparmaqdır. Məsuliyyətin çox olduğu Yeni istehkamı isə bir təzə gələn kimi, əlbəttə, sizə etibar eləməzlər. Çətin heç nə yoxdu, narahat olmaya bilərsiniz. Amma əgər sizə darıxdırıcı gələrsə...

Droqo isə artıq, az qala, onu eşitmirdi, onun diqqətini nəyə görəsə düzbucaqlı pəncərə və Qalanın



downloaded from KitabYurdu.org

əks tərəfindəki divarının üzərindən görünən sıldırım zirvə cəlb eləmişdi. Covanninin qəlbində nəsə qəribə, qeyri-iradi, ola bilsin hətta bunca axmaq, mənasız, özündə heç bir maraq daşımayan duyğular baş qaldırırdı.

Amma elə bil indi o, bir qədər sakitləşmişdi. O, hələ də burdan getmək istəyirdi, amma daha əvvəlkitək yox. Artıq ilk anda onu bürüyən ümidsizliyə görə, az qala, xəcalət çəkirdi. Nə olmuşdu, məgər o, digərlərindən bacarıqsızdı? Dərhal burdan getməsi — o indi düşünürdü— onun özünün şəxsi çatışmazlığı kimi qiymətləndirilə bilərdi. Beləcə, daxilində heysiyyəti onu alışdığı ev həyatına doğru cəzb eləyən qüvvə ilə mübarizə aparırdı.

— Cənab mayor, — Droqo dedi. — Məsləhətlərinizə görə sizə minnətdaram, amma mənə düşünmək üçün sabaha qədər möhlət verin.

— Bax bu, əla! — Matti öz sevincini gizlətmədən səsləndi. — Bəs bu axşam necə olsun? İstəyirsiniz sizi masa arxasında polkovnikə təqdim eləsinlər, ya sualı hələ açıq saxlamağa üstünlük verirsiniz?

— Neyləmək olar, — Covanni cavab verdi, — mən gizlənməyin mənasız olduğunu düşünürəm, xüsusilə də hələ dörd ay burda qalacağıma qərar verərəmsə.



downloaded from KitabYurdu.org

— Elədi, siz haqlısınız, — mayor cavab verdi. — siz belədə özünüzü inamlı hiss eləyəcəksiniz. Onda bizim necə misilsiz adamlarımız olduğunu görəcəksiniz, zabitlər isə... əsl qvardiyaçıdılar.

Matti gülümsədi və Droqo başa düşdü ki, getməyin vaxtıdır, amma mümkün qədər sakit danışmağa cəhd eləyərək, yenə də soruşdu:

— Cənab mayor, mən şimala baxa bilərəmmi? Orda, divarların arxasında nə olduğunu görmək istəyirəm.

— Divarların arxasında? — mayor heyrətləndi. — Nəydi, bu yerlərin gözəlliyimi sizi cəlb eləyir?

— Yalnız bir dəfə baxmaq istəyirəm, cənab mayor, sadəcə olaraq maraqdan. Deyirlər, oralar səhralıqdır, mənsə hələ indiyə qədər səhra görməmişəm.

— Ora sizin baxmağınıza dəyməz. Yeknəsəq mənzərəsi var, əsla maraqlı bir şey yoxdu.

— Cənab mayor, mən təkid eləmirəm, — Covanni cavab verdi, — bunun bu qədər çətinliklər törədə biləcəyini bilmirdim.

Mayor Matti, az qala, dua eləyirmiş kimi öz koppuş barmaqlarını sinəsinə qoydu.

— Qulaq as, — o dedi, — bu, yeganə məsələdi ki, onu mən sizə məsləhət görmürəm. Divarların üzərinə



downloaded from KitabYurdu.org

və keşikçi məntəqələrinə yalnız xidmət aparan şəxsləri buraxırlar, parolu bilmək lazımdı.

— Heç bir istisna yoxdu? Hətta zabitlər üçün də?

— Hətta zabitlər üçün də. Ah, mən sizi başa düşürəm, siz şəhərlilər üçün belə xırdaçılıqlar gülməli görünə bilər. Parol da sizlər üçün elə böyük sirr hesab olunmaya bilər. Burda isə məsələ başqa cürdür.

— Bağışlayın, cənab mayor, sizi təngə gətirirəm...

— Leytenant, eşidirəm, eşidirəm sizi.

— Mən soruşmaq istəyirdim, doğrudanmı burda heç bir mazğal, heç bir pəncərə yoxdu ki, ordan baxmaq olsun?..

— Biri var. O da cənab polkovnikin otağındadı. Təəssüf ki, kimsə maraqlananlar üçün müşahidə qülləsi inşa eləməyi ağlına gətirməyib. Həm də o mənzərəyə görə qüllə tikməyə dəyməz, orda diqqət çəkən heç nə yoxdu. Əgər siz burda qalmağı qərara alsanız, ora hələ sizi təngə də gətirəcək.

— Çox sağ olun, cənab mayor. Nə kimi göstərişiniz olacaq? — Droqo mil duraraq soruşdu.

Matti dostcasına əlini yellədi.

— Görüşənədək, leytenant. Bunu da başınızdan çıxarın. Bayağı, heç nəylə diqqət çəkməyən mənzərədir, sözümə inanın.



downloaded from KitabYurdu.org

Amma elə həmin axşam leytenant Morel növbəsini keşikçilərə təhvil verib Droqonu gizlicə divarın üstünə apardı. Təsadüfi fanarlarla işıqlandırılan uzun dəhliz bütün divarlar boyunca uzanırdı — aşırımın bir ucundan digər ucuna kimi. Hərdənbir qarşılarına qapılar çıxırdı — anbarların, emalatxanaların, növbətçi otaqlarının qapıları. Üçüncü istehkama qədər azından yüz əlli metr getdilər. Qapının ağzında silahlı keşikçi dayanmışdı. Morel keşikçilərin komandiri leytenant Qrottu çağırmağı xahiş elədi

Beləcə, onlar əsasnaməni pozaraq divarın üzərinə dırmaşdılar. Əvvəlcə Covanni dar bir girişə keçdi, orda növbə çəkən keşikçilərin siyahısı asılmışdı.

— Di, gedək! — Morel onu səslədi. — Allah eləməmiş, kimsə xəbər verər.

Droqo dar pilləkənlə onun arxasınca getdi; bu pilləkən yuxarıya doğru qalxırdı, açıq havaya, sonuncu xəndəyə. Bu sahəni gözləyən keşikçiyə Morel işarə elədi, sanki burda rəsmiyyətə lüzum olmadığını demək istəyirdi.

Birdən Covanninin qarşısında diş-diş xarici divarlar baş qaldırdı, onun arxasında isə nəhayət



downloaded from KitabYurdu.org

qürub şəfəqlərinə qərq olmuş düzənlik, sirli şimal görünürdü.

Droqo hətta yüngülcə ağardı, bu mənzərəni seyr elədikcə donub-qaldı. Yaxınlıqdakı keşikçi də hərəkətsiz halda dayanmışdı. Alatoranlıq isə artıq qanadlarını gərmişdi, hər tərəfə əbədi bir sükut çökmüşdü.

— Bəs sonra? Orda, o qayaların arxasında nə var? Hər şey elə beləcədir, ta axıra qədər?

— Heç vaxt görməmişəm, — Morel cavab verdi. — Bunun üçün yeni istehkamda olmaq lazımdır; bax, o yüksəklikdə olanda. Ordan bütün düzənlik görünür. Deyirlər...

Morelin dili dolaşdı.

— Nə deyirlər? —Droqo soruşdu və onun səsi hansısa qəribə həyəcanını büruzə verərək titrədi.

— Deyirlər, oralar büsbütün daşdı, nəsə... Səhraya oxşar kimi. Deyirlər, bu daşlar ağdır, qar kimi.

— Büsbütün daş? Vəssalam?

— Belə deyirlər. Hardasa bataqlıq da var.

— Amma orda, uzaqda, lap şimalda, hər halda, baxmaq olar da?

— Üfüqlər, adətən, duman içində olur, — Morel dedi, nəyə görəsə özünün üzügülərliyinə və



downloaded from KitabYurdu.org

arsızlığına görə pərt olmuşdu. — Bu şimal dumanından da heç nə görünmür.

— Duman! — Droqo səsləndi. — Amma həmişə ki duman olmayacaq, aydın günlər də olur.

— Demək olar ki, olmur, hətta qışda da. Amma bəziləri deyirlər, sanki görüblər...

— Görüblər? Nəyi?

— Xəyallarına gəlib, hamısı xəyal eləyirlər, məgər əsgərlərə inanmaq olarmı? Biri belə deyir, başqası ayrı cür. Kimi ağ qüllə gördüyünü deyir, kimsə, guya, tüstülənən vulkan gördüyünü iddia eləyir. Guya, duman da vulkandan qalxır. Ortis özü — bizim kapitan — təsdiq eləyir ki, o görüb... beş il əvvəl...

Əgər ona inanarıqsa, orda hansısa uzunsov qara ləkə var, yəqin, meşədir.

Onlar susdular. Droqo bütün bunları harda görə bilərdi? Bəlkə yuxusunda? Ya da hansısa qədim nağılı oxuyub xəyallarında təsəvvür eləmişdi? Ona elə gəlirdi ki o, bu səpələnmiş elə də yüksək olmayan qayaları, heç bir bitkisi olmayan dolanbac vadiləri, bircə dənə də yaşıl parçası olmayan bu dəyərsiz yarğanları və nəhayət, dağların çıxıntılı sıldırımları arasında yellənən irəlidəki bu adamsız üçbucaq səhranı tanıyırdı. Onun gördüyü hər şey qəlbinin



downloaded from KitabYurdu.org

dərinliklərində anlaşılmayan əks-səda doğururdu, amma o, öz hisslərini ayırd eləməyi bacarmırdı.

Droqo indi şimal dünyasının küncünə baxırdı, heç vaxt heç kimin olmadığı zənn edilən ölü düzənliyə. Heç vaxt o tərəfdən düşmənlər gəlməmişdi, heç vaxt orda heç bir döyüş getməmişdi, heç vaxt heç nə olmamışdı.

— Hə, necədi? — Morel soruşdu, səsinin gümrah çıxmasına çalışırdı. — Hə, necədi? Xoşuna gəlirmi?

— Hə... ə... ə!.. — Droqo yalnız bunu deyə bildi. Onun qəlbində qeyri-iradi qorxuya qarışaraq hansısa aydın olmayan arzular qövr eləyirdi.

Hardansa şeypurun qısa siqnalları gəlib onlara kimi çatdı.

— İndi yaxşısı sənin getməyindir, — Morel məsləhət gördü.

Amma özünə qapılmış və sanki nəyisə xatırlamağa çalışan Droqo sanki onu eşitmirdi. Üfüqlər tədricən sönürdü, qaranlığın düşməsi ilə də canlanan külək Qalanın kub şəklindəki tikilisinin üzərinə hücum çəkirdi. Keşikçi qızınmaq üçün yenidən irəligeri addımlamağa və gah da tanımadığı Covanni Droqoya baxmağa başladı.

— İndi sənin getməyin yaxşıdı, — Morel təkrar eləyərək həmkarının əlindən yapışdı.



downloaded from KitabYurdu.org

## IV

Droqo tək qalmaqdan qorxmurdu. Necə olmuşdusa, uşaqlıqda şəhərin ətrafında azmışdı; gecələr cinayətkarların hakim olduğu küçələrdə gəzdiyi də olmuşdu. Ya da elə götürək dünənki gecəni: yolda gecələyəsi olmuşdu... Amma indi tamam başqaydı, indi uzun yoldan sonra həyəcanları keçib getmiş, yeni yoldaşları artıq yatmışdılar, o isə lampa işığında döşəyin kənarında kədərli və özünü itirmiş halda oturmuşdu. Bax bu zaman o, təkliyin nə olduğunu olduğu kimi başa düşdü. (Ümumi götürəndə, divarlarına taxtadan üzlük çəkilmiş böyük çarpayısı, nəhəng divanı və şkafı olan otaq pis deyildi.) Covannini gülərüzlə qarşılamış, masa arxasında onun sağlığına bir şüşə içmiş, sonra isə onun haqqında düşünməyi belə yaddan çıxartmışdılar. (Çarpayının üzərindən ağac xaç asılmışdı: qarşıdakı divardan asılan qədim şəklin üzərindəki uzun yazı isə bu sözlərlə başlayırdı: "Humanissimi Viri Francisci Angloisi virtutibus" — (Ləyaqətli, şərəfli xadim Fransiska Anqloiziya —lat.). Bütün gecə ərzində kimsə ona baş çəkməyə gəlməyəcəkdi, Qalada kimsə heç onu xatırlamırdı da. Nəinki Qalada, yəqin ki,



downloaded from KitabYurdu.org

bütün dünyada onu — Covanni Droqonı yad eləyəcək bir canlı varlıq tapılmazdı. Hər kəs öz fikrini güclə çəkir, hətta anası da, hə, ola bilsin ki, anası da bu dəqiqələrdə başqa şey haqda düşünürdü — axı o, anasının yeganə övladı deyildi. Anası bütün günü Covannini xatırlamışdı, indisə digərlərinə də, azacıq belə olsa, diqqət ayırmaq lazım idi. Bu, daha ədalətli idi, Covanni incimədən etiraf eləməli oldu, axı indi başqası yox, məhz o, Qalada çarpayısının kənarında oturub (yalnız indi divarın taxta üzlüyündə öz təbii böyüklüyündə olan qılınc rəsminin oyulduğu onun diqqətini cəlb elədi; oymuş, rəngləmişdilər, sanki divardan əsl qılınc asılmışdı — yəqin, Allah bilir, neçə il bundan əvvəl burda yaşamış hansısa zabitin ağır əməyinin bəhrəsiydi), hə, çarpayısının kənarında oturub, belini bükərək başını aşağı salıb key baxışlarla və mənasızcasına ətrafına baxır, özünü heç vaxt olmadığı kimi tənha hiss eləyirdi.

Nəhayət, Droqo özünü ələ alaraq ayağa qalxdı, pəncərəni açdı, bayıra baxdı. Pəncərə həyətə açılırdı və həyətdən başqa heç yer görünmürdü. Üzü cənuba olduğundan Covanni qaranlıqda Qalaya gələrkən yol boyu seyr elədiyi dağları görməyə cəhd elədi, qarşı tərəfdəki divarların qismən örtdüyü dağlar alçaq görünürdülər.



downloaded from KitabYurdu.org

Üç pəncərədə işıq yanırdı, amma hamısı bir fasadda idilər və onlara göz gəzdirmək mümkün deyildi. Onun pəncərəsindən olduğu kimi, o pəncərələrdən də işıq qarşıdakı divara nəhəng uzanmış düzbucaqlı kimi düşürdü, bu düzbucaqlılardan birində kölgə gəzişirdi, yəqin zabitlərdən hansısa yatmağa hazırlaşırdı.

Droqo pəncərəni bağladı, soyunub, yatağa uzandı və bir neçə dəqiqəliyə taxtalardan üzlük çəkilmiş tavana baxaraq düşüncələrə daldı. Oxumağa özüylə nəsə götürməyi unutmuşdu, amma bu gecə oxumadan da keçinə bilərdi, sonsuz bir istəklə yatmaq istəyirdi. Droqo lampanı söndürdü. Qaranlıqda tədricən pəncərənin işıqlı düzbucaqlı çərçivəsi görünməyə başladı və o, pəncərədən sayrışan ulduzları gördü.

Elə görünürdü ki, sanki çaşqınlığı yuxu ilə sərhədlənir. Lakin o, bunu olduqca aydın dərk eləyirdi. Yuxuda gördüyünə bənzər dolaşıq mənzərələr gözlərinin önündən keçib gedir və hətta hansısa hadisəyə də qarışmağa başlayırdı, amma bir müddət sonra o, hələ gümrahlaşdığını da hiss elədi.

Ümumiyyətlə, yatmaq istəyirdi — hər şeyi ağuşuna alan səssizlik onu məğlub eləmişdi. Lap uzaqlarda kimsə öskürdü: xəyalmı görürdü? Sonra



downloaded from KitabYurdu.org

suyun yaxınlıqdakı divarlarda əks olunan yüngül şappıltısı eşidildi. Balaca yaşıltəhər ulduz (başını qaldırmadan bu ulduzu görürdü) öz gecə hərəkəti ilə artıq pəncərənin yuxarı küncünə qədər gəlmişdi, tezliklə yoxa çıxacaqdı. Doğrudan da ulduz qaranlıq çərçivənin ən uzaq küncündə işararaq görünməz oldu. Droqo ulduzu hələ bir qədər də seyr eləmək istəyirdi və bu məqsədlə boynunu bir qədər irəli uzatdı. Bu anda yenə də suyun şappıltısını eşitdi: suya nəsə bir əşya düşəndə su belə səs çıxarır. Maraqlıydı, şappıltı bir də təkrar olunacaqdımı? Droqo qulaqlarını şəklədi və gözləməyə başladı, adamın fikrini tərk edilmiş evlərin zirzəmisinə, bataqlığa aparan bu səs bir də eşidiləcəkdimi? Vaxt dayanmışdı, ona elə gəlirdi Qalaya mütləq sakitlik hakim kəsilib. Yenidən beynində əvvəlki uzaq həyatının mənzərələri boy verməyə başladı.

"Xlyup!" Yenidən bu mənfur səs eşidildi. Droqo oturdu. Görünür, bu səs müntəzəm təkrarlanırdı, axırıncı şappıltı əvvəlkilərindən zəif olmadı, buna görə də onun naməlum mənbəyinin tükəndiyi qənaətinə gəlmək olmazdı. Belə olan halda məgər yatmaqmı olardı? Droqo çarpayı ilə yanaşı bir ipin asıldığını xatırladı — bəlkə bu zəngdi? İpi çəkdi, ip dartıldı və hardasa binanın dolanbaclarında güclə



downloaded from KitabYurdu.org

eşidilə bilən qısa danqıltı səsi gəldi. “Necə də axmaqlıq elədim, — Droqo özünə gəldi, — boş şeydən ötrü adamları narahat eləyirəm”. Amma çətin ki, kimsə gələydi.

Lakin dəhlizdə tezliklə yaxınlaşan addım səsləri eşidildi və nəhayət, kimsə qapını döydü.

— Girin! — Droqo dedi.

Kandarda əlində fənər olan əsgər göründü.

— Eşidirəm sizi, cənab leytenant!

— Lənət şeytana, burda yatmaq mümkün deyil! — Covanni qəzəbini boğaraq dilləndi. — Bu nə zəhlətökən səsdir? Bəlkə hansısa boru axıdır? Yoxla və bu biabırçılığa son qoy. Əsla yatmaq mümkün deyil. Sadəcə, əsgi tıxasanız, kifayətdir.

— Bu çəndir, — əsgər dərhal cavab verdi, sanki əvvəlcədən söhbətin nədən gedəcəyini bilirmiş. — Cənab leytenant, bu çəndir, heç nə eləmək olmaz.

— Çən?

— Bəli, cənab leytenant, — əsgər izah eləməyə baş- ladı, — məhz bu divarın arxasında su ilə dolu çən yerləşir. Hamı şikayətlənir, amma heç nəylə kömək eləmək olmur. Təkcə sizdə eşidilmir. Cənab kapitan Fonsazo da bəzən söyür, lakin heç nə eləyə bilmirik.

— Yaxşı, onda xoş getdin! — Droqo dedi.



downloaded from KitabYurdu.org

Qapı bağlandı, addım səsləri eşidilməz oldu və yenidən otağa sükut çökdü, əvvəlkitək pəncərədə ulduzlar sayrışırdı. İndi Covanni ondan bir neçə metr aralıda gəzişən keşikçilər haqda düşünürdü; sanki saat kimi qurulmuşdular, fasilə vermədən ora-bura hərəkət eləyirdilər. Onlarla adam ayıq idi, o isə yataqda uzanıb və bütün ətrafının yuxuya daldığını zənn eləyir. "Bəli, onlarla, — Droqo düşündü, — amma bu, kimə lazımdı və nədən ötrüdü? Qalada, görünür, hərbi rəsmiyyətçilik özünün son həddinə çatmışdı. Heç kimin keçməyə hazırlaşmadığı aşırımı yüzlərlə adam qoruyurdu! — Covanni düşünürdü, — burdan getmək, nə qədər mümkünsə tez getmək, bu qədim yerlərdən uzaqda olan təmiz havaya çıxmaq lazımdı... Oy, əziz doğma evim!" Anası, əlbəttə, indi yatırdı, hər yerdə işıqlar söndürülmüşdü. Birdən anası məhz bu anda onu xatırladı? Çox ola bilərdi, anasını yaxşı tanıyırdı, ən xırda şey belə gecə rahatlıq tapa bilməsin deyə, onu həyəcanlandıra bilərdi, elə hey yataqda ora-bura çevriləcəkdi.

Çən bir daha şappıldadı, daha bir ulduz çərçivənin arxasında yox oldu, onun işığı isə hələ də yerə, Qalanın xəndəklərinə, keşikçilərin narahat gözlərinə kimi gəlib çatırdı, yalnız yuxulamağını gözləyən, amma bədxah düşüncələrdən iztirab çəkən



downloaded from KitabYurdu.org

və heç cür yuxuya gedə bilməyən Covanni Droqodan başqa.

Əgər Mattinin bütün vədləri sadəcə və sadəcə komediyadan başqa bir şey deyildisə, onda necə olsun? Əgər onu dörd ay sonra da burdan buraxmasaydılar? Axı xeyli bəhanələr fikirləşib tapmaq olardı, burdakı qaydaları əsas götürərək ona şəhərə qayıtmağa icazə verməyə də bilərdilər. Əgər o, burda uzun illər yaşamağa, bax, bu otaqda, bu soyuq yataqda bütün gəncliyini keçirməyə məhkum edilmişdisə? Necə də mənasızdır, mənim bu təxminləri necə də ağılsızlıqdır" —, deyə Droqo düşünsə də, onu həyəcanlandıran fikirləri tamamilə özündən uzağa qova bilmir, təkliyin və qaranlığın gücləndirdiyi bu düşüncələr yenidən və yenidən onun varlığına hakim kəsilirdi.

Birdən ona elə gəlməyə başladı ki, onun əleyhinə hansısa bir oyun oynayırlar, məqsəd də onu burda saxlamaqdır. Hətta bu heç Mattidən də asılı deyil. Nə onun, nə polkovnikin, nə də hansısa digər zabitlərin Droqoluq bir işləri yoxdu, onlar üçün heç fərqi yoxdur ki, o qalacaq, ya gedəcək. Hər halda hansısa gözəgörünməz qüvvə onun şəhərə qayıtmasına əngəl törədirdi. Ola bilsin ki, o fərqində deyildi, o qüvvə elə onun öz qəlbində yuva salmışdı.



downloaded from KitabYurdu.org

Sonra Covanni hansısa sütunlu eyvan, ağ yolda at gördü, ona elə gəldi ki, kimsə onu adıyla çağırır və o yuxuya getdi.

## V

Növbəti axşam Covanni Droqo üçüncü istehkamda ilk dəfə olaraq növbətçiliyi qəbul elədi. Axşam saat altıda həyətdə yeddi keşikçi dəstəsi düzülmüşdü: üçü qala üçün, dördü də cinahlardakı istehkamları qorumaq üçün. Yeni istehkamı qorumaq üçün nəzərdə tutulan səkkizinci dəstə xidmətə tez başlamışdı, ora gedən yol bir xeyli vaxt aparırdı.

Qalanın veteranı böyük serjant Tronk üçüncü istehkama iyirmi səkkiz nəfər ayırdı — şeypurçu ilə birlikdə iyirmi doqquz nəfər. Onlar hamısı kapitan ortisin ikinci bölüyündən idilər, Covanni də ora təyin olunmuşdu. Droqo növbənin komandanlığını təhvil aldı və qılıncını qınından çıxartdı. Növbəyə başlayacaq yeddi keşikçi dəstəsi istehkamın divarına perpendikulyar olaraq düzülmüşdülər. Qalanın komendantı polkovnik isə pəncərədən onları izləyirdi — burda qayda beləydi. Həyətin tapdalanmış sarı torpağında gözəl qara şəkil yaranmışdı.



downloaded from KitabYurdu.org

Qalanın üzərində küləyin təmizlədiyi səma işıldayır, günəşin sonuncu şüaları isə Qalanın divarlarını çəpinə ikiyə bölürdü. Sentyabr axşamı idi. Komendantın müavini podpolkovnik Nikolozi qılıncına söykənərək axsaya-axsaya — köhnə yarası özünü hiss elətdirirdi — komendaturanın həyətindən çıxdı. Bu gün yoxlayıcı iri cüssəli kapitan Monti idi. O, öz xırıltılı səsi ilə qışqıraraq komanda verdi və əsgərlər eyni vaxtda bədənlərini irəli verərək gur səslə cingilti salıb, silahlarını yoxlamaq üçün çıxartdılar. Bundan sonra da həyətə tam sakitlik çökdü.

Budur, yeddi keşikçi dəstəsinin şeypurçuları birbirlərinin ardınca müvafiq siqnalları verdilər. Bastiani qalasının böyük gerblə və qırmızı-qızılı yun qaytanlarla bəzədilmiş şeypurları çalinmağa başladı. Onların saf səsləri göyə yüksəlir və süngülərin hərəkətsiz cərgəsi uzaqdan gələn zəng səsini xatırladan sədayla onların səsinə səs verirdilər. Əsgərlər heykəl kimi donub qalmışdılar, onların sifətləri hərbçilərə xas olan tərzdə sərt idi. Yox, onların adi keşik xidmətinə hazırlaşmadıqları açıq-aşkar görünürdü: gözlərdəki belə qəhrəmanlıq işartısı yalnız düşməni qarşılamağa hazır olanlarda olur.



downloaded from KitabYurdu.org

Axırıncı not uzaq divarlarda əks-səda verərək havadan asıla qaldı. Bir neçə an bundan əvvəl intəhasız səmanın fonunda şəfəq saçan süngülər eyni vaxtda əsgərlərin cərgələrində yoxa çıxaraq söndülər. Polkovnik artıq pəncərədə görünmürdü. Bütün yeddi dəstə ölçülü nizami addımlarla Qalanın labirintləri ilə müxtəlif istiqamətlərə yola düşdülər: hər kəs öz divarına doğru.

Bir saatdan sonra Droqo üçüncü istehkamın yuxarı meydançasında idi, dünən axşam şimal istiqamətinə baxdığı həmin o yerdə. Dünən onu bura təsadüfi yolçu kimi marağı gətirmişdi, indisə o, buranın sahibi idi: yaxın iyirmi dörd saat ərzində bütün istehkam və onun yüz iyirmi metrlikdə olan divarı bütünlüklə onun sərəncamında idi. Onların aşağısında, səngərdə vadinin dərinliklərinə doğru tuşlanmış iki topun yanında dörd artilleriyaçı növbə çəkirdi. Üç keşikçi istehkamın xaricindəki meydançada növbələrini qəbul elədilər, daha dördü isə hər iyirmi beş metrdən bir əsas divarın sağ qanadında növbə çəkməyə başladılar.

Növbənin dəyişməsi serjant Tronkun nəzarəti altında yüksək dərəcədə dəqiqliklə yerinə yetirilirdi, Tronk nizamnamə və nizami hazırlıq üzrə gözəl mütəxəssis idi. Tronk Qalada iyirmi iki ildi xidmət



downloaded from KitabYurdu.org

eləyirdi və indi məzuniyyət vaxtı da Qalanı tərk eləmirdi. Heç kim Qalanın künc-bucağını ondan yaxşı tanımırdı və zabitlər onun dəfələrlə Qalanın keşiyində gecələr, tamamilə qaranlıqda fənərsiz necə gəzdiyini görmüşdülər. Onun növbətçiliyində keşikçilər bircə dəqiqəliyə belə əllərini tüfəngdən çəkmir, divara söykənmir və hətta dayanmamağa çalışırdılar, çünki nizamnaməyə görə keşikçiyə müstəsna hallarda dayanmağa icazə verirdilər. Gecələr Tronk səhərə qədər yatmır və keşikçi məntəqələrini səssizcə gəzir, gözlənilməz gəlişi ilə keşikçiləri diksinməyə məcbur eləyirdi. "Dayan, gələn kimdi?" — keşikçilər tüfənglərini sinələrinə qald ıraraq ona səslənirdilər. "Mağara", — böyük serjant parolu deyirdi. "Qreqorio", — keşikçi cavab verirdi.

Ümumiyyətlə, xidmət aparan zabitlər və unterlər xüsusi rəsmiyyətə əməl eləmədən qala divarlarındakı öz sahələrini yoxlayırdılar, əsgərlər onları üzdən yaxşı tanıyırdılar və hər cür parollar və çağırışlar onlara mənasız görünürdü. Yalnız Tronk ilə nizamnamənin bütün incəliklərinə əməl eləyirdilər.

Balaca və zəif, sifətində qocalıq cizgiləri olan, qırxıq başlı Tronk təsadüfi hallarda söhbətə girişərdi və bütün bikar vaxtlarını təkliyə çəkilərək musiqiyə



downloaded from KitabYurdu.org

həsr elərdi. Musiqiyə çox aludə idi, kapalmeyster espina isə onun dostu idi. Tronkun çox gözəl akkordeni vardı, amma o, demək olar ki, ona toxunmurdu, hərçənd hamı onun çox gözəl ifa elədiyini bilirdi. Tronk harmoniyanı öyrənirdi və əgər deyilənlərə inanılarsa, bir neçə hərbi marş bəstələmişdi. Amma bu deyilənlərin dəqiqliyinə heç kim zəmanət vermirdi.

İstirahət vaxtlarında Tronk fit çalar, amma keşik çəkəndə heç vaxt bunu özünə rəva bilməzdi. Vaxtının əksər hissəsini dişli divarlar boyu gəzişər, şimala, düzənliyə diqqətlə baxardı, sanki orda nə isə axtarardı. İndi o, Droqo ilə yanaşı dayanmışdı və Yeni istehkama gedən yük heyvanlarının açdığı, dağın şaquli yamacının belinə dolanan cığırı ona göstərirdi.

— Bax, növbə dəstəsi gəlir, — şəhadət barmağını harasa tuşlayaraq dedi.

Amma toranlığın aydın olmayan işığında Droqo heç nə seç bilmədi. Baş serjant başını yırğaladı.

— Nəydi? — Droqo soruşdu.

— Nizamsızlıq, belə xidmət eləmirlər. Mən həmişə deyirəm: nə cürsə axmaqlıqdır, — Tronk cavab verdi.

— Axı nə olub?



downloaded from KitabYurdu.org

— Belə xidmət eləmirlər, — Tronk təkrar elədi. — Yeni istehkamda növbəni tez dəyişmək lazımdır. Amma bu, cənab polkovnikin ürəyinə yatmır.

Covanni ona heyrətlə baxdı, doğrudanmı Tronk komendantın özünü belə mühakimə eləməyə cəsarət eləyirdi?

— Cənab polkovnik, — baş serjant çox ciddi və inamlı halda sözlərinin bir-birini təkzib elədiyindən zərrəcə də sıxılmadan davam elədi, — ümumiyyətlə götürdükdə tamamilə haqlıdır. Axı heç kim ona təhlükə haqda xəbərdarlıq eləməyib.

— Təhlükə haqda? — Droqo heyrətləndi.

Qaladan Yeni istehkama yola düşənlər belə rahat cığırda və belə boş yerdə hansı təhlükəyə məruz qala bilərdilər?

— Bəli, təhlükə haqda, — Tronk təsdiq elədi. — Gecmi, tezmi belə qaranlıqda nəsə baş verəcək.

— Bəs neyləmək olar? — Droqo, daha çox, nəzakət xatirinə soruşdu, yoxsa belə mülahizələr onu elə də düşündürmürdü.

— Əvvəlki vaxtlarda... — öz biliklərini nümayiş elətdirməyə fürsət tapdığından sevinən böyük serjant dedi, — əvvəlki vaxtlarda Yeni istehkamdakı növbə Qaladakından iki saat tez dəyişdirilirdi. Həmişə də gündüz, hətta qışda da. Parolla bağlı da hər şey sadə



downloaded from KitabYurdu.org

idi. İstehkama girmək üçün parolu bilmək kifayətdi, növbətçilik və Qalaya qayıtmaq üçün də yeni parolu bilməliydin. İki parol bəs eləyirdi. Dəyişən növbə Qalaya qayıdanda burdakı keşikçilər hələ növbəyə başlamırdılar və parol dəyişməz qalırdı.

— Di, aydındır, — onun sözləri üzərində elə də düşünmədən Droqo dedi.

— Amma sonra, — Tronk davam elədi, — burda nədənsə qorxdular. Guya qalanın divarları üzərində parolu bilən bu qədər keşikçi saxlamaq ağılsızlıq imiş. Deyirdilər: qabaqcadan müəyyən eləyə bilməzsən, yeganə zabitdənsə, əlli əsgərin içindən birisi satqın ola bilər.

— Hə, elədir, — Droqo razılaşdı.

— Onda qərara aldılar ki, qoy parol təkcə komandirə məlum olsun. Buna görə də növbə qaladan növbə dəyişməsinə qırx beş dəqiqə qalmış çıxır. Məsələn, nümunə üçün bugünkü günü götürək. Növbənin ümumi dəyişməsi saat altıda olub. Yeni istehkam üçün keşikçi dəstəsi burdan beş on beşdə çıxıb və xidmət yerinə saat altıda çatıb. Qaladan çıxmaq üçün parol lazım deyil, ona görə ki, dəstə burda formalaşdırılır, Yeni istehkama girmək üçünsə yalnız zabitə məlum olan dünənki parolu bilmək kifayətdir.



downloaded from KitabYurdu.org

Növbə dəyişəndən sonra İstehkamda yeni parol qüvvəyə minir ki, onu da yalnız zabit bilir. Beləcə, yeni növbə gələnə kimi davam eləyir. Növbəti gecə, əsgərlər qayıdanda isə (onlar bura saat altının yarısında da gəlib çata bilərlər, çünki gələndə yerimək asandır) Qalada artıq parol dəyişmiş olur. Belə olan halda da üçüncü parol lazım olur. Zabit onların üçünü də bilməlidir: biri İstehkama girmək üçün, ikincisi keşik xidməti aparmaq üçün, üçüncüsü isə Qalaya daxil olmaq üçün. Yolda olan əsgərlərin parolu bilməmələri ucbatından nə qədər çətinliklər meydana çıxır. Bax ona görə də mən deyirəm, — Tronk Droqonun ona qulaq asıb—asmadığının fərqinə varmadan davam elədi, — əgər parol yalnız zabitə məlumdusa və fərz eləyək: yolda onun halı pisləşərsə, əsgərlər neyləyə bilərlər? Onlar zabiti danışmağa məcbur edə bilməzlər ki? Gəldikləri yerə də qayıda bilməzlər, çünki bu vaxt ərzində orda da parol dəyişib. Bu haqda kimsə düşünübmü? Məxfiliyi tələb edənlər bu haqda düşünüblərmi? Məgər onlar başa düşmürlər ki, iki parol əvəzinə artıq üç paroldan istifadə olunur və Qalaya qayıtmaq üçün zəruri olan bu üçüncü parol bir gün əvvəldən müəyyən edilir? Nə baş vermiş olarsa belə, onlar bu



downloaded from KitabYurdu.org

parolu qorumağa məhkumdular, əks halda keşikçi dəstəsi Qalaya qayıda bilməz.

— Axı onları darvazada tanıyacaqlar, — Droqo etiraz elədi, — elə deyilmi? Məgər onda növbəsini təhvil vermiş keşikçi dəstəsinin qayıtdığını görməyəcəklər?

Tronk leytenantı bir qədər yuxarıdan aşağı süzdü.

— Bu mümkün deyil, cənab leytenant, — o dedi. — Qalanın öz qanunları var. Şimal istiqamətdən bura parol olmadan kimsə keçə bilməz. Kim olmuş olsalar belə.

— Belə olan halda, — bu qədər mənasız rəsmiyyətçiliyə görə hirslənmiş Droqo qeyd elədi, — belə olan halda Yeni istehkam üçün xüsusi parol düşünüb tapmaq daha asan çıxış yolu deyilmi? Keşik növbəsini tez dəyişmək, qalaya qayıtmaq üçün lazım olan parolu isə ancaq zabitə demək; əsgərlər isə qoy heç nə bilməsinlər.

— Ağlabatandır! — Böyük serjant təntənə ilə səsləndi, sanki onun belə də etiraz eləyəcəyini gözləyirmiş, — doğrudan da, ən yaxşı çıxış yolu budur. Amma onda nizamnaməni dəyişmək, yeni təlimat işləyib hazırlamaq lazım gələrdi. Nizamnamədə isə deyilir: “Parol iyirmi dörd saat



downloaded from KitabYurdu.org

ərzində qüvvədədir — dəstə növbəyə çıxandan onu təhvil verən ana kimi; eyni parol həm Qalada, həm də onun bölmələrində qüvvədədir”, — o, ibrətamiz tonda kəlmə-kəlmə dedi. — Birbaşa belə yazılmışdır: “Bölmələrində”. Qısa və aydın. Hər cür təhriflər istisnadır.

— Di buna qədər, — əvvəlcə elə də diqqətlə qulaq asmayan Droqo soruşdu, — buna qədər axı Yeni istehkamda da növbəni tez dəyişirmişlər?

— Əlbəttə! — Tronk səsləndi və dərhal da dediyinə düzəliş verdi. — elədir ki, var, cənab leytenant. Bu əhvalat cəmi iki ildi başlayıb. Əvvəl daha yaxşı idi.

Böyük serjant susdu, Droqo ona qorxu içində baxırdı. İyirmi iki il Qalada xidmət eləyəndən sonra bu adamdan nə qalmışdı? Tronk dünyada onun kimi milyonlarla adamın olduğunu, amma hərbi forma geymədiklərini bilirdimi? Onlar şəhərdə azad gəzibdolaşır, gecələr isə uzanıb yatmaq və ya gəzməyəmi, teatramı getmək haqda özləri qərar qəbul eləyirdilər. Yox, Tronka bircə dəfə baxmaq kifayətdi ki, anlayasan: o, digər insanların varlığını unudub, onun bütün həyatı Qala və onun zəhlətökən qaydalarıdı. Tronk artıq qız səsinin necə incə olduğunu, bağların, çayların, ağacların, — əgər



downloaded from KitabYurdu.org

Qalanın ətrafında bitən bu kolcığazları nəzərə almasaq — necə olduqlarını xatırlamırdı. Hə, Tronk da Droqo kimi şimala baxırdı, amma tamam başqa gözlə; Tronk Yeni istehkama aparan cığıra, eləcə də xəndəklərə, çuxurlara baxır, baxışları ilə Qalaya gələ biləcək yolları yoxlayırdı, axı o, sərt qayalarda, sirli düzənliyin üçbucağında, indi, demək olar ki, gecə səmasında da süzən ağ buludlarda nə görə bilərdi?

Qaranlığın düşməsi ilə yenidən leytenantın varlığını burdan qaçmaq arzusu sardı. "Mən niyə dərhal getmədim? — özünü məzəmmətləyirdi, — nəyə görə mayorun diplomatiyasının təsiri altına düşdüm"? İndisə budur, dörd ayın — yüz iyirmi sonsuza qədər uzanan günün — bu günlərin yarısını da Qala divarlarının üzərində keşikdə keçirməli olacaqdı — keçməsini gözləmək lazım gələcəkdi. Ona elə gəlirdi ki, o, yad torpaqda, ona qarşı qəddar və düşmən mövqedə olan dünyada tamamilə başqa növdən olan adamların arasına düşüb. Dalğın baxışları yenidən Tronka dikildi, serjant yerində donubqalaraq keşikçiləri izləyirdi.

## VI



downloaded from KitabYurdu.org

Tamam qaranlıq düşmüşdü. Droqo istehkamın boş otağına gedərək onun üçün kağız, mürəkkəb və qələm gətirilməsinə göstəriş verdi.

“Əziz anam”, — yazdı və dərhal da özünü uşaq kimi hiss elədi. Onu heç kim görmürdü, fənər işığında ona naməlum olan Qalanın lap mərkəzində oturmuşdu, adət elədiyi şeylərdən, evindən uzaqlarda və nəhayət, qəlbində nə varsa, hamısını boşaltmaq fürsəti tapması fikri ilə özünə təsəlli verirdi.

Əlbəttə, digərləri ilə, öz zabit həmkarları ilə o, özünü əsl kişi kimi apara bilərdi, onlarla birlikdə gülə, cəsarətə gəlib generallar və onların arvadları haqda lətifələr danışa bilərdi. Anasına da olmasa, o, başqa kimə o həqiqəti deyə bilərdi? Doğrudu, bu axşam Droqonun özünü cəsur əsgər kimi təqdim eləməyə haqqı yox idi, onun hərəkətləri Qalanın sərt əxlaq qaydalarına cavab vermirdi, burda yalnız ona gülə bilərdilər. Doğru olan isə uzun yoldan sonra yorulması, tutqun divarların onu sıxması, tamamilə tək-tənha olması hissi idi.

“Yolda keçirdiyim iki gün məni tamamilə əldən saldı... — bax o, belə yazmaq istəyirdi, — bura gələndən sonra isə mən əgər arzularamsa, şəhərə qayıda biləcəyimi öyrəndim. Qala — hüznlü yerdi,



downloaded from KitabYurdu.org

yaxınlıqda heç bir kənd, heç bir əyləncə yeri, ümumiyyətlə, fərəhli heç nə yoxdu”. Bax o, bunu yazmaq istəyirdi.

Amma bu zaman Droqo özlüyündə anasını təsəvvür elədi, bu dəqiqələrdə anası, yəqin ki, məhz onun haqqında düşünür və özünə bu hisslə təsəlli verir ki, indi oğlu üçün yaxşıdır, xeyirxah dostlarının əhatəsindədir, kim bilir, bəlkə elə qızlar da var. Əlbəttə, anası onun həyatından razı və rahat olduğunu güman eləyirdi.

“Əziz ana, — pero kağızda cızmağa başladı, — mən təyinat yerimə srağagün gəldim, maraqlı bir səyahətim oldu. Qala — bu, nəsə möhtəşəm...” oy, əgər o, burdakı həyatın miskinliyini, Qalada cəza və sürgün ruhunun dolaşdığını, ona yad olan bu necəsə mənasız adamların olduğunu yaza bilsəydi... O isə yazırdı: “Zabitlər məni çox gözəl qəbul elədilər. Böyük adyutant da mənimlə çox mehriban rəftar elədi və mənə tamamilə azad bir seçim imkanı tanıdı: burda qalmaq və ya şəhərə qayıtmaq haqda. Bununla belə...”

Bəlkə məhz elə bu an anası onun boşalmış otağında gəzişirdi, hansısa yeşiyi açır, onun köhnə paltarını səliqə ilə qatlayırdı, kitablarını, yazı stolunu qaydaya salırdı, anası artıq bunu dəfələrlə eləmişdi;



downloaded from KitabYurdu.org

ona elə gəlirdi, belədə oğlunun olmadığını daha aydın hiss eləyir və sanki oğlu axşam yeməyinə evə qayıdacaqdı. Anasının vərdiş elədiyi narahat, bir-birinə yaxın atdığı addım səsləri xəyalına gəlirdi. Məgər anasını kədərləndirməyə cəsarəti çatacaqdımı? Əgər Covanni evdə, həmin otaqda, ailəsi ilə birlikdə olsaydı, bax onda o, doğrudan da, anasına hər şey haqda danışar və anası da heç kədərlənməyə fürsət tapmazdı, çünki o artıq yanında oturmuşdu, bütün çətinliklər də arxada qalmışdı. Amma budur, bax, ondan uzaqlarda durasan və hər şeyi yazasan!.. Əgər onlar etibarlı qədim evlərində sobanın qabağında yanaşı otursaydılar — axx, onda əlbəttə, o, mayor Matti haqda, onun məkrli vədləri haqda və Tronkun qəribəlikləri haqda danışardı! O, anasına axmaqlığından burda dörd ay qalmağa necə razılıq verməsindən danışar və yəqin ki, onlar birlikdə onun səhvlərinə gülərdilər. Amma anadan uzaqda oturub bunları necə yazasan?

"Bununla belə, — Droqo yazmağa davam elədi, — özüm və öz mənsəbim üçün hansısa müddətə Qalada qalmağı daha münasib bildim... Həm də burda adamlar olduqca mədənidilər, xidmət sadədir və yorucu deyil". Bəs onun otağı? Divarın arxasında suyun şappıldaması? Kapitan ortislə görüş? Həyat



downloaded from KitabYurdu.org

olmayan şimal torpaqları? Durub sərt qaydalar, istehkam, indi özünün oturduğu miskin keşikçi məntəqəsi haqda yaza bilməzdi ki... Yox, hətta anası ilə də hər şeyi açıq danışa bilməzdi, hətta anasına da ona rahatlıq verməyən dolaşıq qorxularını etiraf eləyə bilməzdi.

Orda, şəhərdəki evlərində saatlar axşam saat onun olduğunu ahənglə, müxtəlif səslərlə bildirirdilər və onların incə səslərinə şkafların rəflərindəki şüşə qabların cingiltisi də qarışır, mətbəxdən gülüş və səs, qarşı tərəfdəki küçədən isə fortepianonun səsi eşidilirdi. Burda isə mazğala oxşayan dar pəncərədən yenidən şimaldakı vadiyə, bu hüznlü torpaqlara baxmaq olardı, amma indi pəncərəyə qatı qaranlıq çökmüşdü. Pero yüngülcə cırıldadı. Ətrafda gecə idi, divarın dişləri arasında hansısa həyəcanlı fikirləri təlqin eləyən külək vıyıldamağa başlamış və istehkamın qaranlıq içində boğulmasına baxmayaraq, hava nəmli və ağır idi. Droqo yazırdı: "Ümumiyyətlə, mən çox razıyam və özümü yaxşı hiss eləyirəm".

Axşam saat doqquzda, hava işıqlanan kimi hər yarım saatdan bir dördüncü istehkamda aşırımın sağ cinahında, divarın qurtardığı yerdə zəng səsi eşidildi. Əvvəlcə balaca zəngin səsi eşidilirdi və



downloaded from KitabYurdu.org

dərhal da keşikçi özünə yaxın olan yoldaşını səsləyirdi, o da o birisini və beləcə, divarın əks tərəfindəki ucuna qədər, istehkamdan-istehkama, qaladan keçərək gecənin qaranlığında bir-birlərini səsləyirdilər: “Qulaq as! Qulaq as!” Keşikçilər bu sözü etinasız halda, yeknəsəq, hansısa qeyri-təbii səslə deyirdilər.

Covanni Droqo soyunmadan çarpayıya uzandı, amma yuxuya daldıqca da müəyyən vaxt fasilələri ilə bu uzaq səsləşmə gəlib ona çatırdı: “Qu... la... la... la” Qışqırıq kəsilmir, getdikcə daha ucadan eşidilir, onların üzərində səslənərək daha da güclənir və tədricən kəsilərək başqa divara doğru uzaqlaşırdı. İki dəqiqədən sonra soldakı birinci qüllədən qışqırıq yenidən qayıdırdı, amma artıq hay vermə kimi. Yenidən bərabər zaman fasilələri ilə səslənirdi: “Qul... aq... aq!” Yalnız nə vaxt ki bu qışqırıq birbaşa başlarının üzərində, onun dəstəsindən olan keşikçinin yanında səslənirdi, Droqo onda bu sözü bütünlüklə eşidə bilirdi. Amma tezliklə bu “Qulaq as!” yenidən hansısa sürəkli iniltiyə çevrilir, nəhayət, lap qayanın ayağında dayanmış axırıncı keşikçinin yanında yoxa çıxırdı.

Covanni bu qışqırığın bir cərgədən digərinə doğru necə yumalanaraq getməsinə və Qala



downloaded from KitabYurdu.org

divarlarının üzəriylə öz mənbəyinə necə qayıtmasına dörd dəfə qulaq asdı. Beşinci dəfə Droqonun şüuruna yalnız onu diksindirən zəif səs gəlib çatdı. Və düşündü: zabit növbə vaxtı yata bilməz. Ümumiyyətlə, nizamnamədə zabitlərin soyunmadıqları halda çarpayıya uzanmağına elə bir qadağa yox idi, lakin Qalanın bütün leytenantları arasında bütün gecə ərzində gözlərini yummağı xüsusi bir qoçaqlıq hesab eləyirdilər. Onlar kitab oxuyur, bəzən təlimatı pozaraq bir-birlərinə baş çəkir və kart oynayırdılar. Covanninin artıq bəzi şeyləri soruşmağa fürsət tapdığı Tronk ona işarə vurmuşdu ki, Qalada bütün gecəni oyaq qalmaq artıq yaxşı bir ənənəyə çevrilib.

Covanni Droqo çarpayıda elə uzanmışdı ki, ağ neft lampasının dairəvi işığı onun üzərinə düşür və həyatı haqda xəyallara qapılırdı, amma tamamilə gözlənilmədən onu yuxu apardı. Halbuki məhz bu gecə — axx, əgər o, bunu bilsəydi, çətin ki gözünə yuxu gedəydi — məhz bu gecə onun üçün zamanın tələsik və sərt hesabatı başladı.

Bu vaxta qədər o, ilk gəncliyinin rahat dövrünü yaşamışdı, onda uşaqlıqdan getdiyin yol sənə sonsuz görünür, illər ağır, asan və hiss olunmadan keçir. Özünçün rahatca addımlayır, maraqla ətrafına



downloaded from KitabYurdu.org

baxırsan və tələsmək üçün də heç bir səbəbin olmur, heç kim sənin dabanını tapdalamır, heç kim səni gözləmir, yoldaşların da səninlə yanaşı, sənin kimi düşünmədən gedir, zarafatlaşmaq, gülüşmək üçün tez-tez dayanırlar. Böyüklər artırmadan səni gülər üzlə salamlayır, mənalı təbəssümlə hardasa üfüqləri göstərirlər və bu zaman sənin ürəyin şirin arzulardan, eləyəcəyin qəhrəmanlığın ləzzətini qabaqcadan duymaqdan çırpınmağa başlayır, sən artıq hiss eləyirsən ki, irəlidə səni mühüm işlər gözləyir, hələ heç bir şey görünməsə də, sən əminsən, tamamilə əminsən ki, vaxt gələcək, bütün bunlar həyata keçəcək.

Hələ çoxmu gedəcəkdi? Yox, yalnız bu çayı, bax, odur, aşağıdakı çayı keçmək, o yaşıl təpələri aşmaq lazım idi. Bəlkə biz artıq çatmışdıq? Məgər bu ağaclara, bu çəmənliyə, bu ağ evə gəlmirdikmi? Hansısa bir anlığa ona elə gəlir — hə, elədi ki var — dayanmaq lazımdı. Ancaq sonra bizə deyirlər ki, yaxşısı irəli getməkdi və biz yolumuza davam eləyirik.

Beləcə, ən yaxşısına ümid eləyərək gedirik, günlər isə uzun və sakitdilər, səmada yüksəklikdə günəş şəfəq saçır və elə görünür, qüruba enmək fikri yoxdu.



downloaded from KitabYurdu.org

Amma hansısa anda, az qala instinktiv olaraq biz geri boylanırıq və arxamızdakı darvazanın bağlı olduğunu, geriyə yol olmadığını görürük. Bax onda başa düşürsən ki, nəsə dəyişib, günəş artıq hərəkətsiz görünmür, göydə cəld hərəkət eləyir, əfsus, artıq sürətlə üfüqlərə yaxınlaşır, buludlar daha mavi səmanın ənginliklərində süzmür, yalnız birbirlərinə sürtünərək tələsik harasa gedirlər və bu zaman vaxtın keçdiyini sənin yolunun tezmi, gecmi qurtaracağını başa düşürsən.

Bəli, vaxt gəlir, bizim arxamızda ağır qapı ildırım sürətilə çırpılır və onu dərhal da bağlayırlar, artıq qayıtmağa çatdırmırsan. Amma məhz bu anda Covanni Droqo div yuxusuna getmiş və yuxuda uşaq kimi gülümsəyirdi.

Droqo nə baş verdiyini anlayıb dərk eləyənəcən bir xeyli günlər keçəcək. Onda onun üçün oyanış başlayacaq. O, inamsız halda ətrafına baxacaq, yaxınlaşan addımların səsini eşidəcək, ondan əvvəl oyanan və hədəfə birinci çatmaq üçün onu keçməyə tələsən adamları görəcək. Həddindən artıq qənaətlə onun yaşadığı günləri ölçən zamanın necə döyündüyünü eşidəcək. Pəncərələrdə artıq gülən yox, soyuq və etinasız üzləri görəcək. Əgər hələ çoxmu gedəcəyini soruşarsa, adamlar yenə də üfüqləri



downloaded from KitabYurdu.org

göstərərək başları ilə təsdiqləyəcəklər, amma artıq bu işarədə nə mehribançılıq, nə də iltifat olacaq. Bu zaman dostlar da görünməz olacaqlar, kimsə yorulub əldən-dildən düşərək arxada qalacaq; kimsə irəli cumacaqdı, bax, üfüqün o balaca nöqtəsinə doğru.

Adamlar sənə deyəcəklər, bu çayın arxasındadır. On kilometr qalıb, elə hesab elə ki, artıq çatıbsan. Amma yol heç cür qurtarmayacaq, günlər qısa olacaq, yollarda təsadüfən adamlar görəcəksən, pəncərələrdə isə yalnız solğun kölgələr, mexaniki olaraq yırğalanan başlar görünəcək.

Droqo tək-tənha qalana kimi beləcə davam eləyəcək, üfüqdə isə ucu-bucağı olmayan hərəkətsiz, boz, qurğuşun rəngli dənizin dar zolağı görünməyəcək. O, özünü yorğun hiss eləyir, yol boyunca olan evlərdə, demək olar ki, bütün pəncərələr bağlıdı, gördüyü bir neçə adam isə onun suallarına cavab olaraq yalnız əllərini yana açırlar. Yaxşı hər nə vardısa, arxada qalmışdı, çox uzaqlarda, sənsə yanından keçərək bunu hiss eləməyibsən. Bəli, geri qayıtmaq artıq olduqca gecdir, arxada həmin illüziyalarla, həmin ilğımlarla izinlə gələn hələlik ağ boş yolda görünməyən çoxlu adamın ayaq səsləri eşidilir.



downloaded from KitabYurdu.org

Covanni Droqo indi üçüncü istehkamda yatır. Yuxusuna nəsə girib və o gülümsəyir. Tamamilə xoşbəxt olan dünyanın əsrarəngiz surəti bu gecə axırıncı dəfə ona baş çəkir. Yaxşı ki, o özünü birrəngli səmanın altında, qurğuşun rəngli dənizin sahilində yolun qurtaracağı yerdə, ətrafda nə bir ev, nə bir canlı, hətta ot belə olmayan və əsrlərlə də olmamış yerdə görə bilmir (amma nə vaxtsa görəcək axı).

## VII

Nəhayət, şəhərdən içində leytenant Droqonun əşyaları olan sandıq gəlib çıxdı. Şeylərin arasında onun qəttəzə, inanılmaz dərəcədə qəşəng olan şineli də var idi. Droqo şinelini geydi və otağında divardan asılmış balaca güzgüdə özünə «hissə-hissə» baxmağa başladı. Bu əşya sanki əvvəlki dünyası ilə onun arasında canlı əlaqə yaradırdı və o, məmnunluq hiss elədən düşündü ki, indi hamı ona diqqət yetirməyə başlayacaq — şinelin parçası gözəl idi, göz oxşayan qırışlarla aşağı, ayağına kimi düşürdü.

O həm də şinelini gecə keşik növbələrində olarkən, bu rütubətli, boz divarların arasında əzib köhnəltməyin lazım olmadığını düşündü. Burda



downloaded from KitabYurdu.org

bundan daha uğurlu bir hadisəni görmək qisməti olmayacaq deyə, hətta şinelini məhz burda dəyişdirmək ona pis əlamət kimi göründü. O həm də ona görə heyifsiləndi ki, kimsənin qarşısında şineli ilə özünü göstərə bilməyəcək və elə də soyuq olmadığına baxmayaraq, şinelini geyməyi qərara aldı, polkun dərzisinin yanına getmək və ondan özü üçün başqasını, daha sadəsini əldə eləmək istəyirdi.

Droqo otaqdan çıxdı və pilləkənlə düşməyə başladı, işıq düşən yerlərdə öz kölgəsinin gözəlliyi ilə qürur duyurdu. Amma nəyə görəsə Qalanın dərinliyinə düşdükcə şinel öz şıqlığını itirirdi. Həm də Droqo hiss eləyirdi ki, şineldə özünü rahat və sərbəst hiss eləyə bilmir, şinel ona yad və olduqca dəbdəbəli görünürdü.

Hələ yaxşı ki, pilləkəndə və dəhlizlərdə, demək olar ki, adam yox idi. Qarşısına ilk çıxan kapitan isə dayanmadan və ona baxmadan salamını alıb getdi. Hətta uzaqdan gördüyü əsgərələr də ona tərəf baxmırdılar.

Axırda Droqo birbaşa divara bənd edilmiş dolama pilləkənlə düşəsi oldu, onun öz addım səsləri yuxarıda və aşağıda əks-səda verərək belə təəssürat yaradırdı ki, o burda tək deyil. Dəbdəbəli şinelin ətəkləri yellənir, divardakı ağımtıl kiflərə sürtülürdü.



downloaded from KitabYurdu.org

Nəhayət zirzəmidəki otağa, dərzi Prosdoçimonun zirzəmidə yerləşən emalatxanasına çatdı. Mülayim günlərdə bura tavanın altındakı balaca pəncərələrdən nazik işıq zolaqları düşürdü, amma bu axşam artıq fənərləri yandırmışdılar.

— Salam, cənab leytenant, — onun içəri daxil olduğunu görən polkun dərzisi Prosdoçimo dedi.

Böyük otaqda yalnız ayrı-ayrı hissələr işıqlandırılmışdı; arxasında hansısa qocanın oturub işlədiyi hündür stol, dərzinin üç cavan köməkçisi üçün olan iri iş stolu. Ətrafda isə asılqanlardan sanki özünü asmış adamları xatırladaraq adamda qorxu yaradan onlarla mundirlər, şinellər, plaşlar yırğalanırdı.

— Axşamınız xeyir, — Droqo cavab verdi. — Mən şinel almaq istəyirdim. Elə də baha olmasın, yalnız dörd aya əynimdə qalsın.

— İcazə verin, baxım, — dərzi gülümsəyərək dedi. İnamsız bir maraqla Droqonın şinelinin ətəyini əlinə aldı və onu işığa yaxın çəkdi. (Prosdoçimo rütbəcə sperjant idi, amma bir dərzi kimi rəislərinə qarşı özünü bir qədər sərbəst apara bilərdi.) — Materialı isə yaxşıdı, yaxşıdı... Yəqin bir ətək pul veribsiniz, sizin şəhərdə tikməyi bacarırlar. — o peşəkar baxışlarla bütün şineli nəzərdən keçirtdi və



downloaded from KitabYurdu.org

başını elə yırğaladı ki, boynunu tor kimi örtmüş qan damarları əsdi. — Amma heyif...

— Nəydi?

— Heyif ki, boyunluğu kiçikdir, hərbçilər beləsini geymirlər...

— İndi məhz beləsini geyirlər, — Droqo təkəbbürlə qeyd elədi.

— Dəbə görə kiçik boyunluq bəlkə də yaxşıdır, — dərzi etiraz elədi, — amma biz hərbçilər üçün dəb təlimat deyil. Bizim dəbimiz nizamnamədir, nizamnamədə isə deyilir: "Şinelin boyunluğu boyuna söykənməli, girdə olmalıdır və eni yeddi santimetr olmalıdır". Cənab leytenant, əgər mən bu mağarada gün keçirirəmsə, yəqin sizə elə gəlir, hansısa bir düşkün dərziciyəzlə söhbət eləyirsiniz.

— Nə danışırsınız! — Droqo səsləndi. — Qətiyyən elə deyil!

— Yəqin elə düşünürsünüz. Mənə isə hətta şəhərdə də hörmət eləyirlər, həm də ən layiqli zabitlər. Axı mən burda müvəqqəti işləyirəm. Bəli, mü-vəq-qəti. — Axırıncı sözü o, vurğu ilə tələffüz elədi, sanki onun xüsusi əhəmiyyəti olduğunu nəzərə çatdırmaq istəyirdi.

Droqo nə cavab verəcəyini belə bilmirdi.



downloaded from KitabYurdu.org

— Günü bu gün mən burdan gedə bilərəm, — Prosdoçimo davam elədi. — Əgər məndən ayrılmaq istəməyən cənab polkovnik olmasaydı. Başa düşmürəm, burda gülməli nə var?

Alatoranlıqda, doğrudan da, üç köməkçinin boğuq gülüşləri eşidildi, onlar hədsiz səylə tikdikləri parçanın üzərinə əyilmişdilər. Qoca isə heç kimə əhəmiyyət vermədən yazmağına davam eləyirdi.

— Nəyə gülürsüz, hə? — Prosdoçimo təkrar soruşdu. — Çox diribaşsız. Tezmi, gecmi bunu özünüz də başa düşərsiniz.

— Doğrudan da, — Droqo onu müdafiə elədi, — gülməli heç nə görmürəm...

— Axmaqlar, — dərzi dedi. — Bunlardan nə gözləyəsən?

Bu an pilləkəndə addım səsləri eşidildi və qapının ağzında bir əsgər göründü. Prosdoçimonu yuxarı, anbar rəisinin yanına çağırırdılar.

— Bağışlayın, cənab leytenant, — dərzi dedi, — xidmət xidmətdir. Bir neçə dəqiqədən sonra qayıdaram. — Bu sözlərlə də o, əsgərin arxasınca pilləkəni qalxmağa başladı.

Onu gözləməyi qərara alan Droqo oturdu. Rəisləri gedəndən sonra köməkçilər işlərini dayandırdılar. Qoca, nəhayət, başını öz



downloaded from KitabYurdu.org

kağızlarından qaldırdı, ayağa qalxdı və axsaya-axsaya Covanniyə yaxınlaşdı.

— Eşitdinizmi? — o, qapıya doğru işarə eləyərək mənalı tərzdə soruşdu. — eşitdinizmi? Cənab leytenant, bəs bilirsinizmi artıq o, neçə ildir burda, Qaladadır?

— Mən hardan bilim?

— On beş il, cənab leytenant, on beş lənətə gəlmiş il, amma hələ də eyni şeyi deyir: mən burda müvəqqətiyəm, bu gün-sabahlığam...

Köməkçilərdən biri nəsə donquldadı. Görünür, bu əhvalat onların daimi gülüş mövzularıydı. Amma qoca hətta onlara tərəf belə baxmadı.

— Özü isə heç vaxt yerindən tərpənmir, — o dedi. — Prosdoçimo da, bizim komendant da və bir çox başqaları da gəbərənə qədər burdadılar. Bu artıq nəsə bir xəstəlikdir. Baxın, cənab leytenant, siz hələ yenisiniz, təzə gəlibsiz, sonra gec olacaq...

— Başa düşmədim...

— Nə qədər mümkünsə, burdan tez gedin, nə qədər onların xəstəliyinə yoluxmayıbsınız.

— Mən cəmi dörd aylığa burdayam, — Droqo dedi, — qalmaq haqda kiçik bir istəyim belə yoxdur.

Amma qoca sakitləşmək bilmirdi:



downloaded from KitabYurdu.org

— Özünüzü gözləyin, cənab leytenant. Hər şey polkovnik Filimordan başladı. “Mühüm hadisə olacaq”, — o dedi. Mən çox gözəl anlayıram, bu, on səkkiz il bundan əvvəl olub. Bəli, bəli, “Had isə” — o, məhz belə dedi. Onun sözüdü. Başına düşüb ki, Qala — Allah bilir, necə mühüm obyektdir, bütün digərlərindən mühüm obyektdir, şəhərdə isə heç nə başa düşmürlər. — Qoca ağır-ağır danışır, az qala, hər sözdən sonra sözünə ara verirdi. — Başa düşürsünüzmü, başına salıb ki, Qala mühüm obyektdir və burda mütləq nəsə baş verməlidir.

Droqo gülümsədi.

— Baş verməlidir? Müharibəmi olacaq?

— Onu kim bilir, bəlkə də müharibə.

— Səhradan basqın?

— Başqa cür də yox, səhradan, — qoca təsdiq elədi.

— Amma kim, kim ordan hücum eləyə bilər?

— Mən hardan bilim? Məlum işdir, heç kim. Amma cənab polkovnik xəritələri öyrənib və deyir ki, qədim ordaların qalıqları olan tatarlar hələ də qalır və hardasa oralarda dolaşırlar.

Alatoranlıqda köməkçilərin yöndəmsiz gülüşləri eşidildi.



downloaded from KitabYurdu.org

— Bax, onları da gözləyir, — qoca davam elədi. — Cənab polkovnikə, cənab kapitan stisiona, cənab kapitan ortisə, cənab podpolkovnikə qulaq asarıqsa, hər il burda nəsə baş verməlidir. Nə qədər ki onları təqaüdə göndərməyiblər, elə hey eyni şeyi təsdiq eləyəcəklər. — Qoca susdu, sanki qulaq verirmiş kimi başını çiyinlərinə qısdı.

— Deyəsən, kimsə gəlir.

Amma tamam sakitlik idi.

— Mən heç nə eşitmirəm, — Droqo dedi.

— Bax bu Prosdoçimo, — qoca yenidən dedi, — axı sadəcə serjant, polkun dərzisidir, bu da onlara qoşulub. Bu da gözləyir. Artıq on beş ildi... Amma cənab leytenant, görürəm siz mənə inanmırsınız. Susur və düşünürsünüz ki, guya bunlar boş şeylərdir. — Az qala, yalvarırmış kimi sözünə davam elədi. — Qulaq asın mənə, ehtiyatlı olun. Heç nəyə inanmayın, yoxsa həmişəliyə burda qalacaqsınız, siz bircə onun gözlərinə baxarsınız...

Droqo cavab vermədi. O, bir zabit kimi belə xırda adamla açıq danışmağın onun üçün münasib olmadığını düşünürdü.

— Bəs siz, — o soruşdu, — siz burda neyləyirsiniz?



downloaded from KitabYurdu.org

— Mən? Onun qardaşıyam və onunla birlikdə işləyirəm.

— Onun qardaşı? Böyük qardaşı?

— Di hə, — qoca gülümsədi, — böyük qardaşıyam. Mən də nə vaxtsa hərbçi idim, amma ayağımı sındırdım və budur, bu günə düşdüm.

Zirzəminin sakitliyində Droqo ürəyinin necə döyünməsini eşidirdi. Belə çıxırdı ki, hətta zirzəmidə hesabat kitablarının arasında eşələnən bu qəribə və miskin varlıq da taleyindən sınaq gözləyir və qəhrəmanlığa hazırlaşır? Covanni birbaşa onun gözlərinin içinə baxdı, qoca isə kədərlə başını yırğaladı — yəni, neyləmək olar? Biz beləyik, — sanki o demək istəyirdi, — və biz bundan heç vaxt yaxa qurtara bilməyəcəyik.

Bəlkə də hardasa pilləkəndə qapı açıldı, uzaq insan səsləri onlara kimi gəlib çatdı, amma hardan gəldiyini müəyyən eləmək olmurdu. Hərdənbir adamda bir boşluq təəssüratı yaradaraq səslər kəsilir, amma tezliklə yenidən eşidilməyə başlayırdı, sanki Qalanın özünün ağır nəfəs alması kimi gah yaxınlaşır, gah da uzaqlaşırdı.

Nəhayət, Droqonun şüuruna nəsə çatdı. Mundirlərin ətrafındakı çoxlu əşyalara baxmağa başladı, bu əşyalar lampanın zəif işığında elə bil



downloaded from KitabYurdu.org

tərpənirdilər və o, birdən düşündü ki, məhz bu an polkovnik sakitlikdə öz gizli kabinetindəki şimala baxan pəncərəni açıb. Hə, əlbəttə, belə mənasız payız vaxtında Qalanın komendantı şimala, vadinin qara yarğanlarına baxırdı.

Şimal çölündən uğur, qeyri-adi hadisə — elə möcüzəli hadisə ki, hər insanın həyatında bir dəfə olur — gəlməliydi. Bu tutqun ümidlərin hesabına da zaman keçdikcə daha da dalğın olan yaşlı kişilər ömürlərinin ən gözəl illərini Qalada keçirirdilər.

Normal həyat, sadə insani sevinclər, adi tale onlarlıq deyildi, burda çiyin-çiyinə bir arzu ilə yaşayırdılar, hərçənd heç vaxt onu bir sözlə belə ağızlarından qaçırmırdılar; ya ona görə ki özlərinə bu haqda hesabat vermirdilər, ya da sadəcə ona görə ki, əsgərdilər, əsgərlər isə kiminsə onların qəlblərinə girməsini sevmirlər.

Bax, Tronkun, yəqin, belə bir arzusu var idi. O, pedantlıqla nizamnamənin və dəmir intizamın paraqraflarına əməl eləyir, özünün qeyri-adi məsuliyyət hissi ilə fəxr eləyir və bunun kifayət olduğunu zənn eləməkdə yanılırdı. Hətta ona desəydilər ki, ömrünün sonuna kimi hər şey belə olacaq, hər şey sonuncu dəqiqəyə qədər dəyişmədən olduğu kimi qalacaq, sənin ayılmaq vaxtındır. “Yox,



downloaded from KitabYurdu.org

bu mümkün deyil, — o cavab verərdi. — Nə vaxtsa nəsə qeyri-adi hadisə baş verməlidi, nəsə olduqca mühüm, elə mühüm ki, bu hadisədən sonra demək mümkün olacaqdı: neyləməli; hətta hər şeyin sonudusa da, heyifsilənməyə dəyməz”.

Droqo onların adi sirlərini başa düşdü və yüngülləşmiş halda düşündü: ona, kənar müşahidəçiyə bütün bunların dəxli yoxdu. Dörd aydan sonra o, Allahın köməyi ilə onlardan həmişəlik ayrılacaqdı.

Qalanın sirli cazibəsi heyrətləndirici bir yüngüllüklə dağılırdı — Droqo belə düşünürdü. Amma nəyə görə bu qoca ona pis, gizli şübhəylə baxırdı? Nəyə görə birdən Droqonun qəlbində fitdə hansısa bir hava çalmaq, bir qurtum şərab içmək, təmiz havaya çıxmaq arzusu baş qaldırdı? Bəlkə onun özünə sakit və azad olduğunu sübut eləməsi lazımdı?

## VIII

Budur, bu da Droqonun yeni dostları: leytenantlar Karlo Morel, Petro Anqustina, Frančesko Qrotta, Maks Laqario. Bu boş vaxtlarında onlar hamısı birlikdə yeməkxanaya yığışıblar. Onlardan başqa,



downloaded from KitabYurdu.org

burda yalnız xidmətçi qadın idi, uzaqdakı qapının yanlığına söykənmişdi, divarlardan asılan qoca polkovniklərin portretləri isə alatoranlıqdan gözlərini zabitlərə zilləmişdilər. Stolun üstündə qurtaran yeməklərin qalıqları və səkkiz şüşə qaralırdı.

Hamısı ya şərabdan, ya da belə gec saata qədər oturmalarından yüngülcə həyəcanlıydılar. Onlar susanda çöldən yağışın səsi eşidilirdi.

Qraf Maks Laqorionun gedişini qeyd eləyirdilər: o, iki il Qalada xidmət eləmişdi və sabah Qalanı tərk eləməliydi.

— Anqustina, — Laqorio dedi, — əgər sən də getməyi qərara alarsansa, mən səni gözlərəm.

Həmişə olduğu kimi o, bunu zarafatla dedi, amma hiss olunurdu ki, dediyinə əməl eləməyə hazırdır.

Anqustina da iki il Qalada xidmət eləmişdi. Amma o, getməyə hazırlaşmırdı. O ağarmış və cəmiyyətdən ayrı düşən adam kimi oturmuşdu, sanki burda heç kim ona lazım deyildi və tamamilə təsadüfən bura düşmüşdü.

— Anqustina, — Laqorio, az qala, qışqıraraq təkrar elədi, çünki möhkəm keflənmişdi, — əgər sən də getməyi qərara alarsansa, mən səni gözlərəm.



downloaded from KitabYurdu.org

Leytenant Anqustino susurdu, yalnız məcburən gülümsədi. Onun günəşdə yanmış mavi mundiri hiss edilməyən hansısa etinasız bir zərifliklə seçilirdi.

Laqorio sağ əlini Anqustinanın çiyninə qoyaraq və digərlərini də — Moreli, Qrottanı, Droqonu — köməyə çağıraraq dedi:

— Heç olmasa, siz ona təsir eləyin. Axı şəhərdə onun üçün yaxşı olacaq.

— Nə cür yəni yaxşı olacaq? — özünü maraqlanırmış kimi göstərən Anqustina dilləndi.

— Mən demək istəyirəm ki, sən şəhərdə özünü yaxşı hiss eləyəcəksən. Yeri gəlmişkən, bizim hamımız kimi. Mən belə hesab eləyirəm.

— Mən özümü əla hiss eləyirəm, — Anqustina quru cavab verdi. — Müalicə olunmağa da ehtiyacım yoxdu.

— Müalicədən söz salan oldumu? Mən dedim ki, şəhərdə yaşamaq sənin xeyrinə olardı.

Laqorionun sözündən sonra həyətdə yağışın necə ələndiyi eşidilməyə başladı. Anqustina iki barmağı ilə bığlarını sığalladı. Bu söhbət onun ürəyincə deyildi.

Amma Laqorio sakitləşmək bilmirdi:

— Sən anan, doğmaların haqda düşünmürsən... Təsəvvür eləyirsənmi sənin anan necə...



downloaded from KitabYurdu.org

— Mənim anama heç nə olmaz, — Anqustina cavab verdi, onun səsində acı bir gülüş tonu hiss olunurdu.

Bunu hiss eləyən Laqorio mövzunu dəyişdi:

— Özün düşün, axı birisigün sən Klaudina ilə görüşə bilərsən. Artıq iki ildi o, səni görmür.

— Klaudina... — Anqustina süst halda cavab verdi, — hansı Klaudina? Nəsə xatırlamıram.

— Necə yəni xatırlamırsan? Bu gün, sadəcə olaraq, səninlə danışmaq mümkün deyil! Əminəm ki, mən hansısa sirri açmamışam! Sizi ki həmişə bir yerdə görərdilər.

— A-a! İndi xatırladım, — Anqustina, sadəcə, nəzakət xatirinə cavab verdi. — Haqqında danışmağa adam tapdın... Hə, o qız yəqin indi mənim haqqımda düşünməyi də yadından çıxarıb.

— Di bunu bir tərəfə qoy. Bizə ki məlumdu: bütün qızlar səndən ötrü dəli-divanədilər, özünü utancaq adam kimi göstərməyin mənası yoxdu! — Qrotta səsləndi.

Anqustina bir xeyli gözlərini ona dirəyib baxdı, belə şit söhbət açıq-aşkar onun ürəyincə deyildi.

Susdular. Çöldə, qaranlıqda, payız yağışının altında keşikçilər addımlayırdılar. Su şappıldayaraq xiyabanla axır, su borularında şırıldayır, divarlarla



downloaded from KitabYurdu.org

yerə tökülürdü. Bayırda zülmət qaranlıq idi. Anqustina birdən xırıldadı və ucadan öskürdü. Gənc adamın belə incə əda ilə bunca xoşagəlməz səs çıxara bilməsi qəribə idi. Amma Anqustina ağzını əli ilə tutaraq öskürməyə davam elədi, hər dəfə də başını əyir, sanki bununla da göstərmək istəyirdi ki, özüylə bacarmır və belə narahatlığa yalnız öz aldığı yaxşı tərbiyə nəticəsində dözməyə məcburdur. Beləcə o, öskürməyini hətta təqlid eləməyə bənzər bunca təbii bir alışqanlığa çevirdi.

Stol arxasında ağır sükut hökm sürürdü, Droqo sükutu pozmağı qərara aldı.

— Qulaq as, Laqorio, — o soruşdu, — sən sabah saat neçədə gedirsən?

— Düşünürəm, saat ona yaxın. Tez getmək istərdim, amma polkovniklə vidalaşmaq lazımdır.

— Polkovnik saat beşdə yuxudan oyanır. Yayda da, qışda da düz saat beşdə. Belə ki, ona görə sən yubanası olmayacaqsan.

Laqorio gülümsədi.

— Hə, amma mən saat beşdə yuxudan oyanmağa hazırlaşmıram. Heç olmasa, axırıncı səhəri doyunca yatacağam, axı arxamca kimsə gəlmir.

— Demək, birisigün öz yerində olacaqsan, — Morel həsəd aparmadan dedi.



downloaded from KitabYurdu.org

— And içirəm ki, bu, mənim özümə də inanılmaz gəlir, — Laqorio dilləndi.

— Məhz nə inanılmaz gəlir?

— İki gündən sonra şəhərdə olacağım, — bir qədər fasilə verəndən sonra əlavə elədi, — indi artıq həmişəlik.

Anqustina solğun idi. O artıq bığlarını sığallamırdı, oturub dalğın baxışlarını yeməkxananın alatoranlığına dikmişdi — orda gecənin gəlişi xüsusilə aydın hiss olunurdu. O saatlar gəlirdi ki, bu zaman qorxu çılpaqlaşmış divarları tərk eləyir, qüssə isə yumşalırdı, ruh qürurla qanadlarını çırparaq yatmış insanlığın başı üzərinə yüksəlirdi. Böyük portretlərdəki polkovniklərin donuq gözləri böyük döyüşləri qabaqcadan hiss eləmə xəyalı ilə dolmuşdu.

— Təsəvvür eləyirsən, — Laqorio yenidən Anqustinaya müraciət eləyərək rəhmsizcəsinə dedi, — birisigün elə bu vaxt mən bəlkə də Konsalvinin yanında olacağam. Qəşəng ab-hava, musiqi, gözəl qadınlar...

Onlar əvvəllər belə zarafat eləməyi xoşlayırdılar.

— Sənin də ay zövqün var ha! — Anqustina etinasız cavab verdi.



downloaded from KitabYurdu.org

— Bəlkə... — yeganə məqsədi dostunu yola gətirmək olan Laqorio ən yaxşı fəndini işə saldı, — hə, mən elə belə də elərəm; Trona baş çəkərəm, sənin dayına... Orda xoşagələn adamlar yığışır və Cakomonun dediyi kimi oyun "əsilzadələrsayağı" aparılır.

— Bu da mənə əyləncə tapıb! — Anqustina cavab verdi.

— Orda necə olmuş olsa da, — Laqorio etiraz elədi, — birisigün mən əylənəcəyəm, sənsə yenə də keşiyə gedəcəksən. Təsəvvür eləyirsənmi, mən şəhərdə gəzirəm, — təkcə bunu düşünəndə belə o hətta gülümsədi də, — sənə isə bu zaman kapitan yaxınlaşır. "Heç bir hadisə olmayıb, keşikçi Martini xəstələnib". Saat ikidə serjant səni oyadır: "Yoldaş leytenant, yoxlamadı". Hə, o səni düz saat ikidə oyadacaq, and içərəm həmin bu saatda mən, ola bilsin ki, Rozarianın yatağında olacağam...

Laqorio həmişə olduğu kimi düşünməyəcək qədər sərt idi, buna artıq hamı alışmışdı. Amma onun sözləri dostlarının yaddaşında uzaq şəhəri canlandırdı, təntənəli binaları, çox böyük kilsələri... xəyali günbəzləri, çayın üzərindəki romantik xiyabanı. Onlar düşünürdülər: ora indi yəqin dumanın nazik qatı ilə örtülür və fənərlər solğun



downloaded from KitabYurdu.org

sarıtəhər işıq salır, boşalan küçələrdə qoşa sevgili cütlərin siluetləri qaralır, operanın şüşə ilə örtülmüş portalı şəfəq saçır, arabaçıların qışqırıqları eşidilir, skripkanın əks-sədası küçələrdə dolaşır, tutqun dalanlardan qadınların səsi gəlir, təsəvvüredilməz dərəcədə yüksəklikdə damların qarışıqlığında pəncərələrdən işıq gəlir — onların gənclik arzularını özündə qoruyub saxlayan və onlara qarşıdakı macəralar haqda vəd verən doğma şəhər.

Hamı indi hiss olunmadan Anqustinanın ciddcəhdlə gizlətmək istədiyi yorğunluqdan gərginləşmiş sifətinə baxmağa başladı. Hamı da başa düşürdü ki, onlar bura Laqorio ilə yox, Anqustina ilə vidalaşmağa yığışıblar, axı yalnız o, Qalada qalmaq istəyirdi. Onların növbələri gəlib çatanda Laqorionun arxasınca onlar da gedəcəkdilər — Qrotta da, Morel də, onların hamısından da əvvəl Qalada cəmi dörd ay xidmət eləyəcək olan Covanni Droqo. Anqustina isə qalacaq. Niyə məhz belə olacağını onlar başa düşmürdülər, amma bunun belə olacağını yəqin bilirdilər. Hərçənd yoldaşları bunu dumanlı halda təsəvvür eləyirdilər, amma bunda da Anqustinanın özünəməxsusluğu, təbiiliyi var idi. Nəyə görəsə heç kim ona nə həsəd aparırdı, nə də



downloaded from KitabYurdu.org

ondan nümunə götürmək istəyirdi. Həqiqətdə isə bu, hansısa maniyanı xatırladırdı.

Lənətə gəlmiş ədabaz Anqustina isə hələ bir gülümsəyir də! Nəyə görə o, büsbütün xəstə olan bu adam qaçıb şeylərini yığmağa, getməyə hazırlaşmaq əvəzinə burda oturub dalğın baxışlarını alatoranlığa dikib? O, nə haqda düşünür? Hansı sirli xudpəsəndlik onu burda saxlayır? Demək, o da... Laqorio, sən bir ona bax, axı sən onun dostusan, nə qədər gec deyil yaxşıca bax, çalış onun sifətini bu gün necə görürsənsə, yaddaşında eləcə də saxlayasan: nazik burun, yorğun baxışlar, xoşa gəlməyən gülüş... ola bilsin ki, nə vaxtsa sən onun nəyə görə səndən nümunə götürmək istəmədiyini başa düşəcəksən, bu solğun alının arxasında hansı fikirlərin gizləndiyini başa düşəcəksən.

Ertəsi gün Laqorio getdi. Denşik onu iki atla Qalanın darvazası ağzında gözləyirdi. Göy buludlarla örtülmüş, amma yağış kəsmişdi.

Laqorio öz otağından məmnun görünüşlə çıxdı, arxasınca baxmadı və hətta dönüb Qalanı vida baxışları ilə də nəzərdən keçirmədi. Başları üzərində Qalanın qaraqabaq, qaşqabaqlı divarları yüksəlir, darvazada keşikçi hərəkətsiz halda dayanmışdı; geniş meydanda bircə nəfər də yox idi. İstehkama



downloaded from KitabYurdu.org

bitişik olan hansısa köşkdən çəkicin ritmik zərbələri eşidilirdi.

Anqustina xidmət yoldaşı ilə vidalaşmaq üçün aşağı endi. O, mehribancasına atı tumarladı və dedi:

— Necə də gözəl heyvandır.

Laqorio gedirdi, öz doğma şəhərinə gedirdi, asan və xoş həyata qayıdırdı. O isə qaldı və anlaşılmaz baxışları ilə ətrafında hərlənən dostunun atlarına baxır, bütün gücü ilə sifətindəki təbəssümü qoruyub saxlamağa çalışırdı.

— Sadəcə olaraq getdiyimə inana bilmirəm, — Laqorio dedi. — Bu Qala mənim üçün əməlli-başlı kabus idi.

— Mənimkilərə salam deyərsən, — Anqustina ona qulaq asmadan dedi, — anama deyərsən məndə hər şey yaxşıdır.

— Narahat olma, — Laqorio cavab verdi və qısa fasilədən sonra əlavə elədi, — sən dünən axşamkı söhbətə görə məni bağışla. Səninlə mən tamamilə ayrı-ayrı adamlarıq... mən sənin ağlında nə olduğunu heç vaxt başa düşə bilmədim. Mənə elə gəlir ki, sən hansısa maniyaya mübtəla olubsan.

— Boş ver görüm, — atın sağrısına söykənib ayaq- larının altına baxan Anqustina cavab verdi, — inciməyi heç ağlıma da gətirmədim.



downloaded from KitabYurdu.org

Bəli, onlar fərqli adamlardılar, fərqli əşyaları sevirdilər, onların intellektual səviyyələri və mədəniyyətləri də fərqli idi. Hətta onları daima bir yerdə görmək özü qəribə idi, çünki Anqustina bütün münasibətlərdə onu üstələyirdi. Lakin onlar dostluq eləyirdilər. Bütün ətrafındakılardan yalnız Laqorio onu instinktiv olaraq başa düşürdü, yalnız o, dostu üçün heyifsilənir və hətta tez getdiyi üçün özünü narahat da hiss eləyirdi, elə bil bunu seçilmək üçün axmaq arzusuna görə eləyirdi. Buna görə də o, özünü necəsə qərarsız hiss eləyirdi.

— Əgər Klaudinanı görərsənsə, — Anqustina hissiz səslə dedi, — salam söylərsən... amma yaxşısı budur, lazım deyil, ona heç nə demə...

— Ooo, yox, əgər görüşəriksə, o özü soruşacaq. O, sənin burda olduğunu bilir.

Anqustina susmuşdu.

— İndisə, — denşikin köməyi ilə çantasını atın yəhərinə bağlayıb qurtaran Laqorio dedi, — mənim getmək vaxtımdır, vaxt gedir. Əlvida.

O, dostunun əlini sıxdı və şıq sıçrayışla yəhərin üstünə qalxdı.

— Əlvida, Laqorio! — Anqustina qışqırdı. — Yaxşı yol!



downloaded from KitabYurdu.org

Laqorio yəhərdə belini düzəldərək Anqustinaya baxdı. Bəsirətli olması ilə seçilməsə də, tutqun daxili səsi ona deyirdi ki, onlar bir də nə vaxtsa çətin ki, görüşsünlər.

O, atını mahmızladı. Onda Anqustina qərarsız halda sağ əlini açdı, sanki yoldaşını saxlamaq, axırda ona daha nəsə demək istəyirdi. Artıq təxminən iyirmi metr uzaqlaşmış Laqorio gözünün kənarı ilə baxıb dostunun bu işarəsini gördü, atını saxladı və soruşdu:

— Nəydi? Nəyisə deməyi unutdun?

Amma Anqustina artıq əlini aşağı salmışdı və onun görünüşündən büsbütün etinasızlıq yağırdı.

— Yox-yox, — o cavab verdi, — heç nə!

— Mənə elə gəldi... — Laqorio karıxmış halda dedi və yəhərdə yırğalanaraq tələsmədən meydanı keçib getdi.

## IX

Qalanın terrasları da cənub vadisində və şimal səhrasında olduğu kimi ağappaq olmuşdu. Qar bütünlüklə xəndəklərin üzərini örtmüş, kövrək qat şəklində divarların dişləri üzərinə çökmüşdü, boğuq səslə novlarda şappıldayır, hərdənbir nəyə görəsə sərt qayalardan qopur, ağır qar uçqunları buruluraq



downloaded from KitabYurdu.org

gurultu ilə qayaların arasındakı dərələrə tökülürdü. Bu artıq birinci yox, üçüncü, ya da dördüncü qarın yağması idi. Deməк, az vaxt keçməmişdi.

— Məndə belə bir hiss var ki, mən yalnız dünən Qalaya gəlmişəm, — Droqo deyirdi.

Doğrudan da, ona elə gəlirdi ki, bura gəlişi dünən olub, amma zaman onsuz da öz axarı ilə gedirdi, hamı üçün eyni tempdə: xoşbəxtlər üçün zərrəcə də olsa ağır və ya bədbəxtlər üçün daha sürətlə getmirdi.

Budur bax — nə sürətli, nə də ağır — daha üç ay keçdi. Milad bayramı haqdakı xatirələri keçmişə qovuşdu, bir neçə anlığa adamlarda anlaşılmayan ümidlər doğuran Yeni il gəldi. Covanni Droqo artıq getməyə hazırlaşırdı: daha bir rəsmiyyətçilikdən keçməliydi, lap əvvəldə mayor Mattinin dediyi kimi tibbi müayinədən keçməliydi, yalnız bundan sonra Qalanı tərk eləyə bilərdi. O elə hey özünə təlqin eləyirdi ki, bu əladır, şəhərdə onu asan, qayğısız və yəqin xoşbəxt həyat gözləyir, amma nəyə görəsə bundan məmnunluq hiss eləmirdi.

10 yanvarda o, Qalanın yuxarı mərtəbəsində olan həkimin kabinetinə girdi. Həkim Ferdinando Rovinanın yaşı əllini keçmişdi. Onun şişkin və ağıllı sifətinə alışdığı yorğunluq öz möhürünü vurmuşdu. Hərbi geyim əvəzinə, hakimlər kimi uzun, tünd



downloaded from KitabYurdu.org

rəngli sürtuk geymişdi. Rovina üzərinə kağızlar və kitablar qalaqlanmış stolun arxasında oturmuşdu. Amma xəbərdarlıq eləmədən içəri daxil olan Droqo başa düşdü ki, həkimin heç bir işi yoxdu, sadəcə hərəkətsiz halda oturub nə haqdasa düşünür.

Pəncərə həyətə baxırdı. Orda əsgərlər ayaq döyür, axşama, növbə dəyişikliyinə hazırlıq görürdülər. Pəncərədən qarşıdakı divarın bir hissəsi, divarın üstündən də son dərəcə aydın səma görünürdü. Onlar salamlaşdılar və Droqo dərhal əmin oldu ki, onun işi haqda həkim kifayət qədər məlumatlandırılıb.

— Qarğalar yuva salırlar, qaranquşlar isə uçub gedirlər, — Rovina zarafat elədi və yeşikdən çap edilmiş bir vərəq çıxardı.

— Doktor, sizə yəqin məlumdur ki, mən bura səhvən düşmüşəm, — Droqo dedi.

— Yaxşı oğlan, hamı bura səhvən düşüb, — həkim mənalı tərzdə dedi. — Hə, bu və ya digər dərəcədə hamı, hətta burda həmişəliyə qalanlar da.

Droqo onu tam başa düşmədi və qeyri-müəyyən təbəssümlə kifayətləndi.

— Ah, mən sizi məzəmmət eləmirəm! — Rovina davam elədi. — siz gəncsiniz, doğru eləyirsiniz, burd a qocalmaq istəmirsiniz. Aşağıda, şəhərdə daha yaxş



downloaded from KitabYurdu.org

ı perspektivlər var. Bəzən mənim özümə də elə gəlir ki, əgər mən bacarsaydım...

— Nəydi, — Droqo soruşdu, — məgər siz burdan başqa yerə dəyişməyə nail ola bilmirsiniz?

Həkim əllərini yellədi, sanki bu sözü yersiz zarafat kimi qəbul elədi.

— Dəyişilməyə nail olmaq? — o, qəhqəhə ilə güldü. — Burda iyirmi beş il keçirəndən sonra? Çox gecdir, cavan oğlan, əvvəlcədən düşünmək lazım idi.

Bəlkə də həkim Droqonun onunla yenə də mü bahisə eləməsini istəyirdi, amma leytenant susdu ğundan, o işə başladı. Droqoya oturmağı təklif eləyib, onun adını və soyadını soruşaraq anketin uyğun xanalarına yazdı. Sonra dedi:

Belə, sizdə ürək-damar sistemi qaydada deyil, doğrudurmu? Sizə yüksək dağ iqlimi zərərdimi? Belə də yazırıq, hə?

— Neyləmək olar, yazın, — Droqo razılaşdı, — həkim sizsiniz, siz bilərsiniz.

— Bir halda ki, məsələ belədir, sizə sağlamlığınızı bərpa eləmək üçün məzuniyyət lazımdır, — həkim göz vurdu.

— Sağ olun, — Droqo dedi, — amma mən sui-istifadə eləmək istəməzdim...



downloaded from KitabYurdu.org

— Kef sizindir. Demək, məzuniyyət lazım deyil. Mən sizin yaşınızda olanda belə prinsipial deyildim.

Covanni oturmaq əvəzinə pəncərəyə yaxınlaşdı; hərdənbir aşağı baxırdı, orda ağ qarın üzərində əsgərlər cərgə ilə düzülmüşdülər. Günəş təzəcə batmış, Qalanın həyətinə mavitəhər toranlıq çökürdü.

— Sizin kimilərin yarıdan çoxu üç-dörd aydan sonra getmək istəyirlər, — həkim xəfif kədərlə dedi; indi toranlıq onu da bürümüşdü, belə vəziyyətdə onun necə yazdığı aydın deyildi. — Bax, biri mən, əgər gəncliyimi qaytarmaq olsaydı, eynən sizin kimi eləyərdim... hərçənd ümumi götürəndə bu düzgün deyil.

Droqo heç bir maraq göstərmədən qulaq asırdı, çünki bütünlüklə pəncərədən görünən mənzərəyə dalmışdı. Ona elə gəlirdi, onun gözlərində həyəti əhatəyə almış sarıtəhər divarlar büllur göyə doğru qalxdıqca qalxırlar, onların üzərində, orda, uzaqlarda, bir az da yüksəklikdə isə onun indiyə kimi diqqətini cəlb eləməyən tək qüllələr, başlarına qardan tac qoyulmuş yamaclar, hava xəndəkləri və qalaçalar yüksəlirdi. Qürubun axırıncı şəfəqləri hələlik onları işıqlandırırdı və onlar sirli, ağlasığmaz dərəcədə təbii işıqla şəfəq saçırdılar. Droqo Qalanın



downloaded from KitabYurdu.org

bunca mürəkkəb və nəhəng olduğunu təsəvvür belə eləməzdi. Tamamilə əlçatmaz yüksəklikdə vadiyə baxan pəncərə (ya da mazğal) gördü. Orda da yəqin adamlar var idi, ona naməlum olan, hətta gənc zabitlər, hansı ki, onlarla dostluq da eləmək olardı. İstehkamlar arasındakı uçurumların kölgələrinin dəqiq həndəsi cizgilərini gördü, damlar arasından asıla qalan yellənən körpülər, qəribə, lap divarların kənarlarında qoyulmuş sütunlar, iti, zaman keçdikcə əyilən çıxıntılı divar dişləri.

Fənərlərin və məşəllərin işığında həyətin bozçəhrayı dərinliyində süngüsünü göstərən cüssəli və qürurlu əsgəri gördü. Ağ qarın fonunda qara, hərəkətsiz cərgələri dəmirdən tökmüşdülər. Onlar çox gözəl idilər. Əsgərlər daş heykəllər kimi dayanmışdılar. Bu zaman şeypur da çaldı və şeypurun havaya yayılan təbii, ahəngdar səsi birbaşa ürəyinə işləyirdi.

— Vəssalam, siz tədricən burdan gedəcəksiniz, — Rovina alatoranlıqda mızıldandı, — sonda yalnız biz qalacağıq, qocalar. Bu il...

Aşağıda, həyətdə şeypur çalırdı, bu təmiz səs — dəmirin və insanın səsi qarışaraq adamın qəlbində cəngavərlik ruhunu oyadırdı. Səslər susandan sonra ətrafda, hətta həkimin kabinetində də hələ də hansısa



downloaded from KitabYurdu.org

izah olunmayan sehr, ovsun dolaşırdı. Elə sakitlik oldu ki, donmuş qarın üzərindəki addım səslərini belə ayırd eləmək olardı. Polkovnik özü də keşikçi dəstələrini salamlamaq üçün aşağı düşdü və yenidən qeyri-adi dərəcədə gözəl olan üç səs göylərə yüksəldi.

— Sizlərdən kim qalacaq? — həkim gileylənməyə başladı. — Leytenant Anqustina, tək o. Bu il mən əminəm ki, Moreli də şəhərə müalicəyə göndərmək lazım gələcək. Mərc gələrəm ki, o da xəstələnəcək.

— Morel? — necəsə söhbətə qoşulmaq üçün Droqo təkrar soruşdu. — Morel xəstələnəcək? — Bu axırıncı sözdən başqa, o heç nə eşitməmişdi.

— Əlbəttə yox, — həkim dedi. — Məcazi mənada deyirəm.

Hətta bağlı pəncərədən belə polkovnikin şüşəyə dönmüş qarın üzərindəki addım səsləri eşidilirdi. Toranlıqda bir birinə yapışdırılmış süngülər gümüşü şəbəkəni xatırladırdı. Uzaqlarda şeypur səsi əkssəda verirdi — şübhəsiz, divarların dolanbaclarında əks olunan elə həmin səsdi.

Həkim susdu, sonra ayağa qalxdı.

— Bu da qərar, indicə polkovnikin yanına aparacağam qol çəkdirməyə. — Bu sözlərlə də vərəqi qatlayıb konvertə qoydu, asılqandan şinelini və xəz şapkasını götürdü.



downloaded from KitabYurdu.org

— Leytenant, siz mənimləsiniz? Siz hara baxırsınız?

Dəyişən keşikçilər silahlarını təhvil verir və müxtəlif tərəflərə gedirdilər. Onların addım səsləri bir-birinə qovuşaraq boğuq səs çıxarırdı, amma bütün səslərin üzərində də şeypurun səsi hökmranlıq eləyirdi. Sonra — bu nəsə ağlasığmaz idi — artıq qaranlığa qərq olan divarlar ağır-ağır yüksəkliklərə doğru qalxırdı, damların kənarlarından sallanan qar haşiyələrindən ulduzlararası boşluqlarda süzən meteora oxşayan ağ buludlar ayrılırdı.

Droqonun xəyalından öz doğma şəhərinin mənzərələri keçib getməyə başladı — sönük xatirələrdi: yağışa düşmüş səs-küylü küçələr, gips heykəllər, rütubətli kazarmalar, solğun zənglər, yorğun, əzgin sifətlər, sonsuza qədər uzanan gecələr, hisdən qaralan tavanlar.

Burda, dağda isə buludlarıyla Qalanın üzərinə hücum çəkən, nəsə bir qeyri-adilik vəd eləyən əzəmətli gecə başlayırdı. Ordan, şimal divarlarının arxasından görünməyən sirli şimaldan — o bunu hiss eləyirdi — taleyi ona doğru gəlirdi.

— Həkim, həkim, — Droqo dillənə bildi, — mən sağlamam.



downloaded from KitabYurdu.org

— Mən bunu bilirəm, — həkim cavab verdi. — Bəs siz necə düşünürdünüz?

— Mən sağlamam, — Droqo, az qala, öz səsini tanımadan təkrar elədi. — Mən sağlamam və qalmaq istəyirəm.

— Burda, Qalada qalmaq istəyirsiz? Siz fikrinizi dəyişdiniz, getmək istəmirsiniz? Sizə nə oldu?

— Bilmirəm, — Droqo cavab verdi. — Amma mən gedə bilmərəm.

— O-o! — Rovina ona yaxınlaşaraq səsləndi. — Əgər Allah eləməmiş, siz zarafat eləmirsinizsə, mən buna yalnız şad olaram.

— Yox, zarafat eləmirəm, — həyəcanının əvəzinə qəribə, fərəhə oxşayan yorucu bir hissin gəldiyini hiss eləyən Droqo dedi. — Həkim, bu kağızı ata bilərsiniz.

## X

Bu, baş verməyə bilməzdi! Bu, yəqin hələ Droqo ilk dəfə ortislə birlikdə Qalaya yaxınlaşanda və Qala onun qarşısında günortaçağının göz qamaşdıran şəfəqləri ilə dayanan həmin o gündə müəyyən olunmuşdu.



downloaded from KitabYurdu.org

Droqo qalmağa qərar verdi. Lakin istək, qəhrəmanlıq haqdakı arzu bu məsələdə kifayət deyildi. Bu anda o, öz hərəkətini hər cür tərifə layiq hesab eləyirdi və özündə bunca alicənablıq ola biləcəyinə hələ heyrətlənirdi də. Yalnız çoxlu aylar keçəndən sonra geriyə baxanda, əslində onu Qalada necə də dəyərsiz xırda şeylərin saxladığını başa düşəcəkdi.

Lap şeypurlar həyəcan siqnalı versəydilər də, lap hərbi marşlar guruldasaydı da, şimaldan gələn təhlükə haqda xəbər versəydilər də, bu onu saxlaya bilməzdi, amma artıq mühafizəkarlıq, hərbi şöhrətpərəstlik onda öz köklərini atmış, onun gündəlik həyatının adi atributuna çevrilmişdi. Xidmətin səlis ritminin onu udması üçün dörd ay bəs eləmişdi.

O, keşikdə növbə çəkməyə alışmışdı, halbuki əvvəlcə bu, ona dözülməz dərəcədə yorucu gəlirdi, tədricən nizamnamənin tələblərini mənimsəyirdi, sevimli deyimləri və rəhbərliyin qəribəliklərini, istehkamın topoqrafiyasını, keşikçilərin növbə çəkdikləri yerləri, küncləri, küləkdən harda qorunmaq mümkün olduğunu, şeypurun siqnallarını öyrənmişdi. Xidmətin sirlərinə sahib olduqca da necəsə xüsusi bir məmnunluq hissi keçirirdi. Əsgər



downloaded from KitabYurdu.org

və serjantlar da ona hörmət eləməyə başlamışdılar. Tronk özü Droqonun ciddi və səliqəli adam olduğuna əmin olandan sonra bir yaxın adamı kimi ona bağlanmışdı. Droqo qarnizonun zabitləri ilə sıx qaynayıbqarışmışdı, indi hətta onların ən kəskin zarafatları və işarələri belə ona gözlənilməz gəlmirdi, axşamlar onlar birlikdə uzun müddət uzaqdan sonsuz maraq bəslədikləri şəhər həyatını müzakirə eləyirdilər.

O, yaxşı masaya və münasib yeməkxanaya, zabitlər üçün nəzərdə tutulan qonaq otağındakı rahat sobaya alışmışdı; tədricən onun bütün istəklərini öyrənən, qayğıkeş və yaxşı oğlan olan Ceronimo adlı denşikin sayəsində soba bütün gün ərzində yanırdı.

Morellə birlikdə hərdənbir atla yaxınlıqdakı kəndə getməyə alışmışdı, düz iki saata getdikləri bu dar dərə yolunu o, indi özünün beş barmağı kimi tanıyırdı, nəhayət yeni adamları görməyin mümkün olduğu meyxanaya alışmışdı, burda çox gözəl şam yeməyi verirdilər və həmişə qonaqlarla sevişməyə hazır olan qızların şən gülüşləri cingildəyirdi.

Qalanın qabağındakı boş sahədə atları dəlicəsinə çapmağa alışmışdı, boş vaxtlarında orda yoldaşları ilə məharətləri üstə bəhsləşə bilirdilər. Şahmat arxasında keçirdiyi sakit gecələrə alışmışdı.



downloaded from KitabYurdu.org

Doğrudur, belə gecələrdə partiya Droqonun qələbəsi ilə başa çatanda inciklik olmadan keçinmək olmurdu (Kapitan ortis deyirdi: “Təzə gələnlərinki həmişə gətirir. Hamı bundan keçir, hər kəs özü haqda dahi oyunçu kimi düşünür, amma məsələ təzə gələndədir... zaman keçdikcə digərləri də onun üsullarını mənimsəyirlər və gözəl günlərin birində artıq onun oyunu alınmır”).

Öz otağına və gecələr asudə kitab oxumağa, çarpayının üzərindəki tavanda türkün başını xatırladan çatlağa, zaman keçdikcə də tamamilə adi hal hesab elədiyi çənin bul-bul eləməyinə, döşəkdə öz bədəninin yaratdığı çökəyə, əvvəlcə özünü narahat hiss elədiyi, indisə yumşaq və itaətkar hesab elədiyi yatağına, ağ neft lampasını yandıranda və ya kitabları şkafa qoyanda əllərinin dəqiq və artıq avtomatik hərəkətlərinə alışmışdı. Artıq səhərlər üzünü qırxmaq üçün işıq lazım olan tərəfdən düşsün deyə güzgünün qabağında necə dayanmaq lazım olduğunu, bardaqdan ləyənə suyu necə döşəməyə sıçratmadan tökməyi, cüzi aşağı verərək şkaflardan birinin sözə baxmayan qıfılını necə açmağı bilirdi.

Rütubətli havalarda qapıların cırıldamasına, pəncərədən boylanan ayın döşəmədə hansı yerə işıq salmasına və vaxt keçdikcə ay işığının öz yerini



downloaded from KitabYurdu.org

ağırağır dəyişərək hərəkət eləməsinə, aşağıdakı otaqda podpolkovnik Nikolozinin gecə düz saat ikinin yarısında heyrətləndirici bir sabitliklə daima özünü hiss elətdirən köhnə yarasının ucbatından qurdalanmasına, onu da yuxudan oyatmasına öyrəşmişdi.

Bütün bu şeylər artıq onun özünün bir hissəsinə çevrilmişdilər və onlardan ayrılmağa artıq heyfi gəlirdi. Lakin Droqo bu haqda özünə hesabat vermir və burdan getməyin onun üçün çətin olacağına hətta şübhələnmirdi; onu da bilmirdi ki, Qala həyatı bir qaydada keçən bu günləri iti sürətlə udur. Dünənki, srağagünkü gün də eyni gün idi, bir gününü digərindən ayıra bilmirdi, üç gün və ya iyirmi gün bundan əvvəl nə olmuşdusa, onun üçün bərabər ölçüdə uzaqda idilər. Zaman keçir və keçirdi, amma Droqo bunun fərqində deyildi.

Hələliksə budur, o özünəgüvənli və qayğısız halda aydın şaxtalı gecədə üçüncü istehkamın maneə xəndəyində dayanmışdı. Donmamaq üçün keşikçilər dayanmadan gəzişirlər və qar onların ayaqları altında xırçıldayır. Nəhəng və tamamilə ağ ay yeri işıqlandırır. Qalaça da, qayalar da, şimaldakı daşlı vadi də ecazkar işığa qərq olublar, hətta səhranın



downloaded from KitabYurdu.org

şimal tərəfindəki daimi duman örtüyü də hərdənbir zəif işıqla işıldayır.

Aşağıda, növbətçi zabitin otağında bütün gecə lampa yanır, alovun dilləri yüngülcə titrəyir, buna görə də divarda kölgələr oynaşır. Droqo təzəcə məktub yazmağa başlamışdı — dostu Veskovinin bacısı Mariyaya cavab yazmaq lazım idi. Mariya vaxt keçdikcə, yəqin ki, ərə gedəcəkdi. Amma bir neçə sətir yazandan sonra özü də bilmədən nəyə görəsə masanın arxasından ayağa durub dama qalxdı.

Bu, istehkamda ən alçaq yer idi, aşırımın çuxuru ilə bir bərabərdə idi. İki dövlət arasındakı darvaza məhz burdaydı. Darvazanın dəmirdən üzlük çəkilmiş qalın layları çoxdan bəri açılmırdı. Yeni istehkamda növbə çəkən keşikçi dəstəsi isə hər gün keşikçi tərəfindən qorunan dar yan qapıdan gedir və qayıdırdılar, bu qapıdan yalnız bir-bir keçmək olardı.

Droqo ilk dəfəydi dördüncü istehkamda növbədəydi. Meydançaya çıxan kimi də başdan-başa buzla örtülmüş sağ tərəfə və ay işığında işıldayan qayalara baxdı.

Səmada balaca ağ buludları qovan külək onun şinelinin — onun üçün çox əhəmiyyəti olan yeni şinelinin ətəklərini oynadırdı.



downloaded from KitabYurdu.org

O, hərəkətsiz dayanmış və irəlidə, sirli şimalın uzaqlarından yüksələn sıldırım dağların silsiləsinə baxırdı. Şinelinin çiyinliyi isə küləkdə dalğalanan bayraq kimi şappıldayırdı. Bu axşam Droqo özünü gözəl və qoçaq hiss eləyir, boyunluğunu külək yelləyən gözəl şineli əynində, sinəsini qabağa verərək baxış meydançasının sürahisinin yaxınlığında dayanmışdı. Özünün geniş paltosuna bürünmüş Tronk da onunla yanaşı dayanmışdı. O hətta əsgərə də oxşamırdı.

— Tronk, deyin görüm, — Covanni süni qayğıkeşliklə dedi, — bu, optik aldatmadır, ya ay bu gün, doğrudan da, adətən olduğundan böyükdür?

— Elə olduğunu düşünmürəm, cənab leytenant, — Tronk cavab verdi, — burda, Qalada o, deyəsən, həmişə bu boyda olur.

Onların səsi olduqca ucadan çıxırdı, sanki hava şüşədən idi. Tronk daha leytenanta lazım olmadığına əmin oldu və daima keşikçilərin necə növbə çəkdiklərini yoxlamaq istəyi ilə meydançanın kənarı boyunca getməyə başladı.

Təklikdə qalan Droqo özünü, demək olar ki, xoşb əxt hiss eləyirdi. O, özünün qalmaq qərarından qürurla həzz alır, ona vəd olunan kiçik sevinclərini naməlum və uzaq perspektivlərin nəhəng



downloaded from KitabYurdu.org

xoşbəxtliyinə dəyişdiyindən cansıxıcı bir məmnunluq duyurdu. (Amma bu zaman onun beynində burdan getməyə hər vaxt imkan tapacağı fikri baş qaldırmırdı ki?)

Bu qabaqcadan hiss eləmə, yoxsa bu yalnız ümid? Alicənablıq və böyük arzuları həyata keçirmək qərarı onu burda, Qalada saxlamışdı, amma bu qərara sadəcə onun gedişini təxirə salması da ola bilərdi, axı həqiqətən də, onun qarşısındakı bütün yollar hələlik açıqdı. İrəlidə isə vaxtı hələ çox idi. Elə görünürdü dünyada yaxşı nə vardısa, onu gözləyirdi. Hara tələsməliydi? Hətta qadınlar, həyatın normal gedişinin ona hazırladığı varlıqlar kimi bu əziz və anlaşılmaz məxluqlar da onu gözləyirdilər — o, buna əmin idi.

Hələ irəlidə onun nə qədər vaxtı var idi! Hətta bir il də — olduqca çox ömür idi, onunsa ən yaxşı illəri axı hələ indi başlayırdı. Bu illər onun təsəvvüründə sonunu görmək belə mümkün olmayan uzun növbə yaratmışdılar, əl dəyməmiş xəzinə kimi... hələ bir onu təngə gətirəcək nəhəng xəzinə kimi.

Elə birisi yox idi ki, ona desin: "ehtiyatlı ol, Covanni Droqo!" Həyat ona bitib-tükənməz kimi görünürdü. Necə də inadcıl yanılma idi, axı gənclik artıq solmağa başlayırdı. Ancaq Droqo vaxtın nə



downloaded from KitabYurdu.org

olduğunu bilmirdi. Hətta allahlarda olduğu kimi, onun da yüz illərlə belə ölçülməsi mümkün olmayan gəncliyi irəlidə olsaydı da, zaman ləng keçən kimi görünməzdi. Amma onun sərəncamında yalnız cüzi bir hədiyyəsi — qısa gənclik olan adi bir insan ömrü var idi, illərini əldəki barmaqlarla belə saymaq olardı və onlar da elə sürətlə keçəcəkdilər ki, heç hiss eləməyəcəkdi.

"İrəlidə hələ çox vaxt var, — o düşünürdü, — bəs deyirlər dünyada elə insanlar var (di, qəribə adamlar deyildilərmi?), hansısa andan ölümü gözləməyə başlayırlar"; hansı ki, bu bayağı və mənasız təzahürün ona heç bir aidiyyatı yox idi. Droqo bu haqda düşünərkən gülümsədi, artıq soyuq ona təsir eləməyə başladığından meydançanı addımları ilə ölçməyə başladı.

BuyerdəQaladivarlarımeydançalarınvəterrasları n mürəkkəb sistemini yaradaraq aşırımın relyefini təkrar eləyirdi. Yuxarıdan Droqo ay işığında uzanan keşikçilər zəncirinin qar üzərində necə qaraldığını aydın görürdü. Onların ritmli addımlarının altında qarın donan qabığı xırçıldayırdı.

Droqonun birbaşa aşağısında, terrasda, on metr aralıda olan yaxındakı keşikçiyə, görünür, soyuq elə də təsir eləmirdi və o, divara söykənərək hərəkətsiz



downloaded from KitabYurdu.org

halda dayanmışdı, hətta elə görünürdü ki, yatıb. Amma Droqo keşikçinin batıq səslə astadan hansısa həzin mahnını oxuduğunu eşidirdi.

Droqonun, sözlərini ayırd eləyə bilmədiyi mahnıda uzun və sonsuz motiv yığılıb qalmışdı. Növbədə olanda danışmaq, xüsusilə də oxumaq ciddi qadağan olunurdu. Əsgəri cəzalandırmaq lazım gəlirdi, amma Droqonun ona yazığı gəldi, axı keşikçi bu gecə vaxtı soyuq və təklikdən əzab çəkir. Qısa pilləkənlə terrasa düşərkən bilərəkdən öskürdü ki, əsgəri qəfildən yaxalamasın. Keşikçi geri döndü və zabiti görəndə qaydaya uyğun olaraq oxumağına ara vermədi. Droqo hirsləndi: bu əsgərlər özlərini nə hesab eləyirlər? Elə düşünürlər ki, onları lağa qoya bilərlər? Bax indicə ona göstərər!

Keşikçi dərhal hiss elədi ki, Droqonun sifəti yaxşı heç nə vəd eləmir və rəsmiyyət tələb eləsə də, çoxdankı sözsüz razılığa görə keşikçi ilə keşiyin rəisi arasında parol tələb olunmurdu, amma əsgər hərbi ritualı bütün ciddiyyəti ilə yerinə yetirərək tüfəngini ona tuşladı və Qalada qəbul olunan xüsusi səslə soruşdu:

— Dayan, gələn kimdir?

Özünü itirən Droqo heykəl kimi donub-qaldı. İndi onu əsgərdən uzağı beş metr məsafə ayırırdı və



downloaded from KitabYurdu.org

aydın ay işığında Droqo onun üzünü, kip sıxılmış dodaqlarını görə bilirdi, amma mahnı kəsilmirdi. Bəs səs hardan gəlirdi?

Bu qəribəliyi düşünən Covanni — keşikçi hələ də hazır vəziyyətdə dayanmışdı — mexaniki olaraq parolu təkrarladı: “Möcüzə”. “Müqəvva”, — keşikçi cavab verdi və tüfəngi endirib qıçına söykədi.

Aralığa çökən sükutda əvvəl olduğu kimi mahnı indi də, amma hətta daha da güclü uğultu ilə eşidilməyə başladı.

Nəhayət, Droqo hər şeyi başa düşdü və onun kürəyində ağır-ağır soyuq hərəkət eləməyə başladı. Hə, axı bu, suyun səsiydi, gurultu ilə yaxınlıqdakı qayalıq yamaclardan tökülən uzaq şəlalənin səsi. Külək uzun su şırnağını titrədir, daşların su şırnağının zərbələri altda çıxartdığı müxtəlif səslər sirli əks-səda verir və bütün bunlar da zümzümə eləyən, hansısa sözü, bizim həyatın sözünü zümzümə eləyən insan səsinin illüziyasını yaradırdı və həmişə olduğu kimi adama elə gəlirdi ki, bir azacıq da qulaq versən, bu səsləri başa düşəcəksən, indisə o, başa düşəsi halda deyildi.

Belə çıxırdı soyuğu, cəzanı, sevgini hiss eləməyə qadir olan insan yox, ona düşmən olan dağlar mahnı oxuyurdu. “Necə də ağır səhvdir, — Droqo düşündü,



downloaded from KitabYurdu.org

— bəlkə elə həyatda da eynən belədir, biz hesab eləyirik ətrafımızdakı adamlar da bizim kimi adamlardılar, amma onların əvəzinə anlaşılmayan dildə danışan yalnız soyuqdur, yalnız daşlardır. Dostunun əlini sıxmaq istəyirsən, amma sənin irəli uzanan əlin ixtiyarsız halda yanına düşür və sifətindəki təbəssüm keçir, belə məlum olur ki, ətrafında heç kim yoxdur və sən beləcə təksən”.

Külək qəşəng zabit şinelini qabardır və onun qar üzərindəki göy kölgəsi bayraq kimi çırpınırdı. Keşikçi hərəkətsiz dayanmışdı. Ay tələsmədən, amma maili vəziyyətdə dan yerini qarşılamağa gedirdi. “Tıq-tıq” — Covanni Droqonun ürəyi sinəsində döyünürdü.

## XI

Təxminən iki ildən sonra Covanni Droqo gecə Qalada, öz otağında yatmışdı. Heç bir yenilik gətirməyən tam iyirmi iki ay keçmiş, o isə hələ də nəsə gözləyirdi, sanki həyat məhz ona xüsusi səxavət göstərməyə borcluydu. Amma iyirmi iki ay az müddət deyildi, bu müddət ərzində çox şey baş verə bilərdi: ailələr qurular, uşaqlar doğular və hətta danışmağa başlardılar. Orda, boş sahədə böyük ev



downloaded from KitabYurdu.org

yüksəlir, gözəl qız qocalır və daha heç kimə lazım deyil, xəstəlik, hətta ən uzunçəkəni də (adam buna məhkum olunsa da, bundan xəbər tutmadan qayğısız halda yaşayır) orqanizmi tədricən içindən yeyir, qısa müddətə insanın yaxasını buraxaraq sağalması illüziyasını yaradır, sonra isə yenidən, daha dərinə işləyir və axırıncı ümidləri də yoxa çıxarır. Bu müddət ərzində insanı dəfn eləmək və öləni elə unutmaq olardı ki, onun oğlu gülməyə başlardı və axşamlar rahat halda qəbiristanlıq hasarlarının yaxınlığındakı xiyabanda qızlarla əylənərdi.

Droqonun həyatı isə elə bil dayanmışdı. Sanki həmin o günün hadisəsi cüzi bir dəyişiklik olmadan yüzlərlə dəfə təkrarlanmışdı. Zamanın çayı Qalanın üzəriylə axırdı, tədricən onun divarlarını dağıdır, tozu və daş qırıqlarını aşağı tökür, pilləri və zəncirləri cilalayırdı, amma Droqo hələ qanını qaraltmırdı, zaman hələ ki, onu öz burulğanına dartıb sala bilmirdi.

Əgər Droqo yuxu görməsəydi, bu gecə də o biri gecələr kimi keçəcəkdi. O, yuxuda özünü yenə də pəncərə altlığının üzərində oturan uşaq kimi gördü.

Ay işığında onun evi ilə birbaşa üzbəüz çox gözəl bir sarayın fasadı işıq saçırdı. Droqonın bütün diqqəti üst tərəfləri mərmərlə haşiyələnmiş hündür



downloaded from KitabYurdu.org

dar pəncərəyə cəmlənmişdi. Pəncərədən süzülən ay işığı, üzərinə süfrə salınmış masanı, onun üzərindəki güldanı və fil sümüyündən olan bir neçə heykəli işıqlandırırdı. Hətta onun görə bildiyi bu elə də çox olmayan əşyalara görə orda nə olduğunu təxmin eləmək olardı: müxtəlif qiymətli əşyalarla dolu, çoxlu sayda otaqları olan sarayın birinci otağı, geniş salon qaranlığa qərq olmuş və bütün ev yuxuya dalmışdı, adətən bütün xoşbəxt və varlı adamların yatdıqları həmin dərin və həsəd aparılası yuxuya. Droqo düşündü: bu salonlarda yaşamaq, saatlarla orda gəzib dolaşmaq, özün üçün elə hey yeni xəzinələr kəşf eləmək necə də gözəldir.

Amma burda pəncərə ilə ondan hardasa iyirmi metr uzaqlıqda olan gözəl sarayın arasında yırğalanan xəyalatlar peyda olmağa başladı.

Real dünyada heç vaxt rastlaşmadığı varlıqları yuxuda görməsi Droqonu heyrətləndirmədi. Onlar inadla dar pəncərənin ətrafında fırlanır, havada yavaş-yavaş bir dəstəyə toplaşırdılar.

Öz təbiəti etibarilə bu gördükləri saraya necəsə təbii aidiyyatı olanlar idi, amma hər halda, onların Droqoya heç bir əhəmiyyət verməmələri və hətta bircə dəfə də olsun onun evinə yaxınlaşmamaları ona toxunurdu. Belə çıxırdı hətta xəyalatlar da adi



downloaded from KitabYurdu.org

uşaqlardan qaçırlar və onlar haqda düşünməyən, ipək yatacaqlarda özləri üçün yatanlara doğru can atırdılar.

— Ey, ey, — xəyalatların diqqətini özünə cəlb eləmək üçün Droqo cəsarətsiz halda səsləndi, lakin bunun mənasız olduğunu da dərk eləyirdi.

Doğrudan da, onlar elə bil heç nə eşitmirdilər və onlardan heç biri onun pəncərəsinə bir metr belə yaxınlaşmadı.

Amma budur, həmin sehrli varlıqlardan biri həmin dar pəncərənin yanlığına yapışdı və sanki kimisə çağırırmış kimi qəribə bənzəyişli əli ilə şüşəni döydü.

Demək olar dərhal da çox zəif, cılız birisi — böyük pəncərələrin fonunda olduqca kiçik görünən birisi şüşənin arxasından göründü, Droqo Anqustinanın uşaqlığını tanıdı.

Qeyri-adi dərəcədə solğun olan Anqustina ağ, krujevalı yaxalığı olan məxmərdən tikilmiş kostyumda idi, Droqonun anladığı qədəriylə pəncərənin önündəki bu dəsgah onun ürəyincə deyildi.

Covanni yoldaşının, heç olmasa, nəzakət xatirinə onu xəyalatlarla oynamağa çağıracağına ümid eləyirdi. Lakin əsla elə olmadı. Anqustina sanki heç



downloaded from KitabYurdu.org

dostunu görmürdü və hətta Covannı onu “Anqustina! Anqustina!» deyə çağıranda da dönüb ona tərəfə baxmadı.

Anqustina ölüvay bir hərəkətlə pəncərəni açdı və necəsə özünə məxsus tərzdə pəncərənin yanlığına yapışmış xəyalata tərəf əyildi, sanki onunla danışmaq istəyirdi. Xəyalat nəyisə göstərdi və Droqo onun işarə elədiyi istiqamətə baxanda evin qabağında geniş, tamamilə boş olan bir meydan gördü. Bu meydanın bir on metr yüksəkliyində hava ilə yeni xəyalatlar dəstəsi hərəkət eləyirdi. Onlar elə görünüşündən özlərindən hazırlandıqlarına bənzər kəcavə aparırdılar. Kəcavə bütünlüklə məxməri lentlərlə və quş lələyindən olan bəzəklərlə bəzədilmişdi. Sifətində özünəxas adamayovuşmazlıq və süstlük ifadəsi olan Anqustina yaxınlaşan mərasimə baxırdı. Kəcavənin onun üçün gəldiyi aydın idi.

Belə ədalətsizlik Droqonu möhkəm incitdi. Niyə ona heç nə, amma hər şey Anqustina üçün? Yenə başqası olsaydı, dərd yarıydı, amma niyə məhz həmişə belə təkəbbürlü, lovğa olan Anqustina!.. Droqo ona tərəfdar olacaq kimisə axtarmaq ümidiylə digər pəncərələrə baxdı, amma daha heç kim yox idi.



downloaded from KitabYurdu.org

Nəhayət, kəcavə havada yırğalanaraq pəncərənin yanında dayandı və bütün xəyalatlar bir anda kəcavənin ətrafına yığışdılar, indi onlar titrəyən çələngi xatırladırdılar. Onlar bütün diqqətlərini Anqustinanın üzərində cəmləmişdilər, amma bu diqqətdə artıq əvvəlki ehtiram yox, acgözlük, hətta xoşagəlməz bir maraq var idi. Başlı-başına buraxılmış kəcavə sanki gözə görünməyən iplərlə havadan asılmışdı.

Droqo birdən həsəd aparmağa son qoydu, çünki artıq nələr baş verdiyini dərk eləyə bildi. O, bütün boyu ilə pəncərə altlığının üzərində dayanmış Anqustinanı gördü, onun kəcavəyə dikilmiş gözlərini gördü. Bəli, kabusların elçiləri bu gecə məhz onun üçün gəlmişdilər, amma hansı missiya ilə!? Onun uzaq yola kəcavə ilə aparıldığı görünürdü və o daha bir də geri qayıtmayacaqdı: nə dan yeri söküləndə, nə növbəti gecə, nə də o biri gecə — heç vaxt qayıtmayacaqdı. Sarayın salonu səbrlə öz balaca sahibini gözləyəcək, iki qadın əli ehtiyatla qaçan adamın açıq qoyduğu pəncərəni bağlayacaqdı, hə, qaranlıqda göz yaşlarını və ümidsizliklərini gizləmək üçün bütün digər pəncərələri də bağlayıb rəzələrini keçirəcəkdilər.



downloaded from KitabYurdu.org

Belə çıxır ki, əvvəlcə mehriban görünən xəyalatlar ay işığı ilə oynamaq üçün gəlməyiblərmiş; bu günahsız varlıqlar ətirli bağlardan yox, cəhənnəmdən gəlmişdilər.

Başqa uşaqlar ağlamağa, analarını çağırmağa başlardılar, Anqustina isə qorxmadı, xəyalatlarla sakitcə söhbət eləyir, sanki hansısa detalı dəqiqləşdirmək istəyirdi. Şişən köpüyü xatırladan xəyalatlar pəncərəyə yapışaraq sıxlaşır, bir-birlərini itələyərək uşağa yaxınlaşırdılar. Anqustina isə elə hey baş endirir, sanki demək istəyirdi: yaxşı, yaxşı, hər şey qaydasıncadır.

Nəhayət, pəncərənin kənarına ilk yapışmış olan xəyalat — yəqin, onların başçısı idi — qısa, amiranə tərzdə işarə elədi. Anqustina sifətində həmin üzücü ifadə pəncərə altlığının üzərindən keçərək (görünür, o da xəyalatlar kimi çəkisiz olmuşdu) vüqarla kəcavəyə mindi və ayağını ayağının üzərinə aşıraraq oturdu. Xəyalatlar salxımı həyəcanlandı, lələklərin arasına yayıldılar və tilsimlənmiş kəçavə yüngülcə yerindən tərpəndi.

Yenidən mərasim düzənləndi, mərasim yarımdairə şəklini alaraq evlərin arasına yayıldı, səmaya, aya doğru uzandı. Bu qövs üzrə hərəkət eləyən kəcavə Droqonun pəncərəsinin bir neçə



downloaded from KitabYurdu.org

metrliyindən üzüb keçirdi, Droqo əllərini yelləyərək sanki dostuna çağırış göndərməyə cəhd eləyirdi: “Anqustina! Anqustina!”

Yalnız bu zaman ölən dostu başını Covanniyə tərəf döndərdi və bir anlığa ötəri, ciddi baxışlarını onun üzərində saxladı. Amma tədricən Anqustinanın üzündə müəmmalı bir təbəssüm canlandı. O sanki Droqoya başa salmağa çalışırdı ki, onların ikisinə xəyalatların bilmədiyi çox şeylər məlumdur; bu zarafat eləməyə axırıncı cəhd idi, onun, Anqustinanın heç kimin mərhəmətinə ehtiyacı olmadığını göstərməyə axırıncı imkan idi. Sanki o demək istəyirdi: bu, ən adi işdir, hətta buna heyrətlənmək axmaqlıqdır.

Kəcavə getdikcə Anqustinanı uzaqlaşdırırdı və budur, o artıq baxışlarını Droqodan çəkdi və şən, amma inamsız maraqla irəli, mərasimin hərəkət elədiyi istiqamətə baxmağa başladı.

Onda, ümumiyyətlə, lazımsız bir oyuncaq hədiyyə alan, amma nəzakət xatirinə ondan imtina eləyə bilməyən uşaq görünüşü vardı.

Bax beləcə Anqustina insan qüvvəsinin xaricində olan hansısa alicənablıqla gecənin qaranlığına dalırdı, hətta dönüb öz evinə, aşağıda mürgüləyən meydançaya, başqa evlərə, öz doğma şəhərinə belə



downloaded from KitabYurdu.org

baxmadı. Mərasim ağır-ağır ilan şəklində səmaya yüksəlir, getdikcə daha da yüksəklərə qalxırdı və qadın paltarının çəkilib uzadılmış dal ətəyinə, sonra qatı dumana çevrildi və yoxa çıxdı.

Pəncərə açıq qalmışdı, ay şəfəqləri hələ də yuxuda olan masanın, güldanın, fil sümüyündən olan heykəllərin üzərinə düşürdü. Orda, arxadakı başqa otaqda şamların titrəyən işıqlarında çarpayıda üzdən Anqustinanı xatırladan balaca insanın cansız bədəni uzanmışdı. Yəqin, onun əynində böyük krujevalı yaxalığı olan məxmər kostyum vardı, dodaqlarında təbəssüm donub-qalmışdı.

## XII

Növbəti gün Covanni Droqo Yeni istehkamda keşik növbəsinin komandiri idi. Bu, Qaladan piyada qırx beş dəqiqəlik yolda olan kiçik qalaça idi, Tatar çölünün lap üstündəki sıldırım qayalı dağın başında ayrıca inşa edilmişdi. Bu, hücum anında qarşısında ilk həyəcan siqnalı vermək tapşırığı qoyulan, tamamilə müstəqil olan baş keşikçi postu idi.

Axşamüstü Droqo yetmiş nəfərdən ibarət olan (iki topçudan savayı, Yeni istehkamda məhz bu qədər əsgər tələb olunurdu, orda on keşikçi postu var



downloaded from KitabYurdu.org

idi.) öz dəstəsi ilə Qaladan çıxdı. O, ilk dəfə idi ki, Qaladan kənara çıxırdı və mahiyyət etibarilə ilk dəfə idi ki, sərhədi adlayıb keçirdi.

Covanni burda növbə çəkməyin bütün məsuliyyətini dərk eləyirdi, amma onun fikri, əsasən, Anqustina ilə bağlı yuxuda qalmışdı. Yuxu onun qəlbində dərin iz buraxmışdı: Droqo elə də əmin olmasa da, ona elə gəlirdi ki, bu yuxuda gələcəyə hansısa dumanlı bir işarə edilmişdi.

Yeni istehkama gəlib növbəni dəyişdilər, sonra növbə çəkən dəstə getdi və Covanni yuxarı meydançanın kənarında dayanaraq növbə çəkən dəstənin çınqıllığı necə keçməsinə baxdı. Qalanın özü burdan uzun divar kimi görünürdü, sadəcə arxasında heç nə olmayan divar kimi. Bu məsafədən keşikçiləri görə bilmirdi. Təkcə bayraq görünürdü, o da yalnız külək onu yellədəndə.

Bütün gün ərzində ayrıca tikilmiş bu İstehkamda yeganə hakimiyyət Droqoda olacaqdı. Nə baş vermiş olsa da, hardansa kömək istəyə bilməzdi. Hətta düşmən gəlmiş olsaydı belə, balaca qalaça öz qüvvəsi ilə müdafiə olunmalıydı. Hə, yaxın iyirmi dörd saat ərzində bu divarların arasında kral belə Droqodan az əhəmiyyətli adam olardı.



downloaded from KitabYurdu.org

Gecəni gözləyərkən Droqo şimal düzənliyini gözdən keçirirdi. Qaladan çölün yalnız balaca üçbucaq sahəsini görmək olurdu, digər yerlərini isə dağlar kəsmişdi. İndisə o, duman qatı ilə örtülmüş bütün səhraya üfüqlərin özünə kimi baxa bilirdi. Qaya parçalarının səpələndiyi və yalnız hardasa alçaq sürüngən kollarla örtülmüş çöl onun qarşısında idi. Sağda, lap uzaqlarda hansısa zolaq qaralırdı — şübhəsiz ki, meşə idi. Cinahlardan sərt dağlar silsiləsi başlayırdı. Dağların arasında ilk payız qarının ağartdığı, çox hündür şaquli yamacları, zirvələri ilə misilsiz dərəcədə gözəl olanları da var idi. Amma heç kim bu gözəllikdən zövq almırdı: Droqo da, əsgərlər də instinktiv olaraq yalnız şimala baxırdılar, həyat olmayan və müəmmalı, hüznlü düzənliyə.

Ya burda, qalaçada tək növbə çəkməyin məsuliyyətini hiss elədiyindən, ya bu kimsəsiz yerin görünüşündən, ya da Anqustinayla bağlı gördüyü qəribə yuxunun təsirindən Droqo gecənin yaxınlaşması ilə qəlbinin necə qeyri-iradi olaraq həyəcanla dolduğunu hiss eləyirdi.

Oktyabr axşamı idi, hava dəyişkən idi, yerə hardan düşdüyü aydın olmayan qırmızımtıl işıqlar gümüşü-boş toranlıqda sönürdü.



downloaded from KitabYurdu.org

Qürub vaxtı həmişə Droqonun varlığını poetik ruh yüksəkliyinə oxşar bir şey bürüyürdü. Bu, ümid saatı idi. Droqo da uzun növbətçilik vaxtlarında dəfələrlə xəyallarında yaratdığı və hər dəfə də yeni əlavələrlə meydana çıxan yaddaşındakı qəhrəmanlıq mənzərələrini bir-bir gözdən keçirməyə başladı. Xəyalında ən çox da başçılıq elədiyi bir ovuc əsgərin düşmənin saysız-hesabsız qoşunu ilə amansız mübarizəsi səhnələrini yaradırdı. Budur, gecə çoxminlik tatar ordusu Yeni istehkama hücum eləyir. Onlar bir neçə günün ərzində düşmən həmləsinin qarşısını alırlar; demək olar ki, onun yoldaşlarının hamısı ya ölüb, ya da yaralanıb. Çovuyan güllə ona da dəyir, əlbəttə, yarası ciddidir, amma ona komandanlıq eləməyə mane olacaq qədər də ağır deyil. Lakin artıq patron qurtarmaq üzrədir. O, başı bintlə sarınmış halda qərara alır ki, öz kiçik dəstəsini irəli aparsın. Nəhayət, onlara kömək gəlir, düşmən darmadağın edilir və qaçmağa üz qoyur, o isə qana bulaşmış qılıncını əlindən buraxmadan şüurunu itirmiş halda yıxılır. Kimsə onu ayıltmağa çalışır və adıyla çağırır: “Leytenant Droqo, leytenant Droqo”. O — Droqo da gözlərini ağır-ağır açır: bu ki kraldır. Kral özü onun üzərinə əyilir və qəhrəmanlığı üçün ona minnətdarlıq eləyir.



downloaded from KitabYurdu.org

Bu, Covanninin həyata keçməsinin heç vaxt mümkün olmayacağı, amma onun həyatını bunca zinətləndirən hər cür qəhrəmanlıq səhnələrini uydurduğu ümid saatları idi. Bəzən Droqo olduqca cüzi fantaziyalarla kifayətlənirdi: qoy təkcə o qəhrəman olmasın, qoy yaralanması və hətta qəhrəmanlığı üçün ona təşəkkür eləyən kral da olmasın. Qoy adi bir döyüş olsun, yeganə döyüş, amma ağır döyüş olsun. O, var gücü ilə hücuma keçir və daş kimi donuq sifəti olan düşməni soyuqqanlı təbəssümlə qarşılayır. Yalnız bir döyüş, amma yəqin ki, qalan bütün ömrü boyu onu xoşbəxt eləyə biləcək döyüş.

Bu axşam isə özünü qəhrəman kimi hiss eləmək asan deyildi. Toranlıq artıq ətrafı bürüyürdü, şimal düzənliyi tamamilə rəngsiz olmağa başlayırdı, amma hələ yuxuya dalmırdı və adama elə gəlirdi ki, özündə nəsə məkrli bir məxfilik saxlayır.

Artıq saat səkkiz idi, göy üzü buludlarla örtülmüşdü və bu zaman Droqoya elə gəldi ki, düzənlikdə, sağda, düz İstehkamın altında elə də böyük olmayan qara bir ləkə hərəkət eləyir. “Yəqin gözlərim yorulub, — o düşündü. — Hə, mən həddən artıq çox baxdım və gözlərim də yoruldu, indi də



downloaded from KitabYurdu.org

gözümə hansısa ləkə görünür.” Uşaqlıqda gecələr dərs oxuyanda başına belə iş gəlmişdi.

Droqo bir neçə anlığa gözlərini yummağı, sonra yaxınlıqda olan əşyalara, terrasdakı döşəmə yumaq üçün vedrəyə, divardakı dəmir qarmağa, sonra heç şübhəsiz, onun əvəz elədiyi zabitin oturduğu oturacağa baxmağı yoxladı. Yalnız bir neçə dəqiqədən sonra yenidən aşağı, gözünə qara ləkənin göründüyü yerə baxdı. Ləkə yoxa çıxmamışdı və elə bir qaydada ağır-ağır hərəkət eləyirdi.

— Tronk! — Droqo həyəcanlanmış halda səsləndi.

— Eşidirəm, cənab leytenant! — Tronk ani cavab verdi və onun səsi elə yaxından gəldi ki, Droqo hətta diksindi.

— Siz burdasınız? — o, ruhlanmış halda dedi. — Tronk, ola bilər mən səhv eləyirəm, amma mənə elə gəlir... Mənə elə gəlir, orda, aşağıda nəsə bir şey hərəkət eləyir.

— Elədir ki, var, cənab leytenant, — Tronk yorğun səslə cavab verdi. — Mən artıq bir neçə dəqiqədi onu müşahidə eləyirəm.

— Necə?! — Droqo ucadan səsləndi. — siz də görübsünüz? Siz nəyi görürsünüz?



downloaded from KitabYurdu.org

— Həmin o hərəkət eləyən əşyanı, cənab leytenant.

Droqo qanının damarlarında necə donduğunu hiss elədi. “Di budur, başlayır, — öz qəhrəmanlıq fantaziyalarını tamamilə yaddan çıxararaq düşündü, — bu məhz mənimlə baş verməliydi. İndi gözlə, gör başına nə gələcək”.

— Ah, deməк siz də görürsünüz? — Tronkun “yox” cavab verəcəyi ümidi ilə təkrar soruşdu.

— Bəli, cənab leytenant, — Tronk cavab verdi. — Artıq on dəqiqədi. Mən aşağıda gəzir, top lülələrinin necə təmizləndiyini yoxlayırdım, sonra bura qalxdım və gördüm.

Hər ikisi bir müddət susdular... Yəqin ki, bu Tronk üçün də həyəcanlı və anlaşılmaz idi.

— Tronk, sizcə bu, nə ola bilər?

— Nəsə anlaya bilmirəm. Olduqca ağır hərəkət eləyir.

— Necə yəni olduqca ağır?

— Hə, mən əvvəlcə elə düşündüm ki, bu, qamış süpürgəsidir.

— Süpürgə? Hansı süpürgə?

— Orda, aşağıda qamış pöhrəliyi var, — Tronk əliylə hardasa sağı göstərərək dedi, hərçənd onun bu işarəsinin heç bir əhəmiyyəti yox idi, onsuz da



downloaded from KitabYurdu.org

qaranlıqda heç nə görünmürdü. — İlin bu vaxtında qamışlarda qara süpürgələr əmələ gəlir. Bəzən külək onları qoparır, yüngül olduqlarından qarın üzəriylə qovur, tüstü boğanağı kimi... Amma burda nəsə başqa cürdür, — bir qədər fasilə verəndən sonra o əlavə elədi. — süpürgələr sürətlə hərəkət edərdilər.

— Onda bu, nə ola bilər?

— Heç cür başa düşə bilmirəm, — Tronk təkrar elədi. — Adama oxşamır, onlar başqa tərəfdən gələrdilər. Sonrası da bu, yenə də hərəkət eləyir. Aydın deyil.

— Həyəcan! Həyəcan!

Yaxınlıqda olan keşikçi qışqırdı. Onun ardınca da o birisi, sonra üçüncüsü və bu qaydada... Onlar da qara ləkəni görmüşdülər. Sonra bu, keşikçi məntəqəsində istirahət eləyən əsgərlərin də diqqətini cəlb eləmişdi. Hamısı torpaq siperin arxasında gizlənərək aşağı qorxuqarışıq maraqla baxırdılar.

— Sən nəydi, görmürsən? — biri dedi. — Di burda, düz bizim aşağımızda. Bax, dayandı.

— Yəqin bu dumandı, — digəri təxmin elədi. — Dumanda işıq zolağı düşür, bax orda, aşağıda. Elə bil nəsə tərpənir. Bu, əslində dumanda bir deşikdir.



downloaded from KitabYurdu.org

— Hə, hə, indi mən də görürəm, — daha bir səs eşidildi. — Amma bu qara şey elə bir yerdə dayanıb qalıb; deyəsən, qara qaya parçasıdır, vəssalam.

— Hansı qaya parçası! Məgər onun hərəkət elədiyini görmürsən? Sənə nə olub, kor olubsan?

— Mənsə deyirəm, qaya parçasıdı. Mən onu çoxdan görmüşəm, rahibəyə oxşayan qaya parçasıdır.

Kimsə güldü.

— Gedin, gedin burdan. Dərhal istehkama, — bu söhbətlərin daha da həyəcanlandırdığı Tronk leytenantı qabaqlayaraq müdaxilə elədi.

Əsgərlər könülsüz halda keşikçi məntəqəsinə qayıtdılar və yenidən sakitlik oldu.

— Tronk, — müstəqil qərar qəbul eləməyə cürət eləməyən Droqo soruşdu, — siz həyəcan siqnalı verməyin vaxtı olduğunu düşünmürsünüzmü?

— Nə mənada, Qalayamı xəbər verək? Cənab leytenant, havayamı atəş açaq?

— Hə, bunu mən özüm də bilmirəm. Sizcə həyəcan siqnalı necə verilməlidir?

Tronk başını yırğaladı.

— Mən hərəkət eləməsini gözləyərdim. Əgər atəş açarıqsa, bütün Qalanı ayağa qaldırarıq. Sonra da orda heç nə olmadığı məlum olar.



downloaded from KitabYurdu.org

— Olsun, — Droqo razılaşdı.

— Həm də, — Tronk əlavə elədi, — bu, nizamnaməyə uyğun olmazdı. Nizamnamədə yazılıb ki, təhlükə olduğu halda həyəcan siqnalı verilə bilər. Birbaşa belə də yazılıb: “Təhlükə vaxtı silahlı düşmən görünərsə və əgər şübhəli şəxs sərhəd xəttinə yüz metrdən az bir məsafədə yaxınlaşarsa”. Bax nizamnamədə belə deyilir.

— Ümumiyyətlə, hə, — Droqo dedi, — burda isə yüz metrdən çox olar, doğrudurmu?

— Mən də elə düşünürəm, — Tronk başıyla təsdiqlədi. — sonrası da axı biz onun insan olduğuna əmin deyilik.

— Onda bəs nədi sizcə? — Droqo bir qədər qıcıqlanmış halda cavab verdi.

Tronk heç bir cavab vermədi.

Bu sonsuz gecənin nə vaxt başa çatmasını qərarsızlıq içində gözləyən Droqo ilə Tronk sipərə söykənərək dayanmışdılar və gərgin halda aşağı, Tatar çölünün başlandığı yerə baxırdılar. Sirli qara varlıq sanki dayanmış, yuxuya getmişdi və Droqo orda, doğrudan da, heç nə olmadığını, sadəcə qara paltarlı rahibəni xatırladan qara qaya parçası olduğunu, ya da görmə yanlışlığı, cəfəng hallisunasiya olduğunu düşünərək bir qədər



downloaded from KitabYurdu.org

sakitləşmişdi. Hamısı yorğunluqdandı. İndi o artıq özündə tutqun bir ümidsizlik hiss eləyirdi, həyatın ən mühüm saatları hiss olunmadan yanımızdan keçəndə belə olur və onun gurultusu uzaqlarda sakitləşir, bizsə bir-birinə qarışmış quru xəzəllərin arasında qalaraq heyifsilənirik ki, təhlükəli, amma şərəfli anı əldən qaçırdıq.

Gecə uzandıqca-uzanırdı və qaranlıq vadi yenə də qorxu əsdirirdi. Gecə uzanırdı və Droqo özünü dəyərsiz, tək-tənha birisi kimi hiss eləyirdi. Tronkun dostyana dəstəyinə arxalanmağa dəyməzdi, onlar tamamilə fərqli adamlardılar. Bax əgər onun yanında yoldaşları olsaydı — heç olmasa biri — onda başqa məsələ, Droqo özündə hətta zarafat eləməyə belə güc tapardı və səhərin açılmasını gözləmək bunca əzablı olmazdı.

Dumanın dilləri isə qara okeanda şəffaf arxipelaq yaradaraq düzənliklə elə hey sürünür, sürünürdü. Bu dillərdən biri həmin qara əşyanı örtərək İstehkamın bünövrəsinə qədər gəlib çıxmışdı. Bütün ətrafına rütubət hopmuşdu, Droqonun şineli rütubəti özünə çəkmişdi və ağır bükükləri ilə çiyinlərindən asıla qalmışdı.

Necə də uzun gecəydi! O artıq gecənin nə vaxtsa qurtaracağına ümidini itirmişdi, amma səma birdən



downloaded from KitabYurdu.org

ağarmağa başladı və soyuq küləyin ani həmlələri yaxın sübh haqda xəbər verirdi. Bu zaman da Droqonu yuxu tutdu. Sipərin yanında dayanmağa davam eləyərkən onun başı artıq iki dəfə sinəsinə düşmüşdü və iki dəfə də diksinərək başını yuxarı qaldırmışdı. Nəhayət, başı süst halda sinəsinə düşdü və kirpikləri yuxunun ağırlığı altında qapandı. Yeni gün başlayırdı.

Droqo kimsə onun əlinə toxunanda oyandı. Yuxudan çətinliklə ayılırdı, artıq işıqlandığına inana bilmirdi. Kiminsə səsi eşidildi: əlbəttə, bu Tronk idi.

— Cənab leytenant, at imiş.

Yalnız indi o, real həyata qayıtdı, Qalanı, Yeni istehkamı, sirli qara ləkəni yadına saldı. Dərhal da aşağı boylandı, hər şeyi öyrənmək arzusuyla alışıbyanır və qəlbinin dərinliyində ümid eləyirdi ki, orda yalnız daşları, kolları görəcək, orda həmişə olduğu kimi adamsız və boş düzənlikdən başqa heç nə olmayacaq.

Amma yaxınlıqdakı səs yenidən təkrar elədi:

— Cənab leytenant, at imiş.

Droqo, doğrudan da, hərəkətsiz halda qayanın ətəyində dayanmış bu fantastik atı görə bildi.

Balaca, alçaq, amma kök at idi, hətta özlüyündə gözəl at idi, nazik ayaqları və uzun yalı var idi. Onun



downloaded from KitabYurdu.org

qəribə görünüşü var idi, amma hər şeydən çox, adamı onun rəngi heyrətləndirirdi: tutqun düzənliyin fonunda göyümtül-qara rəngiylə kəskin seçilirdi.

Hardan gəlmişdi? Kimindi? Qarğalardan və gürzələrdən başqa artıq uzun illərdi bu yerlərdə hansısa canlıya rast gəlinmirdi. İndisə birdən-birə at; həm də dərhal vəhşi at olmadığı aydın görünür, əla cins at idi, əsl döyüş atı idi (yalnız ayaqları azacıq naziktəhər idi).

Bu, qeyri-adi bir şey idi, onu həyəcanlandırırdı. Aşağıdakı mərtəbənin mazğalından baxan Droqo, Tronk, keşikçilər, digər əsgərlər də baxışlarını atdan çəkə bilmirdilər. Atın sərhədə yaxınlaşması heç bir nizamnamədə öz əksini tapmamışdı, yenidən yaddaşlarda öz müəmmaları ilə bütün səhranı dolduran şimal haqda, tatar orduları və döyüşlər haqda əfsanələr bərpa olunmağa başlamışdı.

Özlüyündə bu, elə də əhəmiyyətli fakt deyildi, amma axı atın arxasınca mütləq kimsə də gəlməliydi. Atın belində qayışlarla yaxşıca bağlanmış yəhər var idi, sanki lap yaxında kimsə atı minib sürmüşdü.

Ümumiyyətlə, dolaşıq hadisəydi və dünənə qədər mənasız mövhumat hesab olunanlar bu gün həqiqət ola bilərdi. Droqo düşmənlərin gəlişini, kolluqların



downloaded from KitabYurdu.org

arasına əyilmiş, qayaların yarğanlarında hərəkətsiz halda donub qalaraq dişlərini möhkəmcə qıcayan tatarları xəyalında canlandırırdı. Onlar öz həmlələrini eləmək üçün yalnız axşamın düşməsini gözləyirdilər. Bu müddətdə isə onların əsas qüvvələri — qaynaşan qorxulu tatar ordusu da şimaldakı dumandan çıxıb gələ bilərdi. Musiqisiz, mahnısız, işıldayan qılıncları və gözəl bayraqları olmayan ordu. Günəş şüalarının altında parlamasınlar deyə onların silahları tutqun idi, hətta atlarını da kişnəməməyə öyrətmişdilər.

Amma bir at — Yeni istehkamda məhz belə düşünürdülər — bir at düşməni qabaqlayaraq irəli qaçmış və beləcə, onların gəlişini xəbər vermişdi. Düşmənlər yəqin hələ atın itməsindən xəbərsiz idilər, çünki at düşərgədən gecə qaçmışdı.

Beləliklə də, at mühüm xəbər gətirmişdi. Amma bu at öz sahiblərini nə qədər qabaqlamışdı? Axşam düşənə kimi Droqo Qalanın komandanlığına heç bir məlumat verə bilməz, tatarlar isə bu arada hər an hücum eləyə bilərdilər.

Belə çıxır ki, həyəcan siqnalı vermək lazımdı. Tronk məsləhət görmədi: ən nəhayət bu, cəmicümlətanı bir atdır, sahibindən qaçıb İstehkamın yaxınlığına gəlib, onun sahibi isə yəqin



downloaded from KitabYurdu.org

ki, tək-tənha ov eləyən ovçudur, ehtiyatsızlıq üzündən səhraya keçib və orda da ya xəstələnib, ya da ölüb. At tək qalıb, xilas olmaq üçün başlayıb səhrada dolaşmağa və Qalada adamların olduğunu hiss elədiyindən ona ot aparacağımızı gözləyir.

Tronk Qalaya düşmənin yaxınlaşması fərziyyəsini şübhə altında qoyaraq belə deyirdi. Kimsənin yaşamadığı belə yerlərdə at çətin ki, öz düşərgəsini tərk eləyəydi. Sonra Tronk deyirdi ki, o tatarların atlarının, demək olar ki, hamısının ağ rəngdə olduğunu eşidib. Qalanın salonlarından birindəki köhnə rəsm əsərində tatar ağ atın belində təsvir olunmuşdu, bu at isə qətran kimi qaraydı.

Droqo uzun tərəddüdlərdən sonra, hər halda, axşamı gözləməyi qərara aldı. Bu arada göy artıq çəhrayı rəng alırdı, günəş ətrafı isti şəfəqlərinə qərq eləyir və qızınan əsgərlər gümrahlaşırdılar. Günün çıxması ilə Droqo da bir qədər sakitləşdi; tatarlar haqdakı xəyalları öz həqiqiliyini itirir, hər şey yenidən öz həqiqi şəklini alırdı, canlının adicə at olduğu aydın olmuşdu və onun bura gəlib çıxmasını təkcə düşmənin hücum etməsi ilə yox, necə istəsən, izah eləyə bilərdin. Burda o, gecəki qorxularını unudaraq birdən başa düşdü ki, hər cür macəralara hazırdır və onun qəlbi qabaqcadan hiss elədiyi



downloaded from KitabYurdu.org

sevinclə doldu. Olmaya tale özü onun qapısını döyürdü? Onu qalan digər adamlar üzərində qaldıracaq xoşbəxt tale!

O, məmnunluqla keşik xidmətinə ən kiçik rəsmiyyətçiliyinə qədər şəxsən əməl eləyir, sanki Tronka və əsgərlərə göstərmək istəyirdi ki, atın bura gəlib çıxması nə qədər qəribə və həyəcanverici olsa da, şəxsən onu zərrəcə də narahat eləməyib. O düşünürdü: əsl zabitlər məhz belə hərəkət eləyirlər.

Əsgərlər isə düzünə qalarsa, qorxmamışdılar, atın gəlişi çoxlu zarafatın mövzusu olmuşdu və hamısı da çox istəyirdi ki, atı tutub qənimət kimi Qalaya aparsınlar. Əsgərlərdən biri hətta böyük serjantdan at üçün getməyə icazə də istədi, amma serjant ona yalnız məzəmmətlə baxmaqla kifayətləndi, bununla da xidmətdən söhbət gedəndə zarafat yeri olmadığını anlatmaq istəyirdi. Bir mərtəbə aşağıda, toplar qoyulan yerdə isə topçulardan biri atı görəndən sonra hədsiz həyəcanlanmağa başlamışdı. Onun adı Cüzeppe Lassari idi; lap gənc idi və xidmətə təzə başlamışdı. Deyirdi, at onun şəxsi atıdır, görən kimi də atını dərhal tanıyıb və burda səhvdən söhbət belə gedə bilməz. Yəqin atı, Qalada suvarmağa aparanda buraxıblar.



downloaded from KitabYurdu.org

— Hə, bu ki mənim Fokkomdur, mənim Fokkom! — o elə bağırırdı, sanki onu soyurdular.

Aşağı düşən Tronk dərhal bu qışqırığı kəsməyə göstəriş verdi və Lassarini ciddi surətdə başa saldı ki, onun atı Qaladan qaça bilməz, atın gəlib şimal düzənliyinə çıxması üçün onun ya Qala divarlarını, ya da uca dağları aşması lazım gələrdi.

Amma Lassari etiraz eləyirdi ki, hardansa keçid var, o özü eşidib, qayalarda hamının yaddan çıxartdığı qədim, unudulmuş yol var. Doğrudan da, Qalada buna oxşar əfsanələr dolaşırdı. Lakin bu, daha çox, uydurma idi. Belə ki, indiyə kimi kimsə o yoldan bir əsər görməmişdi. Qalanın sağından və solundan kilometrlərlə uzunluqda vəhşi dağlar yüksəlirdi və kimsə onları aşıb keçə bilməzdi.

Amma əsgər sakitləşmirdi, onu təkcə bu fikir özündən çıxardırdı ki, ona İstehkamda oturmağa göstəriş verir və gedib öz atını gətirməyə icazə vermirlər, hərçənd bu, uzağı yarım saatlıq işdi.

Vaxt isə keçir, günəş qərbə doğru əyilirdi, müəyyən olunmuş vaxtda keşikçilər dəyişdirilirdilər, heç vaxt olmadığı kimi kimsəsiz olan çöl gözlərini qamaşdırırdı. At isə əvvəlki yerində idi, ya yatıbmış kimi hərəkətsiz dayanır, ya da solmuş otları axtarmaq üçün dolaşırdı. Droqo ehtiyatla uzaqlara



downloaded from KitabYurdu.org

baxırdı, amma yeni bir şey görə bilmirdi. Elə həmin maili qayalardı, duman şimala doğru uzaqlaşmışdı və axşamın yaxınlaşması ilə kollar tədricən rənglərini dəyişirdilər.

Onları dəyişəcək keşikçi dəstəsi gəldi. Droqo və onun əsgərləri İstehkamdan çıxdılar və çınqıllarla örtülmüş, axşam kölgələrinin süründüyü boz cığırla Qalaya yola düşdülər. Qala divarlarına çatanda Droqo özü və əsgərləri üçün parolları dedi, darvaza açıldı. Dəyişən keşikçilər balaca həyətdə sıraya düzülmüşdülər və Tronk bir-bir onları adıyla çağırmağa başladı. Droqo isə qəribə at haqda xəbər vermək üçün komendantın yanına getdi.

Nizamnamədə nəzərdə tutulduğu kimi Droqo əvvəlcə yoxlayıcı kapitana gəlməsi haqda məlumat verdi, sonra onlar birlikdə polkovniki axtarmağa getdilər. Qaydaya əsasən hər cür xəbərləri adyutanta verirdilər, amma bu dəfə hadisə olduqca ciddi idi, vaxt itirmək olmazdı.

At haqda xəbər isə ildırım sürəti ilə Qalaya yayıldı. Ən uzaqdakı cinah məntəqələrində belə artıq qayanın ətəyinə gəlib çıxmış tatar atı haqqında danışırdılar. Xəbəri öyrənən polkovnik yalnız bunu dedi:



downloaded from KitabYurdu.org

— Əgər at yəhərliydisə, əbəs yerə onu gətirməyibsiz, onda biz onun hardan gəldiyini bilərdik.

Amma artıq gec idi, belə ki əsgər Cüzeppe Lassari növbədən Qalaya qayıdanda nəhəng qaya parçasının arxasında gizlənmiş və bunu heç kim görməmişdi. Sonra o, aşağı, çınqıllı daşlar olan yerə düşmüşdü və indi atını da gətirərək Qalaya qayıdırdı. Heyrətinə rəğmən atın onun olmadığını öyrənmişdi, amma artıq bunun elə də əhəmiyyəti yox idi.

Yalnız dəstə Qalaya daxil olanda yoldaşlarından kimsə Lassarinin yoxa çıxdığını hiss eləmişdi. Əgər Tronk öyrənsəydi, Lassari azından iki ay qauptvaxtda yatacaqdı. Onu xilas eləmək lazımdı. Buna görə də böyük serjant onları adbaad çağıranda kimsə onun əvəzinə «Mən» deyə cavab vermişdi.

Yalnız bir neçə dəqiqədən sonra həyətdə kim hara gəldi dağılışanda Lassarinin parolu bilmədiyini xatırladılar. Burda isə söhbət qauptvaxtdan yox, ölümdən gedirdi, o, Qalanın divarına yaxınlaşan kimi nizamnaməyə görə ona atəş açacaqdılar. Bir neçə əsgər dərhal Tronku axtarmağa qaçdılar — nəsə fikirləşmək lazım idi.

Artıq gec idi! Qara atın yüyənindən yapışan Lassari artıq Qalaya yaxınlaşırdı. Tronk isə məhz



downloaded from KitabYurdu.org

divarın üzərində dayanmışdı, onu bura nəsə qorxulu hadisə olacağını qabaqcadan hiss eləməsi çəkib gətirmişdi. Yoxlamadan sonra böyük serjantı dərhal narahatçılıq hissi bürümüşdü. Bu narahatçılığın səbəbini müəyyənləşdirə bilmirdi, amma qəlbində hər şeyin qaydasınca olmadığını duyurdu. Yaddaşında bugünkü hadisələri canlandırmağa başladı, Qalaya qayıdana qədər bütün olanları bir də nəzərdən keçirsə də, yenə də şübhəli bir şey tapa bilmədi. Birdən sanki nəyəsə ilişib dayandı, yoxlama vaxtı nəsə fasilə oldu, ona gec cavab verdilər, amma həmişə tez-tez başa verən belə hallarda olduğu kimi Tronk ona diqqət yetirmədi.

Keşikçilərdən biri lap Qala qapılarının üstündə dayanmışdı. Toranlıqda o, özündən təxminən iki yüz metrlik məsafədən iki dənə yaxınlaşan qara canlını gördü. Əvvəlcə bu, keşikçinin diqqətini cəlb eləmədi, adamın gözünə azmı şey görünürdü? Daima nəsə gözlədiyin belə əldən-ayaqdan uzaq yerlərdə hətta tez-tez daşların və kolların arasıyla sürünən adam siluetlərini də görürsən və sənə elə gəlməyə başlayır ki, kimsə səni izləyir, sonra gedib yoxlayırsan və orda heç kimin olmadığına əmin olursan.

Fikrini yayındırmaq üçün keşikçi başqa tərəfə baxdı; sağında, ondan otuz metr aralıda divarın



downloaded from KitabYurdu.org

üzəriylə gəzişən növbə yoldaşına əl elədi, alnına düşən ağır şapkasını düzəltdi, sola baxdı və böyük serjant Tronku gördü. Tronk hərəkətsiz dayanmışd, sərt baxışlarını ondan çəkmirdi.

Keşikçi farağat durdu, yenidən irəli baxdı və o iki canlının gözünə görünmədiyinə əmin oldu, tamam yaxınlaşmışdılar: yetmiş metrə qədər. Hə, bu, atla əsgər idi. Keşikçi tüfəngini sinəsinə qaldırdı, ayağa çəkdi və məşqlərdə yüzlərlə dəfə elədiyi kimi yerində donub-qalaraq qışqırdı:

— Dayan, kimdi gələn?

Lassari təzə gəlmişdi və parolsuz Qalaya daxil ola bilməyəcəyi haqda heç bir anlayışı yox idi. Ən əsası da o, özbaşına dəstəni tərk elədiyinə görə cəza alacağından qorxurdu, amma bəlkə polkovnik onu bağışlayacaqdı... Gör bir necə at gətirmişdi! Gözəldi, generala belə yaraşardı.

Qalaya qədər yüz metr qalmışdı. Artıq at nallarının daşları necə döyəclədiyi eşidilirdi. Demək olar ki, tamam qaranlıqlaşmışdı, uzaqdan şeypur səsi eşidilirdi.

— Dayan, kimdi gələn? — keşikçi təkrar elədi. Bir daha təkrarlayacaqdı və sonra da atəş açmalı olacaqdı.



downloaded from KitabYurdu.org

Keşikçinin ilk qışqırığında Lassarini birdən narahatçılıq bürüdü. Ona qəribə gəlirdi, məhz indi, o çətin vəziyyətə düşən bir vaxtda, özünə qardaş bildiyi əsgər onu belə qəzəblə qarşılayırdı. Amma ikinci dəfə "Dayan, kimdi gələn?" çağırışını eşidəndə sakitləşdi, öz bölüklərindən olan, hamının sadəcə Qara deyə çağırdıqları tanışının səsini tanıdı.

— Bu mənəm, Lassari! — o qışqırdı. — Növbə komandirinə de ki, qapını açsınlar! Mən atı gətirmişəm. Amma çox səs salma, yoxsa məni tutarlar.

Keşikçi tərpənmədi. Tüfəngini hazır saxlayıb özünün sonuncu: "Dayan, kimdi gələn?" çağırışının vaxtını uzadaraq hərəkət eləmirdi. Bəlkə Lassari özü onu gözləyən təhlükədən xəbər tutub geri çəkiləcəkdi, sabah isə birtəhər Yeni istehkamdan qayıdan keşikçi dəstəsinə yaxınlaşa bilərdi. Amma ondan bir neçə metr aralıda sərt baxışlarını onun üzərindən çəkməyən Tronk dayanmışdı.

Tronk bircə söz belə demədən gah keşikçiyə, gah da Lassariyə baxırdı; yəqin ki, Lassaridən ötrü onun özünü cəzalandıracaqdılar. Onun bu baxışları nə anlama gəlirdi?

Atı arxasınca çəkən əsgər artıq otuz metrə qədər yaxınlaşmışdı, daha gözləmək ağılsızlıq idi. Lassari



downloaded from KitabYurdu.org

nə qədər yaxınlaşırdısa, keşikçinin də hədəfdən yayınmayacağı bir o qədər aydın olurdu.

— Dayan, kimdi gələn? — keşikçi üçüncü dəfə tamam başqa səslə qışqırdı, bu səsdə dostunu xəbərdarlıq eləmək üçün nizamnamə ilə heç bir əlaqəsi olmayan çalarlar duyulurdu. Bu səsdən aydınca hiss eləmək olardı: "Nə qədər gec deyil, geri çəkil! Gülləyəmi tuş gəlmək istəyirsən?"

Yalnız indi Lassari hər şeyi başa düşdü, bir anlığa Qalanın sərt qanunlarını xatırladı, sonunun çatdığını anladı. Amma aydın deyildi: nəyə görəsə qaçıb canını qurtarmaq əvəzinə yüyəni buraxıb, qışqıraraq tək irəliləməyə başladı:

— Bu mənəm, Lassari! Nədir, məgər görmürsən? Qara, ay Qara! Bu mənəm! Tüfəngi niyə tuşlayıbsan? Qara, ağlınımı itirdin?

Amma divarın üzərində artıq Qara yox, sifətindən soyuqluq yağan adi əsgərdi və tüfəngin lüləsini ağırağır qaldıraraq dostunu nişan alırdı. Qundağı çiyninə söykəyərək o, hələ də gözünün kənarı ilə böyük serjanta baxır, səssiz bir ümidlə onun "Dayan!" əmrini verəcəyini gözləyirdi. Tronk əvvəlkitək hərəkətsiz dayanmış və gözlərini ona zilləmişdi.



downloaded from KitabYurdu.org

Lassari geri dönmədən, daşlara toxunub büdrəyərək bir neçə addım geri çəkildi.

Bu mənəm, Lassari! — o, yenidən qışqırdı. — Görmürsənmi, mənəm! Qara, atəş açma!

Amma bu artıq tanışları ilə zarafatlaşan Qara deyildi, sadəcə aşırma qayışları dəridən olan, tündgöy rəngli mahuddan tikilmiş hərbi paltar geymiş keşikçi idi. Bu, gecəki əsgərlərdin biri idi. Adicə keşikçi idi, artıq tüfəngi ayağa çəkmiş və ona doğru gələn hədəfi nişana götürmüşdü. Qulaqlarındakı gur səslərin içindən sanki o, Tronkun xırıltılı səsini eşitdi: "Dəqiq nişan al". Hərçənd həqiqətdə isə Tronk heç ağzını da açmamışdı.

Lülədən alov topası çıxdı, arxasınca da balaca tüstü buludu. İlk anda atəş səsi elə də güclü eşidilmədi, amma dağlarda dəfələrlə əks-səda verib qayıdandan sonra gurultu uzun müddət havanı titrətdi, ildırım gurultusu kimi ağır-ağır uzaqlarda eşidilməz oldu.

Lassari ona doğru gələn atla yanaşı dayanmışdı. Atəşdən sonra aralığa çökən sakitlikdə onun ümidsizlik dolu səsi eşidildi:

— Qara, sən ki məni öldürdün!

Bu sözlərlə də o, ağır-ağır ağzı üstə yerə yıxıldı. Tronk anlaşılmayan sifəti ilə hələ də hərəkətsiz



downloaded from KitabYurdu.org

dayanmış, Qalanın dəhlizlərində isə müharibəqabağı olduğu kimi vurnuxma başlamışdı.

## XIII

Əsən küləkləriylə, yırğalanan fənərlərin şəfəqləriylə, şeypurların qeyri-adi siqnallarıyla, çəkmələrin xırçıltısıyla, sürətlə şimaldan gələn, qayaların başına qonub, bir çəngələrini oralarda qoyan, amma nədənsə orda yubanmayıb vacib iş üçün yoluna davam eləyən buludlarıyla həmin unudulmaz gecə belə başladı.

Qalanın hərəkətə gəlməsi üçün bir atəş, adicə bir tüfəng atəşi kifayət elədi. İllərlə burda sakitlik hökm sürmüşdü, yaxınlaşan müharibənin səsini vaxtında eşitmək üçün elə hey şimala qulaq vermişdilər — bu sakitlik olduqca uzun müddətə davam elədi. İndisə budur, tüfəng atəşi eşidildi — dəqiq ölçülmüş miqdarda barıt və qurğuşun güllə — amma adamlar bir-birlərinə elə baxırdılar, sanki elə bu siqnalı gözləyirmişlər.

Əlbəttə, həmin bu gecə bir neçə əsgərdən başqa, heç kim hamının ağlına gələn sözü ucadan demədi. Zabitlər ümidlərini boşa çıxarmamaq üçün susmağa üstünlük verdilər. Məgər Qalanın divarları tatarlarla müharibə üçün ucaldılmamışdımı, məgər hamı



downloaded from KitabYurdu.org

burda illərlə bu müharibədən ötrü ömrünü çürütmürdümü, tatarlara görə keşikçilər gecə-gündüz öz məntəqələrində ayaq döymürdülərmi? Bəziləri hər səhər yeni ümidlərlə yuxudan oyanır, digərləri onu özündən uzağa qovurdular. Başqa biriləri isə hətta ümidlərinin olub olmadığını bilmirdilər, onlar sadəcə olaraq ümidlərini itirmişdilər. Amma heç kimin bu haqda ucadan danışmağa cürəti çatmırdı. Bu, axmaq əlamət hesab edilirdi, ən əsası isə kim özünün ən gizli düşüncələrini bölüşərdi? Əsgərlərdən bunu gözləmək olmazdı.

Demək belə, hələlik bir öldürülmüş əsgər, bir də mənşəyi məlum olmayan bir at var idi. Şimala açılan qapıların yanında növbə çəkən, məhz bədbəxt hadisənin baş verdiyi keşikçi dəstəsində hamı çox həyəcanlanmışdı. Hərçənd bu, nizamnamədə nəzərdə tutulmasa da, məhz Tronk indi ordaydı və onu gözləyən cəza haqda fikirlərə dalmışdı. Baş verən hadisənin məsuliyyəti məhz onun üzərinə düşürdü: o yox, bəs kim Lassarinin olmadığını aşkar eləyə bilmədi, o yox, bəs kim növbə qayıdanda yoxlama vaxtı əsgərin vaxtında cavab vermədiyini hiss eləmədi?



downloaded from KitabYurdu.org

Bax mayor Mattinin öz işini bilməsi və hakimiyyətini nümayiş elətdirməsi üçün əlinə fürsət düşmüşdü. O hətta gülümsəsə də, onun sifətinə görə heç nə müəyyən eləyə bilməzsən. Bununla belə, mayor hadisə haqqında çox gözəl məlumatlandırılıb və İstehkamda növbədə olan leytenant Mentanaya əsgərin meyitini götürməyi əmr eləyir.

Mentana gözə çarpmayan zabit idi, Qalanın ən yaşlı leytenantıydı, barmağında iri almaslı üzük olmasaydı və yaxşı şahmat oynamasaydı, heç kimin yadına düşməzdi. Adsız barmağındakı bahalı daş, doğrudan da, böyük idi və kimsə təsadüfən şahmat taxtası arxasında ona qalib gələrdi. Amma mayor Mattinin qarşısında zağ-zağ əsirdi, öldürülənin arxasınca adam göndərmək kimi sadə əmr alandan sonra başını tamam itirmişdi.

Onun xoşbəxtliyindən mayor Mattinin küncdə dayanmış böyük serjanta gözü sataşanda onu yanına çağırdı:

— Tronk, bir halda sizin burda görəcəyiniz bir iş yoxdur, əməliyyatın yerinə yetirilməsini öz üzərinizə götürün!

O bu sözləri elə adi, təbii tonda dedi ki, sanki Tronk adi unter idi və baş verənlərə onun heç bir aidiyyatı yoxdu. Matti təqsirkara bilavasitə töhmət



downloaded from KitabYurdu.org

verməyə alışmamışdı və lazım olan sözləri tapmaq üçün qəzəbdən rəngi ağarırdı. Onun uzun-uzadı dindirmələrlə və protokollarla təhqiqat aparmaq ürəyincə idi və bunun da nəticəsində əhəmiyyətsiz xəta belə inanılmayacaq ölçülərə qədər şişir və mütləq də sonunda özüylə cəza gətirirdi. Tronk gözlərini qırpmadan cavab verdi:

— Eşidirəm, cənab mayor! — və həyətdəki yaxın qapıya doğru qaçdı.

Tezliklə özləriylə fənər götürən kiçik bir dəstə Qaladan çıxdı, qabaqda Tronk gedirdi, arxasınca da dörd əsgər xərək aparırdı, onların arxasınca da hər ehtimala qarşı dörd nəfər silahlı sıravi əsgər gedirdi. Dəstəni bozarmış paltosuna bürünmüş və qılıncını daşların üzəriylə sürüyən mayor Matti özü tamamlayırdı.

Lassarini güllənin onu yaxaladığı vəziyyətdə tapdılar: üzüaşağı, qolları irəli açılmış halda. Çiynindən asıla qalan tüfəng iki daşın arasında ilişib qalmışdı və qundağıyuxarı halda dimdik dayanmışdı, qəribə bir görünüşü vardı. Əsgər yıxılarkən əlini yaralamış və bədəni soyuyana kimi yarasından bir qədər qan axmışdı, indi qan ağ daşın üzərində qaralırdı. Sirli at yoxa çıxmışdı.



downloaded from KitabYurdu.org

Tronk onu çiyninə götürmək və çevirmək üçün yaralının üzərinə əyilir, amma dərhal da əllərini geri çəkir, sanki nizamnamədə belə eləmək olmadığını xatırlayır.

— Onu qaldırın, — sakitcə və hirslə əsgərlərə əmr eləyir. — Amma əvvəlcə tüfəngini çıxarmaq lazımdır.

Əsgərlərdən biri qayışı açmaq üçün əyilir və öz fənərini ölü ilə yanaşı olan daşın üzərinə qoyur. Lassari hətta gözlərini yummağa da macal tapmayıb və fənərin işığı qaşlarının arasındakı göz ağının nazik zolağında əks olunur.

— Tronk! — qaranlıqdan mayor Mattinin səsi eşidilir.

— Bəli, cənab mayor! — Tronk dik duraraq cavab verir.

Əsgərlər də donub-qalırlar.

— Bu, harda baş verib? O məhz harda qaçıb? — mayor sözləri ləng tələffüz eləyərək soruşur və özünü elə aparır ki, sanki elə-belə, adicə marağından soruşur. — Bulağın yanından? Böyük qaya parçaları olan yerdən?

— Elədir ki var, cənab mayor, ordan, — Tronk əlavə izahat vermədən təsdiq eləyir.

— Heç kim də onun qaçdığını hiss eləməyib?

— Heç kim, cənab mayor.



downloaded from KitabYurdu.org

— Hm... deməli, bulağın yanından. Nəydi, orda qaranlıq idi?

— Elədir ki var, cənab mayor, olduqca qaranlıq idi.

Tronk hələ bir müddət də mil dayanır, sonra Mattinin yeni suallar vermədiyini görüb, əsgərlərə öz işlərinə davam eləmələri işarəsini verir. Əsgərlərdən biri tüfəngin qayışını açmağa cəhd eləyir, amma toqqa donub və qayış açılmır. Əsgər qayışı çəkərkən cansız bədənin ağırlığını hiss eləyir... hədsiz, qurğuşun ağırlığını.

Tüfəngi çıxarandan sonra iki əsgər ehtiyatla öldürüləni arxası üstə çevirirlər. İndi fənər onun bütün sifətini işıqlandırır. Lassarının dodaqları kip sıxılıb. Yarıaçılmış və işığa heç bir reaksiya verməyən gözlər insanın öldüyünü deyir.

— Alnına? — burunun üst tərəfindəki balaca batığı dərhal görən mayor Mattinin səsi eşidilir.

— Bağışlayın, cənab mayor, necə dediniz? — Tronk sualı başa düşmür.

— Mən deyirəm, güllə alnından dəyib? — Matti hirslənmiş halda soruşur.

Tronk fənəri azacıq qaldırır, işığı Lassarinin sifətinə yönəldir və o da balaca batığı görür, instinktiv olaraq batığı yoxlamaq üçün əlini ona



downloaded from KitabYurdu.org

doğru uzadır, ancaq dərhal da karıxmış halda geri çəkir.

— Görünür, belədir ki var, cənab mayor, birbaşa alnına dəyib.

(Əgər onun üçün belə maraqlıdısa, nəyə görə özü yaxınlaşıb meyitə baxmır? Amma hər cür axmaq suallar verir!)

Diqqətlərindən Tronkun özünü itirməsinin yayınmadığı əsgərlər öz işləri ilə məşğul olmağa davam eləyirlər: ikisi meyitin çiyinlərindən, ikisi də qıçlarından yapışır. Müqavimətini itirən baş qorxunc şəkildə arxaya əyilir. Ağzında ölümün soyuq möhürü izini qoysa da, azacıq açıqdır.

— Bəs kim atəş açdı? — Matti elə həmin qaranlıqda dayanmağa davam eləyərək soruşur.

Amma Tronk sualı eşitmir. Serjantın bütün diqqəti ölənin üzərində cəmləşib.

— Onun başını saxlayın! — sonsuz qəzəblə əmr verir, sanki ölən o özüdür. Birdən Mattinin yenə də nəsə soruşduğu ona çatır və Tronk mil durur. — Bağışlayın, cənab mayor, mən burda...

— Mən soruşdum... — mayor Matti aydınca təkrar eləyir və onun səsinin tonundan açıq hiss olunur ki, yalnız meyitin ortalıqda olmasına görə özünü saxlayır. — Mən soruşdum, kim atəş açdı?



downloaded from KitabYurdu.org

— Siz bilirsiniz onun adı nədir? — Tronk sakitcə əsgərlərə müraciət eləyir.

— Martelli, — onlardan kimsə cavab verir. — Covanni Martelli.

— Covanni Martelli, — Tronk ucadan təkrar eləyir.

— Martelli, — mayor fikirli halda səslənir. (Tanış addır, atıcılıq üzrə yarışmanın qaliblərindən biri olmalıdır. Atıcılıq hazırlığına məhz o, mayor Matti rəhbərlik eləyir və ən yaxşı snayperləri adları ilə tanıyır.) — Qara ləqəbli, eləmi?

— Elədir ki var, — mil durmağa davam eləyən Tronk cavab verir. — Doğrudan da, onun ləqəbi Qaradır. Özünüz bilirsiniz, cənab mayor, əsgərlər öz aralarında bir-birlərini dostcasına...

Sanki o, Martellini müdafiə eləməyə çalışır, guya onun “Qara” deyə çağırılmasında əsgərin heç bir günahı yoxdur və bundan ötrü onu cəzalandırmağa dəyməz.

Amma mayor əsgəri cəzalandırmağa hazırlaşmır, belə bir fikir heç onun ağlına da gəlmir.

— Aha, Qara! — o, məmnunluğunu gizlətmədən başıyla təsdiq eləyir.

Böyük serjant qaşqabaqlı halda mayora baxır, ona hər şey aydındır. “Necə yəni, — o düşünür — ona



downloaded from KitabYurdu.org

hələ bir priz də ver... Nədən ötrü, ondan ötrü ki, əclaf adamı ustalıqla öldürüb. Necə də dəqiq atıb, doğru deyilmi?”

Bəli, əlbəttə, atəş çox sərrast olmuşdu. Bu anda Matti məhz bu haqda düşünür (axı Qara atəş açanda artıq qaranlıq imiş. Onun snayperlərinə söz ola bilməzdi).

Bu anlarda Tronk ona hədsiz nifrət eləyir. “sən necə... necə, açıq-açığına sevinə bilərsən, — o düşünür, — Lassarinin ölməsi sənin heç vecinə də deyil. Təriflə öz Qaranı, ona təşəkkür elan elə!”

Doğrudan da, mayor tamamilə sakit səslə öz məmnunluğunu ucadan dilə gətirir:

— Nə demək olar, Qara dəqiq atəş açır! — Özlüyündə isə düşünür: bu hiyləgər Lassari ümid eləyirmiş ki, Qara hədəfdən yayınacaq, əlləri əsəcək! İndisə kiminlə oyun oynadığını anladı. Bəs Tronk?.. Bəlkə o da Qaranın hədəfdən yayınacağını düşünürmüş və onda hər şey bir neçə günlük qauptvaxtla qurtarardı. — Ah, hə, hə! Qarşısında meyit olduğunu tamamilə yaddan çıxaran mayor yenidən ucadan səslənir. — Qara əvəzsiz atıcıdır!

Nəhayət, o susur və böyük serjant yenidən meyitlə məşğul ola bilər. İndi artıq Lassari xərəyə uzadılıb, nəzərdə tutulduğu kimi onun sifəti yürüşdə



downloaded from KitabYurdu.org

istifadə olunan adyalla örtülüb, yalnız əlləri görünür — hələ də canlı kimi görünən, qana bulaşmış iki böyük kəndli əlləri.

Tronkun işarəsi ilə əsgərlər xərəyi qaldırırlar.

— Cənab mayor, getməyə icazə verirsiniz?

— Bəs sən burda daha kimi gözləmək istəyirsən? — yalnız indi Tronka nifrət elədiyini sonsuz heyrətlə hiss eləyən Matti sərt cavab verir və ona belə sərt cavab vermək lazım olduğunu düşünür, üstəlik tabeçiliyində olanın rütbəcə özündən böyük olana sayğısızlığına da münasibət bildirir.

— İrəli! — Tronk komanda verir.

Əslində: “Addımla irəli, marş” deməliydi, amma indi bu, ona yersiz görünür. Yalnız indi o, Qalaya tərəf baxır və divarın üzərində fənər işığının tutqunca çəkdiyi keşikçinin siluetini görür. Bu divarların arxasındakı kazarmalardan birində Lassarinin çarpayısı və sandığı var; sandıqda isə evdən gətirdiyi madonnanın rəsmi, bir neçə boş patron, çaxmaqdaşı, rəngli burun dəsmalları, parad mundiri üçün dörd dənə gümüşü düymə var, bu düymələr ona babasından qalmışdı və Qalada heç vaxt kara gəlməmişdi.

Balışında, yəqin ki, bu iki gün ərzində başının açdığı çökək hələ düzəldilməmişdi, əşyalarının



downloaded from KitabYurdu.org

içərisində isə, yəqin, mürəkkəbqabı olacaqdı, hətta fikrində belə Tronk özü üçün xırdaçılıqla saymağa başlayır: hə, mürəkkəbqabı və qələm. Bütün bunları bükəcək, konvertə qoyub, polkovnikin məktubu ilə birlikdə onun doğmalarına göndərəcəkdilər. Digərlərini isə, yəni dövlət əmlakını, o cümlədən dəyişəcək ağlarını da başqa əsgərə verəcəkdilər. Gözəl parad formasını və tüfəngi isə heç kimə verməyəcəkdilər, tüfəngi və formanı sahibi ilə birlikdə dəfn eləyəcəkdilər — Qalanın qanunu belə idi.

## XIV

Dan yeri söküləndə Yeni istehkamdan şimal düzənliyində balaca bir qara zolaq gördülər. Bu zolaq hərəkət eləyirdi və heç cür hallüsinasiya ola bilməzdi. Onu birinci keşikçi Androniko gördü, sonra keşikçi Petro, sonra əvvəlcə onları lağa qoyan serjant Batta, nəhayət növbətçi zabit leytenant Maderna.

Elə də böyük olmayan — nəsə tamamilə anlaşılmaz olan qara zolaq səhər şimaldan səhra boyunca hərəkət eləməyə başladı, hərçənd pis hadisələr olacağı hələ gecədən Qalada özünü hiss elətdirmişdi. Təxminən səhər saat altıda keşikçi



downloaded from KitabYurdu.org

Androniko həyəcan siqnalı verdi. Bəli, şimaldan nəsə hərəkət eləyirdi, beləsini hələ indiyə kimi heç kim görməmişdi. Tamamilə işıqlananda səhranın ağ fonunda Qalaya doğru istiqamət götürən adamların cərgələri aydın görünməyə başladı.

Bir neçə dəqiqədən sonra, yadına sala bilmədiyi vaxtdan bu günə qədər hər səhər olduğu kimi (nə vaxtsa bunu ümidlə, sonra qaydaya hörmət əlaməti olaraq, indisə sadəcə yalnız maraqla izah eləyirdi) polkun dərzisi Prosdoçimo ətrafa baxmaq üçün Qalanın damına qalxırdı. Bu, ənənə halını almışdı və növbətçi məntəqələri onu sorğu-sualsız buraxırdılar. O, divarın üzərindəkilərə baş çəkir, növbətçi serjantla ordan-burdan laqqırtı vurur, sonra öz zirzəmisinə düşürdü.

Bu dəfə isə divarın üzərindən səhranın üçbucağına baxanda Prosdoçimoya elə gəldi ki, o artıq o biri dünyadadır. Yuxu gördüyü heç onun ağlına da gəlmədi, yuxu görmə, adətən, mücərrəd və mənasız olur; yatan adam təhtəlşüur olaraq baş verənlərin real olmadığını hiss eləyir, gözəl anların birində yuxudan oyanacağını başa düşür. Yuxuda mənzərələr heç vaxt naməlum adamların cərgələrinin hərəkət elədiyi bu ölgün düzənlikdə olduğu kimi dəqiq və maddi olmur.



downloaded from KitabYurdu.org

Bütün bunlar necə də qəribə idi, necə də onun gənclik arzularına oxşayırdı! Prosdoçimo, sadəcə olaraq, baş verənlərin reallığına inanmırdı və özünün öldüyünü güman elədi.

Hə, öldü və cənab Allah onu bağışladı. Dərzi o dünyada olduğunu düşünürdü, hansı ki, görünüşünə görə bizim dünyadan heç nəylə fərqlənmirdi, sadəcə burda hər şey sənin qanuni arzularına uyğun gəlir, sən məmnun qalanda da qəlbin sakitləşir. Bir sözlə, hər şey elə eynən ən yaxşı günlərini nəsə bir şeyin zəhərləyə bildiyi bu dünyada olduğu kimi deyildi.

Demək belə, Prosdoçimo öldüyünü zənn elədi və ayaq üstəcə donub-qaldı, hərəkət eləməyə dəyməzdi, axı o ölü idi və yalnız hansısa bir yerdən kənar qüvvə onu hərəkətə gəlməyə məcbur eləyə bilərdi. Amma birdən onun qoluna nəzakətlə toxunan böyük serjantın səsi eşidildi:

— Sizə nə olub? Halınız pisdir?

Yalnız bu zaman Prosdoçimo ayıldı.

Hər şey necə arzulayırdısa, eləydi, hələ bir az da yaxşıydı: şimal krallığı tərəfdən sirli qoşun hərəkət eləyirdi. Vaxt çox sürətlə keçirdi, heç kim gözünü bu qeyri-adi mənzərədən çəkə bilmirdi. Günəş, demək olar ki, lap qızaran üfüqlərin yanından şəfəq saçırdı, yadellilər isə tələsmədən irəliləmələrinə baxmayaraq,



downloaded from KitabYurdu.org

getdikcə daha da yaxınlaşırdılar. Kimsə bəyan elədi ki, orda piyadaları da görür, atlıları da, onlar cərgə ilə gəlirlər və hələ bayraqları da var. Bunu biri dedi, digərləri də dərhal elə həmin mənzərəni — piyadalar cərgəsini və kavalerləri, hətta bayrağın qumaş parçasını da gördüklərini təsdiqlədilər, halbuki əslində, yalnız ağır-ağır hərəkət eləyən qara cizgiləri görmək olardı.

— Bunlar tatarlardır, — keşikçi Androniko daha kəskin deməyə cürət elədi, amma onun sifəti ölü adamın sifətitək ağarmışdı.

Yarım saatdan sonra Yeni istehkamda leytenant Maderna topdan boş gilizlə atəş açmaq əmri verdi: bu, özlüyündə yadellilərin silahlı qüvvələrinin yaxınlaşdığı halda nizamnaməyə uyğun olaraq xəbərdarlıq idi.

Uzun illər ərzində bu yerlərdə heç kim top atəşi eşitməmişdi. Qalaçanın divarları yüngülcə titrədi. Atəş səsi gec eşidilən göy gurultusu kimi yayıldı — bu, dağ yamaclarından tökülən qar uçqununun səsini xatırlatdı. Leytenant Maderna hansısa bir həyəcan əlaməti görmək ümidi ilə Qalaya tərəf baxdı. Amma deyəsən, top atəşi heç kimi heyrətləndirməmişdi, çünki yadellilər mərkəzi qaladan görünən düzənliyin məhz həmin üçbucaq



downloaded from KitabYurdu.org

sahəsiylə hərəkət eləyirdilər və orda artıq hər şeyi bilirdilər. Ən uzaqda olan məntəqələrə, solda, qayaya söykənən cinah da, hətta səngər qazmaq üçün istifadə olunan alətlərin və fənərlərin saxlandığı yeraltı anbara keşik çəkən əsgərə də, bəli, qaranlıq zirzəmidə olduğundan heç yeri görməyən məhz o əsgərə də xəbər çatmışdı. O, vaxtın tez keçməsini, növbəsinin başa çatmasını necə də arzulayırdı, onda o da divarın üzərinə qalxıb aşağı baxa bilərdi.

Hər şey əvvəl olduğu kimi idi: keşikçilər öz məntəqələrində qalmışdılar, öz sahələrinin divarlarını addımla ölçürdülər, mirzələr peronu cırıldadaraq və tez-tez qələmlərini mürəkkəbqabına batıraraq məlumat yazırdılar — amma şimaldan da naməlum adamlar hərəkət eləyirdilər, onları tamamilə düşmən kimi qəbul eləmək olardı. Tövlələrdə əsgərlər qaşovla atları təmizləyirdilər, mətbəx borusundan tənbəlcəsinə tüstü qalxırdı, üç əsgər həyəti süpürürdü, amma hamının varlığını kəskin və adət eləmədikləri bir hiss — səbirsizliklə gözlədikləri ümumi hiss bürümüşdü, sanki onların saatları gəlmişdi, böyük an başlamışdı və artıq geriyə yol yox idi.

Zabit və əsgərlər dərindən nəfəs alırdılar, damarlarındakı cavan qanlarının necə qaynadığını



downloaded from KitabYurdu.org

daha yaxşı hiss eləmək üçün torpaqdan qalxan səhər təravətini ciyərlərinə çəkirdilər. Artilleriyaçılar topları hazırlamağa başlamışdılar və zarafatlaşaraq onların ətrafında vurnuxur, sanki kəhkir atlara qulluq eləyirdilər. Baxışlarda həyəcan oxunurdu, axı neçə illər keçmişdi və kim bilir, bəlkə də toplar artıq atəş açmayacaqdılar, bəlkə əvvəllər topları elə də yaxşı təmizləməmişdilər və indi təcili ölçü götürmək lazım idi, çünki vaxt yox idi və tezliklə hər şey cavabını tapacaqdı.

Hələ indiyə qədər heç vaxt çaparlar pilləkənlərlə belə sürətlə qaçışmamışdılar, heç vaxt mundirlər belə qaydada olmamışdı, süngülər belə təmizlənməmişdi, şeypurların səsi belə mübariz olmamışdı. Belə çıxır ki, əbəs yerə gözləmirmişlər, belə çıxır ki, bütün bu illəri boş yerə xərcləməmişdilər və qədim Qala hələ xidmət göstərə bilərdi.

İndi hamı xüsusi siqnalı, hələ indiyə kimi əsgərlərdən heç birinin eşitmədiyi əsl döyüş siqnalını qaçıracaqlarından qorxurdu. Səs gedib istehkamlara kimi çatmasın deyə Qalanın divarları arxasındakı gizli düzənlikdə keçirilən məşqlər vaxtı, sakit yay axşamlarında şeypurçular bəzən bu məşhur siqnalı çalmağa cəhd eləyirdilər — sadəcə elə-belə, həddən



downloaded from KitabYurdu.org

artıq səy göstərərək (axı heç kim bunun nə vaxtsa karlarına gələcəyi haqda düşünmürdü), onda bu siqnal elə də təlaş yaratmırdı. İndisə onlar az məşq elədikləri üçün heyifsilənirdilər: bu, olduqca uzun hava idi, çox yüksək notda qurtarırdı, beləliklə də, lazım olan məşqləri keçmədən asanlıqla saxta çalmaq olardı.

Yalnız Qalanın komendantı bu siqnalın çalınmasına göstəriş verə bilərdi və bütün diqqətlər polkovnikə yönəlmişdi: əsgərlər onun nə vaxt divarın üzərinə qalxıb, divarın bu başından o başına kimi gedəcəyini gözləyirdilər; onlar artıq özləri üçün onun necə yaxınlaşdığını, məğrurca gülümsəyərək onlardan hər birinin gözlərinin içinə diqqətlə baxdığını təsəvvür eləyirdilər. Onun üçün də, yəqin, xüsusi gün başlamışdı, məgər bütün ömrü bu anı gözləmək üçün keçməmişdimi?

Amma polkovnik Filimore öz kabinetində dayanmış və pəncərədən şimala baxırdı, boş düzənliyin balaca üçbucaq sahəsinə, dağların örtmədiyi bu sahədə qara nöqtələrin zəncirini görürdü, sanki qarışqalar idi, birbaşa Qalanın, birbaşa onun üzərinə doğru hərəkət eləyirdilər; bunlar, həqiqətən də, əsgərə oxşayırdılar.



downloaded from KitabYurdu.org

Dəqiqədənbir otağa zabitlərdən biri girirdi, gah podpolkovnik Nikolozi, gah yoxlayıcı kapitan, gah da keşik üzrə növbətçi. Səbirsizliklə gəlir, onun əmrini gözləyirdilər... cürbəcür bəhanələrlə, hansısa az əhəmiyyətli xəbəri vermək üçün gəlirdilər: şəhərdən ərzaqla dolu furqon gəlib, səhərdən sobanın təmirinə başlayacaqlar, bir neçə əsgərin məzuniyyət müddəti qurtarır, mərkəzi istehkamın terrasında baxış borusu quraşdırılıb, birdən cənab polkovnik ondan istifadə eləmək istəyər və s.

Onlar bu haqda məlumat verərkən əllərini şapkalarının günlüyünə aparır, dabanlarını cütləyirdilər və başa düşə bilmirdilər ki, niyə polkovnik elə hey ayaq üstə dayanıb və susur, niyə burda hamının gözlədiyi əmri vermir? O, hələ keşiyin gücləndirilməsi, hər kəsə ikiqat döyüş ehtiyatının verilməsi, həyəcan elan olunması haqda da göstərişlər verməyib.

Hansısa anlaşılmayan bir süstlüklə polkovnik soyuqqanlı halda yadellilərin yaxınlaşmasını izləyirdi və bu zaman nə qüssə, nə də sevinc hissi keçirirdi, sanki bütün bunların, ümumiyyətlə, ona aidiyyatı yox idi.

Axı gözəl oktyabr günü idi, günəş şəfəq saçırdı, hava təmiz və şəffaf idi, döyüş üçün ən münasib gün



downloaded from KitabYurdu.org

idi. Külək istehkamın damındakı bayrağı dalğalandırırdı, həyətin sarı torpağı işıldayırdı və torpaq üzərində əsgərlərin kölgələri aydınca həkk olunurdu. Cənab polkovnik, çox gözəl səhərdir.

Komendant isə aydınca hiss elətdirirdi ki, tək qalmaq istəyir və hamı kabinetdən çıxandan sonra otağı addımlarıyla ölçməyə başladı — pəncərədən masaya kimi, masadan pəncərəyə kimi, tamamilə qocalar kimi köks ötürərək mexaniki olaraq çal bığlarını tumarlayır, heç bir qərara gələ bilmirdi.

Budur, artıq qara zəncir düzənliyin kiçik üçbucağından yoxa çıxdı, demək, yadellilər hardasa sərhədin lap yaxınlığında idilər və üç-dörd saatdan sonra lap dağın ətəyinə kimi gəlib çıxa biləcəkdilər.

Amma cənab polkovnik heç bir ehtiyac olmadığı halda eynəyinin şüşələrini dəsmalla silirdi, masanın üzərinə qalaqlanmış məlumatları və kağızları, onun qol çəkməsini gözləyən Qala üzrə əmrləri, kiminsə məzuniyyət haqda xahiş ərizəsini, qarnizon həkimi tərəfindən tərtib edilən gündəlik məlumatları, sərracxanadan gələn fakturalar dəstini vərəqləyirdi.

Cənab polkovnik, bəs siz nə gözləyirsiniz? Günəş artıq yüksəlir, hətta indicə burdan çıxan mayor Matti belə bir qədər təşvişə düşməsini gizlətmir: hətta heç vaxt və heç nəyə inanmayan o da. Heç olmasa, özünü



downloaded from KitabYurdu.org

keşikçilərə göstər, divarın üzəriylə gəziş! Yeni istehkamda olan kapitan Forse təsdiq eləyir ki, artıq yadellilərin hər birini ayrı-ayrılıqda seçmək olur: onlar silahlıdılar, hamısının çiynində tüfəng var, daha vaxt itirmək olmaz.

Polkovnik Filimore isə nəyisə gözləyir. O, əlbəttə, gələn bu naməlum adamların əsgər ola biləcəyini mümkün hesab edir. Qoy olsun. Amma onlar neçə nəfərdilər? Biri deyir iki yüz, digəri iki yüz əlli, hətta kimsə qeyd elədi ki, bu, düşmənin yalnız öndə gedən hissəsidir, guya əsas qüvvəsi azından iki min nəfərdir. Amma bu əsas qüvvə hələlik görünmür, həm də onların, ümumiyyətlə, olmadığı da mümkündür.

Cənab polkovnik, düşmənin əsas qüvvəsi yalnız şimal dumanının ucbatından görünmür. Bu gün səhər duman hiss olunacaq qədər yaxınlaşmışdı, şimal küləyi onu aşağılara doğru qovdu və duman düzənliyin böyük hissəsini örtdü. Əgər arxalarınca əsl böyük ordu gəlmirsə, bu iki yüz nəfəri göndərməyin nə mənası var imiş? Əminliklə demək olar ki, bu ordunu hələ günorta olmamış görmək olacaq. Məsələn, bir keşikçi təsdiq eləyir ki, o özü lap təzəlikcə duman zolağının sərhədi ilə nəyinsə irəlilədiyini görüb.



downloaded from KitabYurdu.org

Amma komendant hələ də masadan pəncərəyə doğru və ordan da geriyə var-gəl eləyir. “Nəyə görə yadellilər Qalaya hücum eləməlidilər — o düşünür, — bəlkə bu, səhra şəraitində adicə təlimlərdir? Tatar ordalarının vaxtı keçdi, çoxdan əfsanəyə dönüblər. Ümumiyyətlə, sərhədi pozmaq kimin nəyinə lazımmış? Hə, bu hadisədə şübhəli nəsə var”.

Cənab polkovnik, deyək ki, bunlar tatarlar deyillər, amma şübhəsiz, əsgərlərdilər. Heç kim üçün sirr deyil ki, şimal krallığı ilə münasibətlər çoxdan korlanıb və hətta müharibə haqda da danışırlar. Bəli, bunlar, şübhəsiz ki, əsgərlərdilər: həm atlı, həm də piyada əsgərlər. Yəqin, tezliklə artilleriyaçılar da görünəcəklər. Onların hələ axşam düşməmiş hücum eləyəcəklərini düşünmək üçün bütün əsaslar var, Qalanın divarları isə köhnədir, toplar köhnədir, burda nə varsa, hamısı köhnəlib, yalnız əsgərlərin ürəkləri cavandır. Ümumiyyətlə, cənab polkovnik, sənə ümid eləmək üçün də heç bir əsas yoxdur.

Ümid eləmək! Ah, o, necə də ümid eləməyə son qoymaq istəyirdi, axı məhz bu ümidə görə bütün ömrünü vermişdi — hələ ömründən neçə il qalmışdı? — və əgər indi həmin o münasib hadisə deyildisə, başqa bir belə hadisə bir də çətin baş verərdi. Onu qorxu, ya da ölə biləcəyi haqdakı fikir ləng



downloaded from KitabYurdu.org

tərpənməyə məcbur eləmirdi. Belə bir fikir heç onun ağlına da gəlmirdi.

Heç şübhəsiz, ömrünün sonlarına yaxın Qisməti birdən al qana boyanmış qılıncı və özünün gümüşdən hazırlanmış zirehli geyimi ilə qarşısında dayanaraq onun üzünə gülmüşdü. Artıq Qismət haqda düşünməyən polkovnik Filimore birdən onun çöhrəsini görmüşdü və nə qədər qəribə olsa da, bu çöhrədən dostcasına bir münasibət oxunurdu. O isə əgər həqiqəti deyəriksə, yerindən tərpənmək və təbəssümə təbəssümlə cavab vermək qərarına gələ bilmirdi: olduqca çox aldanmışdı, onun bəsiydi. Qalanın digər zabitləri isə dərhal sevinclə qismətlərinin qucağına atılmışdılar. Onlar öz komandirlərindən fərqli olaraq sanki ilk dəfələri deyilmiş kimi döyüşün dözüm tələb eləyən və güclü qoxusunu qabaqcadan hiss eləyərək qismətlərinə inamla baxırdılar. Polkovnik isə hələ də gözləyirdi. Onu xurafata inanan hesab eləyin, amma çox gözəl olan bu xəyal ona sağ əli ilə toxunana qədər yerindən tərpənməyəcəkdi. Axı tamamilə kifayətdir — əlini uzat, öz müqəddəs arzunu aşkar elə və dərhal da bu gözəl xəyal yoxa çıxacaqdı.

Bax buna görə də o, razılaşmayaraq başını yırğalayır, Qismətin, yəqin, səhv elədiyinə işarə



downloaded from KitabYurdu.org

eləyirdi. Və inanmayaraq ətrafına, arxaya baxır, sanki bunların, başqalarının içində onun əsl seçilmiş nümayəndəsini axtarırdı. Amma orda heç kim yox idi, demək bu, səhv deyildi, demək beləydi ki, vardı: həsəd aparılası Qismət məhz onun taleyinə düşmüşdü.

Dan yeri ağarmazdan əvvəl səhranın ağaran səthinin üzərində o, müəmmalı qara ilan gördü və onun ürəyi sevinclə doldu. Sonra Qismətin gümüş əsləhədə və al qana boyanmış qılıncda olan surəti bir az tutqunlaşmağa başladı, hərçənd Qisməti ona doğru gəlirdi, amma nəyə görəsə kiçik görünən, həqiqətdə isə ondan çox uzaq olan məsafəni qət eləyib ona lap yaxınlaşa bilmirdi.

Məsələ burasındaydı ki, Filimore onu olduqca çox gözləmişdi, amma ömür qocalığa qədəm qoyanda insanda daha iyirmi yaşındakı inamı olmur. Hə, əbəs yerə olduqca çox illər ərzində onu gözlədi, qarnizon üzrə olduqca çoxlu əmrlər oxudu, səhərlər bu lənətə gəlmiş, həmişə adamsız olan düzənliyə olduqca çox baxdı.

İndisə, yadellilər gəlib çıxanda o, açıq-aşkar burda nəsə səhv olduğunu hiss eləyir (amma bütün bunlara inanmaq necə də cəzbedicidir) və bu, həlledici səhv də ola bilər.



downloaded from KitabYurdu.org

Bu arada isə yazı masası ilə üzbəüz asılmış divar saatının əqrəbi ömrü üyüdür və polkovnikin illər ərzində tamamilə qurumuş arıq barmaqları inadla dəsmalla eynəyin şüşələrini silir, hərçənd buna qətiyyən heç bir ehtiyac yox idi.

Saatın əqrəbi on birin yarısına yaxınlaşanda, zabitlərin raportlarını qəbul eləməyin vaxtı olduğunu polkovnikə xatırlatmaq üçün mayor Matti kabinetə girdi. Bu, Filimorenin tamam yadından çıxmışdı və o dilxor idi: indisə adamlara düzənlikdə peyda olmuş yadellilər haqda nəsə demək lazım gələcəkdi, daha təxirə salmaq mümkün deyildi, onları ya rəsmən düşmən adlandırmaq lazımdı, ya hamısını zarafat kimi qəbul eləməli, ya da "qızıl ortalığı" seçməliydi — təhlükəsizlik ölçüləri qəbul eləmək haqda sərəncam verməli və bu zaman özünün buna şübhə ilə baxdığını, heç nədən çaxnaşma salmağa hazırlaşmadığını göstərməli idi. Lakin hansısa qərar qəbul eləmək lazım idi və bu, onu sıxırdı. O, əsla heç bir qərar qəbul eləmədən gözləməyə üstünlük verərdi və bununla da hər şeyi taleyin öhdəsinə buraxardı: qoy nəhayət ilk addımı özü atsın.

Mayor Matti özünün həmişəki ikimənalı təbəssümü ilə dedi:



downloaded from KitabYurdu.org

— Görünür, bu dəfə biz gözləyib məqsədimizə çatmışıq!

Polkovnik Filimore heç bir cavab vermədi. Onda mayor əlavə elədi:

— İndi digərləri də görünməyə başlayıb. Üç nəfərlik cərgələrlə gəlirlər, hətta burdan da görünür.

Polkovnik onun gözlərinin içinə baxdı və bir anlığa hətta mayora qarşı özündə hansısa bir rəğbət də hiss elədi.

— Siz deyirsiniz digərləri də görünməyə başlayıb?

— Hətta burdan da görünür, cənab polkovnik. Onlar artıq olduqca çoxdular.

Hər ikisi pəncərəyə yaxınlaşdılar və şimal düzənliyinin üçbucaq sahəsində hərəkət eləyən qara ilana baxdılar. Dan yeri ağaranda olduğu kimi bir yox, üç ilan hərəkət eləyirdi, yadellilərin cərgələrinin sonu görünmürdü.

“Müharibə... müharibə”, — polkovnik düşündü, hansısa qadağan olunmuş arzusu kimi bu fikri özündən uzağa qovmağa çalışdı. Mattinin sözləri yenidən onda ümid oyatdı və bu ümid onun qəlbini sevinclə doldurdu.

Bax polkovniki belə həyəcanlı hisslər sarmışdı və birdən parad salonunda cərgə ilə düzülmüş bütün



downloaded from KitabYurdu.org

zabitlərin (yalnız növbədə olan zabitlər istisna təşkil edirdi) qarşısına beləcə çıxdı. Bir-birinə, az qala, bitişik olan göy mundirlərin fonunda onun çətinliklə tanıya bildiyi solğun sifətləri ilə seçilən ayrı adamlar da var idi; gənclər və yaşlılar — hamısı eyni şeyi deyirdi, qızğınlıqla parıldayan gözlər ondan acgözlüklə yaxınlaşan təhlükə haqda rəsmən məlumat verməsini tələb eləyirdilər. "Farağat" komandası ilə mil dayanmış zabitlər baxışlarını ondan çəkmir, gözləmələrinin yalan olmayacağına tam ümid eləyirdilər.

Ortalığa hakim olan sükutda onların həyəcanla necə nəfəs almaları eşidilirdi. Və polkovnik başa düşdü: o, sadəcə olaraq, onlara nəsə deməyə borcludur. O məhz bu dəqiqələrdə onlara hansısa yeni, qarşısı alınmayacaq hisslərin hakim kəsildiyini başa düşdü. Öz təəccübünə rəğmən özü də bilmədən nəyə görəsə Filimore birdən bu fikri təsdiq eləməli oldu ki, bu yadellilər əslində də düşməndilər və sərhədi pozmağı qarşılarına məqsəd qoyublar. Belə bir fikrə necə gəldiyini, həqiqətən o özü də başa düşə bilmirdi: axı cəmi bir dəqiqə əvvəl o hələ bu aldadıcı fikrə qalib gəlməkdə və ona inanmamaqda israrlıydı. O, ümumi əhvali-ruhiyyənin ona necə sirayət elədiyini hiss eləyirdi və hər cür ehtiyatlılığı bir tərəfə



downloaded from KitabYurdu.org

atıb deməyə hazırdı: “Cənab zabitlər, — o, indicə deyəcəkdi, — budur, nəhayət bizim illər uzunu gözlədiyimiz saat gəlib çatmışdır”. Zabitlərə belə, ya da buna oxşar nəsə deyəcəkdi, onlar isə onun sözlərini minnətdarlıqla döyüşdə qəhrəmanlıq göstərməyə xeyir-dua kimi qəbul eləyəcəkdilər.

O artıq öz nitqinə hazırlaşırdı, amma qəlbinin dərinliklərində hələ də nəsə müqavimət göstərirdi. “Polkovnik, bu mümkün deyil, — daxili səsi ona deyirdi, — nə qədər gec deyil, dayan, burda nəsə yanlışlıq var (həqiqət olması üçün hər şey olduqca aldadıcıdır), ehtiyatlı ol, bu, səhv fəlakət gətirə bilər”.

Bu düşmən səs yalnız həyəcanını gücləndirirdi.

Nəhayət o, bir addım irəli atdı, adətən hər dəfə danışmağa başlayanda olduğu kimi başını düzəltdi və zabitlər birdən onun üzünün qızardığını gördülər. Bəli, cənab polkovnikin üzü uşaq üzü kimi qızarmışdı, çünki o, indi səylə bütün ömrünün hamıdan gizlətdiyi gizli arzusunu açmalıydı.

Amma onun üzü uşaq üzündə olduğu kimi alqırmızı ilə örtüləndə, dodağı isə artıq ilk sözü demək üçün açılmaq üzrə olanda, qəlbinin dərinliyində yenə də düşmən səs eşidilməyə başladı və Filimore bir anlığa yubandı. Bu zaman o, salona qalxan pilləkəndə kiminsə addım səslərini eşitdi.



downloaded from KitabYurdu.org

Gərgin halda öz komandirlərini izləyən zabitlərdən heç biri bu səsi eşitmədi, amma uzun illər xidmət eləyən Filimorenin eşitmə qabiliyyəti o qədər güclüydü ki, o öz Qalasında istənilən, hətta ən zəif səsi də duymağa qadirdi.

Addım səsləri yaxınlaşırdı, buna şübhə yox idi, həm də qeyri-adi tələskənliklə. Bu səslərdən nəsə özgə və uğursuz, amiranə bir ab-hava vururdu onu. Yəqin, gələn kimdisə düzənlikdə baş verənlərlə birbaşa əlaqəliydi. İndi addım səslərini digər zabitlər də eşitdilər və bu səslər, özləri də bilmədilər, nəyə görəsə onların qəlbinə toxundu. Nəhayət qapı açıldı və kandarda naməlum draqun zabiti göründü. O büsbütün toz içindəydi, tövşüyürdü.

O, hərbi salam verdi və özünü təqdim elədi:

— Leytenant Fernandes, yeddinci draqun polkundanam. Sizə zati-aliləri baş ştabın komandirindən məktub gətirmişəm.

Konverti bükdüyü sol qolunun altında saxlayaraq o, polkovnikə yaxınlaşdı və möhürlənmiş konverti ona uzatdı. Filimore çaparın əlini sıxdı.

— Leytenant, sizə minnətdaram, — o dedi. — Hər şeyə görə belə ehtimal eləmək olar ki, siz çox tələsik gəlibsiniz. İndicə sizə bələdçilik eləyər, dincəlmək üçün şərait yaradarlar.



downloaded from KitabYurdu.org

Öz narahatçılığını heç nə ilə büruzə vermədən polkovnik gözünə ilk sataşan leytenantı — santini işarə ilə yanına çağırdı və çaparı ona tapşırdı. Hər iki zabit çıxdılar və qapı onların arxasınca bağlandı.

— Sizin icazənizlə... — Filimore təbəssümlə dedi və konverti yelləyərək məktubu indicə oxumalı olduğunu anlatdı.

Ehtiyatla möhürü qopardı, konvertin küncünü cırdı və ordan hər iki üzü yazılmış, ikiqat kağıza bükülmüş məktubu çıxardı. O, oxuduğu müddətdə zabitlər baxışlarını ondan çəkmir, üzünün ifadəsindən nəsə başa düşəcəklərinə ümid eləyirdilər. Amma heç də onların gözlədiyi kimi deyildi. Polkovnikin görkəmi eləydi ki, sanki o, uzun qış gecəsində şam yeməyindən sonra sobanın yanında oturub qəzetlərə baxırdı. Amma yalnız yanaqlarının qızartısı çəkilmişdi.

Oxuyub qurtarandan sonra polkovnik yenidən vərəqi qatladı, onu konvertə saldı, konverti cibinə qoyub başını dik tutaraq hamının diqqət verməsini tələb elədi. Hamı hiss elədi ki, onları əsir eləyən əsrarəngizlik birdən yoxa çıxdı.

— Cənab zabitlər, — polkovnik zorla dilləndi. — Bu gün səhər, əgər mən səhv eləmirəmsə, əsgərlərin arasında bəzi həyəcanlanma hiss olundu, əgər səhv



downloaded from KitabYurdu.org

eləmirəmsə, “Tatar çölü” adlanan yerdə adamların görünməsi ilə sizin də aranızda.

Onun sözləri sükut divarını çətinliklə aşa bilirdi. Salonda milçəyin necə uçması belə eşidilərdi.

— Söhbət gedir... — polkovnik davam elədi, — söhbət şimal dövlətinin hərbi birləşməsindən gedir. Onlar bizim uzun illər bundan əvvəl elədiyimiz kimi sərhəd zolağına nişanlar qoyacaqlar. Buna görə də onlar Qalaya yaxınlaşmayacaqlar, hər şeydən əvvəl, kiçik dəstələrə bölünərək dağlara qalxacaqlar. Bu haqda da zati aliləri baş ştabın rəisi mənə məktubunda məlumat verir.

Bunu deyərək Filimore uzun-uzadı köks ötürdü, bu isə nə dözülməzliyin, nə də üzüntünün yox, sadəcə olaraq qocalığın əlaməti idi, adama elə gəlirdi ki, hətta onun səsi də birdən qocaldı, beləcə o, kar və sındırılmış adam kimi göründü, gözləri isə bulanıqsarımtıl torla örtüldü.

Bəli, polkovnik Filimore əvvəldən bunun belə də olacağını hiss eləmişdi. Bunun düşmən olmadığı ona tamamilə aydın idi. Əlbəttə ki o, şöhrət qazanmaq üçün yaranmamışdı, hər dəfə axmaq illüziyalara uyanda buna dəfələrlə əmin olmaq imkanı qazanmışdı. “Axı nəyə görə, — o qızğınlıqla özündən soruşurdu, — sən nəyə görə özünü aldatmağa imkan



downloaded from KitabYurdu.org

verdin? Axı lap əvvəldən hər şeyin belə də qurtaracağını hiss eləmişdin”.

— Sizə məlumdur ki, — o, sinəsinə yığılmış qəhəri büruzə verməməyə çalışaraq bilərəkdən etinasız halda sözünə davam elədi, — sərhəd dirəkləri və digər sərhəd işarələri bizim tərəfimizdən uzun illər bundan əvvəl qoyulub. Amma zati-alilərinin məlumat verdiyi kimi bir ölçülməmiş sahə qalıb. Bu işi başa çatdırmaq üçün bu yerə kapitanın və kiçik zabitlərdən birinin komandanlığı ilə bir bölük gedəcək. Həmin sahə dağlarda yerləşir. Ordan iki, ya da üç paralel silsilə keçir. Əgər biz şimala doğru irəliləsəydik və şimal yamacını öz tərəfimizdə saxlasaydıq, bunun necə də yaxşı olacağını əlavə eləməyə ehtiyac yoxdur. İş onda deyil ki, bu sahə strateji nöqteyi-nəzərdən elə də vacibdir, özünüz də başa düşürsünüz, orda, yuxarıda heç bir hərbi əməliyyat aparmağa şərait yoxdur və manevr eləməyə də münasib yer deyil... — Polkovnik nə haqdasa düşünərək bir qədər susdu, sonra əlavəetdi, — hə, manevrlər üçün... mən harda qalmışdım?

— Siz dediniz, nə qədər mümkünsə, şimala doğru irəliləmək lazımdır, — mayor Mattti şübhəli bir tələskənliklə yavaşdan dedi.



downloaded from KitabYurdu.org

— Ah, hə, biz nə qədər mümkünsə irəli getməliydik. Təəssüflər olsun ki, bu elə də asan məsələ deyil: şimallılar bizi qabaqladılar. Hər halda... Di yaxşı, bu haqda sonra, — o, podpolkovnik Nikolaziyə baxaraq dedi.

Polkovnik susdu, sanki nitq onu yordu. O danışdıqca zabitlərin sifətinə məyusluq kölgəsinin çökdüyü diqqətindən yayınmamışdı, birbaşa gözlərinin qarşısındaca onlar döyüşə can atan zabitlərdən heç nə ilə diqqəti cəlb eləməyən qarnizon qulluqçularına dönmüşdülər. “Di boş şeydi, — polkovnik düşünürdü, — onlar gəncdilər, onlar üçün hər şey qabaqdadır”.

— Belə, — polkovnik, davam elədi, — indisə mən təəssüfümə rəğmən sizlərdən çoxuna iradımı bildirməliyəm. Mən dəfələrlə növbə dəyişilən vaxt bəzi briqadaların sıraya öz komandirləri olmadan düzüldüklərini görmüşəm. Görünür, bu zabitlər elə ehtimal eləyirlər ki, onlar sıraya gecikə bilərlər...

Milçək salon boyunca uçurdu, bayraq qalanın damında əsgi kimi asılmışdı, polkovnik, nizam-intizam və nizamnamə haqda danışırdı, şimal düzənliyi ilə silahlı adamlar irəliləyirdilər, amma onlar döyüşə atılmaq arzusu ilə alışıb-yanan düşmənlər yox, onların özləri kimi dinc əsgərlər idi



downloaded from KitabYurdu.org

və onlar ölümcül döyüşə yox, sərhəd xəttini müəyyənləşdirmək üçün əməliyyat aparmağa gəlirdilər, onların tüfəngləri doldurulmamış, qılıncları itilənməmişdi. Şimaldan cənuba doğru tamamilə təhlükəsiz olan ordu irəliləyirdi, Qalada isə yenə də gündəki ətalət hökm sürürdü.

## XV

Açıq qalan sərhəd xəttini müəyyən eləyəcək dəstə növbəti günün səhərisi, dan yeri söküləndə Qaladan çıxdı. Dəstəyə iri cüssəli kapitan Monti rəhbərlik eləyirdi, ona kömək üçünsə leytenant Anqustinanı və serjantlardan birini vermişdilər.

Hər birinə bu gün üçün və növbəti dörd gün üçün parolu demişdilər. Çətin ki, onlar hamısı birdən həlak olaydılar, amma hər ehtimala qarşı köhnədən xidmət eləyənlərdən birinə göstəriş vermişdilər: ölən və ya huşunu itirən komandirin mundirinin düymələrini açırsan, əlini onun daxili cibinə salırsan və ordan möhürlənmiş, surquclanmış konverti çıxarırsan. Konvertdə Qalaya buraxılış üçün parolların yazıldığı vərəq olacaqdı.

Üfüqdə günəş təzə-təzə görünməyə başlayanda qırx nəfərdən ibarət olan silahlı dəstə şimal istiqamətində Qaladan çıxdı. Əsgərlərdə olduğu kimi



downloaded from KitabYurdu.org

kapitan Montinin də ayağında ağır, altlığı mıxlanmış yarımçəkmə var idi. Yalnız Anqustina çəkmə geymişdi və Qaladan çıxmamışdan əvvəl kapitan onun çəkmələrinə xüsusi maraqla baxdı, lakin heç nə demədi.

Çınqıllıqla yüz metr gedəndən sonra sağa buruldular və daha aşağı düşməyərək dağlara kimi uzanan sıldırımlı dərənin nazik boğazına doğru irəlilədilər.

Təxminən yarım saatdan sonra kapitan qeyd elədi:

— Bax, bunlarda... — o, Anqustinanın çəkmələrini göstərdi, — sizin üçün çətin olacaq.

Anqustina cavab vermədi.

— Mən ləngimək istəmədim, — bir qədər vaxt keçəndən sonra kapitan yenidən danışdı. — sizsə onlarda əzab çəkəcəksiniz, bax görərsiniz.

Buna Anqustina etiraz elədi:

— Cənab kapitan, indi artıq gecdir, əgər beləydisə, siz bunu mənə əvvəlcədən deyə bilərdiniz.

— Di, demə, — Monti etiraz elədi, — siz onsuz da çəkmələrinizi geyəcəkdiniz, mən ki sizi tanıyıram.

Montinin leytenantdan zəhləsi gedirdi. Görürsən, necə də məğrurdur! Di boş şeydir, tezliklə ağlın başına gələr", — o düşündü və dəstəni ən çətin



downloaded from KitabYurdu.org

yerlərlə aparmağa başladı, hərçənd ona Anqustinanın elə də möhkəm sağlam olmadığı məlumdu. Bu arada onlar əsasən maili qayalara çatdılar. Burda çınqıl xırda idi, ayaqları çınqıla batır və onu çıxartmaq getdikcə çətin olurdu. Kapitan dedi:

— Adətən, bu dərədən dözülməz külək əsir... Amma Allaha şükürlər olsun ki, bu gün sakitlikdir.

Leytenant Anqustina heç bir cavab vermədi.

— Hələ yaxşı ki, günəş çıxmayıb, — yenidən Montinin səsi eşidildi. — Bəli, bu gün, demək olar ki, bəxtimiz gətirib.

— Məgər siz bu yerlərdə olubsuz? — Anqustina soruşdu.

— Bir dəfə, biz qaçanları...

O, sözünü qurtarmadı; belə ki, onların üzərindən asıla qalan təpədən uçqun səsi eşidildi. Daşlar zərblə qayalara dəyir, yana sıçrayaraq duman buludu qaldırır, quduz sürətlə üzüaşağı, boşluğa doğru şığıyırdılar. Göy gurultusunu andıran uğultu bir qayadan digərinə doğru yayılırdı. Gözlənilməyən uçqun bir neçə dəqiqə davam elədi, amma tezliklə, dərin dərələrin dibinə kimi gedib çatmadan daş uçqunu kəsildi, onların dayandıqları cığıra kimi yalnız ikiüç daş parçası gəlib çıxdı.



downloaded from KitabYurdu.org

Hamı kirimişdi: uçqunun gurultusunda hansısa düşmən qüvvənin varlığı hiss olunurdu. Monti baxışlarında meydan oxuyurmuş kimi bir ifadə duyulan Anqustinanı ani nəzərdən keçirdi. O, leytenantın qorxduğunu düşünürdü, amma yanılırmış. Əvəzində isə belə qısa yoldan sonra Anqustina tamam islanmış, eleqant paltarları əzik-üzük olmuşdu.

"Görürsən, necə də məğrurdur, — Monti yenə də düşündü, — neynək, sonra hansı dillər oxuyacağına hələ baxarıq". O, dərhal da dəstəni irəli apardı, əsgərləri daha tez yeriməyə məcbur eləyir və hərdənbir arxaya boylanaraq Anqustinaya baxırdı. Bəli, onun təxmin elədiyi və əmin olduğu kimi çəkmələrartıqleytenantınayaqlarınısürtməyəbaşlamı şdı. Bu, Anqustinanın sürətini aşağı salmasından və ya sifətindəki əzab ifadəsindən hiss olunmurdu. Yox, bu, onun ayağını yerə necə basmasından və sifətindəki sərt qərarlılıqdan hiss olunurdu.

— Mənə elə gəlir ki, mən fasilə vermədən altı saat gedə bilərəm. Əgər əsgərlər olmasaydı... Bu gün bizimki çox gətirir, — kapitan aydınca hiss olunan kinli sevinclə davam elədi. — Anqustina, siz necəsiniz?



downloaded from KitabYurdu.org

— Bağışlayın, kapitan, — leytenant dilləndi, — siz nə dediniz?

— Heç nə, — Monti bədxah təbəssümlə cavab verdi, — mən halınızın necə olduğunu soruşdum.

— Hə, sağ olun, — Anqustina qeyri-müəyyən cavab verdi və fasilə verəndən sonra yüksəklikdə nəfəsinin kəsildiyini gizlədərək əlavə elədi. — Ancaq təəssüflər olsun...

— Nə?.. — Monti leytenandan şikayət eşidəcəyinə ümid eləyərək soruşdu.

— Təəssüflər olsun ki, bura tez-tez gəlmək olmaz, buralar çox gözəl yerlərdir, — o dedi və adəti üzrə adi qaydada gülümsədi.

Monti addımlarını daha da sürətləndirdi. Amma Anqustina geri qalmırdı, onun sifəti yorğunluqdan ağarmışdı, furajkanın altından sifətiylə üzüaşağı tər axırdı, kürəyində də mundiri tərdən tutqunlaşmışdı, amma o şikayət eləmirdi və onunla kapitanın arasındakı məsafə artmırdı.

Dəstə artıq qayaların arasıyla hərəkət eləyirdi. Hər tərəfdən qorxunc boz divarlar ucalırdı, elə görünürdü ki, dərə harasa ağlasığmaz yüksəkliyə doğru uzanır.

Tanış mənzərənin axırıncı əlamətləri də yoxa çıxdı, öz yerini kimsəsiz dağların hüznlü mənzərəsinə



downloaded from KitabYurdu.org

verdi. Bu mənzərəyə heyran qalan Anqustina elə hey baxışlarını yuxarıya doğru dikir, onların üzərindən asıla qalan diş-diş qayalara baxırdı.

— Bir qədər sonra düşərgə salarıq, — leytenantdan gözünü çəkməyən Monti dedi. — Hələlik mən münasib yer görmürəm. Açıq boynunuza alın, axı siz yorulubsunuz, deyilmi? Bəziləri burda özlərini yaxşı hiss eləmirlər. Əlbəttə, bizim üçün nəzərdə tutulmayan yubanma lazım deyil, amma dərhal deməniz yaxşıdır.

— Getdik, getdik, — Anqustina elə tonda dedi ki, sanki burda başçı o idi.

— Mən niyə deyirəm? Ona görə ki, hər bir adam üçün bura eyni deyil. Yalnız ona görə...

Anqustina ağarmışdı, furajkasının altından tər seli axırdı, mundirini isə lap istəyirsən al, sıx. Amma leytenant dişlərini sıxır və davam gətirirdi, ölərdi, lakin acizliyini boynuna almazdı. Kapitana hiss elətdirmədən o, həqiqətən də, yuxarı baxır, bu əzablı yoxuşun nə vaxt qurtaracağını müəyyən eləmək istəyirdi.

Günəş artıq yüksəlmişdi və hətta ən uzaqda olan zirvələri də işıqlandırırdı, amma onun işığı sakit payız səhərlərində olduğu kimi təmiz və parlaq



downloaded from KitabYurdu.org

deyildi. Səmayla ağır-ağır və bir qərarda necəsə qəribə olan məşum tüstü sürünürdü.

Hələ bir çəkmələri də dözülməz ağrı verməyə başlamışdı, xüsusilə də yoxuşda. Yandırıcı, əzabverici ağrıya görə artıq dərinin qanı çıxana qədər sürtüldüyünü ehtimal eləmək olardı.

Qəfildən çınqıllıq qurtardı və dərə maili qayaların yaratdığı dikdirin kənarındakı solğun otlarla örtülmüş kiçik talaya dirəndi. Talanı hər tərəfdən mürəkkəb çıxıntılar və çatlarla ləkə-ləkə edilmiş hündür divarlar əhatəyə almışdı.

Kapitan Monte könülsüz olaraq, amma hər halda dincəlmək, nahar etmək üçün dayanmağa göstəriş verdi. Anqustina səliqə ilə iri bir daşın üzərində oturdu, hərçənd tərli sifətini buza döndərən küləkdən tir-tir əsirdi. Kapitanla birlikdə bir şüşə şərablarını, bir parça çörəklərini, azacıq qaxac edilmiş donuz ətini və pendiri bölüşdülər.

Anqustinaya soyuq idi, kapitana və əsgərlərə ümidlə baxırdı, onlardan hansı birininsə şinelinə bürünəcəyinə ümid eləyirdi, onda o da nümunə götürə bilərdi. Amma elə görünürdü ki, əsgərlər soyuğu qətiyyən hiss eləmirlər və bir-birləriylə zarafatlaşırdılar. Kaptian acgözlüklə, məmnunluqla



downloaded from KitabYurdu.org

yeyir, hərdənbir başlarının üzərində dikilmiş sərt dağlara nəzər yetirirdi.

— İndi, — o elan elədi, — mən bizim hardan yaxşı qalxacağımızı bilirəm, — arxasında mübahisəli sahənin başladığı maili qayanı göstərdi. — Birbaşa ora hərəkət eləmək lazımdır. Bir qədər dırmaşmaq lazım gələcək, hə, leytenant?

Anqustina divara baxdı. Sərhədyanı silsiləyə qədər qalxmaq üçün, doğrudan da, divarlarla dırmaşmaq lazım idi, ya da hansısa aşırımla dağın ətrafına dolanmağa cəhd eləmək olardı. Amma bu, olduqca çox vaxt tələb elərdi, onlar isə tələsməliydilər. Şimallıların vəziyyəti daha yaxşı idi; belə ki, onlar əvvəlcədən yola düşmüşdülər, bundan əlavə, onlar tərəfdən yol hissolunacaq dərəcədə asan idi. Hə, başqa cür mümkün deyildi, divarı alınları ilə döyməli olacaqdılar.

— Ora? — Anqustina soruşdu, sıldırım qayalara baxarkən yüz metr soldan qalxmağın daha asan olduğunu başa düşdü.

— Ora, birbaşa, — kapitan təsdiq elədi. — Bəs siz necə hesab eləyirsiniz?

— Əsas birinci çatmaqdır, — Anqustina dedi.

Kapitan onu düşməncəsinə nəzərdən keçirdi.

— Yaxşı, — o dedi. — İndisə karta keçək.



downloaded from KitabYurdu.org

O, cibindən kartları çıxardı, öz şinelinin ətəyini hamar daşın üzərinə sərdi və Anqustinanı dəvət eləyərək dedi:

— Bunlar qara buludlardır. Bax siz hamınız ona baxırsınız, narahat olmayın, onlar havanı korlamayacaqlar... — Gülümsədi, sanki qeyri-adi bir hazırcavablıqla cavab verməsindən məmnun qalmışdı.

Oynamağa başladılar. Anqustina küləkdə, sadəcə, keyidiyini hiss eləyirdi. Kapitan iki daşın arasına sığınmışdı və daşlar onu qoruyurdu. Anqustinanın isə külək birbaşa sinəsinə vururdu. “Mütləq xəstələnəcəyəm, — o düşündü.

— Siz neyləyirsiz, heç belə səhv eləmək olar! — Monti sadəcə qışqırmadı, hətta bağırdı. — Lənət şeytana, tuzu mənə vurdurmaqda ağıllı iş görürsən! Eh, cənab leytenant, sizin başınız hardadır? Siz elə hey yuxarı baxırsız, kartlara isə heç nəzər yetirmirsiz.

— Yox-yox, — Anqustina cavab verdi, — mən, sadəcə, səhv elədim! — zorla da olsa, gülümsədi.

— Boynunuza alın, — Monti qalib görkəmilə dedi, — boynunuza alın ki, bu şeylər sizi möhkəm təngə gətirib. And içirəm ki, mən belə də olacağını bilirdim.



downloaded from KitabYurdu.org

— Hansı şeylər?

— Sizin bu misilsiz çəkmələriniz... Əziz leytenant, onlar belə yerlər üçün deyillər. Düzünü deyin, axı onlar sizi çox incidir...

— Hə, onlar mənə elə də rahat deyillər, — Anqustina bu mövzunun onun üçün xoş olmadığını göstərərək ehtiyatla cavab verdi. — Bunlar, doğrudan da, mənim üçün bir qədər narahatlıq yaradırlar.

— Ha, ha! — razı qalan kapitan güldü. — Mən dedim axı! Belə çəkmələrlə çınqıllıqda yeriyə bilməzsən!

— Karol qaratoxmaq, — Anqustina onun sözünü soyuq bir tərzdə kəsdi. — Buyurun.

— Belə de, bir dəqiqə, — kapitan sevinclə səsləndi. — Çəkmələrsə ay çəkmədilər ha!

Anqustinanın çəkmələri, doğrudan da, dik qayalara dırmaşmaq üçün yararlı ayaqqabı deyildi. Altlığı elə hey sürüşürdü, kapitan Montinin və əsgərlərin yarımçəkmələrinin mıxlanmış altlıqları isə çıxıntılardan möhkəmcə yapışırdı. Amma Anqustina, hər halda, geri qalmırdı, yorğunluğa və tərini donduran buz kimi küləyə baxmayaraq ikiqat əzmlə kapitanın arxasınca gedir, yuxarı qalxdıqca-qalxırdı.

Aşağıdan göründüyü kimi, dağa qalxmaq elə də çətin deyilmiş. Bundan əlavə, yamaclar asanlıqla



downloaded from KitabYurdu.org

yapışmaq mümkün olan yuvalar, çatlar, çıxıntılar və ayrıca qaya parçaları ilə bol idi. Ağır kapitan dırmaşır və çətinliklə tullanırdı, elə hey də Anqustinanın artıq tamam nəfəsinin kəsiləcəyi ümidi ilə aşağı baxırdı. Amma Anqustina tab gətirirdi, insanı heyrətə salacaq bir məharətlə münasib və möhkəm dayağı tapır, yuxarı belə cəld dırmaşa bilmək üçün özündə bunca güc tapa bildiyinə görə özü də heyrətlənirdi.

Bununla yanaşı, onların aşağısındakı boşluq daha dərin olmuşdu, dağların zirvələri elə bil onlardan aralanmışdı, onun ətəyində büsbütün dik olan sarı divar ucalırdı. Axşam isə olduqca sürətlə yaxınlaşırdı, hərçənd başlarının üzərindəki boz buludların qatı təbəqəsi günəşin nə vaxt batacağını görməyə imkan vermirdi. Üstəlik də hava soyumağa başlamışdı. Vadidən şiddətli külək əsirdi və onun yarıqlarda necə vıyıldadığını eşitmək olurdu

— Cənab kapitan! — birdən lap cərgənin axırında gələn serjant qışqırdı.

Monti dayandı. Onun arxasınca Anqustina və sonra da sonuncuya qədər bütün əsgərlər dayandılar.

— Hə, nə olub? — kapitan soruşdu, sanki Allah bilir, onu hansısa vacib işindən ayırmışdılar.



downloaded from KitabYurdu.org

— Şimallılar artıq zirvədədilər! — serjant qışqırdı.

— Nədir, başına hava gəldi? Sən onları hardan görürsən? — Monti cavab verdi.

— Solda, bax, o aşırımda, azacıq sol tərəfdəki çıxıntıda, sanki burun kimi tərpənəndə!

O haqlı idi. Üç balaca qara kölgə boz səmanın fonunda aydın görünürdülər və onların necə hərəkət elədikləri də yaxşı görünürdü. Onların artıq zirvənin aşağı ətəyində olduqlarına şübhə eləməyə heç bir əsas yox idi və hər şeyə görə belə qənaətə gəlmək olardı ki, zirvəyə birinci onlar çatacaqlar.

— Lənət şeytana! — kapitan qışqırdı, hirslə aşağı, əsgərlərin zəncirinə baxdı, sanki bu uğursuzluğun səbəbkarı əsgərlər idi. Sonra Anqustinaya tərəf döndü, — zirvəni ilk olaraq biz tutmalıyıq, buna heç bir söhbət ola bilməz! Əks halda gərək polkovnikin gözünə görünməyək!

— Onları necəsə saxlamaq lazımdır, — Anqustina dedi. — ordan zirvəyə qədər bir saatlıq yoldur. Əgər onlar dayanmasalar, biz onları keçə bilmərik.

— Bəlkə mən dörd əsgərlə irəli gedim, — kapitan cavab verdi. — Kiçik dəstə bu işin öhdəsindən daha cəld gələr. Sizsə sakitcə qalxın, əgər yorulubsunuzsa, burda oturub gözləyin.



downloaded from KitabYurdu.org

Gör bu əclaf nə planlar qurur — Anqustina düşündü, özü fərqlənmək istəyir, məni isə burda saxlayır”. Ucadan isə belə dedi:

— Eşidirəm, cənab kapitan. Necə əmr edərsiniz. Amma mən, hər halda, irəli getməyə üstünlük verirəm. Ümumiyyətlə, əgər hərəkətsiz oturarıqsa, donarıq.

Kapitan dörd ən cəld əsgəri seçdi, öz aləmincə hücum dəstəsi yaradaraq irəli hərəkət elədi. Digərlərinə komandanlığı öz üzərinə qəbul eləyən Anqustina da Montidən geri qalmayacağına ümid eləyirdi. Amma əbəs yerə: kiçik dəstə heç nəyə baxmayaraq addımlarını sürətləndirirdilər, o qədər aralanmışdılar ki, hətta geridə qalan dəstənin artıq sonu görünmürdü.

Anqustinanın gözləri önündəcə kapitanın kiçik dəstəsi qalanın boz çıxıntılarının arxasında yox oldu. Hansısa müddətə hələ də ayaqlarının altından çıxan çınqılların səsi eşidilirdi, sonra isə bu səs də onların uzaqlaşan səsləri kimi kəsildi.

Bu arada isə səma tamam tutqunlaşmışdı. Onları əhatə eləyən qayalar, dərənin əks tərəfindəki qaralan divarlar, uçurumun dibi — hamısı hansısa məşum bənövşəyi çalara bürünürdü. Balaca qarğalar sərt qarıltılarıyla nahamar çıxıntılar boyunca uçurşur,



downloaded from KitabYurdu.org

sanki bir-birlərini yaxınlaşan təhlükə barədə xəbərdar eləyirdilər.

— Cənab leytenant, — arxasınca gələn əsgər Anqustinaya müraciət elədi, — indicə yağış yağacaq.

Anqustina dayandı, əsgərə baxdı, amma heç nə demədi. Çəkmələri daha ayaqlarını vurmurdu, əvəzində isə sonsuz yorğunluq özünü hiss etdirməyə başlamışdı. Yoxuşun hər metrini hədsiz çətinliklə qalxırdı. Xoşbəxtlikdən keçib gəldikləri yoxuşda olduğu kimi bu sahədə qayalar elə də sərt və kəsikkəsik deyildi. “Maraqlıdır, görəsən, kapitan nə qədər uzaqlaşa bilib, — Anqustina düşündü. Bəlkə o artıq zirvəyə qalxıb, bayrağı ora taxıb, sərhəd nişanını qoyub və indi də geri qayıdır?”

Yuxarı baxanda zirvənin elə də uzaqda olmadığına əmin oldu. Amma aydın deyildi, ona hansı tərəfdən yaxınlaşmaq lazım idi — divarları olduqca şaquli və şümul idi.

Nəhayət dar, çınqılla örtülmüş cığıra çıxanda Anqustina bir neçə metrliyində kapitan Montini gördü. O, əsgərlərdən birinin çiyninə söykənərək on metrdən yüksək olmayan, amma tamamilə keçilməz görünən bir divarı aşmaq istəyirdi. Aydın görünürdü ki, Monti artıq çoxdandı əbəs yerə bu maneəni dəf eləmək istəyir.



downloaded from KitabYurdu.org

Yorğunluqdan nəfəsini güclə dərən kapitan Anqustinanı kinli baxışlarla qarşıladı.

— Leytenant, siz aşağıda gözləyə bilərdiniz, — o dedi, — biz hamımız burdan keçib gedə bilmərik. Əgər mən, bir də iki əsgər ora qalxa biləriksə, yaxşı olar. Siz, yaxşı olardı ki, aşağıda gözləyəsəniz, tezliklə qaranlıqlaşacaq, qaranlıqda üzüaşağı düşmək isə sənə zarafat gəlməsin.

— Amma siz özünüz dediniz ki... — Anqustina tamamilə soyuqqanlı cavab verdi, — mən istədiyim kimi hərəkət eləyə: qala yaxud sizin arxanızca gələ bilərəm.

— Yaxşı, — kapitan dedi, — indi yolu axtarıb tapmalıyıq, zirvədən bizi cəmi bir neçə metr ayırır.

— Necə? Bax orda və artıq zirvədir? — leytenant gizli bir istehza ilə soruşdu, kapitan, əlbəttə, bunu hiss eləmədi.

— Heç on metr də olmayacaq, — kapitan qızışdı. — Lənət şeytana, mənmi bunu aşa bilməyəcəyəm! Hə, mən...

Yuxarıdan gələn kiminsə qaba səsi onun sözünü kəsdi, elə də hündür olmayan divarın küncündən iki baş göründü.

— Axşamınız xeyir! — naməlum adamlardan biri, yəqin, zabit olanı gülümsəyərək qışqırdı. —



downloaded from KitabYurdu.org

Xəbərdarlıq eləmək istəyirəm, siz burdan qalxa bilməzsiniz, dolanıb qalxa bilərsiniz!

Hər ikisi də yoxa çıxdı, aşağıda duranlara yalnız yad adamların anlaşılmayan danışıqları gəlib çatırdı

Hirsindən Monti göyərdi. Demək, hər şey qurtardı: şimallılar artıq zirvəni tutmuşdular. Kapitan aşağıdan gəlməyə davam eləyən əsgərlərə əhəmiyyət vermədən qayanın dibindəki daşın üzərinə çökdü.

Birdən qar yağmağa başladı: qışda olduğu kimi sıx və ağır qar yağırdı. Kim təsəvvür eləyə bilərdi ki, bir neçə dəqiqə ərzində qayalığın aşağasını örtən çınqıllıq tamam ağappaq olacaq, digər hər şey isə qaranlığa bürünəcək. Heç kim gecənin belə qəfildən düşəcəyini ağlına da gətirə bilməzdi.

Əsgərlər heç nə olmayıbmış kimi öz bürüncəklərini açdılar və şinellərinə büründülər.

— Siz neyləyirsiniz, lənətə gəlmişlər! — kapitan özündən çıxdı. — Dərhal şinellərinizi qatlayın! Olmaya bütün gecəni burda eşələnmək istəyirsiniz? Yubanmadan aşağı düşəcəyik.

— İcazənizlə, cənab kapitan, — Anqustina etiraz elədi, — onlar nə qədər ki zirvədədilər...

— Nənə? Siz bununla nə demək istəyirsiniz? — kapitan onun üstünə qışqırdı.



downloaded from KitabYurdu.org

— Mənim fikrimcə, nə qədər şimallılar orda, zirvədədilər, geri qayıda bilmərik. Bəli, onlar ora birinci çatıblar və burda biz heç nə eləyə bilmərik, amma bunu necə izah eləyə bilərik?

Kapitan heç bir cavab vermədi və bir neçə dəqiqə qayanın başıyla irəli-geri gərdiş elədi, sonra dedi:

— İndi yəqin onlar da ordan rədd olub gedərlər, zirvədə belə havada burdakından daha soyuq olur.

— Cənablar! — yuxarıdan səs eşidildi və divarın küncündən artıq dörd və ya beş baş göründü. — Bu mərasim nə üçündü, ipdən yapışın və bura qalxın, belə qaranlıqda sərt qaya ilə siz onsuz da aşağı düşə bilməzsiniz!

Onlar sözlərini deyib iki qalın kanatı aşağı atdılar ki, kanatların köməyi ilə Qaladan gələn dəstə bu qısa divarı qalxa bilsin.

— Sağ olun, — kapitan Monti kinayəli tonda cavab verdi. — Diqqətiniz üçün sağ olun, amma biz necə olmuş olsa da, birtəhər öz qayğımıza qalarıq!

— Di öz işinizdir! — yuxarıdan qışqırdılar. — Amma ipləri burda saxlayırıq, nə bilmək olar, bəlkə hər halda, lazım oldular.

Uzun bir sükut çökdü. Yalnız qar sakit xışıltı ilə yağır, arabir kimsə öskürürdü. Artıq heç nə



downloaded from KitabYurdu.org

görünmürdü, fənərin qırmızımtıl işığında başları üzərində yüksələn divarın küncü güclə sezilirdi.

Qalanın əsgərləri də şinellərini çiyinlərinə ataraq fənərlərini yandırdılar. Kapitan üçün də fənər gətirdilər.

— Cənab kapitan, — Anqustina yorğun halda səsləndi.

— Yenə nə var?

— Cənab kapitan, bəlkə kart oynayaq?

— Cəhənnəm olsun sizin kartınız! — bu gecə burdan heç yerə gedə bilməyəcəklərini çox gözəl başa düşən kapitan cavab verdi.

Heç bir söz demədən Anqustina kartları kapitanın çantasından çıxardı, əsgərlərdən biri şinelinin ətəyini daşın üzərinə sərdi, fənəri yaxına qoydu və kartları qarışdırmağa başladı.

— Cənab, kapitan, gəl oynayaq, hətta istəməsəniz belə.

Monti yalnız indi leytenantın nəyi nəzərdə tutduğunu başa düşdü, axı şimallılar onlara baxırdılar və kim bilir, yəqin hələ bir gülürdülər də. Belə çıxırdı, oynamaq lazımdı. Əsgərlər lap divarın yanında özlərinə yer eləmişdilər, balaca çökəkdə fərəh dolu gülüşlə yeməyə girişmişdilər, hər iki zabit isə açıq yerdə oturaraq qarın altında kart oynamağa



downloaded from KitabYurdu.org

başladılar. Onların arxasında şaquli qaya idi, aşağıda isə boşluq qaralırdı.

— Onu təmiz udursan, bircə kartını da vurdurmursan! — yuxarıdan kimsə istehza ilə qışqırdı.

Nə Monti, nə də Anqustina başlarını yuxarı qaldırmadılar, özlərini elə göstərdilər ki, guya bərk məşğuldular. Amma kapitan könülsüz oynayırdı, kartları hirslə şinelin üstünə çırpırdı. Anqustina nahaq yerə onu qızışdırmağa çalışırdı.

— Bax bu, başqa məsələ, iki tuz bir-birinin ardınca... bu kart mənim... boynunuza alın, xaçı əldən verdiniz...

Hərdənbir o hətta gülürdü də və bu, onda tamamilə təbii alınırdı.

Yuxarıdan yenə də onlara səslər gəlib çatırdı, sonra ayaq səsləri. Yəqin, şimallılar gedirdilər.

— Uğurlar arzulayıram! — yenə də həmin səs qışqırdı. — sizə uğurlu oyunlar... ipləri də yaddan çıxarmayın.

Nə kapitan, nə də Anqustina cavab vermədilər. Onlar qızğınlıqla kartları çırpır, sanki bu qışqırığı heç eşitmirdilər.

Zirvədə fənərin işığı söndü. Görünür, şimallılar doğrudan da getməyə hazırlaşırdılar. Kartlar qardan



downloaded from KitabYurdu.org

tamam şişmişdilər və onları qarışdırmaq getdikcə çətin olurdu.

— Di bəsdir! — kapitan öz kartlarını daşın üzərinə ataraq dedi. — Bəsdir komediya verdiyimiz.

O, qayanın altında yerini rahatladı, şinelinə möhkəmcə büründü.

— Toni! — o qışqırdı. — Mənim çantamı gətir, bir az da su tap, su içmək istəyirəm.

— Onlar hələ bizi görürlər, — Anqustina dedi. — Zirvədən görürlər!

Amma Montini bununla yola gətirə bilməyəcəyini başa düşüb, özü özüylə oynamağa başladı elə göstərmək istəyirdi ki, guya oyun davam eləyir.

Sanki oyunçu yoldaşına müraciət eləyirmiş kimi leytenant ucadan səslənirdi: sol əlində kartları saxlamış, sağla isə gedişlərini eləyirdi, onları şinelin üzərinə atır və vurduğu kartları götürürdü. Sıx qar pərdəsinin arxasından yadellilər, əlbəttə, yuxarıdan baxıb onun oyun yoldaşının olmadığını görə bilməzdilər.

Şiddətli soyuq onu dəlib keçirdi. Leytenanta elə gəlirdi ki, o artıq yerindən tərpənə, hətta uzana da bilməyəcək. Həyatında heç vaxt ona indiki kimi pis olmamışdı. Zirvədə fənər işıqları titrəyirdi, yadellilər



downloaded from KitabYurdu.org

açıq-aşkar gedirdilər, amma hələ onu görə bilərdilər. (Əsrarəngiz sarayın şüşələrinin arxasından birisi göründü: o, Anqustina, lap uşaq idi, son dərəcə ağarmışdı, ağ krujevalı yaxalığı olan gözəl məxmər kostyumdaydı. O, yorğun hərəkətlə pəncərəni açdı və pəncərənin kənarlarından yapışıb yırğalanan xəyalatlara tərəf əyildi, sanki onlarla dostluq münasibətləri vardı və onlara nəsə demək istəyirdi.)

— Bu da vurulan kart, vurulan kart! — Anqustina elə qışqırmağa cəhd elədi ki, onun səsini yadellilər eşidə bilsinlər, amma onun səsi, xırıltılı və zəif idi.

Lənət şeytana, cənab kapitan, bu artıq ikinci dəfədir!

Öz şinelinə bürünən və ağır-ağır nəyisə çeynəyən Monti diqqətlə Anqustinanı nəzərdən keçirtdi və ona olan hirsinin keçib getdiyini hiss elədi.

— Yaxşı, bəsdir, daldanacağa gəlin, leytenant, şimallılar artıq getdilər!

— Cənab kapitan, siz məndən daha yaxşı oynayırsınız, — Anqustina inadla oyun görüntüsü yaradırdı, hərçənd onun səsi demək olar ki, eşidilmirdi. — Amma bu gün siz nəsə formada deyilsiniz. Nəyə görə siz elə hey zirvəyə baxırsınız? Niyə belə hirslisiniz?...



downloaded from KitabYurdu.org

Qar fırlanğıcında leytenant Anqustinanın barmaqları aralandı. Fənərin titrəyən işığında əlinin cansız halda şinelinin böyründən necə sallandığı görünürdü və əlindən sonuncu nəm çəkmiş kartlar da düşdü.

Leytenant kürəyini daşa söykəyərək başını arxaya qatladı, onu qəribə yuxu tutmuşdu. (Ay işığında saraya isə balaca bir xəyalat dəstəsi yaxınlaşırdı, onlar kəcavə gətirirdilər.)

— Leytenant, bura gəlin, bir az yemək yeyin, belə soyuqda yemək lazımdır, tez ol, son ver bu oyuna! — kapitan qışqırdı, onun səsində həyəcan notları hiss olunurdu. — Bura gəlin, daldaya, qar artıq ara verir.

Doğruydu, demək olar, birdən qar zərrəcikləri seyrəkləşdi, daha yüngül oldu, hava şəffaflaşdı, fənərlərin işığında artıq onlarla metr kənardakı qayaya baxmaq olardı.

Birdən çovğunun arasından təsəvvür edilməyən uzaqlıqdan Qalanın işıqları sayrışdı, işıqlar xəyalatlar karnavalının əhatəyə aldığı əsrarəngiz sarayda olduğu qədər olduqca çox idilər. Anqustina işıqları gördü və soyuqdan ağaca dönmüş dodaqları tərpəndi.

— Leytenant! — kapitan yenidən qışqırdı. O, nəyinsə baş verdiyini başa düşməyə başlamışdı. —



downloaded from KitabYurdu.org

Leytenant, atın bu kartları bir tərəfə, bura gəlin, burda küləkdən qorunmaq olar.

Amma Anqustina hələ də işıqlara baxır, düzü deyilərsə, artıq bunların dəqiq nə olduqlarını bilmirdi: Qalaydı, ya uzaq bir şəhər, ya da doğma evi — onu artıq gözləməkdən ümidini üzmüş saray.

Bəlkə də Qalanın səngərindəki hansısa keşikçi təsadüfən dağları nəzərdən keçirəndə lap yüksəklərdəki alışıb-yanan fənərləri ayırd eləyə biləcəkdi. Lənətə gəlmiş divar o qədər kiçikdi, belə məsafədən onu görmək belə mümkün deyildi. Bəlkə də keşikçilərə Droqo komandanlıq eləyirdi, axı Droqo istəsəydi, o da kapitan Monti və Anqustina ilə bura yola düşə bilərdi. Amma o, bütün bu əməliyyatı ağlagəlməz axmaqlıq hesab eləyirdi, hücum təhlükəsi keçəndən sonra komendantın əmri ona əsgərə heç bir şərəf gətirməyəcək mənasız əyləncə kimi gəlmişdi. Amma dağlardakı sayrışan işıqları görəndə Droqo Monti ilə getmədiyinə görə heyifsilənəcək. Belə çıxırdı ki, şöhrəti təkcə müharibədə qazanmırdılar. Və o, indi yuxarıda, gecənin qaranlığında çovuyan qar çovğununun içində olmağı necə də arzulayacaqdı. Amma artıq gec idi, belə bir fürsəti əldən buraxmışdı.



downloaded from KitabYurdu.org

İstirahət eləmiş, paltarı quru olan, isti şinelinə bürünmüş Covanni Droqo uzaq qığılcımlara baxanda hətta həsədə bənzər bir hiss də keçirəcəkdi. Bu zaman isə bütünlüklə donan qar qabığı ilə örtülmüş Anqustina axırıncı qüvvəsini toplayıb öz yaş bığlarını tumarlayır və səylə şinelinin ətəklərini düzəldirdi, şinelə möhkəmcə bürünürdü: qızınmaq üçün yox, onun niyyəti özgəydi. Kapitan Monti öz daldanacağından ona heyrətlə baxırdı və heç cür başa düşə bilmirdi ki, Anqustina neyləyir. Hardasa buna bənzər bir mənzərə görmüşdü, amma harda — xatırlaya bilmirdi.

Qalanın divarlarından birində qədim qravüra asılmışdı, qarvürada knyaz sebastyanın ölümü təsvir olunmuşdu. Ölümcül yaralanmış knyaz meşə talasında uzanmışdı. Belini ağacın gövdəsinə söykəmiş və başını azacıq yana əymişdi, plaşı isə çiyinlərindən büzmələriylə üzüaşağı sallanmışdı. Bütün bunlarda şəkildən adamı qəddarcasına, fiziki olaraq itələyən bir ölüm ab-havası yox idi və rəssamın hətta belə bir vəziyyətdə də öz qəhrəmanının nəcibliyini və gözəlliyini necə göstərə bilməsi heç kimi heyrətləndirmirdi.

Bəli, Anqustina, əlbəttə, qeyri-iradi olaraq meşənin dərinliyində ölümcül yara almış knyaz



downloaded from KitabYurdu.org

sebastyanla özü arasında oxşarlıq tapırdı. Doğrudur, Anqustinanın knyaz kimi parlaq qələbələri olmamışdı, onun qana bulaşmış dəbilqəsi və sındırılmış qılıncı ayaqlarının yanına düşməmişdi.

O, ağacın gövdəsinə yox, qayanın sərt parçasına söykənmişdi, onun üzünə günəşin sonuncu şəfəqləri yox, cəmi-cümlətanı fənərin zəif işığı düşmüşdü, amma əllərinin və ayaqlarının vəziyyəti, şinelinin bükükləri, üzündəki ölümcül yorğunluq eynən knyazda olduğu kimiydi.

Anqustina ilə müqayisədə kapitan da, serjant da və digər yerdə qalan əsgərlər də daha möhkəm və igid idilər, bir-birindən kobud və qaba görünürdülər. Montinin qəlbində isə hətta bir oğrun həsəd hissi də baş qaldırırdı.

Qar ara vermişdi, külək qaya çıxıntılarının arasında şikayətli səslər çıxarır, buz tozunu fırlayır, fənər şüşələrinin arxasında alovun dilləri titrəyirdi. Anqustinaya elə gəlirdi ki, bütün bunları əsla dərk eləmir, daşa söykənərək hərəkətsiz uzanıb və gözlərini Qalanın uzaq işıqlarından çəkmir.

— Leytenant! — Monti yenidən onu hərəkətə gətirməyə çalışdı. — Leytenant! Di gəlin bura, ora küləyin qabağıdı, orda qala bilməzsiz, donarsınız.



downloaded from KitabYurdu.org

Bura gəlin, burda Toni çadıra oxşar bir şey quraşdırıb.

— Sağ ol, kapitan, — Anqustina güclə eşidiləcək tərzdə pıçıldadı, ona danışmaq çox çətin olduğuna görə əlini yüngülcə azacıq qaldırdı. İndi bunun onun üçün heç bir əhəmiyyəti olmadığını, bütün bunların mənasız olduğunu bildirmək istəyirdi.

(Nəhayət, xəyalatların başçısı amiranə işarə elədi, Anqustina öz darıxdırıcı görkəmi ilə pəncərə altlığının üzərindən addımlayıb keçdi və təntənə ilə kəcavəyə mindi. Sehrlənmiş ekipaj yüngülcə yerindən tərpəndi.)

Bir neçə dəqiqə yalnız küləyin xırıltılı zingiltisi eşidildi. Qayanın altına, nisbətən isti yerə toplaşmış əsgərlərin artıq hər cür zarafat eləmək həvəsləri keçmişdi və onlar dinməzcə soyuqla mübarizə aparırdılar.

Külək bir anlığa sakitləşəndə Anqustina başını yüngülcə azacıq yuxarı qaldırdı, nəsə demək üçün dodaqlarını ağır-ağır araladı, amma yalnız bunu deyə bildi: “sabah lazımdı ki...” Cəmi üç söz... Bu sözləri elə astadan dedi ki, kapitan Monti onları güclə eşidə bildi.

Üç söz və Anqustinanın başı sinəsinə düşdü. Onun keyimiş ağ əli hərəkətsiz halda şinelinin



downloaded from KitabYurdu.org

qırışlarının üzərində uzanıb qalmış, ağzı qapalıydı, dodaqlarında isə yenə də təbəssüm dolaşırdı. (Kəcavədə üzərkən o, baxışlarını dostundan çəkdi və şən, inamsız bir maraqla irəli baxmağa başladı — dəstənin irəlilədiyi səmtə doğru. Bax belə... O, demək olar ki, insan qüvvəsinin xaricində olan bir nəcibliklə gecənin qaranlığında uzaqlaşırdı. Sehrli mərasim ilan kimi burularaq ağır-ağır göyə qalxdıqca-qalxır və əvvəlcə çəkilib uzadılmış qadın paltarının arxa ətəklərinə, sonra dumanın kiçik parçasına, sonra da heç nəyə dönürdü.)

— Anqustina, sən nə demək istəyirdin? Sabah nə? — Kapitan leytenantın çiynindən silkələdi; onu ayıltmağa çalışırdı, amma yalnız hərbi plaşın nəcib qırçınlarını əzirdi. Əfsuslar olsun! Əsgərlərdən heç biri hələ nə baş verdiyini başa düşmürdü.

Montinin məzəmmətlərində yalnız uçurumun qara yarğanından əsib gələn küləyin səsi eşidilirdi.

Anqustina, sən nə demək istəyirdin? Sən sözünü deyib qurtarmadan getdin". Bəlkə bu axmaq, bayağı bir fikir idi, həyata keçməyən ümidlərin ifadəsiydi. Bəlkə heç bu da deyildi.

## XVI



downloaded from KitabYurdu.org

Leytenant Anqustinanı dəfn elədilər və Qalada vaxt əvvəlki qaydada keçməyə başladı. Mayor ortis Droqodan soruşdu:

— Sən artıq neçə ildi burdasan?

— Dörd ildi.

Qış gözlənilmədən gəldi — ilin ən üzücü vaxtları. İndi qarı gözləmək lazım gəlirdi: əvvəlcə qar torpağı üç-dörd santimetr hündürlükdə örtür, bir qədər ara verəndən sonra bir az da qalınlaşırdı, sonra isə göydən tökülür, elə hey tökülürdü. Adama elə gəlirdi ki, bahar heç vaxt gəlməyəcək. (Bununla belə, günlərin birində hamının təxmin elədiyindən də tez baxış meydançasında bahar sularının necə axdığı eşidilirdi və gözlənilmədən qışın sonu çatırdı.)

Anqustinanın bayrağa bükülmüş bədəni olan tabut torpağın altında idi — Qala ilə yanaşı balaca təpədə. Qəbrin üzərində onun adı və soyadı yazılmış ağ mərmər xaç qoyulmuşdu. Əsgər Lassarinin azacıq aralıdakı məzarının üzərində bir az balaca ağac xaç var idi.

— Mən bəzən düşünürəm... — ortis necə oldusa dedi, — bax biz səbirsizliklə müharibə gözləyirik, bunun olacağına ümid eləyirik, bizdə heç vaxt heç nə olmadığı üçün taledən şikayətlənirik. Götürək elə bu Anqustinanı...



downloaded from KitabYurdu.org

— Belə çıxır... — Covanni Droqo söhbətə qoşuldu, — belə çıxır Anqustinanın taleyin iltifatına ehtiyacı yox idi və hər halda, fərqlənə bildi?

— O zəif idi və yəqin ki, sağlam deyildi, — mayor otris dedi. — Bizim hamımızdansa onun üçün daha pis idi. O, elə bizim hamımız kimi nə düşmənlə döyüşdü, elə bizim hamımız kimi nə də müharibə gördü. Amma hər halda, döyüşçü kimi həlak oldu. Məsələ budur! Leytenant, sizə, yəqin, onun necə ölməsi məlumdur?

— Bəli, — Droqo cavab verdi, — kapitan Monti mənə danışıb.

Qışın gəlməsi ilə yadellilər birdəfəlik çıxıb getmişdilər. Qəlblərdəki çox gözəl, qanla qızdırılan ümid bayraqları tədricən endirilmişdi və qəlblərə yenidən sakitlik hakim kəsilmişdi. Ətrafda hər şey boşalmışdı və gözlər olduqca uzaqlarda, lap üfüqlərin yanında heç olmasa, nəsə axtarırdı.

— Hə, o, nə vaxt ölmək lazım olduğunu bilirdi, — mayor ortis dedi. — sanki ürəyinə güllə ilə vurdular.

Nə deyə bilərsən, qəhrəmandı. Lakin heç kim ona atəş açmadı. Həmin gün onunla gedənlərdən hər birinin onunla şansı bərabər idi, onun heç bir üstünlüyü yox idi, bircə digərlərinə nisbətən onun ölməyi daha asan idi. Bəs digərləri... həqiqətdə isə



downloaded from KitabYurdu.org

onlar neylədilər? Digərləri üçün, demək olar ki, bu gün də keçən digər günlərdən biri kimi idi.

— Yalnız adi günlərə nisbətən bir az soyuq idi, — Droqo dedi.

— Bəli, bir az soyuqdu, — ortis də onun arxasınca təkrarladı. — Yeri gəlmişkən, leytenant, siz də onda onunla gedə bilərdiniz. İstəməyiniz kifayətdi.

Onlar dördüncü istehkamın ən yuxarı meydançasındakı taxta oturacaqda oturmuşdular. Ortis orda növbə çəkən leytenant Droqoya baş çəkməyə gəlmişdi. Hər gün keçdikcə də onları əsl dostluq telləri bir-birinə bağlayırdı.

Droqo dedi:

— Mən elə düşünürəm, sabah bizdə də qar yağacaq.

— Tamamilə mümkündür, — mayor etinasız halda səsləndi.

— Hə, qar olacaq, — Droqo yenidən dedi, — qarğalar elə hey uçur, uçurlar.

— Biz də günahkarıq, — yaxasından əl çəkməyən fikrə əsir olan ortis dedi. — Gecmi, tezmi hər kəs nəyə layiqdisə, onu da alır. Məsələn, Anqustina ən yüksək səviyyədə özünü qurban verməyə hazırdı, biz isə yox. Yəqin, iş də bundadır. Bəlkə bizim



downloaded from KitabYurdu.org

tələbatımız hədsiz böyükdür? Ümumiyyətlə, hər kəs əməlinə görə də alır. Həm də...

— Di nə olsun — Droqo soruşdu. — Biz nəsə eləyə bilərdikmi?

— Şəxsən mən, heç nə, — ortis təbəssümlə cavab verdi. — Mən olduqca çox gözlədim, siz isə...

— Mən nə?

— Nə qədər gec deyil, gedin burdan, şəhərə qayıdın. Ordakı qarnizon həyatına alışacaqsınız. Mənim qənaətimə görə siz həyatın sevinclərinə biganə olanlardan deyilsiniz. Orda, yəqin, sizi misilsiz irəliləyiş gözləyir, burası dəqiqdir. Hər kəsin alnına doğuşdan qəhrəman olmaq yazılmır.

Droqo cavab vermədi.

— Siz bütöv dörd ili boşa verdiniz, — ortis davam elədi. — Doğrudur, onlar xidmətinizdə səkkiz il kimi hesablanacaqlar, amma düşünün, şəhərdə olmaq sizin üçün necə də yaxşı olardı. Burda sizin dünya ilə əlaqəniz kəsilib, sizi hamı yaddan çıxarıb... nə qədər gec deyil, qayıdın.

Baxışlarını torpağa dikmiş Covanni qulaq asır və susurdu.

— Mən başqaları ilə necə olduğunu görmüşəm, — mayor dedi. — Tədricən onlar Qalaya elə alışırdılar ki, onun əsirinə çevrilir və yerlərindən



downloaded from KitabYurdu.org

tərpənmək qabiliyyətlərini itirirdilər. Otuz yaşda qocalırdılar! Hə də...

— Cənab mayor, bəlkə də siz haqlısınız, — Droqo cavab verdi, — amma mənim yaşımda...

— Siz cavansınız, — ortis geri çəkilmirdi, — sizin gələcəyiniz hələ qabaqdadır, bu doğrudur. Amma mən sizin yerinizə olsaydım, uzatmazdım. Hansısa iki ili də burda keçirsəniz — iki il tamamilə kifayətdir — artıq geri dönmək olduqca çətin olacaq.

— Məsləhətiniz üçün təşəkkür edirəm, — Droqo dedi. Mayorun sözləri onda heç bir təəssürat yaratmamışdı, — amma burda, Qalada da yaxşı olacağına ümid eləmək olar. Bu, mənasız səslənə bilər, amma təmiz danışsaq, siz də etiraf eləməli olarsınız...

— Hə, təəssüflər olsun, — mayor cavab verdi. — Biz hamımız bu və ya digər qaydada inadla nəyəsə ümid eləyirik. Amma özünüz düşünün, bu cəfəngiyatdır. — o, baxışlarını şimal tərəfdən çəkdi. — Müharibə heç vaxt o tərəfdən başlamayacaq. Bu yaxınlardakı hadisədən sonra heç kim müharibə haqda ciddi düşünmür.

Mayor ayağa qalxdı, şimala həmin o uzaq səhərdə olduğu kimi baxdı, onda Droqo ilə düzənliyin kənarında görüşmüşdü və o, ovsunlanmış



downloaded from KitabYurdu.org

halda Qalanın sirli divarlarına baxırdı. O vaxtdan dörd il keçmişdi — həyatın hiss olunacaq bir hissəsi idi — amma bu illər ərzində heç nə baş verməmişdi... sözün əsl mənasında onun böyük ümidlərini həyata keçirə biləcək heç nə. Günlər bir-birinin arxasınca keçmiş, bir dəfə səhər yad çölün kənarında əsgərlər görünmüşdü, onlar düşmən ola bilərdilər, amma sərhədin müəyyən olunması kimi adi işlərdən sonra birdəfəlik çıxıb getmişdilər. Əmin-amanlıq hökm sürürdü, keşikçilər həyəcan siqnalı vermirdilər, heç nə nəsə bir dəyişiklik olacağını vəd eləmirdi. Əvvəlki illərdə olduğu kimi qış həmişəki əlamətləri ilə gəlirdi və süngüləri yalayan qərb küləyi astadan fit çalırdı. Budur, mayor ortis əvvəllər olduğu kimi dördüncü istehkamın terrasında dayanıb və özü də öz dəlillərinə inanmadan elə hey şimal çölünə tərəf boylanır, sanki yeganə ona şimal çölünə baxmaq səlahiyyəti verilmişdir, yalnız onun Qalada qalmaq hüququ var — burda artıq məqsədin heç bir əhəmiyyəti yoxdur. Bəs bu Droqo?.. Hərçənd o yaxşı oğlandır, amma burda öz yerində deyil, yanlışlığa yol vermişdi və yaxşısı budur, çıxıb getsin.

## XVII



downloaded from KitabYurdu.org

Amma budur, Qalanın terraslarında qar deşikdeşik oldu və əsgər ayaqları qara sıyığa batırmış kimi batırdı. Yaxınlıqdakı dağlardan birdən əriyən qarın qulaqları nəvazişlə sığallayan şırıltısı eşidildi, zirvələrdə günəşin şəfəqləri altında parıldayan uzun ağ zolaqlar əmələ gəldi və əsgərlər özləri də hiss eləmədən neçə aylar ərzində ilk dəfə dodaqaltı zümzümə eləməyə başladılar.

Əvvəllər olduğu kimi günəş batmağa tələsmir, yığılan qarı əridərək göydə getdikcə daha çox qalmağa başlayırdı. Buludlar əbəs yerə şimaldakı buzların üzəriylə elə hey sürünüb gəlirdilər. Onlar özləriylə qar yox, yalnız qarın qalıqlarını səylə yuyan yağış gətirirdilər. Yenə də bahar gəldi.

Səhərlər quşların nəğmələri eşidilirdi, hamı bu səslərə yadırğamışdı. Hə, qarğalar da daha Qalanın meydançasına dəstəylə yığışıb mətbəx tullantılarını gözləmir, təzə ət tapmaq ümidilə vadilər boyunca uçuşurdular. Gecələr qaranlıqda çantaların asıldığı asılqanlar, kazarmalarda tüfənglər üçün nəzərdə tutulmuş piramidalar, qapılar və cənab polkovnikin otağındakı qoz ağacından olan ağır mebellər... ümumiyyətlə, bütün taxta əşyalar, hətta ən köhnələri də cırıldamağa başlayırdı. Bəzən tapançadan açılan atəşi xatırladan çatırtılar eşidilir, nəsə düşüb



downloaded from KitabYurdu.org

xıncımxıncım olurdu. Adamlar öz çarpayılarında oyanır və qulaq verir, amma həmin gecə cırıltılarından başqa heç nə eşitmirdilər.

Köhnə taxtalarda həyat haqda dözülməz kədərin özünü hiss elətdirməsinin vaxtı başlamışdı. Budaqlarla təzə, isti şirənin axdığı, çoxlu tumurcuqları təzyiqlə doldurduğu o xoşbəxt günlər çoxdan — lap çoxdan keçib getmişdi. Amma baharın gəlişi ilə onlarda həyatın zəif işartısı özünü büruzə verirdi. Nə vaxtsa yarpaqlar və çiçəklər idilər, indisə yalnız quru çatırtıya və növbəti ili gözləmək həsrəti ilə donub-qalmağa bəs edəcək qaranlıq xatirələrdilər.

Özündə heç bir hərbi məna ifadə eləməyən qəribə fikirlərin Qala sakinlərini məşğul elədiyi vaxtlar başlamışdı. Qala artıq etibarlı sığınacaq yox, həbsxana olmuşdu. Tutqun axıntıları olan sarı divarları və əyilmiş çıxıntıları ilə Qala yeni, hərbi ab-havaya cavab vermirdi.

Hansısa zabit — kürəyindən məhz kim olduğunu ayırd eləyə bilməzsən, amma çox ola bilsin ki, Covanni Droqoydu, — darıxdırıcı görünüşü ilə geniş və səhər saatlarında boş olan əsgərlərin əl-üzlərini yuduqları otağı və camaşırxananı gəzirdi. Yoxlama üçün yox, sadəcə yerində otura bilmirdi, burda hər şey tam qaydasında idi: çanaqlar təmizlənmiş,



downloaded from KitabYurdu.org

döşəmə süpürülmüşdü; hansısa kran axıdırdısa, bu artıq əsgərlərin günahı deyildi.

Zabit dayanır və pəncərələrdən birindən yuxarı baxır. Pəncərə bağlıdır, onun şüşələri, heç şübhəsiz, uzun illər ərzində yuyulmayıb, künclərində hörümçəklər tor qurub. Bir sözlə, pəncərədə qəlbi sevinclə dolduracaq diqqət çəkən heç nə yoxdur. Amma hərçənd çətinliklə də olsa, hər halda, şüşədən səmaya baxmaq olar. "Bəli, elə həmin bu səma — yəqin, zabit düşünür — indi həm solğun çanağın, həm də uzaqlardakı gözəl çəmənlərin üzərindədir, elə həmin bu günəş indi həm solğun çanağı, həm də uzaqlardakı gözəl çəmənlikləri işıqlandırır".

Çəmənliklər yaşıllaşıb və lap təzəlikcə xırda çiçəklərlə örtülüblər. Əgər burdan, Qaladan baxılarsa, ağ rəngdə görünəcəklər. Ağaclar da əlbəttə ki, təzə yarpaqlar açıblar. Heç bir məqsəd güdmədən at belində ətrafı dolaşmaq necə də xoş olardı! Hələ bir alçaq hasarların ətrafına dolanaraq gedən cığırda bir qəşəng qızla rastlaşsaydın, qız lap sənin atının yanından keçib-gedib, mehribancasına sənə gülümsəsəydi... Gülməli deyilmi? Bastioni qalasının zabiti belə axmaq arzulara düşə bilərdimi?

Tozlu pəncərələrdən, nə qədər qəribə olsa da, gözəl ağ bulud görünür. Eynən belə bir bulud indi



downloaded from KitabYurdu.org

uzaq şəhərin üzərində də süzür, gəzib-dolaşan adamlar hərdənbir boylanıb buluda baxır. Qışın keçib-getdiyinə sevinirlər. Demək olar ki, hamısının əynində təzə, ya da qaydaya salınmış paltarlar var, qadınlar başlarına çiçəklərlə bəzədilmiş şlyapalar qoyub, parlaq rəngli donlar geyiblər. Onların hamısının görkəmi elədir, sanki indicə nəsə yaxşı, fərəhli bir hadisə baş verəcək. Hər ehtimala qarşı əvvəllər hər şey məhz belə idi, kim bilir, bəlkə indi dəb dəyişmişdi. Maraqlıdır, əgər yanından keçərkən sən hansısa pəncərədə qəşəng bir qızı görsən, o, sənə elə-belə, məqsədsiz gülümsərmi? Bir gör başına hansı mənasız fikirlər yol tapırdı! Yalnız məktəbliyə bağışlanması mümkün olan axmaqlıq idi.

Çirkli şüşələrin yanından divarın bir hissəsi görünürdü. Bu hissə də günəşin şəfəqlərinə qərq olmuşdu, amma bu, elə də fərəhli deyildi. Kazarmanın divarını nə işıqlandırır — günəş və ya ay — heç fərqi yox idi, təki xidmətin normal gedişi pozulmasın. Kazarmanın adicə divarıdır, vəssalam. Bununla belə, uzaq sentyabr günlərinin birində zabit ovsunlanıbmış kimi dayanıb bu divarlara baxırdı. Onda ona elə gəlirdi ki, bu divarların arxasında onu sərt, amma həsəd aparılası bir tale gözləyir. Bu divarlarda diqqət cəlb eləyəcək heç nə olmasa da, o



downloaded from KitabYurdu.org

bir neçə dəqiqə sanki hansısa xariqənin qarşısında dayanıbmış kimi ovsunlanmış halda bu divarların qarşısında dayandı.

Zabit boş otaqda dolaşır, digərləri istehkamlarda növbə çəkirlər: atla daşlı təlim meydanında gəzir, xidmət otaqlarında otururlar. Onlardan heç biri məhz nə baş verdiyini anlaya bilmir, amma nəyə görəsə əhatəsindəkilərin sifəti əsəblərinə təsir eləyir. Hər biri ixtiyarsız halda düşünür, elə həmin, eyni sifətlər, elə həmin eyni söhbətlər, həmin xidmət, həmin kağızlar. Qəlblərində isə aydın olmayan arzular üsyan eləyir: nəyin həsrətini çəkir, sözlə ifadə eləmək mümkün deyil, yalnız bir şey aydındır, bu həsrətin kazarma divarlarına, əsgərlərə, şeypurların səsinə dəxli yoxdur.

“Belə... atım, çap düzənliyin yollarıyla, nə qədər gec deyil, qaç burdan, dayanma, hətta yorulsan da çap, yaşıl çəmənlər, kəndlərin doğma çöhrələri, evlər, kilsələr və zənglər görünənə kimi”.

Və onda əlvida, Qala, burda qalmaq təhlükəlidir, sənin elə də çətin olmayan tapmacanın cavabı tapılmışdır, şimal düzənliyi necə indiyə qədər boş olubsa, bundan sonra da boş olacaq, bu solğun divarlara hücum eləmək üçün düşmən heç vaxt ordan gəlməyəcək, ümumiyyətlə, heç kim



downloaded from KitabYurdu.org

gəlməyəcək. Əlvida, mayor ortis, ilbiz öz evindən ayrılmadığı kimi, Qaladan ayrılmayan kədərli dostum. Sənin kimilər burda çoxdur, siz öz arzularınızla olduqca çox müqavimət göstərdiniz, vaxt sizi keçib getdi və yenidən başlamağı da siz artıq bacarmazsınız.

Covanni Droqo isə bacarar. Daha onu heç nə Qalada saxlaya bilməz. İndi dağlardan enəcək, normal cəmiyyətə qayıdacaq. Yəqin, ona yaxşı bir yer təklif eləyərlər, bəlkə lap xaricə də göndərdilər — hansısa bir generalın dəstəsində. Qalada xidmət elədiyi illərdə Covanni, əlbəttə, çox şansını əldən qaçırdı, amma boş şeydi, hələ cavandı, əldən qaçırdıqlarının yerini doldurmaq üçün kifayət qədər vaxtı var idi.

Beləliklə, əlvida, Qala, mənasız istehkamlarınla, dözümlü əsgərlərinlə, hər səhər baxış borusu ilə gizlicə şimal çölünə baxan polkovnikinlə. Əbəs yerə! O, orda heç vaxt heç nə görməyəcək. Əlvida, Anqustinanın qəbri! Deyəsən, yeganə onun bəxti burda gətirdi, azından əsl əsgər kimi həlak oldu. Bu, xəstəxananın çarpayısında ölməkdən daha şərəflidir. Əlvida, Droqonun şərəflə yüzlərlə gecə yatdığı otaq. Əlvida, nizamnamənin tələb elədiyi kimi indi də axşamlar növbəyə başlayan əsgərlərin sıraya



downloaded from KitabYurdu.org

düzüldükləri həyət. Sonuncu əlvida da qəlbdə heç bir illüziya yaratmayan şimal çölünə...

"Covanni Droqo, bütün bunları başından çıxart! İndi, dağ yaylasının kənarında olanda və yol səni vadiyə doğru aparanda geriyə baxma. Belə aciz zəiflik göstərmə. Sənə Bastion qalasının hər daşı tanışdır və sən onu heç vaxt unutmayacağına şübhə eləməyə bilərsən. At fərəhlə yorğa gedir, hava misilsizdir, isti hava tər və şəffafdır, irəlidə hələ çox ömrün var, lap elə bu ömrün indi başladığını da demək olar. Nəyə görə dönüb bu divarlara, qazamata, keşik növbəsi çəkən əsgərlərə baxmalısan? Beləcə ağır-ağır bir səhifə də o tərəfə çevrilir, artıq oxuduqlarının üzərinə əlavə olunur; hələlik nazik bir qat alınıb — hələ oxuyacağın hədsiz çox olan səhifələrlə müqayisədə. Hər halda, daha bir oxunan səhifə, cənab leytenant, demək olar, sənin ömrünün bütöv bir parçası".

Yaylanın daşlı kənarına çatanda Droqo, doğrudan da, geri boylanmır, eniş başlayanda azacıq belə tərəddüd eləmədən, hətta başını belə döndərmədən atını dəhmərləyir və məmnun, buna çətinliklə nail olmasına baxmayaraq, sərbəst halda hansısa havanı fitlə çalır.



downloaded from KitabYurdu.org

## XVIII

Giriş qapısı bağlı deyildi və Droqonu dərhal da tanış ev qoxusu vurdu — bu qoxunu uşaqlıqdan, yayı bağda keçirib evə qayıdandan sonra yadında saxlamışdı. Bu doğma, əziz qoxu idi, amma bu qədər illərdən sonra onda nəsə bir solğunluq hiss olunurdu. Hə, doğruydu, bu qoxu Droqoya uzaq illərini, bazar günlərinin sevincini, masa arxasındakı xoşbəxt günlərini, həmişəlik keçib getmiş uşaqlığını xatırladır, amma eyni zamanda da, dərsləri üzərində yorulmadan çalışması, səhər təmizlikləri, xəstəliklər, mübahisələr, siçanlar haqdakı xatirələri arasında əlaqə yaradırdı.

— Oy, cavan ağa gəldi! — qapını onun üzünə açan xeyirxah Covanno sevinclə səsləndi.

Bu zaman anası da çıxdı; Allaha şükürlər olsun, anası heç dəyişməmişdi.

O, qonaq otağında oturmuşdu və çoxlu suallara cavab verməyə cəhd eləyəndə sevincin öz yerini ixtiyarsız halda necə kədərə verdiyini hiss eləyirdi. Əvvəlki vaxtlarla müqayisədə ev ona boşalmış kimi gəldi: bir qardaşı xaricə getmişdi, digəri Allah bilir, haralarda dolaşır, üçüncüsü kənddə yaşayır. Evdə



downloaded from KitabYurdu.org

yalnız anası qalıb, o da ibadətə tələsir, kilsədə artıq rəfiqəsi onu gözləyir.

Onun otağında hər şey o burda olanda necəydisə, eləcə də qalmışdı — hətta kitablara da kimsə toxunmamışdı, — amma hər halda, bu otaq ona yad gəldi. O, kresloda oturmuş, küçədən keçən faytonların səsinə, mətbəxdən gələn gur səslərə qulaq asırdı. Öz otağında tək-tənha... anası kilsədə dua eləyirdi, qardaşları dağılışmışdılar, belə çıxırdı ki, yer üzündə bir kimsənin Covanni Droqo deyilən birisi yadına düşmürdü. Pəncərəni açdı, boz evləri, cərgə ilə düzülən damları, qaşqabaqlı səmanı gördü. Yeşiklərin birində bir neçə il ərzində gündəlik yazdığı köhnə məktəbli dəftərini, hansısa məktubu axtardı. Qəribəydi, doğrudanmı bunları o yazmışdı? Yaddaşından tamam silinmiş hansısa qəribə işlər və hadisələr... Pianinonun arxasında əyləşdi, bir neçə akkord vurdu, qapağını bağladı. Və düşündü: daha neyləsin?

Bir yad adam kimi köhnə dostlarını tapmaq üçün şəhərdə dolaşırdı, amma onların boğazlarına kimi müxtəlif işlərlə — öz müəssisələri, öz siyasi mənsəbləri ilə məşğul olduqları məlum olurdu. Dostları onunla ciddi və mühüm məsələlər haqda, zavodlar, dəmiryolları, xəstəxanalar haqda



downloaded from KitabYurdu.org

danışırdılar. Kimsə onu nahara dəvət elədi, kimsə evlənmişdi, hər kəs öz şəxsi yolunu seçmişdi və bu dörd il ərzində hamısı da ondan hiss olunacaq dərəcədə uzaqlaşmışdılar. Covanni necə səy göstərsə də (bəlkə o, bu qabiliyyətini itirmişdi?), onlarla əvvəlki söhbətləri, zarafatları, danışıqları bərpa eləyə bilmədi. Şəhərdə dolaşır, köhnə dostlarını axtarırdı; axı onlar çox idilər, amma sonda həmişəki kimi səkidə tək qaldı, irəlidə isə axşama kimi hələ çox vaxt var idi.

O, ciddi niyyətlə gecədən xeyli keçənə kimi yaxşıca əylənmək üçün şəhərdə gəzirdi. Hər dəfə də öz sevgilisi ilə qarşılaşacağı kimi həmin tutqun gənclik arzusu ilə evdən çıxır, amma həmişə olduğu kimi evə məyus halda qayıdıb gəlirdi. O, evə qayıtdığı adamsız, belə... darıxdırıcı, onu öz təkliyini daha kəskin hiss eləməyə məcbur eləyən küçəyə nifrət eləyirdi.

Məhz bu günlərdə şəhərdə möhtəşəm bal keçirilirdi və Droqo ora yenidən əlaqələrini bərpa elədiyi dostu Veskovi ilə ən parlaq ümidlərlə gedirdi. Hərçənd bahar özünü göstərməyə başlamışdı, hava tez işıqlanmırdı, vaxt kifayət qədər olurdu, səhər açılana kimi nə desən, ola bilərdi — məhz nə, bunu Droqo özü də bilmirdi, amma onu bəs qədər xoş



downloaded from KitabYurdu.org

əyləncələr gözlədiyinə şübhə eləmirdi. O hətta bənövşəyi rəngdə geyinmiş qızla dilxoşluq da eləmək istədi, saatlar hələ gecənin yarısı olmadığını göstərirdi, kim nə bilir, bəlkə səhər açılana kimi onların arasında məhəbbət yaranacağı qabaqcadan müəyyən olunmuşdu... Amma bu zaman onu ev sahibi çağırdı: öz malikanəsini ona göstərmək istəyirdi, onu hər cür otaqlara və qalereyalara sürüyüb apardı, kitabxanada yubatdı, öz silah kolleksiyasının eksponatlarını layiqincə qiymətləndirməyə məcbur elədi, strategiya, hərbi bicliklər haqda söhbətlərə girişdi, kral ailəsinin həyatından bir neçə lətifə danışdı. Vaxt isə keçir, saatın əqrəbləri qorxunc sürətlə irəliləyirdi. Droqo, nəhayət, onun əlindən qurtarıb səbirsizlikdən alışıbyanaraq parad salonuna qayıdanda qonaqların hamısı, demək olar, dağılışmış, bənövşəyi rəngli paltar geymiş qız yoxa çıxmışdı; yəqin, evlərinə getmişdi.

Droqo içməyə cəhd elədi, mənasızcasına gülümsədi, ancaq əbəs yerə: hətta şərab da kömək eləmədi. Skripkanın səsi isə getdikcə cansız olurdu və musiqinin, ümumiyyətlə, lazım olmadığı vaxt da gəlib çatdı. Belə ki, artıq heç kim rəqs eləmirdi. Dilxor olmuş Droqo bağa, ağacların arasına düşdü



downloaded from KitabYurdu.org

və uzaqdan valsın aydın olmayan dumanlı səsinə qulaq asdı. Bayram əhvalı yavaş-yavaş uçub gedirdi, səma isə tədricən ağarır, sübh çağı yaxınlaşırdı.

Ulduzlar keçmişdi, amma Droqo bağın qara kölgələrinin arxasında gizlənərək hələ də oturmuş və yeni günün doğmasına tamaşa eləyirdi. Bu arada qızıl suyuna çəkilmiş faytonlar bir-birinin ardınca çöl qapısından çıxıb gedirdilər. Orkestr nəhayət susdu. Xidmətçilər otaqlarda dolaşır, işıqları söndürürdülər. Birbaşa Droqonun başı üzərindəki ağacda cingiltili və güclü quş cəh-cəhi eşidildi. Səma sürətlə işıqlanır, ətrafdakı hər şey sadəlövhcəsinə mülayim günün başlayacağını gözləyərək susmuşdu. “Bax indi, — o düşündü, — günəşin ilk şəfəqləri artıq Bastion qalasının və soyuqdan donan keşikçilərin üzərinə düşür”. Droqo əbəs yerə şeypurun çağırışını eşitmək üçün qulaq verdi.

Şəhər hələ yatırdı; evə qayıdarkən Droqo giriş qapısını həddən artıq bərk çırpdı. Otaqlarda pərdələrin arasından artıq zəif işıq süzülürdü.

— Ana, mənəm, yat.

O, dəhlizlə gedirdi. Əvvəlki, o uzaq günlərdə adətən gecə yarısı evə qayıdanda otaqdan, qapının arxasından yuxulu da olsa, aydın olmayan, nəvazişlə dolu sözlər gəlib ona çatardı. Droqo, demək olar ki,



downloaded from KitabYurdu.org

sakitləşmiş halda öz otağına doğru yola düşdü, amma elə bil anası daha nəsə deyirdi.

— Ana, nədir? — o soruşdu.

Onun sözləri sakitlikdə yoxa çıxdı. Burda anladı ki, ekipajın uzaqlaşan səsini anasının əziz səsi kimi qəbul eləyib. Anası, doğrudan da, heç bir cavab verməmişdi, gecə yarısı oğlunun addım səsləri artıq onu əvvəllər olduğutək yuxudan oyada bilməzdi, bu addım səsləri onun üçün yad olmuş, sanki illərin keçməsi ilə bu addım səsləri də dəyişmişdi.

Nə vaxtsa qadın bu addım səslərini şərti siqnal kimi səhvsiz ayırd eləyə bilirdi. Bütün digər gecə səsləri — küçədə təkərlərin gurultusu, uşaq ağlaması, itin hürməsi, bayquşun qışqırığı, pəncərə qapaqlarının çırpılması, su borularında küləyin vıyıltısı, yağışın uğultusu, mebelin cırıltısı — onun yuxusunu poza bilməzdi. Necə barmaqlarının ucunda getməyə cəhd eləsə də, yenə Covanninin addım səsləri onu yuxudan oyadardı. O, ayaq səslərinə görə yox, oğlunun gəlməsinə görə yuxudan oyanardı.

İndisə belə çıxırdı ki, bu da artıq keçmişdə qalmışdı. Bax o adi qaydada anasını səslədi, hətta səsini azacıq qaldırdı; əvvəllər anası onun tanış addım səslərini eşitsəydi, əlbəttə, yuxudan oyanardı.



downloaded from KitabYurdu.org

İndisə onun çağırışına hay vermədi, yalnız uzaqda kiminsə faytonu taqqıldadı. “Necə də axmaqlıqdır, — Droqo düşündü, — mənasız təsadüfdür”. Amma hətta yatağında yerini rahatlayandan sonra belə acı hisslərdən yaxa qurtara bilmirdi, əvvəlki ana sevgisi sanki sönmüşdü, zaman və boşluq hiss elətdirmədən onların arasına soyuqluq pərdəsi çəkmişdi.

## XIX

O hələ Mariyaya — dostu Françesko Veskovinin bacısına da baş çəkdi. Onların evinin qabağında bağ var idi, yazın gəlişi ilə ağaclar tər yarpaqlarla örtülmüş və budaqlarda quşcuğazlar oxuyurdular.

Mariya onu qapıda təbəssümlə qarşıladı. Qız Covanninin gələcəyini bilirdi və onun nə vaxtsa xoşuna gələn mavi donunu geymişdi.

Droqo bu görüşün onda hisslər tufanı yaradacağını, ürəyini şiddətlə çırpınmağa məcbur eləyəcəyini düşünürdü. Amma o, qıza yaxınlaşanda, yenidən onun təbəssümünü görüb, təsəvvür elədiyi kimi olmayan səsini eşidəndə (“o, Covanni, nəhayət ki!”), nə qədər zamanın keçib getdiyini başa düşdü.

O, elə zənn eləyirdi ki, necə varsa, elə də qalıb, yalnız bir az çiyinləri enəlib və dağ günəşində bir



downloaded from KitabYurdu.org

balaca qaralıb. Yeri gəlmişkən, qız da dəyişməmişdi. Amma onların arasında nəsə bir yadlıq var idi.

Onlar günəşdən qorunmağın mümkün olduğu böyük qonaq otağına girdilər. Yumşaq alatoranlığa qərq olmuş otaqda yalnız pəncərədən süzülən nazik işıq zolağı xalçanın üzərinə düşmüş, saatlar çaqqıldayırdı.

Bir-birlərini daha yaxşı görmək üçün taxtın üstündə çəpəki oturdular. Droqo qızın gözlərinin içinə baxır, nədən danışacağını bilmirdi, qız isə qızğın halda başını bulayır, gah ona, gah mebelə, gah da özünün, yəqin, təzə aldığı firuzə qaşlı qolbağısına baxırdı.

— Françesko tezliklə gələr, — qız fərəhlə xəbər verdi, — hələliksə mənimlə otur, sənin, yəqin, danışmağa mövzun var!

— O... — Droqo səsləndi, — doğrusu, məxsusən heç nə, hər şey adi qaydada olduğu kimi...

— Bəs sən niyə mənə elə baxırsan? — qız soruşdu. — Nədir, mən dəyişmişəm?

Yox, Droqo bunu görmədi, əksinə, o hətta bu dörd il ərzində qızda hiss olunacaq hansısa bir dəyişikliyin baş vermədiyinə heyrətləndi. Hər halda, qızda nəsə onu qüssələndirirdi. Onda heç vaxt buna bənzər bir hiss olmamışdı. O heç cür əvvəlki



downloaded from KitabYurdu.org

yumşaq-zarafatcıl, demək olar səmimi danışıq tonunu bərpa eləyə bilmirdi. Nəyə görə qız taxtda oturur və nə qədər mümkünsə onunla gülər üzlə danışmağa çalışır? O, qızın əlindən yapışsa və deseydi ki, "hə, sən niyə belə ağlını itiribsən? Zabitəli xanım roluna girmək sənin hardan ağlına gəlib?" onda buz əriyərdi...

Amma Droqo bunu eləyə bilməyəcəyini başa düşdü. Onun qarşısında başqa, tanımadığı adam oturmuşdu, onun fikirlərini oxumaq da onun bacarığı xaricindəydi. Bəlkə o özü başqa adam olmuşdu və danışığa da saxta notlarla başlamışdı?

— Sən? Dəyişibsən? — Droqo təkrar soruşdu. — Yox, yox, qətiyyən.

— Ah, sən, ola bilər bunu ona görə deyirsən ki, mən çirkinləşmişəm, vəssalam! Boynuna al!

Doğrudanmı bunu Mariya deyirdi? Zarafat eləmirdi, ciddi deyirdi? Covanni inamsız halda ona qulaq asır və onun nə vaxt belə əda iləgülümsəməyinə, özünü dəymədüşər yerinə qoymağına və özünün özünə gülməyinə son qoyacağını gözləyirdi.

"Əlbəttə, çirkinləşibsən, həm də necə", — əvvəlki o xoş günlərdə o, belə cavab verər, belindən



downloaded from KitabYurdu.org

qucaqlayıb qızı özünə doğru çəkərdi. Amma indi... İndi bu axmaq, yersiz zarafat kimi görünərdi.

— Əlbəttə yox, səni əmin eləyirəm, — o dedi. — sən zərrəcə də dəyişməyibsən, düz sözümdü.

Qız ona inamsız təbəssümlə baxaraq söhbəti başqa mövzuya keçirdi.

— Sən həmişəliyə qayıdıbsan?

Covanni bu sualı gözləyirdi. (Demək lazım idi: "Hər şey səndən asılıdır", ya da buna bənzər nəsə.) Amma o, bu sualı kandardan eşidəcəyini güman eləmişdi — əgər bu qız üçün maraqsız deyildisə. İndisə sual qəfildən səsləndi və sanki nəzakət xatirinə verildi — heç bir lirik çaları olmadan — bu isə başqa məsələydi.

Qonaq otağının alatoranlığına bir dəqiqəlik sükut çökdü, bağdan quşların nəğməsi, uzaq otaqlardan birindən fortepianonun ağır və ifadəsiz səsi eşidilirdi, yəqin orda kiməsə çalmağı öyrədirdilər.

— Bilmirəm, hələ bilmirəm. Hələlik mən yalnız məzuniyyətdəyəm, — Droqo dedi.

— Yalnız məzuniyyət? — Mariya dərhal cavab verdi və onun səsi ya təsadüfən, ya da ümidsizliyini və ya hətta qüssəsini büruzə verərək azacıq titrədi.



downloaded from KitabYurdu.org

Yox, onları, həqiqətən də, nəsə ayırırdı; hansısa anlaşılmayan, hiss edilməyən, heç cür aradan qalxmayan adamayovuşmazlıq pərdəsi. Yəqin bu pərdə ayrılıq vaxtı çəkilmiş, onların iradəsinin əksinə olaraq günü-gündən böyümüşdü.

— Mənim iki ayım var. Sonra mən ya qayıda, ya da başqa yerə, ola bilsin bura, şəhərə təyinat ala bilərəm, — Droqo izah elədi.

Söhbət eləmək getdikcə çətinləşirdi. Mahiyyət etibarilə o, bu söhbətə etinasız idi.

Hər ikisi susurdu. Günortaçağının hərəkətsizliyi sanki şəhərə hakim olurdu, quşlar susmuş, uzaqdan yalnız fortepianonun ölgün və müntəzəm akkordları eşidilirdi, getdikcə tədricən güclənən, bütün evi başına götürən bu səsdə heyrətləndirici qalib gəlmək inadkarlığı, nəsə demək istəmək, ancaq deyə bilməmək yanğısı var idi.

— Bu, yuxarı mərtəbədə olan Mikelinin qızıdır, — Mariya Covanninin qulaq asdığını hiss eləyib dedi.

— Sən də axı nə vaxtsa bu havanı çalıbsan, doğrudumu?

Mariya əda ilə başını yana əyib qulaq verdi.

— Yox-yox, bu olduqca çətin pyesdir, sən yəqin onu başqa bir yerdə eşidibsən.

— Mənə elə gəldi... — Droqo qeyd elədi.



downloaded from KitabYurdu.org

Fortepianonun səsi kiminsə əzabları haqda danışmağa davam eləyirdi. Covanni xalçanın üzərindəki işığa baxır və Qala haqda düşünür, xəyalında əriyən qarı, terraslardakı damcıları, dağlardakı donuq baharı canlandırırdı, dağda baharın gəlişi özünü yalnız çəmənliklərdə xırda çiçəklərin açması, bir də havanı dolduran biçilən otun qoxusu ilə hiss elətdirirdi.

— Sənin indi dəyişilmək haqda xahiş eləməyə tam haqqın var, — qız yenidən dilləndi. — Bu qədər illərdən sonra... Orda, dağlarda, yəqin, darıxdırıcıdır!

Axırıncı sözləri o, yüngülcə hirslə dedi, sanki Qala onda nifrət oyadırdı.

"Lütfən, doğrudan da, darıxdırıcıdır, əlbəttə ki, mən burda, səninlə qalmağa üstünlük verərdim". Bu dəyərsiz cümlə ildırım sürəti ilə onun ağlından keçdi, amma hətta bunu deməyə belə risk eləmədi. Bayağı sözlərdir, hərçənd desəydi, qız məmnun qalardı. Lakin Covanni qarşısıalınmaz bir istəklə düşündü: bu sözlər onun dilində necə də mənasız səslənərdi və onları demək arzusu dərhal da keçdi.

— Ümumiyyətlə hə, — o cavab verdi, — amma günlər hiss olunmadan keçir!



downloaded from KitabYurdu.org

Fortepianonun səsi kəsilmirdi. Nəyə görə bu akkordlar yüksəldikcə-yüksəlir, amma heç cür də sona çatmırdı? Onlar bir şagird inamsızlığı ilə itaətkar mütiliklə hansısa qədim, nə vaxtsa ona doğma olan bir əhvalatı danışırdılar. Dərhal dumanlı bir gecəni xatırladı: şəhər fənərlərinin tutqun işıqlarında onlar ikisi boş xiyabanda çılpaqlaşmış ağacların arasıyla gəzişirdilər. Sanki bu xoşbəxtlik hissinin hardan sel kimi axıb gəldiyini bilməyən uşaqlar kimi birbirlərinin əllərindən yapışaraq gedirdilər. Həmin axşam işıqlı pəncərələrdən birindən də fortepiano səsi gəldiyini xatırlayırdı, çalınan əsərin, daha çox, cansıxıcı etüdlər olmasına baxmayaraq, Covanniyə və Mariyaya elə gəlirdi ki, onlar heç vaxt belə zərif və ahəngdar musiqi eşitməyiblər.

— Əlbəttə, — Droqo istehzalı tonda əlavə elədi, — orda, yuxarıda məxsusi bir əyləncə yoxdur, amma biz necəsə alışdıq...

Çiçəklərin qoxusu hopmuş qonaq otağındakı bu söhbət tədricən məhəbbəti etiraf eləməyə xas olan lirik qüssə çaları əldə eləməyə başladı. “Görünür, — Covanni düşündü, — bu qədər uzun ayrılıqdan sonra başqa cür də ola bilməzdi... bəlkə biz əvvəlki münasibətlərimizi bərpa eləyə bildik, axı mənim



downloaded from KitabYurdu.org

irəlidə tam iki ayım var, dərhal son nəticəyə gəlmək olmaz... əgər o, hələ də məni sevirsə, mən daha Qalaya qayıtmayacağam". Amma Mariya birdən elan elədi:

— Əfsuslar olsun! Üç gündən sonra biz anamla və Corcina ilə gedirik. Yəqin, bir neçə aylığa. — Burda o, dərhal da canlandı. — Biz Hollandiyaya gedirik.

— Hollandiyaya?

Qız qızğınlıqla qarşıdakı səyahət haqda, rəfiqələri haqda, atları, şən karnavallar haqda, ümumiyyətlə, öz həyatı haqda danışır, Droqonu isə unutmuşdu.

Qız artıq buzla örtülübmüş kimi görünmürdü, əksinə, bir az da yaxşılaşmışdı.

— Gözəl ideyadır, — Droqo dedi, boğazını bir parça qəhərin necə tutduğunu hiss eləyirdi. — Mən eşitmişəm ki, indi Hollandiyada ilin ən yaxşı vaxtıdır. Deyirlər, orda çiçəkləyən qərənfillərin bütöv tarlaları var.

— Hə, indi ora çox gözəl olmalıdır, — Mariya razılaşdı.

— Buğda əvəzinə hollandlar qərənfil əkirlər, — Covanni azacıq dəyişmiş səsiylə davam elədi, — hər yerdə yalnız qızılgüllərdir, onların üzərində də hava dəyirmanları, belə... parlaq, təzəcə rənglənmiş...



downloaded from KitabYurdu.org

— Təzəcə rənglənmiş? — Mariya təkrar soruşdu, qız onun səsindəki istehzanı hiss eləmişdi. — Necə yəni?

— Belə deyirlər, — Covanni cavab verdi. — elə mən özüm də hardasa oxumuşam.

Günəş şüasının zolağı bütün xalça boyunca sürünüb keçmiş və artıq yazı masasının oyma sütununun üzəriylə qalxırdı. Gün axşama doğru gedirdi, fortepianonun səsi boğuq olmuşdu, bağda hansısa quş özünün yeknəsəq nəğməsini oxuyurdu. Droqo sobanın çərçivəsinə baxdı — Qaladakı da eynilə belə idi. Bu oxşarlıq onu bir qədər sakitləşdirdi, sanki o əmin oldu ki, mahiyyət etibarilə ya şəhər, ya da qala, həmin və eyni həyat tərzi ilə, həmin və eyni dünyadır. Lakin Droqo çərçivədən başqa şəhərlə Qala arasında ümumi olan heç nə tapa bilmədi.

— Hə, bu səyahət gözəl olmalıdır, — Mariya baxışlarını endirərək dedi. — Amma indi, getmək vaxtı çatanda mənim həvəsim yoxdu.

Boş şeydi, son anda həmişə belə olur, yol üçün şeyləri yığmaq usandırıcı işdir, — Droqo tələsik dedi, guya qızın işarəsini, qəlb iztirablarını başa düşməmişdi.



downloaded from KitabYurdu.org

— Elə deyil, mən şeyləri yığmağa görə yox, ümumiyyətlə yox...

Burda qızın gedişinin onu kədərləndirdiyini ifadə eləyən cəmi bircə söz, bir adicə cümlə desəydi... desəydi ki, xahiş eləyirəm qalasan... Amma Droqo qızdan heç nə haqda xahiş eləmək istəmirdi, indi o, birbaşa bunu deməyə qadir deyildi, çünki belə olan halda düzünü deməyəcəyini hiss eləyirdi. Buna görə də sifətində heç nə ifadə eləməyən bir təbəssümlə susdu.

— Bəlkə bağa çıxaq? — daha nə deməli olduğunu bilməyən Mariya təklif elədi.

Ayağa qalxdılar. Mariya susmuş, sanki Droqonun nə vaxt danışacağını gözləyirdi və onun baxışlarına görə aralarındakı məhəbbətin hələ tamam sönmədiyini müəyyən eləmək olardı. Amma bağı görəndə Covanninin fikirləri Qalanı əhatəyə alan kiçik çəmənliklərə getdi: orda da tezliklə istilər düşəcək, otlar cəsarətlə daşların arasından baş qaldıracaqdı. Yəqin, yüz illər öncəsi məhz bu vaxtlar tatar ordaları Qalanı işğal eləmişdilər.

— Necə də istidir, — Droqo dedi, — amma hələ apreldir. Bax görərsən, tezliklə yenə də yağışlar ələnəcək.



downloaded from KitabYurdu.org

O belə dedi, Mariya isə özünü itirmiş halda gülümsədi və etinasız səslə dedi:

— Hə, doğrudan da, çox istidir.

Və hər ikisi hər şeyin qurtardığını başa düşdülər. İndi onlar bir-birlərindən uzaq idilər və aralarında boşluq var idi, əbəs yerə bir-birlərinə əl uzadırdılar, bu uçurum keçən hər dəqiqəylə böyüyürdü.

Droqo hələ də Mariyanı, onun dünyasını sevdiyini başa düşürdü, amma onun həmin əvvəlki illərini sevgi ilə dolduran nə vardısa, indi ondan uzaqlaşmışdı. Bu dünya artıq başqalarına məxsus idi, onun ordakı yeri artıq tutulmuşdu. O, indi təəssüf eləməsinə baxmayaraq, bu dünyanı uzaqdan izləyirdi, amma qayıtmaq onun üçün çətin idi: onun alışmadığı yeni üzlər, yeni adətlər, zarafatlar, axıcı nitqlər... Bu artıq onun həyatı deyildi, o başqa yolla getmişdi, geri qayıtmaq axmaqlıq idi, mənasız idi.

Françesko gəlmədiyindən Droqo ilə Mariya şişird ilmiş bir mehribançılıqla ayrıldılar, bu zaman hər biri öz hisslərini büruzə verməməyə çalışdı. Mariya birbaşa onun gözlərinin içinə baxaraq əlini möhkəmcə sıxdı. Bəlkə də bu baxışlar onu belə getməməyə, qızı günahlandırmamağa, itirdiklərini güman elədiklərini xilas eləməyə çağırırdı.

O da qıza diqqətlə baxdı və dedi:



downloaded from KitabYurdu.org

— Əlvida. Düşünürəm, sən gedənə qədər biz hələ görüşərik.

Və geri baxmadan addımlarını hərbçilər kimi ataraq çöl qapısına doğru uzanan yolla getdi, yalnız çınqıllar ayaqları altında xırçıldayırdı.

## XX

Adətən, Qalada dörd il xidmət eləmək başqa yerə təyinat almaq üçün kifayətdi, amma Droqo hansısa uzaq bir qarnizona təyin olunacağından ehtiyat eləyərək və öz şəhərində qalmağa ümid eləyərək diviziya komandirinin qəbuluna düşməyə nail olmağı qərara aldı. Ən başlıcası da bunu anası təkid eləyirdi. "Özün hərəkət eləməlisən, — qadın deyirdi, — əgər səni yaddan çıxarmalarını istəmirsənsə — yoxsa heç kim heç nədən, heç şeydən Covanni haqda düşünməyəcək — və əgər sən özün bir iş görməsən, səni, çox yəqin ki, yenə də hansısa bir sərhədə, daldabucaq bir yerə göndərərlər". General iltifat eləyib Covannini qəbul eləsin deyə anası bütün əlaqələrini işə saldı.

General öz geniş kabinetində böyük yazı masasının arxasında oturmuş və siqaret çəkirdi. Adi gün idi, deyəsən hətta yağışlı, bəlkə də sadəcə tutqun



downloaded from KitabYurdu.org

gündü. Qoca general təkgözlü eynəyini Droqoya zilləmişdi.

— Mən sizi görmək istədim, — birinci general danışdı, sanki bu görüşün təşəbbüskarı o özü imiş, — yuxarıdakı vəziyyəti öyrənmək üçün. Filimorenin hər işimi qaydasındadır?

— Zati aliləri, mən gələndə cənab polkovnik özünü çox gözəl hiss eləyirdi, — Droqo cavab verdi.

General susdu. Sonra ata qayğısı ilə başını yırğalayıb qeyd elədi:

— Siz öz Qalanızla bizə başağrısı verirsiniz! Hm... mən sərhədlərin müəyyən olunmasını nəzərdə tuturam. Bu leytenantla bağlı hadisə, onun adı nəydi... Əlahəzrətin böyük narazılığına səbəb oldu.

Droqo nə cavab verəcəyini bilmirdi.

— Hə, bax bu leytenantla... — general monoloquna davam elədi, — onun soyadı necəydi? Deyəsən, Arduino?

— Anqustina, zati aliləri.

— Hə-hə, Anqustina, budur dəlisov adam! Axmaq inadkarlıqdan sərhəd xəttinin müəyyən edilməsini zərbə altında qoy... Bilmirəm onlar orda... di yaxşı, Allah özü sizə kömək olsun!.. — o, öz alicənablığını göstərərək qətiyyətlə sözünə yekun vurdu.



downloaded from KitabYurdu.org

— Amma icazə verin, zati aliləri, — Droqo fikrini bildirməyə cəsarət elədi, — axı Anqustina həlak olub.

— Ola bilər, çox ola bilər. Siz, yəqin ki, haqlısınız, mən axı orda hər şeyin necə olduğunu xatırlamıram, — general başdansovdu dedi, sanki söhbət hansısa boş şeydən gedirdi. — Amma Əlahəzrət tamam narazı qaldı, tamam!

General susdu və şübhə ilə Droqoya baxdı.

— Siz gəlibsiz... — o, tamamilə diplomatik və çox mənalı tərzdə dedi. — Ümumiyyətlə, siz ona görə burdasınız ki, şəhərə təyinat almağınızı xahiş edəsiniz? Sizin hamınızı nəyə görəsə şəhər cəzb eləyir, hə-hə, siz heç cür başa düşmək istəmirsiniz ki, yalnız uzaqlardakı qarnizonlarda əsl əsgər olmaq olar.

— Elədir ki var, zati aliləri, — Covanni Droqo özünü ələ almağa çalışaraq və hər sözü götür-qoy eləyərək cavab verdi, — ona görə də mən orda dörd il xidmət elədim.

— Dörd il! Sizin yaşınızda?! — general gülərək ucadan səsləndi. — sizi məzəmmət eləmək üçün demirəm, əlbəttə... mən yalnız onu nəzərdə tuturam ki, bu indi geniş yayılmış bir haldır, komanda heyətinin ruhunun möhkəmlənməsinə xidmət eləmir... — o, nədən danışdığını unudaraq susdu.



downloaded from KitabYurdu.org

Sonra diqqətini cəmləyərək davam elədi, — neyləmək olar, əzizim, sizin xahişinizi yerinə yetirməyə cəhd elərik. İndicə biz sizin şəxsi işinizə baxaq.

Sənədlərin gəlməsini gözləyərək general yenidən danışmağa başladı:

— Qala, Bastion Qalası... baxarıq... Leytenant, siz Qalada ən zəif yerin harda olduğunu bilirsinizmi?

— Zati aliləri, doğrusu, bilmirəm, — Droqo cavab verdi. — Bəlkə də olduqca kənarındadır.

Generalın sifətində mərhəmətli, xeyirxah bir gülüş canlandı.

— Bu nə mülahizədir! Siz cavanlar, hər halda, qəribə adamlarsınız, — o dedi. — Kənarında! Sizi əmin eləyirəm ki, sizin yerinizə mən olsaydım, elə düşünməzdim. İstəyirsinizmi Qalanın zəif yerinin harda olduğunu deyim? Bu, onun olduqca böyük olmasındadır. Hə, olduqca böyükdür!

— Olduqca böyük?

— Məhz elə, — leytenantın heyrətlənməsini hiss eləmədən general davam elədi, — məhz buna görə də Qalanın nizamnaməsinin dəyişdirilməsi qərara alınıb. Yeri gəlmişkən, bu haqda Qalada necə düşünürlər?

— Nə haqda, zati aliləri? Üzr istəyirəm...



downloaded from KitabYurdu.org

— Necə yəni nə haqda? Yeni nizamnamə haqda, bəs biz burda nədən danışırıq? — general acıqla dedi.

— Birinci dəfədir bu haqda eşidirəm. Sizi əmin eləyirəm... — Droqo özünü itirmiş halda mızıldandı.

— Ehtimal eləyirəm, rəsmi məlumat, doğrudan da, hələ gəlib çıxmayıb, — general bir qədər yumşaldı. — Amma mən düşündüm siz artıq bilirsiniz, axı hərbçilər həmişə hər şeyi birinci öyrənməyin yolunu bilirlər.

— Zati aliləri, siz deyirsiniz yeni nizamnamə? — Droqo maraqlanmış halda soruşdu.

— Ştatları ixtisar eləmək, qarnizonu yarıya endirmək, — general onun sözünü kəsdi. — həddən artıq çox adam var, mən həmişə demişəm ki, bu Qalanı yaxşıca silkələmək lazımdır!

Bu zaman böyük adyutant qalın kağız bağlısı ilə içəri girdi. Bağlını masalardan birinin üzərinə qoyaraq Covanninin şəxsi işini çıxarıb, qovluğu generala uzatdı, general təcrübəli baxışlarını kağızların üzərində gəzdirdi.

— Hər şey qaydasındadır, — o dedi, — amma məncə burda başqa yerə dəyişilmə haqda ərizə çatışmır.



downloaded from KitabYurdu.org

— Başqa yerə dəyişilmə haqda ərizə? — Droqo soruşdu. — Mən düşündüm ki, dörd il xidmətdən sonra bu hökmən deyil.

— Ümumiyyətlə, yox, — general dedi və onun səsində rütbəcə kiçik olan birisinə hansısa izahat verməsinə görə açıq-aşkar narazılıq hiss olundu. — Amma nə qədər ki biz indi qarnizonda belə ciddi ixtisarlar aparırıq və hamı da Qaladan dəyişdirilməsini istəyirsə, onda növbəni gözləmək lazımdır.

— Zati aliləri, amma Qalada bu haqda heç kim bilmir və kimsə hələ belə istəkdə olmayıb...

General böyük adyutanta müraciət elədi:

— Kapitan, bizdə Bastiani qalasından dəyişilmək haqda ərizə verən varmı?

— Zati aliləri, iyirmi dənə olar, — kapitan cavab verdi.

“Bax bu, başqa məsələ, — karıxıb qalmış Covanni düşündü. — Görünür, xidmət yoldaşları onu qabaqlamaq üçün bu xəbəri ondan gizli saxlayırmışlar. Doğrudanmı hətta ortis də onu belə əclafcasına aldatmışdı?”

— Zati aliləri, inad elədiyim üçün bağışlayın, — Droqo sözünü deməyə özündə cəsarət tapa bildi, burda onun taleyinin həll olunduğunu başa düşürdü,



downloaded from KitabYurdu.org

— amma mənə elə gəlir ki, əgər birisi dörd il ardıcıl olaraq xidmət eləyibsə, bu hansısa formal növbəçilikdən, daha çox əhəmiyyət kəsb eləyir.

— Sizin dörd iliniz — tamamilə boş şeydir, — general soyuq, hətta bir qədər incimiş halda etiraz elədi.

— Hə, leytenant, bütün həyatını Qalada keçirənlərlə müqayisədə boş şeydir. Mən, əlbəttə, sizin raporta dostcasına baxa bilərdim, qanuni istəyinizin həlli üçün sizə kömək eləyə bilərdim, amma yalnız həqiqətin tapdalanmayacağı təqdirdə. Bundan əlavə, burda xidmətlər də nəzərə alınır...

Covanni ağardı:

— Zati aliləri, — o soruşdu, həyəcandan dili ağzında güclə tərpənirdi, — belə çıxır, mən bütün ömrümü orda keçirməyi də risk eləyə bilərəm?

— ... Hə, hələ baxmaq lazımdır ki, sizin nə kimi xidmətləriniz olmuşdur, — təmkinlə Droqonun şəxsi işini vərəqləyən general sakit halda davam elədi. — Bəs burda nə var?.. Di budur: “nəzərinə çatdırmaq”. Doğrudur, “Nəzərinə çatdırmaq” — bu, elə də ciddi... Aha, burda hələ bir dənə də xoşagəlməz hadisə var, orda, sizdə, deyəsən, səhvən əsgəri öldürüblər...

— Zati aliləri, əfsuslar olsun, mən...



downloaded from KitabYurdu.org

— Leytenant, sizin bəraətlərinizə qulaq asmağa mənim vaxtım yoxdur, — general onun sözünü kəsdi. — Başa düşün, mən raportda nə yazılıbsa, onu da oxuyuram və ehtimal eləyirəm ki bu, doğrudan da, bədbəxt hadisə olub, əfsuslar olsun, belə olur... Mən sizin üçün nə mümkünsə, eləməyə hazıram, mən şəxsən sizi qəbul eləməyə razılıq verdim, özünüz də bilirsiniz, amma indisə... Bax əgər siz bir ay əvvəl ərizə versəydiniz... Qəribədir, sizin necə bu işdən xəbəriniz olmayıb... Bu, əlbəttə, ciddi xətadır.

Əvvəlki xeyirxah tondan əsər qalmamışdı. İndi general quru və öyüdverici tərzdə danışırdı, səsində güclə hiss olunacaq istehzalı çalar var idi. Droqo özünü axmaq kimi apardığını başa düşdü: dostları onu aldatmışdılar, generalda onun haqqında xoşagəlməz təəssürat yaranmışdı və burda o daha heç nə eləyə bilməzdi. Belə ədalətsizlikdən hətta sanki sinəsinə tikan batırdılar — ürəyinin yanından. “Bəlkə mən bunların hamısını bir tərəfə atıb tərxis olunum? — o düşündü. — onda da acından ölərəm, həm də mənim necə illərim orda keçib?..”

General dostcasına əlini yellədi.

— Leytenant, neyləmək olar... Şən görünməyə çalışın!



downloaded from KitabYurdu.org

Droqo "farağat" vəziyyəti alaraq dik durdu, dabanlarını bir-birinə vurdu, qapıya doğru geri çəkildi və bir də kandarda hərbi salam verdi.

## XXI

Yenidən at ayaqlarının səsi dərəyə yayılır, dərənin sakitliyində boğuq əks-səda yaradırdı. Yüksəkliklərin başındakı kollar hərəkətsiz dayanmışdı, sarı otlar tərpənmirdi, hətta bulud da səmada hansısa xüsusi bir tənbəlliklə ağır-ağır süzürdü. At tələsmədən ağ yolla dağa doğru gedirdi — Droqo geri qayıdırdı.

Bəli, bu Droqo idi. Yaxınlaşanda onu asanlıqla tanımaq olar, amma nəsə, onun sifətində dərin üzüntülərin möhürü görünmür. Beləliklə, o üsyan eləmədi, tərxis olunmaq haqda ərizə vermədi, təhqiri dinməz-söyləməz uddu, ədalətsizliklə barışdı və indi öz yerinə qayıdırdı. Həyatında hansısa kəskin dəyişikliklər baş vermədiyinə görə, indi qəlb rahatçılığı ilə əvvəlki alışdığı həyata qayıda bildiyinə görə qəlbinin dərnliyində o hətta necəsə bir məmnunluq hiss eləyirdi. Droqo özünə ümidlərlə təsəlli verir ki, nə vaxtsa revanş götürəcək, qabaqda hələ bəs qədər vaxtının olduğunu düşünür, ümumiyyətlə o, günəşin altındakı yerdən ötrü kiçik



downloaded from KitabYurdu.org

mübarizə aparmaqdan əl çəkir. “Boş şeydir, — o düşünür, — gün gələr, onun da bəxti üzünə gülər”. Bu arada isə rəqibləri irəli keçə bilmək üçün qızğınlıqla bir-birlərini itələyir, qaçaraq Droqonu keçir və hətta boylanıb geri belə baxmadan onu arxada qoyurlar. Droqo anlaşılmaz halda onların arxasınca baxır və onu alışmadığı şübhələr bürüyür. Bəlkə o, doğrudan da, səhv eləyir? Bəlkə o, elə doğrudan da, adi adamdır və adicə qismətindən başqa heç nəyə güvənə bilməz?

Covanni Droqo həmin o uzaq sentyabr günündə olduğu kimi tək-tənha Qalaya doğru qalxırdı. Lakin indi dərənin o biri sahilində o naməlum zabiti və iki yolun birləşdiyi körpünü görmür, kapitan ortislə qarşılaşmırdı.

Bu dəfə Droqo tək gedirdi, öz həyatı haqda düşüncələrə qərq olmuşdu. Qalaya qayıdırdı, Allah bilir, bu dəfə hansı müddətə. Çoxlu dostları isə bu divarları həmişəliyə tərk eləyirdilər. “Hə, dostlarım daha diribaş oldular,” — Droqo düşündü. Onların buna, həqiqətən də, layiq olduqlarını da istisna eləmirdi, axı baş verənləri belə də izah eləmək olardı.

Nə qədər çox zaman keçirdisə, Qala da bir o qədər öz əhəmiyyətini itirirdi. Nə vaxtsa mühüm qarnizon olmuşdu — azından belə hesab eləyirdilər.



downloaded from KitabYurdu.org

İndisə, Qaladakı ştatların yarısını ixtisar eləyəndən sonra, bura yalnız heç bir strateji əhəmiyyət daşımayan ehtiyat sədd kimi qalacaqdı. Qalanı yalnız sərhədin bu hissəsini açıq qoymamaq üçün saxlayırdılar. Heç kim şimal çölündən hücum təhlükəsinin ola biləcəyini ağlına da gətirmirdi. Orda nəyi gözləmək olardı? Aşırımda köçərilərin hansısa bir karvanının görünməsinimi? Bu həyatdımı?

Bax belə fikirlərə qərq olmuş Droqo günün ikinci yarısında axırıncı yaylanın kənarına çatdı və irəlidə Qalanı gördü. Qala birinci dəfə gördüyü kimi artıq özündə heç bir həyəcanlandırıcı sirri qoruyub hifz eləmirdi. Əslində isə bu, adi sərhəd məntəqəsi idi, zavallı qalacığaz, divarları müasir artilleriya silahlarının bir neçə saatlıq hücumlarına tab gətirməzdi. Vaxt keçdikcə də tamamilə dağılıb gedəcəkdi, elə indinin özündə də qala bürclərinin bəziləri dağılmış, bir torpaq bənd isə tamamilə çökmüşdü, amma heç kim nəyisə təmir eləmək haqda düşünmürdü.

Yaylanın kənarında dayanıb, divarın kənarı ilə keşikçilərin irəli-geri gəzişmələrinə tamaşa eləyən Droqo belə düşünürdü. Bayraq damdan taqətsiz halda sallana qalmış, borular tüstülənmirdi. Təlim meydanında bircə nəfər də adam gözə dəymirdi.



downloaded from KitabYurdu.org

İrəlidə onu necə də cansıxıcı həyat gözləyirdi! Şən Morel, çox güman ki, ilk gedənlərdən biri olacaqdı və Droqonun bircə nəfər də olsun dostu qalmayacaqdı. Elə həmin keşik xidməti, elə həmin kart oyunları, bir də bəzən yaxındakı kəndə gəzintilər, kənddə nəsə içmək və bir neçə saatlığa çox da tələbkar olmayan qızlar tapmaq olardı. "Necə də miskinlik..." — Droqo düşündü. Bununla belə, bu sarı istehkamların görünüşündə izah olunmayan bir cazibədarlıq var idi, müdafiə bəndlərinin qaranlıqlarında, tutqun qazamatlarda hansısa bir sirr yuva salmışdı. Bütün bunlar da sözlə ifadə edilməsi mümkün olmayan, qabaqcadan hiss olunan irəlidəki hadisələrdən xəbər verirdi.

Qalada onu müxtəlif dəyişikliklər gözləyirdi. Qarşıdakı gedişlə bağlı olaraq çoxlu zabit və əsgərlərdə qeyri-adi bir canlanma yaranmışdı. Hələ heç kim dəqiq bilmirdi ki, məhz kimin dəyişilmə haqdakı istəyini yerinə yetirəcəklər. Onlar isə, demək olar ki, hamısı dəyişilmək haqda xahişlə bağlı raport yazmışdılar və hamısı da əvvəlki xidməti şövqlərini unudaraq bir üzücü ümidlə yaşayırdılar. Hətta Filimore (yəqin, onun haqqındakı qərar məlumdu) də Qalanı tərk eləməyə hazırlaşırdı və təkcə elə bu, hadisələrin normal gedişini pozurdu. Narahatçılıq



downloaded from KitabYurdu.org

əsgərlərə də keçmişdi, çünki qarnizonun əhəmiyyətli bir hissəsi — dəqiq rəqəmlər haqda hələ məlumat verməmişdilər — düzənliyə köçürüləcək, orda baza yaradılacaqdı. Növbəyə həvəssiz halda gedirdilər, dəfələrlə keşiyin dəyişdirilməsi vaxt dəstələr hazır olmurdular; hamısı birdən qərara almışdılar ki, bu qədər ehtiyat tədbirləri görmək ağılsızlıq və mənasızlıqdır.

Aydın olmuşdu ki, əvvəlki ümidlər, hərbi şöhrət haqdakı boş arzular, şimaldan basqın eləməli olan rəqibi gözləmək — hamısı, hamısı illüziya, yalnız öz həyatlarına nə cürsə rəng vermək cəhdi olub. İndi sivil cəmiyyətə qayıtmaq imkanı yaranmışdı. Əvvəl olanlar isə, sadəcə, uşaqlıq idi: heç kim boynuna almaq istəmirdi ki, onlar nəyə ümidə eləyirdilərsə, xüsusilə də hər cür hazırlıqlar onların öz şəxsi axmaq ümidlərinə gülməkdən başqa heç nə deyilmiş. İndi əsas olan getmək idi. Zabitlər burdan dəyişdirilmələri üçün tanışlarından istifadə eləyirdilər və qəlblərində hər biri kimsənin onu keçə bilməyəcəyinə əmin idi.

— Bəs sən? —artıq rəqibdən qurtarmaq üçün bu qədər mühüm xəbəri ondan gizləmiş olan elə həmin yoldaşları heç bir əhəmiyyəti olmayan bu sualı



downloaded from KitabYurdu.org

Covanniyə verirdilər. — Bəs sən? — dostları ondan soruşurdular.

— Göründüyü kimi, mən hələ burda bir neçə ay da qalası olacağam, — Droqo cavab verirdi.

Onda hamı ona təsəlli verməyə başlayırdı. "Boş şeydi, tezliklə səni də dəyişərlər, bu daha ədalətli olacaq, ruhdan düşmək lazım deyil" və sair.

Hamının içində, deyəsən, bircə ortis zərrəcə də dəyişməmişdi. Ortis dəyişilmək haqda xahişlə müraciət eləməmişdi, onu artıq çoxdandı bütün bunlar maraqlandırmırdı, Qalanın qarnizonunun ixtisar edilməsi xəbərini o, axırıncı eşitmişdi və buna görə də Droqoya xəbərdarlıq eləyə bilməmişdi. Ortis etinasız halda ümumi çaxnaşmanı izləyir və adi səylə də Qalanın işləri ilə məşğul olurdu.

Nəhayət, budur, adamlar, doğrudan da, getməyə başladılar. Həyətdə bir-birinin ardınca arabalar görünməyə başladı. Arabalara Qalanın əmlakı yüklənir və biri digərinin ardınca bölmələr vida mərasimi üçün sıraya düzülürdülər. Polkovnik hər dəfə baxış keçirmək və əsgərlər qarşısında bir neçə vida sözü demək üçün öz kabinetindən aşağı düşürdü. Onun səsi ifadəsiz və sönük olmuşdu.

Zabitlərdən çoxu burda yaşamış, yuxarıda, istehkamların yüksəkliyindən təkcə bir il yox,



downloaded from KitabYurdu.org

yüzlərlə və yüzlərlə gün ərzində adamsız şimal çölünə baxmışdı. Onlardan çoxu qəfil düşmən basqınının mümkün ola biləcəyi və ola bilməyəcəyi haqda daima mübahisə eləmişdilər, indisə qalib görkəmdə çıxıb gedir, burda qalan dostlarına göz vurur və öz dəstələrinin başında vadiyə tərəf yola düşürdülər; yəhərdə əllərini bellərinə vuraraq məğrurcasına oturur və hətta sonuncu dəfə öz Qalalarına baxmaq üçün heç geri də boylanmırdılar.

Yalnız bir dəfə Morel günəşli səhərdə öz dəstəsini komendantla vidalaşmaq üçün meydanda düzdü, hərbi salam verib qılıncını endirdi və komanda verəndə səsi titrədi, gözlərində göz yaşı damlaları işıldadı. Divara söykənib bu mənzərəni seyr eləyən Droqo, Morel onun yanından keçib qapıya doğru gedəndə dostcasına gülümsədi. Çox ola bilsin ki, onlar axırıncı dəfə görüşürdülər və Covanni əlini şapkasının günlüyünə apardı — nizamnamədə nəzərdə tutulan kimi hərbi salam verdi.

Sonra o hətta yayda da soyuq olan və hər keçən günlə də daha çox boşalan Qalanın dəhlizlərinə qayıtdı.

Morelin də getdiyini düşünəndə ədalətsizliyin qəlbinə vurduğu yara gözlənilmədən yenidən açıldı və sızıldamağa başladı. Covanni ortisi axtarmağa



downloaded from KitabYurdu.org

getdi və onu əlində bir dəstə kağızla kabinetindən çıxanda gördü.

— Salam, cənab mayor, — mayorla yanaşı gedərək dedi.

— Salam, Droqo, — ortis dayanaraq cavab verdi. — Yenə nə var? Sənin üçün nəsə eləyə bilərəmmi?

Droqo, doğrudan da, bir məsələ haqda ortisdən soruşmaq istəyirdi. Sadə məsələydi, tələsməyə ehtiyac yox idi, amma hər halda, artıq bir neçə gündü ona rahatlıq vermirdi.

— Bağışlayın, cənab mayor, — o dedi, — yadınızdadımı mənim Qalaya gəlməyim? Bu, dörd il yarım bundan əvvəldi, mayor Matti mənə dedi ki, burda yalnız könüllü qalıb xidmət eləyirlər. Əgər kimsə getmək istəyirsə, bunu tamamilə sərbəst eləyə bilər.

Bu haqda mən sizə danışdım, yadınızdadımı? Mattinin sözlərinə görə mən yalnız həkim müayinəsindən keçməliyəm, sadəcə belə, rəsmi bir səbəb üçün, dedi ki bu, polkovnikin o qədər də xoşuna gəlməyə bilər.

— Hə-hə, nəsə dumanlı xatırlayıram, — ortis azacıq əsəbiləşmiş halda cavab verdi. — Amma, bağışlayın, əziz Droqo, indi mənim...



downloaded from KitabYurdu.org

— Bir dəqiqə, cənab mayor... Yadınızdadırmı, kimsəyə bir xoşagəlməz hal yaşatmamaq üçün mən burda dörd ay qalmağa razılıq verdim? Amma əgər mən, hər halda, istəsəydim, onda gedə bilərdim, doğrudumu?

— Droqo, əzizim, mən sizi başa düşürəm, — ortis dedi, — amma siz axı tək deyilsiz...

— Belə çıxır... — Droqo hövsələsiz halda onun sözünü kəsdi, — belə çıxır, bütün bunlar sadəcə olaraq bəhanələr imiş? Belə çıxır, əgər mən istəyərəmsə, gedə biləcəyim doğru deyilmiş? Siz də həmin anda məni ona görə əmin eləyirmişsiniz ki, mən özümü sakit aparım?

— Əsla yox! — mayor ucadan səsləndi. — Mən düşünmürəm... Bunları başınızdan çıxardın!

— Cənab mayor, yalan deməyin, doğrudanmı siz əslində də Mattinin onda düzünü dediyinə inanırdınız?

— Axı mənimlə də təxminən belə olub... — ortis baxışlarını döşəməyə dikərək tutqun halda dedi. — Mən də parlaq gələcək haqda düşünürdüm...

Onlar uzun dəhlizlərdən birində dayanmış, səsləri gurultu və qüssə ilə çılpaq divarlarda əkssəda verirdi.



downloaded from KitabYurdu.org

— Demək, bütün zabitlərin bura onların öz şəxsi xahişlərinə görə təyin olunmaları da yalan imiş? Mənim kimi hamını da burda qalmağa məcbur eləyirmişlər, belə deyilmi?

Ortis susmuşdu, qılıncının ucu ilə daş döşəmədəki yarığı oynadırdı.

— Guya burda öz xahişi ilə qalanlar isə, belə çıxır, məni aldadırmışlar? — Droqo əslinə çatmaq istəyirdi. — Nəyə görəsə həqiqəti deməyə heç kimin cəsarəti çatmadı?

— Elə də yox, düşünürəm, hamısı belə deyil, — ortis cavab verdi. — Kimsə doğrudan da, öz istəyi ilə qalmışdı. Razıyam, çox azı, buna baxmayaraq...

— Kim? Deyin görüm, məhz kim?! — Droqo dedi, amma dərhal da yadına saldı, — oy, bağışlayın, cənab mayor, mən qətiyyən sizi nəzərdə tutmuram, bəzən sözlər özü ağızdan çıxır...

Ortis gülümsədi.

— Hə, axı mən də özüm haqda demirəm. Əgər söhbət belə oldusa, mən də burda vəzifə borcuma görə qaldım!

Onlar çiyin-çiyinə dar, çərçivəyə salınmış pəncərələrin yanından keçib gedirdilər. Pəncərələrdən Qalanın qarşısındakı boş meydan,



downloaded from KitabYurdu.org

cənub tərəfdəki dağlar və buxar buludu — vadinin isti nəfəsi görünürdü.

— Onda belə çıxır, — elə də uzun sürməyən fasilədən sonra Droqo dilləndi, — bütün bu həyəcanlar, tatar ordaları haqda şayiələr... onlara demək, heç kim inanmırdı?

— Hələ bir necə də inanırdılar! — ortis dedi. — İnanırdılar. Həqiqətən də...

Droqo başını yırğaladı.

— Heç nə başa düşmürəm, düz sözümdü...

— Di mən sizə nə deyə bilərəm, — mayor onun sözünü kəsdi. — Bütün bunlar elə də sadə deyil... Yuxarıda, yəqin ki, adamlar sürgündə olduqları kimi yaşayırlar. Hansısa bir nəfəslik lazımdır, adamlar nəyəsə ümid eləməlidilər. İlk olaraq bu, kiminsə ağlına gəlib, sonra da tatar ordaları haqda söz-söhbətlər başladı, məgər indi şayiəni məhz kimin yaydığını bilə bilərsənmi?..

— Bəlkə məsələ yerin özündədir? — Droqo fikrə getdi. — Axı bu çölə nə qədər baxırsansa...

— Hə, doğrudan da, bu yer... Çöl, uzaqdan görünən duman tüstüsü... Belə yerdə yerləşir. — Bir qədər düşünüb sanki özü özünə cavab verirmiş kimi sözə başladı. — Tatarlar... hə, bu tatarlar... Əvvəlcə



downloaded from KitabYurdu.org

bu, əlbəttə, axmaqlıq hesab olunurdu, sonra isə hamı inandı, hər ehtimala qarşı hamı...

— Bəs siz, cənab mayor, bağışlayın, siz ki...

— Mən, başqa məsələ, — ortis sözə başladı. — Mən köhnə nəslin nümayəndəsiyəm, məndə heç bir mənsəb, şöhrətpərəstlik hissi yoxdur, məni belə sakit yer təmin eləyir... Sizinsə, leytenant, həyatınız qabaqdadır. Bir ildən sonra, maksimum il yarımdan sonra sizi də başqa yerə dəyişərlər...

— Bax o, Morel... bəxtəvər! — Droqo gözlüklərdən birinin qarşısında dayanaraq ucadan səsləndi.

Çılpaq və günəşin yandırdığı düzənliklə yaylaya doğru uzaqlaşan əsgərlər çox dəqiq görünürdülər. Ağır yüklərinə baxmayaraq onlar gümrahlıqla və inamla addımlayırdılar.

## XXII

Qalanı tərk eləməli olan axırıncı rota həyətdə düzülmüş, burda qalanlar isə sabahdan indi artıq kiçik olan qarnizon üçün yeni həyatın başlanacağı haqda düşünürdülər. Adamın, nəhayət bu uzanan yolasalmaların qurtarmasını gözləməyə hövsələsi çatmırdı, başqalarının necə getdiklərini izləyib



downloaded from KitabYurdu.org

hirslənmək hamını boğaza yığmışdı. Beləliklə, bölmə artıq düzülmüşdü, yalnız podpolkovnik Nikolozini gözləyirdilər, bu dəfə paradı o qəbul eləyəcəkdi. Amma bu zaman Droqonun diqqətini leytenant simeoni çəkdi, daha doğrusu, onun sifətindəki qəribə ifadə.

Leytenant artıq üç il Qalada xidmət eləmişdi və hamı onu kara gəlməyən, məhdud, kobud adam kimi tanıyırdı. Amma o, rəhbərliyin əmrlərini səylə yerinə yetirir və bütün fiziki hazırlıq məşğələlərində hamıdan üstün olurdu. Həyətə çıxandan sonra simeoni narahat halda ətrafa boylanmağa başladı, sanki hansısa mühüm məlumatı vermək üçün kimisə axtarırdı. Məhz kimi — belə görünür, bunun onun üçün heç bir əhəmiyyəti yox idi, belə ki, onun kimləsə bir yaxınlığı yox idi.

Droqonun onu müşahidə elədiyini görən simeoni ona yaxınlaşdı və astadan dedi:

— Gəl bax. Tez ol. Gəl bax.

— Nə olub?

— Mən üçüncü istehkamda növbədəydim, bir dəqiqəliyə çıxmışam. Bikarlaşan kimi gəl. Orda nəsə anlaşılmır. — o sanki qaçıbmış kimi yüngülcə tövşüyürdü.

— Harda? Sən nə gördün?



downloaded from KitabYurdu.org

Bu an şeypur üç dəfə siqnal verdi və əsgərlər «farağat» durdular, çünki Qalanın necə tənəzzül eləməsinə baxmaq üçün komendant onlara yaxınlaşırdı.

— Gözlə, onlar getsin, — simeoni varlığını səbirsizlik bürümüş Droqoya dedi, hərçənd, göründüyü kimi, heç nədən həyəcanlanmışdı. — Bircə bunlar tez getsəydilər! Artıq beş gündür mən demək istəyirəm, amma əvvəlcə qoy bunlar burdan rədd olsunlar.

Nəhayət Nikolozi yaxşı yol arzulayandan və şeypurun vida siqnalından sonra uzun yol üçün təchiz olunmuş əsgərlər ağır addımlarla Qalanın qapılarından çıxdılar və dərəyə tərəf yola düşdülər. Sentyabr ayı idi, səma boz və darıxdırıcı idi.

Simeoni arxasınca uzun boş dəhlizlərlə Droqonu dartaraq üçüncü istehkama aparırdı. Keşikçi məntəqəsini keçəndən sonra onlar baxış meydançasına çıxdılar.

Leytenant simeoni baxış borusunu çıxardı və Droqoya düzənliyin dağlarla örtülməmiş kiçik üçbucaq sahəsini göstərdi.

— Orda nə var elə? — Droqo soruşdu.

— Əvvəlcə özün bax. Birdən mən səhv edərəm. Bax və de görüm, orda nəsə varmı, ya yox?



downloaded from KitabYurdu.org

Droqo sipərə söykənərək diqqətlə çölü gözdən keçirdi və şəxsən simeoniyə məxsus olan borudan daşları, çökəkləri, təsadüfi kolları gördü, hərçənd kollar çox uzaqdaydı.

Droqo hissə-hissə bu üçbucaq sahəyə baxır və artıq "heç nə yoxdu" demək istəyirdi ki, birdən lap çölün dərinliyində, hər şeyin dəyişməyən duman pərdəsinə büründüyü yerdə gözlərinə hərəkət eləyən hansısa qara ləkə sataşdı.

O, hələ də dayanmış, sipərə söykənmiş və baxış borusundan baxırdı, ürəyi isə şiddətlə çırpınırdı. "Tamamilə iki il bundan əvvəl olduğu kimidi, — o düşündü, — onda hamı qərara almışdı ki, düşmən yaxınlaşır".

— Sən o qara ləkəni nəzərdə tutursan? — Droqo soruşdu.

— Mən artıq beş gündü onu izləyirəm, amma heç kimə demək istəmədim.

— Niyə? — Droqo heyrətləndi. — Nədən qorxdun?

— Əgər desəydim, adamları yola salmağı yubadacaqdılar. Onda Morel və bizi qabaqladıqlarını güman eləyən digərləri də burda qalacaq və belə hadisəni izləməyi əldən buraxmayacaqdılar. Yox



downloaded from KitabYurdu.org

daha, nə qədər adam az olsa, bizim üçün bir o qədər yaxşıdı.

— Hansı hadisəni? Səncə ordakı nədir elə? Ya keçən dəfə gələnlərdəndir, ya da kəşfiyyatçılar dəstəsidir, bəlkə də ümumiyyətlə, çobanlar və ya hansısa bir heyvandır.

— Tam beş gün! — simeoni etiraz elədi. — Çobanlar olsaydı, gedərdilər, heyvanlar da. Orda nəsə hərəkət eləyir, amma aydın deyil: nəyə görə eyni yerdə də qalır?

— Di burda hansı “hadisə” ola bilər?

Simeoni Droqoya təbəssümlə baxdı, sanki ona bu sirri açmaq lazım olub-olmadığını bilmirdi. Sonra dedi.

— Məncə onlar yol çəkirlər. Hərbi yol. İndi əsl vaxtıdır. İki il əvvəl onlar kəşfiyyata gəldilər, buraları öyrəndilər, indisə daha ciddi iş görürlər.

Droqo ürəkdən güldü:

— Sən hansı yoldan danışırsan? Kimin təzədən bura gəlmək ağlına gələr? Keçən dəfə olanlar sənə azlıqmı eləyir?

— Sən nədir, kor olubsan? — simeoni soruşdu. — Hə, səndə, görünür, doğrudan da, görməklə bağlı problem var, mənsə əla görürəm: onlar yol çəkməyə



downloaded from KitabYurdu.org

başlayıblar. Dünən günəşli gün idi və mən yaxşıca baxdım.

Droqo onun belə inadkarlıq eləməsinə heyrətlənərək başını yırğaladı. Belə çıxır, simeonini hələ gözləmək bezdirməmişdi? Və o, öz sirrini açmağa qorxur, onu qoruyurdu, sanki xəzinəydi, kiminsə onu necəsə oğurlayacağından ehtiyat eləyirdi.

— Vaxt var idi, — Droqo dedi, — onda mən də buna inanardım. Amma indisə, məncə sən bütün bunları uydurursan. Sənin yerinə mən olsaydım, gülüş hədəfi olmamaq üçün susardım.

— Onlar yol çəkirlər, — simeoni inadla etiraz elədi və dostuna rişxəndlə baxdı. — Aydın işdir, buna aylar gedir. Amma indi hər şey necə lazımsa, elə də olacaq, mən buna əminəm.

— Hə, əgər hətta hər şey məhz belə olsa da, doğrudanmı səncə bizimkilər Qalanı müdafiəsiz qoyardılar, bilə-bilə ki öz artilleriyalarını gətirmək üçün şimallılar yol çəkirlər? Bu, dərhal baş ştaba məlum olardı. Orda bunu hamı çoxdan bilərdi, hələ bir neçə il əvvəl.

— Baş ştab heç vaxt Bastioni qalasını ciddi qəbul eləməyib. Nə qədər bizi atəşə tutmayıblar, heç kim



downloaded from KitabYurdu.org

inanmaz. Amma nə vaxt ki onlar bütün bunların həqiqət olacağını biləcəklər, artıq çox gec olacaq.

— Nə istəsən, deyə bilərsən, amma əgər onlar, həqiqətən də, yol çəksəydilər, baş ştab bunu nəzarətə götürərdi, buna artıq şübhə eləməyə dəyməz.

— Baş ştabda məlumatlar qalaqlanıb, Allah bilir, minindən biri həqiqidir, buna görə də onlar, ümumiyyətlə, heç nəyə inanmırlar. Mən səninlə niyə mübahisə eləyirəm axı? Özün görərsən, hər şey mən deyən kimi olacaq.

Baxış meydançasının sipərinin yanında onlar ikisi idilər. Hiss olunacaq qədər seyrəlmiş keşikçilər ciddi surətdə ayrılmış sahədə irəli-geri gəzişirdilər. Covanni yenidən şimala baxdı, qayalar, çöl, uzaqda da duman pərdəsi və heç bir həyat əlaməti yox idi.

Bir qədər sonra ortislə söhbətindən Droqo öyrəndi ki, leytenant simeoninin məşhur sirri artıq, demək olar ki, hamıya məlumdur. Amma heç kim ona əhəmiyyət verməmişdi. Çoxları hətta heyrətlənmişdilər: nəyə görə simeoni kimi belə ciddi, cavan adam cəfəng şayiələr yaymağa başlamışdı.

Həmin günlərdə hamının başqa qayğıları var idi. Şəxsi heyətin ixtisarı ilə əlaqədar olaraq keşikçi məntəqələrini seyrəltmək lazım gəlmişdi və az qüvvə ilə əvvəl olduğu kimi etibarlı qorumanı təşkil eləmək



downloaded from KitabYurdu.org

üçün mümkün olan hər şeyi eləyirdilər. Bəzi keşikçi dəstələrini, ümumiyyətlə, ləğv eləmək lazım gəlmişdi, qalanlarını isə daha yaxşı təchiz eləyir, bölükləri yenidən təşkil eləyir və yenidən kazarmadakı yerlərini müəyyənləşdirirdilər.

Qala tikiləndən üzü bəri indiyədək ilk dəfə olaraq onun bir hissəsini bağlayıb, rəzələrini keçirtmişdilər. Dərzi Prosdoçimo üç köməkçisi ilə vidalaşmalı olmuşdu, buna görə də işin hamısının öhdəsindən gələ bilmirdi. Elə hey tamamilə boş salonlar və kabinetlər gözə dəyirdi, əvvəllər orda qoyulmuş mebellərin və asılmış şəkillərin yeri indi divarlarda işıqlı düzbucaqlılar yaratmışdı.

Düzənliyin ən uzaq nöqtəsində hərəkət eləməyə davam eləyən qara ləkəni əvvəl olduğu kimi yenə də boş şey hesab eləyirdilər. Yalnız bəzi adamlar arada simeonidən baxış borusunu istəyir və o tərəfə baxırdılar, amma onlar da orda heç nə olmadığını təsdiqləyirdilər. Heç kim onu ciddi qəbul eləmədiyindən simeoni özü də öz kəşfi haqdakı söhbətlərdən qaçmağa çalışır, zarafatlardan incimir və hər ehtimala qarşı özü də gülümsəyirdi.

Amma bir dəfə gecə simeoni gözlənilmədən Droqonun yanına gəldi və onu özüylə apardı. Artıq qaş qaralmış və keşik növbəsi dəyişdirilmişdi. Yeni



downloaded from KitabYurdu.org

istehkamın azsaylı keşikçi dəstəsi qayıdırdı və Qala yeni növbətçiliyə, daha bir məqsədsiz halda itirilən gecəyə hazırlaşırdı.

— Gedək, bax. Sən ki inanmırsan, onda gedək, bax, — simeoni deyirdi. — Ya məni qara basır, ya da orda nəsə işıq saçır.

Beləcə, getdilər. Dördüncü istehkamın divarı üzərinə qalxdılar. Qaranlıqda simeoni öz baxış borusunu Droqoya verdi ki, baxsın.

— Qaranlıqdır axı, — Covanni dedi. — Məgər belə qaranlıqda nəsə görmək olar?

— Mənsə deyirəm bax, — simeoni təkid elədi. — Əlbəttə, mən səhv eləyə bilərəm. Amma hər halda, ora bax, keçən dəfə göstərdiyim yerə və de, orda bir şey görürsən, ya yox?

Droqo baxış borusunu sağ gözünə tutdu, onu şimal istiqamətinə doğru döndərdi və qaranlıqda balaca bir işartı gördü, lap sərhəddə, duman zolağında olduqca kiçik bir nöqtə işıq saçırdı.

— İşıq saçır! — Droqo ucadan səsləndi. — Mən balaca işartılar görürəm... dayan... — o borunun şüşəsini istiqamətləndirməyə başladı. — Başa düşmürəm, orda bir işartı var, ya çox, bəzən mənə elə gəlir iki dənədir.



downloaded from KitabYurdu.org

— Bax belə! — simeoni təntənə ilə səsləndi. — səncə mən idiotam?

— Di, nə olsun? — Droqo etiraz elədi, doğrudu bu dəfə özünə o qədər də əmin deyildi... — Deyək ki, orda, doğrudan da, nəsə işıq saçır. Bəlkə bu, qaraçı taborudur, ya da çobanlar ocaq qalayıblar?

— Bu tikintidir, — simeoni bəyan elədi. — orda yeni yol çəkilir, bax görərsən, mən haqlıyam.

Nə qədər qəribə olsa da, adi gözlə işıq verən nöqtəni görmək olmurdu. Hətta keşikçilər də (onların arasında isə dünyagörmüş adamlar, təcrübəli ovçular var idi) heç nə görmürdülər.

Droqo yenidən baxış borusunu gözünə tutub uzaqdakı işartını axtardı, bir neçə anlığa işartıya baxdı, sonra maraq üçün borunu yuxarı qaldırıb ulduzlara baxdı. Onlar bütün üfüqlərə səpələnmişdilər və o, bu gözəllikdən gözünü çəkə bilmirdi. Amma şərqdə ulduzlar olduqca az idilər, çünki ordan zəif şəfəqlərini yayaraq ay çıxırdı.

— Simeoni! — dostunun yanında olmadığını hiss eləyən Droqo çağırdı.

Dostu cavab vermədi. Yəqin, divarların üzərindəki keşikçiləri yoxlamaq üçün pilləkənlə düşmüşdü.



downloaded from KitabYurdu.org

Droqo ətrafa boylandı. Qaranlıqda o yalnız boş baxış meydançasını, istehkamın siluetini, dağların qara kölgəsini seçə bildi. Saatların necə vurması eşidilirdi. Ən axırıncı keşikçi indi gecə çağırışını eləməliydi, sonra da bu çağırış əsgərdən-əsgərə ötürülərək bütün divar boyu yayılacaqdı. “Qulaq as! Qulaq as!” sonra elə həmin çağırış əks istiqamətdə axıb gələcək və nəhayət yüksək qayaların ətəyində əriyib yoxa çıxacaqdı. Droqo düşünürdü: indi, divarın üstündəki keşikçilərin sayı iki dəfə azaldığından bir-birini çağıranların səsi bu başdan axıra kimi öz yolunu daha tez qət eləyir. Amma nəyə görəsə sakitlik idi.

Bu zaman birdən Droqonun qəlbində arzuladığı uzaq dünya haqdakı xatirələri baş qaldırdı. Budur, məsələn, dənizin sahilində gözəl bir saray, isti yay gecəsi: sevimli incə məxluqlarla yanaşı oturub musiqiyə qulaq asırlar... Gənc adam üçün çəkilməsi tamamilə mümkün hesab edilən xoşbəxtlik mənzərəsi... Şərqdəki zolaq getdikcə daha dəqiq və qara rəngdə görünməyə başlayır, çünki dan yeri yaxınlaşdıqca səma ağarmağa başlayır. Belə yaşamaq necə də xoşbəxtlikdir: saatları hesablamayasan, yuxularda əyləncə axtarmayasan, harasa gecikməyə qorxmadan sakitcə günəşin doğmasını gözləyəsən,



downloaded from KitabYurdu.org

irəlidə hələ bəs qədər vaxtın var — heç nə haqda həyəcanlanmağına dəyməz — fikrindən ləzzət alasan. Dünyanın bütün cəzbedici mənzərələri arasında Droqonun ən çox arzuladığı (həyata keçməyən arzusu!) dəniz kənarındakı əsrarəngiz saray idi, musiqi, bikarçılıq, sübhün açılmasını gözləmək! Bəlkə də bu axmaqlıq idi, amma bu mənzərələrdə daha parlaq ifadə olunan itirilən qəlb rahatlığını o, məhz belə təsəvvür eləyirdi. İş burasındaydı ki, bir xeyli müddətdi hansısa anlaşılmayan həyəcan onun daimi yol yoldaşı olmuşdu. Ona elə gəlirdi ki o, nəyisə eləməyi çatdırmayacaq, ya da nəsə mühüm bir hadisə baş verəcək, o isə buna hazır olmayacaq.

Orda, şəhərdə generalla söhbətdən sonra onun başqa yerə dəyişdirilməsi və parlaq gələcək haqda çox az ümidləri qalmışdı, amma Covanni başa düşürdü ki, bütün ömrü boyu Qalada qala bilməz. Tezmi, gecmi hansısa qərar qəbul eləmək lazım gələcəkdi. Sonra alışdığı mühafizəkar şərait yenidən onu cəzb eləməyə başladı və Droqo vaxtında burdan qaçmağa nail olmuş yoldaşları, varlı və məşhur olmuş köhnə dostları haqda düşünməyə son qoydu. Özünə onun sürgününü bölüşənlər haqdakı fikirlərlə təsəlli verir və bu adamların qətiyyən nümunə



downloaded from KitabYurdu.org

götürməyə layiq olmayan zəif və ya sındırılmış adamlar da ola biləcəyini dərk eləmirdi.

Günü-gündən Droqo öz qərarını təxirə salırdı, axı o, hələ gənc idi, cəmi iyirmi beş yaşı var idi... Lakin bu tutqun həyəcan ona rahatlıq vermirdi, həm də bu zaman hələ bir şimal düzənliyində işartı da peyda oldu, nə biləsən, bəlkə simeoni haqlıydı?..

Qalada bu haqda az danışırdılar; əgər danışırdılarsa da, onlara əsla dəxli olmayan, əhəmiyyətsiz bir şey haqda danışırmışlar kimi danışırdılar... Baş tutmayan müharibənin gətirdiyi məyusluq hələ təzə idi, hərçənd onda da heç kim ucadan öz ümidlərini dilə gətirməmişdi. İnciklik və alçaldılma hissləri də sağalmamışdı: dostların getsinlər, sənsə bir ovuc özün kimi uğursuz adamlarla qal, heç kimə lazım olmayan bu divarları qoru. Qarnizonun ixtisara salınması bütün aydınlığı ilə göstərdi ki, Bastioni qalası baş ştab üçün daha heç bir əhəmiyyət daşımır. Əvvəllər belə cəlbedici və həyata keçirilməsinin tamamilə mümkün hesab edildiyi arzuları indi qəzəblə pisləyirdilər. Gülüş hədəfinə çevrilməkdən ehtiyat eləyən simeoni susmağa üstünlük verirdi.



downloaded from KitabYurdu.org

Sonrakı gecələr isə sirli işıqlar, ümumiyyətlə, görünmədi. Heç gündüz də düzənlikdə hansısa bir hərəkət qeydə alınmırdı.

Sadəcə, maraq üçün Qalanın divarları üzərinə qalxan mayor Matti simeonidən baxış borusunu ona verməyi xahiş elədi və çölü diqqətlə nəzərdən keçirdi. Əbəs yerə.

— Leytenant, borunuzu alın, saxlayın, — o, etinasız səslə simeoniyə dedi. — Boş yerə gözlərinizi korlayınca, sizə daha çox, öz adamlarınızla maraqlanmaq lazım idi. Mən bir keşikçini çiyin qayışını vurmayan halda gördüm. Gedin baxın, məncə, bax, ordakı, lap axırdakıdır.

Leytenant Maderna da Matti ilə birlikdə idi, sonra bu söhbəti yeməkxanada danışmış, hamı qəhqəhə boğmuşdu. İndi hamı yalnız bir işlə məşğuldu: həyatlarını həyəcansız və başağrısız keçirtsinlər, şimallılar haqdakı söhbətləri isə xatırlamamağa çalışırdılar.

Simeoni naməlum peydaolmanı yalnız Droqo ilə müzakirə eləyirdi. Keçən dörd gün ərzində, doğrudan da, nə işartılar görünmüşdü, nə də hərəkət eləyən nöqtələr, amma beşinci gün onlar yenidən görünməyə başladılar. Simeoni müəmmanı izah eləməyə çalışırdı: ilin vaxtlarından asılı olaraq şimal



downloaded from KitabYurdu.org

dumanı ya irəliləyir, ya da geri çəkilir, küləyin istiqaməti və temperatur dəyişir, keçən dörd gün ərzində duman cənuba enmiş, tikintinin təxmin edilən sahəsinin üzərini örtmüşdü.

İşartılar təkcə görünmədilər, təxminən bir həftədən sonra simeoni bəyan elədi ki, işartılar yerlərindən tərpənmiş və Qalaya yaxınlaşmışlar. Bu dəfə Droqo qətiyyətlə onunla razılaşmadı, gecənin qaranlığında, heç bir istiqaməti müəyyən eləmək mümkün olmayanda onların istiqamətlərini dəyişdiklərini necə müəyyən eləmək olardı, hətta onlar istiqamətlərini dəyişmişdilərsə belə?

— Əgər sən zənn eləyirsənsə ki, — simeoni inadla dediyini dedi, — heç bir halda bunu sübut eləmək olmaz, deməli, sənin onların yerlərini dəyişmədiyinə dair nə qədər əsasın varsa, mənim də elə onların yerlərini dəyişdiyinə dair bir o qədər əsasım var.

Yaxşı, yaşayarıq, görərik. Mən hər gün o nöqtəni izləyəcəyəm və sən onun yaxınlaşdığına əmin olacaqsan.

Növbəti gün hər ikisi növbə ilə baxış borusundan baxmağa başladılar. Əslində, olduqca ağır hərəkət eləyən üç və ya dörd balaca nöqtəni ayırmaq mümkün olurdu. O qədər ağır hərəkət eləyirdilər onların hərəkəti, demək olar ki, hiss olunmurdu.



downloaded from KitabYurdu.org

İstinad nöqtələrini müəyyənləşdirmək lazım gəldi, böyük qaya parçası, hansısa bir təpə və gözlərini nöqtə ilə istinad nöqtələri arasındakı məsafəyə dikdilər. Hansısa bir müddətdən sonra bu məsafənin dəyişdiyinə əmin olmaq olardı. Demək, nöqtə hərəkət eləyirdi.

Simeoniyə qədər bunca şübhəli obyekti kimsə müşahidə eləməmişdi, axı onun əvvəl də olduğu, hətta çoxlu illər və əsrlər boyu da mövcudluğu istisna deyildi. Belə fərz eləyək: orda kənd və ya karvanların daima köç elədiyi su quyusu da ola bilərdi, sadəcə indiyə qədər bir kimsə simeonidə olan güclü baxış borusundan istifadə eləməmişdi.

Nöqtələrin hərəkəti, demək olar ki, həmişə bir xətt üzrə olurdu: irəli və ya geri. Simeoni bunların daşla və ya çınqılla yüklənmiş araba olduqlarını düşünürdü. "Belə məsafələrdən adamları görə bilməzsən,", — o deyirdi.

Məlum olduğu kimi eyni zamanda üç və ya dörd hərəkət eləyən nöqtəni görmək olardı. Əgər bunların simeoninin düşündüyü kimi araba olduqları güman edilərdisə, onda hər üç hərəkət eləyən arabaya görə azından altı dənə də yerində dayanan olmalıydı: yük altında və yükü boşaldılmış halda. Amma onları görmək mümkün deyildi. Belə ki, onlar mənzərənin



downloaded from KitabYurdu.org

çoxsaylı detallarına qarışırdılar. Demək, bu sahədə dörd at qoşulmuş on araba ilə manevr eləyirdilər — adətən, ağır yükləri məhz belə daşıyırlar. Buna uyğun olaraq isə adamlar yüzlərlə olmalıydılar.

Əvvəlcə zarafatla müşayiət olunan mübahisə mövzusu olan bu müşahidələr Droqonun həyatındakı yeganə əyləncəsi idi. Simeoni elə də maraqlı həmsöhbət olmasa da, hədsiz xırdaçı olduğundan ona qanı qaynamasa da, Droqo az qala bütün bikar vaxtlarını onunla keçirir və hətta axşamlar zabit yeməkxanasında masa arxasında onlar ikisi müxtəlif təxminlər yürüdərək gecədən xeyli keçənə kimi otururdular.

Simeoni artıq hər şeyi hesablamışdı. Hətta işin çox ləng aparıldığını fərz eləsələr də, uzaqlığa görə qaçılmaz düzəlişlər eləsələr də, hər bir halda şimallılara Qalaya top məsafəsinə qədər yaxınlaşmaq üçün yarım ildən bir qədər çox vaxt lazım gələcəkdi. O, güman eləyirdi ki, düşmən çölün ortasından meriodenal istiqamətdə keçən daş silsilənin arxasında özünü qoruyacaq.

Bu silsilə çölün mənzərəsindən seçilmirdi, amma axşam kölgələri düşəndə onları görmək olurdu və ya o yerlərin qarı onu görməyə imkan yaradırdı. Silsilə şimala doğru uzanır, və onun yamaclarının nə qədər



downloaded from KitabYurdu.org

hündür və sərt olduğunu müəyyən eləmək olmurdu. Bu silsiləni görməyə imkan verməyən çölün həmin o hissəsi isə hətta Yeni istehkamdan da görünmürdü (Qalanın divarlarının üzərindən isə silsilə, ümumiyyətlə, görünmürdü) və çoxdan tədqiq edilməmiş qalmışdı. Bu silsilənin yuxarı hissəsi ilə dağın ətəyi arasında, yəni Yeni istehkamın qayalıq konusu ucalan yerdə yastı və yeknəsəq çöl uzanırdı, bəzi yerləri çatlaqlarla örtülmüşdü, təpələrdən səpələnən çınqıllar bu çatları doldurur, bəzi yerləri isə qamışlıq idi.

Simeoni belə təxmin eləyirdi ki, silsiləyə qədər yol çəkiləndən sonra düşmən, məsələn, aysız gecədən istifadə eləyərək çox rahatlıqla bir sıçrayışla yerdə qalan məsafəni qət eləyə bilər. Buranın torpağı kifayət qədər möhkəm və bərabər idi. Belə ki, belə yerlərlə artilleriyanı çəkib gətirmək heç bir çətinlik törətmirdi.

"Amma nəzərdə tutulan müddət: yarım il, — leytenant əlavə eləyirdi, — şəraitdən də asılı olaraq yeddisəkkiz aya dönə bilər, daha da uzana bilər." Burda simeoni yubanmanın mümkün olan səbəblərini sayırdı, düşmənin keçməli olduğu məsafəni müəyyən eləyərkən səhvi, Yeni istehkamdan görünməyən başqa maneələrin də



downloaded from KitabYurdu.org

olması (belə yerdə də daha çox zəhmət tələb olunur və uzun vaxt aparırdı), tikinti tempinin yadellilərin təchizat mərkəzlərindən uzaq düşməsi ilə tədricən ləngidilməsi, siyasi vəziyyətin gərginləşməsi də tikintini hansısa müddətə dayandıra bilərdi; işləri iki-üç aylığa iflic eləyən qarın yağması, düzənliyi büsbütün bataqlığa çevirən yağışların yağması — bunlar yalnız əsas maneələr idi. Cəfəng ideyaların hakimiyyətində olan ağlını itirmiş birisi kimi görünməsin deyə, simeoni onları çox səylə və təfərrüatı ilə sadalayırdı.

Bəs yolun tikilməsində heç bir təcavüzkarlıq niyyəti yox idisə, onda necə? Əgər o yolu məsələn: yeni, xam torpaqları, indiyə kimi heç kim tərəfindən becərilməyən, barsız və kimsənin yaşamadığı torpaqları kəşf eləmək üçün çəkirdilərsə, onda necə? Bəlkə şimallılar daha bir-iki kilometr gələndən sonra işi, ümumiyyətlə, dayandıracaqdılar? — Droqo ona belə etiraz eləyirdi.

Simeoni başını yırğalayırdı. “Əkib-becərmək üçün çöl hədsiz daşlıqdır”, — o cavab verirdi. Bundan əlavə, şimal krallığının sərəncamında yalnız otlaq kimi istifadə olunan çoxlu baxımsız çəmənliklər var, əkinçilik işləri üçün o torpaqlar daha əlverişlidir.



downloaded from KitabYurdu.org

Amma harda yazılıb ki, yadellilər məhz yol çəkirlər?.. Simeoni əmin eləyirdi ki, çox aydın günlərdə, qürub vaxtı, kölgələr hiss olunacaq dərəcədə uzananda o, birbaşa çəkilən yolu seçə bilib. Droqo isə nə qədər cəhd eləsə də, yolu heç cür görə bilmirdi. Kim zəmanət verə bilərdi ki, bu birbaşa xətdir, daha sadəcə relyefin öz görüntüsü deyil!? Gecələr sirli hərəkət eləyən nöqtələr və işartılar hələ elə də əhəmiyyətli şey deyillər. Bəlkə elə onlar həmişə orda olublar, sadəcə keçən illərdə onları dumandan görmək mümkün olmayıb (son vaxtlara qədər Qalada istifadə olunan baxış borularının mükəmməl olmadığı da nəzərə alınarsa).

Beləcə, onlar ilk qar düşənə kimi mübahisə elədilər. Droqo düşünürdü ki, yay hələ qurtarmağa macal tapmır və artıq soyuqlar başlayır. Ona, doğrudan da, elə gəlirdi sanki şəhərdən təzəcə qayıdıb və hətta əvvəlki yerinə əməlli-başlı yerləşməyib. Təqvimdə isə 26 noyabr idi; belə çıxırdı artıq bir neçə ay keçib getmişdi.

Qatı qar ələyirdi və qarın örtdüyü terraslar ağappaq olmuşdu. Qar örtüyünə baxanda Droqo artıq alışdığı həyəcanın necə gücləndiyini hiss eləyir, öz gəncliyi haqda, irəlidə hələ çoxlu illər olduğu haqdakı fikri əbəs yerə özündən qovub



downloaded from KitabYurdu.org

uzaqlaşdırmaq istəyirdi. Zaman anlaşılmayan bir şəkildə günləri birbirinin ardınca udaraq öz qaçışını sürətləndirmişdi. Ətrafa boylanmağa macal tapmırsan, axşam düşür, günəş torpağı başqa istiqamətdən işıqlandırır və qarla örtülmüş dünyanı işıqlandırmaq üçün təzədən yüksəlir.

Onun digər bütün yoldaşları sanki bunu hiss eləmirdilər. Adətən olduğu kimi elə bir səy göstərmədən xidmət eləyir və əmrlər lövhəsində növbəti ayın adı görünəndə hətta sevinirdilər: sanki bu, onlara nəsə vəd eləyirdi. "Bax Bastioni qalasında qalmaq vaxtımızı daha bir ay azaltdıq", — onlar belə hesab eləyirdilər. Hər kəsin öz limiti var idi, kimdəsə az, kimdəsə kifayət qədər və ümumiyyətlə, bu, onları tamamilə təmin eləyirdi.

Hətta yaşı əllinin altında olan mayor ortis də keçən həftələri və ayları etinasız halda sayırdı. O, çoxdan öz böyük arzusundan imtina eləmiş və indi deyirdi: "Daha bir on il və təqaüdə çıxmaq olar". Mayor öz evinə qayıtmağı düşünürdü: qədim, sakit şəhərə. Onun sözlərinə görə orda onun hansısa qohumları vardı. Droqo ortisə mərhəmətlə baxır, amma onu başa düşə bilmirdi. Orda, aşağıda, şəhər sakinlərinin arasında həyatda heç bir məqsədi olmadan ortis neyləyəcəkdi?



downloaded from KitabYurdu.org

— Mən azla keçinməyə öyrəşmişəm, — sanki Covanninin fikrini oxuyaraq mayor deyirdi. — Hər il keçdikcə də həyatdan mənə daha az nəsə lazım olur. Əgər heç nə baş verməsə, evə polkovnik rütbəsində qayıdaram.

— Bəs sonra? — Droqo soruşdu.

— Sonra isə vəssalam, — ortis sakitcə gülərək cavab verdi. — sonra yenidən gözləməyə başlayacağam... Yerinə yetirdiyim vəzifəni yaddan çıxaracağam, — o, zarafatla sözünə yekun vurdu.

— Amma bu on ili Qalada... Ola bilər...

— Müharibə? Siz hələ də müharibə haqda düşünürsünüz? Bu olanlar sizə azlıqmı eləyir?

Şimal düzənliyində, əbədi dumanların sərhədində daha şübhəli heç nə görünmədi, hətta gecə işıqları da söndü. Simeoni buna hədsiz sevinirdi. Hamı deyirdi ki, o haqlıdır, orda heç bir kənd və ya qaraçı taboru yoxdur, tikinti gedir, tikintini də qara görə dayandırmışdılar.

## XXIII

Qışın artıq Qalada günlərlə hökmranlıq elədiyi bir vaxtda həyətdəki divarlardan birindən asılmış əmr lövhəsində qəribə bir sərəncam peyda oldu. Başlığı belə idi: "Vahiməli və yalan xəbərlərin qarşısını



downloaded from KitabYurdu.org

almaq haqda”. “Ali komandanlığın dəqiq göstərişinə uyğun olaraq kiçik zabit heyətinə və əsgərlərə təklif eləyirəm ki, bizim sərhədlərimizə xəyali hücumlar təhlükəsinin ola biləcəyi haqda nə qədər əsaslandırılmış olsa belə, həyəcanverici şayiələri yaymasınlar və təkrar eləməsinlər. Belə şayiələr nizam-intizam qaydalarının tələblərinə açıqaşkar zidd, tamamilə arzuedilməz olmaqla yanaşı, bizimlə qonşu olan dövlətlə mehriban, normal qonşuluq münasibətlərimizi də poza bilər və hərbçilərin normal xidmət eləməsinə mane olar, onlarda yersiz əsəbilik yaradar. Mən tələb edirəm, keşikçilərin növbə çəkməsi ənənəvi qaydalarla həyata keçirilsin, hər şeydən əlavə, nizamnamədə nəzərdə tutulmayan optik cihazlardan istifadə edilməsin. Heç bir ehtiyac olmadığı hallarda belə cihazlardan istifadə olunması səhvlərə və faktların yanlış izah edilməsinə səbəb ola bilər. Hər bir belə cihazı olan şəxsə təklif eləyirəm, bu haqda özünün bölmə komandirinə məlumat versin, komandir də bu cihazı ondan alıb özündə saxlamaq məsuliyyəti daşıyır”.

Sonra da keşik növbəsinə aid olan adi sərəncamlar sadalanırdı və sərəncamlara Qalanın komendantı podpolkovnik Nikolozi qol çəkmişdi.



downloaded from KitabYurdu.org

Aydın idi ki, rəsmi olaraq sərəncamda əsgərlərə müraciət olunsa da, sərəncam zabitlərə ünvanlanmışdı. Beləliklə də, Nikolazi ikili məqsədinə nail olmuş heç kimi məzəmmətləmədən dərhal bütün Qalada baş verən qanun pozuntuları haqda xəbərdarlıq eləmişdi. Təbii ki, daha zabitlərdən heç biri keşikçilərin yanında sərəncamlarında olan baxış borularından daha güclü optik cihazla şimal çölünə baxmağa cəsarət eləməyəcəkdi. Qalaya verilən optik cihazlar isə köhnəlmiş və tamamilə yararsız hala düşmüşdülər, bundan əlavə, çoxu da itmişdi.

Zabitlərdən kim xəbər vermişdi? Bu haqda baş ştaba kim məlumat vermişdi? Hamı ixtiyarsız olaraq mayor Marra haqqında düşünməyə başlamışdı: bunu yalnız o eləyə bilərdi, o daima nizamnaməni əsas gətirir və ən kiçik sevinci zəhərə döndərməyə, azad nəfəs almağa və düşünməyə yönəlmiş ən kiçik təşəbbüsün qarşısını belə almağa hazırdı.

Zabitlərin əksəriyyəti bu əhvalata gülürdülər. Onlar deyirdilər ki, rəhbərlikdəkilər özlərinə sadiqdilər və həmişə olduğu kimi bu hadisəyə də iki il gecikməklə reaksiya verirlər. Doğrudan da, indi kimin ağlına şimaldan olacaq basqın haqda nəsə gələ bilərdi? Ah, hə, axı hələ Droqo və simeoni vardı (necə olmuşdu, onları yaddan çıxarmışdılar?).



downloaded from KitabYurdu.org

Doğrudanmı əmr bu iki nəfərə görə verilmişdi? Droqonu hamı yaxşı oğlan kimi tanıyırdı. Ondan nə pislik gözləmək olardı, hətta o, bütün günü baxış borusunu əlindən yerə qoymurdusa da? Simeonini də ziyansız adam hesab eləyirdilər.

Covanni isə qəlbinin dərinliyində podpolkovnikin əmrinin məhz ona müraciətən yazıldığına əmindi. Artıq neçənci dəfə həyat şəraiti onun əleyhinə dəyişirdi. Onun bir-iki saatlığa şimal çölünü seyr eləməsi kimə mane olurdu? Nəyə görə onu belə ziyansız məşğuliyyətdən məhrum eləyirdilər? Dəli olmaq üçün səbəblər var idi. Axı o, baharın gəlişini gözləyirdi, qar əriyən kimi çölün uzaq şimal qurtaracağında yenidən qəlbdəki ölən ümidləri oyadaraq sirli işıqlar görünəcəkdi, qara nöqtələr irəli-geri hərəkət eləyəckdi...

O, bütün həyatını bu ümidlərə bağlamış və, indi yalnız bu ümidləri onunla simeoni bölüşürdü, digərlərini isə zərrəcə də maraqlandırmırdı. Hətta ortisi də, hətta baş dərzi Prosdoçimonu da. Hə, bu çox gözəldi: ikilikdə sirri gizli saxlamaq, daha əvvəlki illərdə, hələ Anqustinonun ölümünə qədərki illərdə olduğu kimi olmayacaqdı. Onda hamı özünü sui-qəsdçi kimi hiss eləyir və hətta bir-birlərinə qısqanclığa bənzər hisslər bəsləyirdilər.



downloaded from KitabYurdu.org

İndisə baxış borusu qadağan edilmişdi. Nizamintizamlı simeoni, əlbəttə, bir daha ondan istifadə üçün risk eləməyəcəkdi. Hətta daima duman olan yerin sərhədində yenidən işartılar görünsəydi də, hətta orda yenidən qara nöqtələr yatıb qalsaydılar da, Qalada daha heç kim bundan xəbər tutmayacaqdı, çünki adi gözlə hətta ən yaxşı keşikçilər, bir millik məsafədə sərçəni seçə bilən ən yaxşı nişançılar belə onları görə bilməzdilər.

Həmin gün Droqo simeoninin fikrini öyrənmək istəyirdi, amma kimsənin diqqətini cəlb eləməmək üçün axşamın düşməsini gözləməyi qərara aldı, yoxsa kimsə dərhal rəhbərliyə xəbər çatdırardı. Simeoni isə günorta çağı yeməkxanaya gəlmədi. Ümumiyyətlə, nədənsə o, heç yerdə görünmürdü.

Simeoni şama gəldi, amma adətən olduğundan gec, Droqo artıq yeməyə başlamışdı. O, yeməyini tələsik çeynəyib udaraq Covannini qabaqladı və dərhal da kart stolunun arxasına keçdi. Doğrudanmı o, Droqo ilə göz-gözə qalmaqdan qorxurdu?

Onlar hər ikisi bu gecə keşik çəkməkdən azad idilər. Covanni çıxarkən dostunu yaxalaya bilsin deyə qapının yanındakı kresloda oturdu və dərhal da simeoninin oyun zamanı gözaltı ona tərəf baxdığını hiss elədi.



downloaded from KitabYurdu.org

Simeoni gecədən xeyli keçənə kimi, həmişə olduğundan çox oynadı. Əvvəllər o, heç vaxt belə eləməzdi və Droqoya ümidlə baxır, onun gözləməkdən bezəcəyini güman eləyirdi. Nəhayət, hamı dağılışdı, simeoni də ayağa qalxdı və qapıya doğru yönəldi. Droqo ayağa qalxdı və onunla yanaşı addımlamağa başladı.

— Salam, Droqo, — çaşqın halda gülümsəyərək dedi. — Nəsə görünmürsən, haralardaydın?

Onlar beləcə bütün Qalanın içərisiylə uzanan tutqun dəhlizlərdən birinə çatdılar.

— Mən də hamıyla oturmuşdum, — Droqo cavab verdi. — Başım oxumağa qarışmışdı, hətta gecənin necə keçdiyini də hiss eləməmişəm.

Onlar bir müddət simmetrik olaraq hər iki divardan asılmış bir-birindən xeyli aralı olan fənərlərin işığında dinməzcə addımladılar. Digər zabitlər uzaqdaydılar, yalnız yarıqaranlıq dəhlizlərin dərinlyindən onların anlaşılmayan səsləri eşidilirdi. Gecə yarından keçirdi, soyuq idi.

— Sən əmri oxudun? — birdən Droqo soruşdu. — Bu yalançı həyəcanla bağlı hadisə sənin xoşuna gəldimi? Bu nə üçündü? Bunu kim xəbər verə bilər?



downloaded from KitabYurdu.org

— Mən hardan bilim, — yuxarı mərtəbəyə qalxan pilləkənin qabağında dayanan simeoni, demək olar ki, kobud cavab verdi. — sən bura gedəcəksən?

— Bəs baxış borusu necə olacaq? — Droqo maraqlandı. — Doğrudanmı sənin baxış borundan, heç olmasa, bəzi...

— Mən artıq onu komendaturaya təhvil verdim, — simeoni onun sözünü laqeydcəsinə kəsdi. — Düşünürəm, belə yaxşıdır. Həm də bizi izləyirdilər.

— Məncə sən çox tələsibsən. Üç aydan sonra, qarlar əriyəndə baxış borusu kimsənin yadına düşməyəcəkdi. Onda biz yenidən baxa bilərdik... Məgər sənin, haqqında danışdığın o yolu səndəki baxış borusu olmadan görmək olarmı?

— Hə, sən hələ də o yoldan danışırsan, — simeoni bir qədər yumşalmış halda dilləndi. — Bilirsən, mən, hər halda, əmin oldum ki, sən haqlısan!

— Mən? Nədə?

— Orda heç bir yol yoxdur, çox ehtimal ki bu, həqiqətən də sənin dediyin kimi kənd və ya qaraçı taborudur.

Doğrudanmı simeoni o qədər qorxmuşdu ki, hər şeyi tərtəmiz inkar eləməyi qərara almış və başına nəsə gələcəyindən ehtiyatlanaraq hətta ona, Droqoya



downloaded from KitabYurdu.org

da etibar eləmirdi? Covanni onun gözlərinin içinə baxdı. Dəhlizdə artıq onlardan başqa heç kim yox idi, səslər susmuş, divarlarda son dərəcə böyük olan iki uzanmış kölgə rəqs eləyirdi.

— Deməк, sən artıq buna inanmırsan? — Droqo soruşdu. — Doğrudanmı yanıldığını güman eləyirsən? Bəs sənin hesablamaların necə oldu?

— Bilirsən, mən onları yalnız vaxtı öldürmək üçün eləyirdim, — simeoni hər şeyi zarafata çevirməyə cəhd eləyərək cavab verdi. — Əminəm ki, sən bunları ciddi hesab eləməyibsən?

— Boynuna al, sən, sadəcə olaraq, qorxubsan, — Droqo nifrətlə dedi. — Bu əmrdən sonra sən artıq heç kimə etibar eləmirsən.

— Bu gün sənə nə olub? — simeoni heyrətləndi. — Nə dediyini başa düşmürəm. Belə məlum olur, səninlə zarafat da eləmək olmazmış. Sən, doğrudan da, uşaq kimisən.

Droqo simeoniyə baxırdı. Bir neçə dəqiqəliyə hər ikisi tutqun dəhlizdə dinməzcə dayandılar, amma sükut olduqca cansıxıcı idi.

— Yaxşı, mən yatmağa getdim, gecən xeyrə qalsın! — simeoni özünü saxlaya bilməyib dedi və pilləkənlə qalxmağa başladı, pilləkənin hər bir meydançasını da fanarlar zəifcəsinə işıqlandırırdı.



downloaded from KitabYurdu.org

İki meydançanı qalxandan sonra o, pilləkənin döngəsində görünməz oldu. Yalnız kölgəsi görünürdü, amma sonra gölgəsi də yoxa çıxdı.

“Ay səni, vecsiz adam”, — deyə Droqo düşündü.

## XXIV

Bu arada vaxt sürətlə keçirdi. Vaxt hiss etdirmədən, amma getdikcə daha sürətlə bizim həyatımızın axınını ölçür və hətta sadəcə geriyə baxmaq üçün bircə anı belə saxlamaq mümkün deyil. Qışqırmaq istəyirsən: “Dayan! Dayan!” Ancaq boş yerə. Hər şey, hər şey keçmişə qovuşur: adamlar, baharlar və qışlar. Buludlar və biz əbəs yerə daşlardan, hansısa qayanın yüksəkliyindən yapışırıq, yorulan barmaqlarımız keyiyir, əllərimiz ixtiyarsız halda yanımıza düşür və görünüşündən ləng axdığı görünən, amma dayanmadan axan zaman çayı getdikcə bizi daha uzaqlara aparır.

Hər gün keçdikcə də Droqo zamanın sirli dağıdıcı qüvvəsini daha aydın hiss edir və əbəs yerə onu saxlamağa cəhd eləyirdi. Qalanın yeknəsəq həyatında o, istiqamətini müəyyənləşdirə bilmir, saatlar isə Droqo onları saymağa çatdırmamış keçib gedirdilər.



downloaded from KitabYurdu.org

Amma gizli bir ümidi var idi... hansı ki, Droqo ömrünün ən yaxşı illərini onun xatirinə xərcləmişdi. Qəlbində bu ümidi bəsləyərək hiss olunmadan çoxlu aylarını qurban vermiş, amma onlar da kifayət eləməmişdi. Qış, Qalanın belə uzun olan qışı özlüyündə gələcək uğurların təminatçısı idi. Amma qış qurtardı, Droqo isə hələ də gözləyirdi.

O düşündü: bax, istilər düşdümü, yadellilər yenə də öz yollarını çəkməyə başlayacaqlar. Amma indi yadelliləri görməyə imkan verən simeoninin baxış borusu onda deyildi. Hər halda, əgər işlər davam eləyəcəkdisə, bu işlərə nə qədər vaxt getdiyini kim bilə bilərdi? Tezmi, gecmi şimallılar yaxınlaşacaqdılar və günlərin birində hətta keşikçi məntəqələrinin bir neçəsində qalan köhnə baxış boruları ilə də onları görmək olacaqdı.

Buna görə də Droqo yadellilərin yaxınlaşmasını baharda yox, bahardan bir neçə ay keçəndən sonra gözləməyə başladı — əlbəttə, yolun çəkilməsi haqda onun fikirləşdikləri çin olacaqdısa. Bütün bu hissləri o gizli saxlamalıydı, çünki başına bir iş gələcəyindən ehtiyatlanan simeoni daha heç nə eşitmək istəmir, digər yoldaşları da sadəcə onu lağa qoyardılar, hələ bir rəhbərlik də bu kimi fantaziyaları bəyənməzdi.



downloaded from KitabYurdu.org

May ayının başlanğıcında Droqo özlərində olan ən yaxşı baxış borusu ilə nə qədər baxdısa da, düzənlikdə insan fəaliyyətinin heç bir nişanəsini görə bilmədi. Gecələr də ordan işıq gəlmirdi, hərçənd onları lap uzaq məsafədən də seçmək olardı.

Droqonun ümidləri, azacıq da olsa, azalmağa başladı. Özün tək olanda və öz fikirlərini kiminləsə bölüşə bilməyəndə nəyəsə inanmaq çox çətindir. Məhz bu anlarda o başa düşdü ki, insanlar münasibətcə bir-birlərinə nə qədər yaxın olsalar da, həqiqətdə həmişə bir-birlərinə yaddılar. Əgər insanın canı ağrıyırsa, ağrı yalnız onun ağrısı olaraq qalır, başqa heç kim hətta o ağrının cüzi bir hissəsini belə öz üzərinə götürə bilməz. Əgər insan əzab çəkirsə, başqaları — onları əsl məhəbbət birləşdirmiş olsa da belə — bu ağrını hiss eləməz. Bundan da həyatda təklik yaranır.

İnamı zəifləməyə başlamış, hövsələsizliyi isə artmışdı və Droqoya elə gəlirdi sanki saatlar tez-tez vurmağa başlamışdılar. Elə olurdu ki, o, bütün gün ərzində bircə dəfə də olsun şimal tərəfə baxmırdı (öz-özünü aldadaraq bunu unutqanlıqla izah eləyirdi, həqiqətdə isə bilərəkdən o tərəfə baxmırdı ki, növbəti dəfə baxanda ümidlərinin nəhayət göyərəcəyi şansı, az da olsa, artsın).



downloaded from KitabYurdu.org

Amma bir dəfə axşam — bunun üçün nə qədər vaxt tələb olunmuşdu! — baxış borusunun görmə şüşəsində titrəyən alovun balaca dilləri göründü. Alov o qədər zəifdi, deyirdin indicə sönəcək, amma məsafə nəzərə alınarsa, bu, əməlli-başlı işıq mənbəyi idi.

Bu, iyulun 7-də axşam olmuşdu. İllər keçəndən sonra Droqo hələ də bu işığın necəsə sönə biləcəyinə olan mövhumatçılıq qorxusundan qəlbini dolduran sevinc dolu heyrəti, harasa qaçmaq, bir kimsə belə istisna olunmadan hamıya bu xəbəri vermək istəyini yalnız özündə qoruduğundan və kimsəyə demədiyindən doğan qürur hissini xatırlayırdı.

Droqo hər axşam qala divarının üzərinə çıxır, gözləməyə başlayırdı və hər axşam da elə bil işıq sanki bir az yaxınlaşır, bir qədər böyüyürdü. Bəzən bu, onun səbirsizliyindən yaranmış aldadıcı görüntü olur, bəzənsə işıq, doğrudan da yaxınlaşırdı, hətta axır-axırda keşikçilərdən biri onu adi gözlə də görə bildi.

Sonra hətta günün-günorta çağı da ağaran çöldə hərəkət eləyən qara nöqtələri görmək olurdu, hər şey keçən ildəki kimiydi, bircə baxış borusu indi bir az zəifdi. Beləliklə də, yadellilər bir qədər irəliləmişdilər.



downloaded from KitabYurdu.org

Sakit sentyabr gecələrində hətta görmə qabiliyyəti ilə elə də seçilməyən adamlar belə təxmin olunan tikintinin işıqlarını görə bilirdilər. Tədricən hərbçilər arasında şimal çölü, yadellilər, bu qəribə hərəkətlər və gecə işıqları haqda söhbətlər canlanmağa başladı. Çoxu orda, həqiqətən də, yol çəkildiyini güman eləyirdi, amma hansı məqsədlə çəkildiyini izah eləyə bilmirdilər, hərbi məqsədlə tikilməsi ehtimalını isə absurd hesab eləyirdilər. Hə, iş həddən artıq ləng gedirdi və aralarındakı məsafə hələ də çox böyük idi.

Amma hər halda axşam, kimsə dumanlı tərzdə də olsa, birinci olaraq müharibə haqda danışdı və Qalanın divarları arasında həyata keçməsi mümkünsüz sayılan ümidlər yenidən cücərməyə başladı.

## XXV

Silsilələrin kənarında meridional istiqamətdə uzanan şimal düzənliyində təxminən Qaladan bir mil uzaqlıqda qazıb dirək basdırmışdılar. Dirəkdən başlayaraq Yeni istehkamın qayalıq konusuna qədər bərkimiş torpaqdan ibarət olan hamar düzənlik uzanırdı ki, burdan artilleriya sərbəst keçə bilərdi.



downloaded from KitabYurdu.org

Oyuğun kənarında dirək dimdik durub. İnsan əlinin heyrət doğuran bu əsəri Yeni istehkamın yuxarı meydançasından hətta adi gözlə də görünür.

Bax, yadellilər öz yollarını hara çəkirmişlər. Nəhəng iş nəhayət başa çatmışdı, amma hansı inanılmaz qiymətə! Leytenant simeoni öz hesablamalarında tikintinin altı aya başa gələcəyini demişdi. Amma altı ay bəs eləmədi, necə ki, səkkiz, doqquz ay da bəs eləmədi. Hər halda, yol çəkilmişdi: düşmən atlıları bu yolla şimaldan dördnala çapıb gələ bilərdilər, ordan Qalanın divarlarına isə əl eləsən çatardı. Onların yalnız axırıncı sahəni, hamar və bərabər olan bir neçə yüz metrlik düzənliyi keçmələri kifayətdi. Amma bu yol on beş ilə başa gəldi, bunun üçün on beş il lazım gəldi, on beş həddən artıq uzun il, hərçənd bu illər yuxu kimi tez keçdilər.

İlk baxışdan sanki heç nə dəyişməmişdi. Ətrafda elə həmin dağlardı, istehkamın divarlarında elə həmin ləkələrdi. Ola bilsin yeniləri də yaranmışdı, amma bunlar, demək olar ki, hiss olunmurdu. Elə həmin səmaydı, həmin Tatar çölüydü: əgər dağ silsiləsinin kənarındakı dirək və işıqlanmadan asılı olaraq gah görünən, gah da yoxa çıxan düz cizgilər nəzərə alınmazsa. Bu, həmin məşhur yol idi.



downloaded from KitabYurdu.org

On beş il dağlar üçün boş şeydir və hətta Bastiani qalasında da bu on beş il diqqət çəkən bir iz qoymadı. Amma insanlar üçün bu, uzun yoldur, hərçənd onların özlərinə elə gəlir ki, bu illər necəsə hiss olunmadan keçib. Qaladakı adamlar da həmindilər: həmin növbə dəyişmələri, zabitlər də axşamlar həmin eyni söhbətləri eləyirdilər.

Amma yaxşıca baxanda, hər halda, zamanın öz izlərini qoyduğunu görmək olar. Bununla yanaşı, qarnizonu yenə də ixtisara saldılar. Böyük məsafələrdə divarlar qorunmur, ordan heç bir parol olmadan keçmək olar, keşikçi dəstələri ancaq əsas məntəqələrə yerləşdiriliblər, hətta Yeni istehkamı da bağlamağı qərara alıblar və yalnız hər on gündənbir ora yoxlama üçün bir dəstə göndərirlər. Beləcə indi baş ştab Bastiani qalasına az əhəmiyyət verir.

Baş ştab şimal düzənliyinə yol çəkilməsini də ciddi qarşılamadı. Kimsə bunun komandanlığın adicə ləng tərpənişi olduğunu dedi; kimin dediyi, əlbəttə, yuxarılara məlumdu. Bircə şey aydındı, yol hansısa bir təcavüzkarlıq niyyəti olmadan çəkilmişdi. Bu izahat az inandırıcı görünürdü, amma başqa cür də izah eləyə bilmirdilər.

Qalada həyat daha da yeknəsəq və darıxdırıcı olmuşdu. Polkovnik Nikolazi, mayor Monti və



downloaded from KitabYurdu.org

podpolkovnik Matti təqaüdə çıxmışdılar. Qarnizona indi podpolkovnik ortis komandanlıq eləyirdi, digərləri isə — dərzi Prosdoçimo istisna olmaqla; o, elə serjant olaraq da qalmışdı — daha yüksək hərbi rütbələrlə təltif olunmuşdular.

Gözəl sentyabr günlərinin birində artıq kapitan olan Covanni Droqo yenidən atla sərt yolla vadidən Bastiani qalasına doğru qalxırdı. Onun bir aylıq məzuniyyəti var idi, amma yalnız iyirmi gün keçmişdi, o isə artıq yenidən geriyə tələsirdi. Şəhər onun üçün tamamilə yad olmuşdu, köhnə dostları cəmiyyətdə özlərinə layiqli yer tutmuşdular və onunla, sadə zabitlə saymazyana görüşürdülər. Lap elə ona hələ də doğma olan köhnə evləri də Droqoda ürək sıxan bir təəssüf hissi oyadırdı. Hər dəfə gələndə evi, demək olar ki, boşalmış görürdü: anasının otağı həmişəliyə boşalmışdı, qardaşları həmişə səfərdəydilər, onlardan biri evlənmiş və başqa şəhərə köçmüşdü, ikincisi dünyanı dolaşmaqda davam eləyirdi. Otaqlar kimsəsiz görünür, səs bu otaqlarda boğuq əks-səda verirdi və hətta açıq pəncərələr, günəş də kömək eləmirdi.

Beləliklə, Droqo yenidən vadidən Qalaya qalxırdı, lakin onun ömrü bütöv on beş il qısalmışdı. Ancaq o, özündə xüsusi bir dəyişiklik hiss eləmirdi —



downloaded from KitabYurdu.org

vaxt elə sürətlə çapıb keçmişdi, onun ürəyi qocalmağa macal tapmamışdı. Bir də geri qayıtmayacaq ötən günlər haqdakı tutqun həyəcanı hər gün keçdikcə özünü daha güclü büruzə versə də, Droqo əsas günlərinin hələ də qabaqda olduğu illüziyasından inadla əl çəkmir. Covanni səbrlə öz saatının gəlməsini gözləyir, amma bu saat hələ də gəlmir; o haqda düşünmür ki, ömrü qısalıb, o özü də əvvəl olduğu kimi deyil. əvvəllər, az qala, ona elə gəlirdi ki, ömrü tükənməyən xəzinədir, düşünmədən xərcləmək olar.

Bir dəfə Droqo Qalanın qabağındakı meydanda çoxdan at sürməklə məşğul olmadığını xatırladı. O hətta at sürməyə olan hər cür həvəsinin keçdiyini də hiss elədi, axırıncı aylar isə (Allah bilir neçə ay) o pilləkəni iki pillə birdən sıçrayaraq qalxmamışdı. “Axmaqlıqdır, — Covanni düşünür, — o, fiziki cəhətdən əvvəl olduğu kimi sağlamdır, heç şübhəsiz hər şeyi yenidən başlamaq olar və özünə heç nəyi sübut eləməsi də lazım deyil, bu hətta gülməlidir”.

Bəli, indiki Droqo fiziki cəhətdən əvvəlki Droqodan geri qalmır və istəsə at oynatmaq, ya pilləkənləri iki pillə birdən qalxmaq onda çox gözəl alınar. Amma əsas bu deyildi, əsas oydu ki, artuq bunlar onu özünə cəzb eləmirdi. O, nahardan sonra



downloaded from KitabYurdu.org

daşlı meydanla atı irəli-geri qovmaqdansa, günəşin altında mürgüləməyə üstünlük verirdi. Bax məsələ bundaydı, bax bu, keçən illər haqda şəhadət verirdi.

Ah, əgər həmin axşam, o ilk dəfə olaraq pilləkəni pillə-pillə qalxanda bu fikirlər onun ağlına gəlsəydi! O, özünü bir qədər yorğun hiss eləyirdi, nə doğruydusa, doğruydu, sanki başına çənbər keçirtmişdilər, o hətta adəti üzrə kart oynamaqdan da imtina elədi (yeri gəlmişkən, əvvəllər də yüngülcə xəstələnəndə pilləkənlə iki pilləni qalxmadığı olurdu). Amma o, özlüyündə belə təsəvvür eləyə bilmirdi ki, həmin gecə onun həyatında kədərli bir dönüş mərhələsi idi, həmin pillələrdə də məhz həmin anda onun gəncliyi qurtardı — növbəti gün onun həyat tərzi tamam başqa cür olacaq və keçən günlər nə sabah, nə də birisigün qayıtmayacaq. Heç vaxt!..

Budur, indi Droqo fikrə getmiş halda atla dərənin sərt, günəş işığına qərq olmuş yamacıyla qalxır və artıq yorulmuş at o biri addımını atanda dərənin o biri tərəfindən kiminsə səsi eşidilir:

"Cənab kapitan!" — deyə onu çağırdıqlarını eşidir və geri boylananda o biri yamacla burularaq qalxan yolda gənc atlı zabiti görür. Sifəti, deyəsən, tanış deyildi, amma leytenant olduğunu görmək



downloaded from KitabYurdu.org

olurdu. Droqo düşünür: “Yəqin, bizim qarnizonun daha bir zabiti məzuniyyətdən qayıdır”.

— Nə var? — Covanni soruşur, atını saxlayaraq leytenantın hərbi salamına cavab verir.

Gənc zabiti heç bir ehtiyac olmadığı halda onu səsləməyə nə vadar eləmişdi?

Zabit cavab verməidiyindən Droqo ucadan, həm də bu dəfə bir qədər hirslənmiş halda qışqırır:

— Nə var?

Naməlum zabit atın üstündə belini düzəldərək əlini rupor kimi ağzına tutur və qışqırır:

— Heç nə, sadəcə sizinlə salamlaşmaq istədim!

Belə izahat Covanniyə axmaqlıq kimi gəlir, hətta az qala, bunu özü üçün təhqiredici hesab eləyir — bu, daha çox, ələsalmaya oxşayırdı. Daha yarım saatlıq yol və hər iki yolun birləşdiyi körpüyə çatacaqdılar. Belə olan halda bu mülki salamlaşma nə üçündü?

— Siz kimsiniz? — cavabında Droqo qışqırır.

— Leytenant Moro!

Leytenant Moro? Hər halda, kapitan belə eşitdi. Qalada bu soyadda kimsə yox idi. Bəlkə bu təyinat yerinə yola düşən yeni zabitdi?

Yalnız bu zaman ilk dəfə Qalaya gedən yolla qalxması, kapitan ortislə məhz bu dərədə rastlaşması, özünün canlı insanla hövsələsiz bir



downloaded from KitabYurdu.org

arzuyla kəlmə kəsmək istəməsi, dərənin üzərindən söhbət eləmək üçün var gücüylə səy göstərməsi haqdakı xatirə onun qəlbində ağrı ilə baş qaldırdı.

“Hər şey həmin o gündə olduğu kimiydi, — o düşünürdü, — yalnız cüzi bir fərqlə ki, indi rollar dəyişmişdi: indi o, yüz dəfələrlə Bastiani qalasına qalxan yaşlı kapitan Droqo idi, yeni, onun tanımadığı leytenantın adı isə Moro idi. Yalnız indi Droqo dərk elədi ki, bu müddət ərzində yeni bir nəsil əmələ gəlib, o özü də o uzaq gündə ortisi aid elədiyi qocalar düşərgəsinin həmin həlledici sərhədini keçib. Və budur, beşinci onluğu xərcləyən, həyatında heç bir diqqətçəkən iş görə bilməyən, bütün dünyada nə uşaqları, nə də ona yaxın olan bir əzizi olmayan Covanni çaşqın halda ətrafa boylanır və ömrünün qüruba getdiyini başa düşürdü.

O, kolların pırpızlaşdırdığı divarları, rütubətli dərələri, səmanın fonunda sıxlaşan çılpaq zirvələri, dağların soyuq üzünü, dərənin o biri sahilində isə özünü itirmiş və çaşmış, əlbəttə ki, Qalada uzağı bir neçə ay xidmət eləyəcəyi ümidi ilə özünə təskinlik verən, parlaq gələcək, şərəfli hərbi döyüşlər, romantik sevgilər arzulayan cavan leytenantı görürdü.



downloaded from KitabYurdu.org

Droqo atının boynunu övkələyir, at isə başını döndərib ona dostcasına baxır, amma heç nə başa düşə bilmir. Droqonun ürəyi sıxılır: əlvida, uzaq arzular, əlvida, həyat sevincləri! Aydın günəş insanları nəvazişlə işıqlandırır, vadilərdən ruhu təzələyən hava axını gəlir, dağ çəmənlikləri ətir saçır, quşların xoru şəlalənin səsini təkrarlayır. Belə gözəl gündə insanlar mütləq xoşbəxt olmalıdılar. Droqo belə düşünür və heyrətlə hiss eləyir ki, ətrafındakı hər şey eynilə onun gəncliyinin həmin o səhərindəki kimi dəyişməz qalmışdır. O, yüyəni tərpədir. Yarım saatdan sonra Droqo hər iki yolun qovuşduğu körpünü görür, düşünür ki, tezliklə leytenantla söhbət eləməli olacaq və onun ürəyi yenidən qüssədən sıxılır.

## XXVI

Nəyə görə indi, yol çəkiləndən sonra şimal qonşuları yoxa çıxdılar? Nəyə görə adamlar, arabalar, atlar düzənliklə üzüyuxarı getdilər və şimal dumanında görünməz oldular? Bu qədər iş nəyin xatirinə görülmüşdü?

Yerqazan dəstələrin bir-birinin ardınca necə gəldikləri və tədricən balaca nöqtələrə döndükləri



downloaded from KitabYurdu.org

aydın görünürdü. Onları bir-birlərindən on beş il bundan əvvəl olduğu kimi yenə də yalnız baxış borusu ilə baxanda ayırmaq olurdu. Onlar əsgərlərə yol açmışdılar və indi şimallıların orduları bu yolla Bastiani qalasına doğru hərəkət eləyə bilərdilər.

Amma nəyə görəsə heç bir ordu yox idi. Tatar çölündə yalnız əbədi olaraq boş qalmanın fonunda şüurlu insan hərəkətinin izləri olan yolun xətləri qalmışdı. Düşmən ordusu hücum eləməyə tələsmirdi. Belə görünürdü ki, hər şeyi, kim bilir, neçə illiyə təxirə salmışdılar.

Düzənlikdə yenidən hər şey donub-qalmışdı. Şimal dumanı əvvəlkitək hərəkətsiz idi, nizamnaməyə tabe olan Qalada həyat dəyişməz qalmışdı, keşikçilər həmişə olduğu kimi qala divarlarını bu başdan o başa kimi ölçürdülər, əsgərlərin məişəti də əvvəlki kimi qalmışdı, günlər əsgərlərin addımlarının bir-birini sonsuza qədər təkrar elədiyi kimi bir-birinə oxşar halda keçirdi. Amma hər halda, zaman adamların dərdinə qalmadan yerində dayanmırdı, dünyanın üzərindən əsərək keçir, nə vaxtsa çox gözəl olan hər şeyi öldürürdü və heç kim, hətta hələ adsız olan körpələr də ondan qaçıb gizlənə bilmirdilər.



downloaded from KitabYurdu.org

Covanninin sifətində qırışlar əmələ gəlmiş, saçları çallaşmışdı, yerişi əvvəllər olduğu kimi yüngül deyildi, həyat axını onu bir tərəfə atmışdı, kənarında qıfaoxşar oyuqlar qaynayan bir yerə. Onun isə hələ əlli yaşı da tamam olmamışdı. Əlbəttə, Droqo daha keşiyə getmirdi, onun indi komendantlıqda, podpolkovnik ortisin kabineti ilə yanaşı olan öz kabineti var idi.

Axşam düşəndə sıraları seyrəlmiş qarnizon qaranlığın Qalaya hakim kəsilməsinə mane ola bilmirdi. Divarların xeyli hissəsi keşiksiz qalmışdı və adama elə gəlirdi ki, zülmət və qüssəli tənhalıq haqdakı fikirlər məhz ordan süzülərək Qalaya keçir. Bəli, köhnə istehkam ölü torpaqların arasında itən adacığa oxşayırdı; sağdan və soldan dağlar yüksəlirdi, cənubda həyat olmayan vadi, şimalda isə Tatar çölü uzanırdı. İstehkamın labirintlərinə gecədən xeyli keçəndə alışmadıqları boğuq səslər yayılır, keşikçilərin ürəyini şiddətlə vurmağa məcbur eləyirdi. Divarın bu başından o başına kimi yenə də: "Qulaq asın! Qulaq asın!" sözləri bir keşikçidən digərinə ötürülür, amma onları bir-birlərindən ayıran məsafə olduqca çox olduğundan əsgərlərin bir-birini səsləmələri çətin olub.



downloaded from KitabYurdu.org

Bu müddətdə Droqo leytenant Moronun onun özünün cavanlığında keçirdiyi kimi ilk məyusluğunun şahidi oldu. Əvvəlcə Moro da qorxdu, indi Mattinin səlahiyyətlərini yerinə yetirən mayor simeoninin yanına qaçdı, amma onu, heç olmasa, dörd ay qalmağa razı sala bildilər, bütün bunlar da onunla qurtardı ki, o dolaşıb qaldı və həddən artıq diqqətlə bu yeni və sanki heç kimə lazım olmayan yolu olan, onda hərbi şərəf qazanacağına ümid oyadan şimal çölünə baxmağa başladı. Droqo Mora ilə söhbət eləmək, nə qədər gec deyilsə, Qaladan getməsi haqda ona xəbərdarlıq eləmək istəyirdi — həm də Mora suyuşirin, çalışqan oğlan idi. Amma hansısa axmaq bir vasvasılıq həmişə onların söhbətinə mane olurdu. Bir də, çətin ki, bu söhbətin bir nəticəsi olaydı.

Günlərin və qara gecələrin vərəqlərinin birbirinin ardınca ömürdən qopub düşməsinə uyğun olaraq Droqoda, ortisdə (bəlkə də bəzi digər qoca zabitlərdə də) onların artıq heç nəyi çatdıra bilməyəcəkləri təhlükəsi artırdı. Zamanın geri qayıtmayacaq dönüşünə etinasız olan yadellilər yerlərindən tərpənmir, sanki özlərini ölümsüz hesab eləyirdilər və onların qışları və baharları xərcləməyə heyifləri gəlmirdi. Qalada isə zamanın həmləsi altında



downloaded from KitabYurdu.org

zavallılar müdafiəsiz qalmış və özlərinin həyat limitlərinin artıq tükəndiyini hiss eləyirdilər. Nə vaxtsa hədsiz uzaq olduqlarına görə, az qala, fantastik görünən həyat mərhələləri birdən lap yaxında görünərək ömrün ani keçdiyini xatırladırdı. Hər dəfə ağır, əziyyətli işi bundan sonra da görmək üçün özündə güc tapanda hansısa yeni bir sistemi, yeni hesabat nöqtələrini düşünüb tapmaq və başqalarının vəziyyətinin daha pis olduğu ilə özünə təsəlli vermək lazımdır.

Amma budur, ortisin də sakitliyə çəkilmək vaxtı gəlib çatdı (şimal düzənliyində isə zərrəcə də həyat əlaməti, hətta işıq zərrəciyi belə yox idi). Podpolkovnik ortis işləri Qalanın yeni komendantı simeoniyə təhvil verdi, deyəsən, keşik çəkən dəstələr istisna olmaqla bütün şəxsi heyəti həyətə yığdı, çətinliklə onların qarşısında çıxış elədi, adyutantının köməyi olmadan yəhərə qalxdı və bir leytenantın iki əsgərin müşayiəti ilə Qalanın qapısından çıxdı.

Droqo onu yaylanın kənarına qədər ötürdü. Orda da onlar vidalaşdılar. Uzun yay günü təzəcə başlayır, göydə süzən buludlar yerə qəribə kölgələr salırdı. Podpolkovnik ortis tələsirdi, Droqodan bir qədər kənara çəkildi. Hər ikisi susmuş, vida anında bir-birlərinə nə deyəcəklərini bilmirdilər. Sonra zorla



downloaded from KitabYurdu.org

bir-iki mənasız sözlər dedilər, amma bu sözlər onların ürəklərindən gəlmirdi.

— Mənim bütün həyatım indi dəyişəcək, — Droqo dedi. — Deyəsən, mən də burdan getməliyəm. Birbaşa istefa verə bilərəm.

— Sən hələ cavansan! — ortis dedi. — İstefa vermək axmaqlıqdır, sən hələ...

— Hələ nə? Nə?

— Vuruşacaqsan. Bax görərsən, heç iki il də keçməz...

(O danışır, qəlbində isə bunun olmayacağına ümid eləyirdi, çünki Droqonun da Qismətin üzünə gülməsini gözləmədən onun kimi evinə qayıtmasını istəyirdi — yoxsa bu, çox böyük ədalətsizlik olardı. Hərçənd o, Droqoya tamamilə dostluq münasibətləri bəsləyir və ona yalnız yaxşılıq arzulayırdı.)

Amma Covanni heç bir cavab vermədi.

— Hə, heç iki il də keçməz... — ortis onun etiraz eləyəcəyinə ümid eləyərək təkrar elədi.

— Eh, iki il nədir, — nəhayət Covanni danışdı, — əsrlər keçər, bəlkə də çox. Elə hesab eləyin yol artıq unudulmuşdur, şimaldan heç kim gəlməyəcək.

Hərçənd o, bu sözləri ucadan dedi, ürəyinin səsi isə tamam başqa söz deyirdi. Gənclik illərindən qəlbinin dərinliyində lap elə mənasız da olsa, amma



downloaded from KitabYurdu.org

həlledici hadisələri qarşısıalınmaz bir istəklə qabaqcadan hiss eləməsi, onun həyatında hələ ən yaxşı günlərin başlamadığına olan tutqun əminlik qorunub saxlanmışdı.

Bu söhbətin onları bir-birlərindən uzaqlaşdırdığını hiss eləyərək hər ikisi susdu. Amma bir dam altda yaşamış və az qala, otuz il ərzində eyni şeyi arzulamış onlar daha nədən danışa bilərdilər? İndi bu qədər birlikdə yol gedəndən sonra onların yolları ayrılır, müxtəlif tərəflərə aparırdı, amma hansı tərəfə apardığı məlum deyildi.

— Günəş necə də yandırır! — ortis qocalıqdan yüngülcə bulanıqlaşmış gözlərini həmişəliyə ayrıldığı Qalanın divarına dikərək dedi.

Divarlar isə elə həminkidilər: sarımtıl və hələ də qeyri-adi macəralar vəd eləyirdilər. Ortis diqqətlə divarlara baxırdı və Droqodan başqa heç kim onun necə əzab çəkdiyini təxmin eləyə bilməzdi.

— Doğrudan da, istidir, — Covanni qonaq otağında Mariya Veskovi ilə çoxdankı söhbətini xatırlayıb dedi, onda qonaq otağına fortepianonun akkordları qüssə gətirirdi.

— Hə, doğrudan da, havaya söz ola bilməz, — ortis təsdiq elədi.



downloaded from KitabYurdu.org

Hər ikisi bir-birlərini yaxşı başa düşdüklərini anlayaraq gülümsədilər və bunun həqiqi mənası sanki boş sözlər idi. Hansısa bulud kölgəsi ilə onları örtdü və bir neçə dəqiqəliyə bütün ətrafdakılar tutqunlaşdı, əvəzində bir təzad kimi günəşin gözqamaşdırıcı məşum işığı Qala divarlarının üzərində alışıb-yanmağa başladı. İki böyük quş birinci istehkamın üzərində fırlanırdı. Uzaqdan güclə eşidilən şeypur səsi gəlirdi.

— Eşidirsən? Şeypur çalır, — qoca zabit dedi.

— Yox, heç nə eşitmirəm, — belə cavabın həmkarının ürəyincə olduğunu hiss edən Droqo aldatdı.

— Bəlkə də mən səhv eşitmişəm. Hə, burdan onu eşitmək də olmaz. Doğrudan da, həddən artıq uzaqdır, — ortis titrək səslə dilləndi. Sonra həyəcanını boğaraq əlavə elədi, — bizim ilk görüşümüzü xatırlayırsanmı: sən bura gəlmişdin və qorxurdun. Sən onda qalmaq istəmirdin, yadındamı?

Droqo yalnız cavab verə bildi:

— Bu, çoxdan olub... — onun boğazını qəhər tutdu.

Öz düşüncələrinin dolanbacları ilə gedərək ortis dedi:



downloaded from KitabYurdu.org

— Kim bilir, bəlkə də müharibədə mən hələ kara gələrdim. Hansısa xeyrim dəyərdi. Amma müharibədə... digər vaxtlarda isə özün də görürsən, mən kara gələn deyiləm.

Bulud süzüb keçdi; artıq Qalanın arxasına keçmişdi və indi kədərli Tatar çölünə doğru sürünür, ağır-ağır şimala doğru gedirdi. Vəssalam... Günəş yenidən şəfəq saçmağa başladı və torpaqda yenidən iki kişinin kölgəsi göründü. Ortisin və onu müşayiət eləyənlərin atlarının nalları onlardan iyirmi metr aralıda daşlara çırpılırdı.

## XXVII

Səhifələr çevrilir, aylar və illər keçir. Droqonun keçmiş məktəb yoldaşları, demək olar ki, işdən yorulmuşdular. Onların qalın saqqalları çallaşmışdı; küçələrdə ağır-ağır gəzirlər və hamı onlarla ehtiramla görüşür. Onların artıq uşaqları da böyüyüb, bəzilərinin nəvələri də var. Droqonun köhnə dostları öz mənsəblərindən razıdılar, özlərinin ucaltdıqları binanın kandarından həyatın axınını seyr eləməyi xoşlayırlar, onlar kütlənin burulğanında məmnun baxışlarla öz uşaqlarını axtarır, onları ruhlandırırlar, tələsdiririrlər, başqalarını keçməyi, hər şeydə birinci olmağı təlqin eləyirlər. Covanni Droqo isə hələ də



downloaded from KitabYurdu.org

nəyisə gözləyir, hərçənd keçən hər dəqiqə ilə onun ümidi də azalır.

İndi o, həqiqətən də, dəyişilib. Onun əlli dörd yaşı var, o artıq mayordur və Qalanın azsaylı qarnizonunda komendantın köməkçisidir. Hələ lap yaxınlaracan onda qocalıq əlamətləri gözə dəymirdi və onu əsla qoca adlandırmaq olmazdı. Hərdənbir çətinliklə də olsa, məşq üçün atla meydanda bir-iki dövrə vururdu.

Sonra Droqo arıqlamağa başladı. Onun sifətində xoşagəlməz sarımtıl çalarlar sezilirdi, əzələləri boşalmışdı.

— Qara ciyərin şıltaqlıq eləyir, — öz ömrünü Qalada başa vurmağı qəti qərara almış, artıq çox qocalmış həkim Rovina dedi. Amma həkimin yazdığı tozlar kömək eləmədi: səhərlər Covanni yuxudan əzgin halda oyanır, boynunun arxasında ara verməyən ağrılar olurdu. Öz kabinetində oturarkən yalnız onu gözləyirdi ki, nə vaxt axşam düşər, yenidən özünü kresloyamı, yatağamı salar.

— Qaraciyərin xəstəliyi orqanizmin ümumi taqətdən düşməsinin əlamətidir, — həkim dedi.

Onun həyat tərzində orqanizmin hansı taqətdən düşməsindən söhbət gedə bilərdi?



downloaded from KitabYurdu.org

— Hər şey keçib gedəcək, belə şeylərə sizin yaşınızda az rast gəlinmir, — Rovina əmin eləyirdi. — Necə istəsək də, tez keçməz, amma hər ehtimala qarşı, mən heç bir təhlükəli şey görmürəm.

Beləliklə Droqonun həyatına daha bir əlavə gözləmə, sağalmasına olan ümidi də daxil oldu. Yeri gəlmişkən o, səbirsizliyini heç cür büruzə verməzdi. Şimal çölündə əvvəlkitək sakitlik idi, düşmənin olası hücumunun heç bir əlaməti gözə dəymirdi.

— Sən bu gün daha yaxşı görünürsən, — hər gün həmkarları ona təsəlli verirdilər.

Amma Droqo halının yaxşılaşdığını hiss eləmirdi. Onun ilk vaxtlar əziyyət çəkdiyi başındakı güclü ağrılar və üzücü mədə pozğunluqları, doğrudan da, keçmişdi, heç bir məxsusi fiziki üzüntüsü yox idi. Amma gücü nəyə görəsə getdikcə tükənirdi.

Qalanın komendantı simeoni ona demişdi:

— Məzuniyyət götür və get, istirahət elə, sənin üçün hardasa dəniz sahilində yaşamaq yaxşı olar.

Droqo etiraz eləyib; özünü yaxşı hiss elədiyini və Qalada qalmağa üstünlük verdiyini deyəndə isə simeoni narazı halda başını yırğaladı, sanki Droqo onun tamamilə ümumi ab-havaya və nizamnaməyə uyğun olan, həm də qarnizonun maraqları və onun



downloaded from KitabYurdu.org

öz şəxsi rahatçılığı üçün xeyirli olan məsləhətindən imtina eləməklə naşükürlük eləyirdi. Simeoni hamını beləcə öz qüsursuz düzlüyü ilə əzmək istəyirdi, buna görə də çoxları dəfələrlə əvvəlki rəhbərliyi, hətta böyük adyutant Mattini xoş sözlərlə xatırlayırdılar.

Nədən olsa, hətta ən xeyirxah mövzularda belə danışanda onun sözlərində həmişə digərlərinə qarşı gizli bir tənə olurdu, sanki təkcə o özü öz borcunu sona qədər yerinə yetirirdi, o tək özü Qalanın dayağıydı, o özü saysız hesabsız xoşagəlməz işləri yoluna qoyurdu, yoxsa hər şey alt-üst olardı. Əvvəlki komendant da özünün ən yaxşı illərində təxminən belə idi, yalnız daha az riyakarlıq eləyir, öz hiyləgərliyini gizlətməyə ehtiyac duymurdu. Onun sərtliyi və kobudluğu isə bəzən hətta əsgərlərin xoşuna da gəlirdi.

Xoşbəxtlikdən Droqo həkim Rovina ilə dostlaşmış və onun köməyi ilə Qalada qala bilmişdi. Hansısa anlaşılmayan mövhumatçılığa görə o, xəstəliyə görə Qalanı tərk eləməkdən qorxurdu: sonradan qayıda bilməyəcəyindən ehtiyat eləyirdi. Bu fikir onun üçün dözülməz idi. İyirmi il bundan əvvəl o, belə imkandan ikiəlli yapışardı: şəhər qarnizonunun kübar həyatına qovuşmaq, yay təlimləri, atıcılıq məşqləri, at yarışlarında iştirak



downloaded from KitabYurdu.org

eləmək, teatr, qadınların da iştirak elədiyi misilsiz cəmiyyətlər. Bəs indi? Daha bir neçə il və sonra da təqaüdə çıxmaq lazım gələcəkdi, onun ən yüksək mənsəbi bununla da qurtaracaqdı; ən yaxşı halda ona hansısa bir ştabda yer tapılacaqdı, yalnız xidmət eləyə bilməsi üçün. Bir neçə il qalmışdı, onun axırıncı şansı idi, nə biləsən, birdən bu müddətdə çoxdan gözlədikləri hadisə baş verəcəkdi? O öz həyatının ən yaxşı illərini Qalaya vermişdi və axırıncı dəqiqəyə qədər gözləməkdə özünü haqlı hesab edirdi.

Müalicəni sürətləndirmək üçün Rovina Droqoya iş haqda az düşünməyi və bütün günü yataqda uzanmağı məsləhət görürdü. Lazım olan kağızları və sənədləri onun otağına da gətirə bilərdilər. Soyuq və yağışlı mart ayı idi, yağışların üzündən dağlarda qorxunc sürüşmələr olurdu, birdən bilinməyən bir səbəbdən bütöv qayalar uçur, qorxunc gurultu ilə dərələrə tökülürdü. Bu gurultu gecələr bir neçə saat ərzində kəsilmirdi.

Nəhayət, böyük çətinliklə bahar özünə yer eləməyə başladı. Aşırımlardakı qar artıq ərimiş, amma qatı duman hələ də Qalaya ilişib qalmışdı. Qış ərzində rütubətli hava dərələrə elə preslənmişdi ki, onu yalnız isti günəş yayıb yox eləyə bilərdi. Amma bir dəfə səhər Droqo yuxudan oyanıb taxta



downloaded from KitabYurdu.org

döşəmənin üzərində yenə də günəş işığının zolağını gördü və nəhayət, baharın gəldiyini başa düşdü.

Yenidən ürəyində baharın gəlişinin ona yeni qüvvə verəcəyi ümidləri baş qaldırdı. Hətta çatının ən köhnə ağac tirlərində belə baharın gəlişi ilə həyat əlamətləri özünü göstərir, gecələri hansısa cırıltı, çatırtı ilə doldururdular. Sanki hər şey yenidən yaşamağa başlayır, dünyanı sevinc və sağlamlıq dalğaları qoynuna alırdı.

Öz ümidlərini möhkəmlətmək üçün yaddaşında böyük yazıçıların uyğun gələn deyimlərini canlandıraraq, Droqo məhz bu haqda düşünürdü. Yataqdan qalxdı və səntirləyərək pəncərəyə yaxınlaşdı. Başı yüngülcə hərlənirdi, amma "uzun müddət yataqda olanların hamısında belə olur" fikri onu bir az sakitləşdirdi. Doğrudan da, tezliklə baş hərlənməsi keçdi və Droqo günəşin şəfəqlərinə baxıb zövq almağa başladı.

Elə bil bütün dünya sonsuz sevincə qərq olmuşdu. Droqo özü heç nə görə bilmirdi, çünki onun pəncərəsinin qabağından divar yüksəlirdi, amma o, bu sevinci asanlıqla hiss eləyirdi. Hətta qədim Qala divarları, həyətin qırmızıya çalan torpağı, bozaran taxta oturacaqlar, boş araba, ağır-



downloaded from KitabYurdu.org

ağır gəzişən əsgər — hamısı birbaşa sevinc saçırdı. Divarın o biri üzündə isə, yəqin, həyat lap gözəldi!

Droqo geyinmək istədi. Açıq havada kresloda oturmaq, günəşdə qızınmaq istəyirdi, amma daxilindəki hansısa üşütmə onu bu istəkdən saxladı və yatağa qayıtmağa məcbur elədi. "Hər halda, bu gün mən özümü yaxşı hiss eləyirəm, daha yaxşı", o düşündü və əslində də belə olduğuna özünü inandırdı.

Bahar səhəri sakitcə şəfəq saçır, günəş işığının zolağı döşəmənin üzərində ağır-ağır yerini dəyişirdi. Hərdənbir Droqo işıq zolağına baxırdı və onda şkafının üzərinə qalaqlanmış kağızlara baxmağa zərrəcə də həvəs yox idi. Bununla yanaşı, qeyri-adi sakitlik idi, nəyə görəsə bu sakitliyi nə bəzən eşidilən şeypurun səsi, nə də çəndən axan suyun şırıltısı pozmurdu. Hətta mayor olandan sonra da Droqonun öz otağından ayrılmağa heyfi gəldi — yenə də təmiz möhvumatçılığa görə. Çənin bul-buluna isə elə alışmışdı ki, bu səslər onu zərrəcə də narahat eləmirdi.

Droqo birbaşa günəş işığının zolağı üzərinə qonmuş milçəyə tamaşa eləyirdi. Bu, gözlənilməz qonaq idi, aydın deyildi ki, qışı necə sağ çıxmışdı.



downloaded from KitabYurdu.org

Milçəyin yerini dəyişməsini diqqətlə izləyirdi, amma bu zaman kimsə qapını döydü.

Covanni özlüyündə qapının taqqıltısının qəribə olduğunu anladı. Bu, əlbəttə, nə denşik idi, nə də hərbi dəftərxanadan olan kapitan Korradi (kapitan qapını döyəndən dərhal sonra da nəzakətlə «icazə olarmı?» deyərdi) və digər tanışları da deyildi.

— Girin! — Droqo dedi.

Qapı açıldı və qapının ağzında qoca dərzi Prosdoçimo göründü. Dərzi tamam bükülmüşdü, əynində nə vaxtsa serjant forması olan yöndəmsiz paltar var idi. O, yüngülcə tövşüyürdü və otağa girəndən sonra əlinin şəhadət barmağı ilə havada işarə eləyərək, həmin tərəfdə olan Qala divarlarını göstərirdi.

— Gəlirlər! Gəlirlər! — batıq səslə müəmmalı şəkildə dedi, sanki böyük bir sirri açırdı.

— Kim gəlir? — Droqo heyrətlə həyəcanlanmış dərziyə baxaraq soruşdu. Və düşündü: bax, batdım! Bu tip çərənləməyə başladımı, bir saatdan tez onun əlindən qurtara bilməzsən.

— Onlar gəlirlər... yolla. Aman Allahım, şimal yoluyla! Hamı artıq terrasa çıxıb, baxırlar.

— Şimal yoluyla? Əsgərlərmi?



downloaded from KitabYurdu.org

— Batalyonlarla, batalyonlarla! — artıq qoca yumruqlarını düyünləyərək qışqırırdı. — Bu dəfə heç bir səhv ola bilməz... Bundan əlavə də, baş ştabdan teleqram gəlib, bizə kömək göndərdiklərini yazıblar! Bü müharibədir! Müharibə! — Prosdoçimo qışqırdı və aydın deyildi: o qorxusundan, yoxsa sevincindən belə bağırırdı.

— Onlar artıq görünürlər? Baxış borusu olmadan? — Varlığını güclü həyəcan sarmış Droqo çarpayının üstündə oturdu.

— Lənət şeytana, həm də necə görünürlər! Onların hətta topları da var, bizimkilər artıq on səkkizini sayıblar!

— Onlar nə vaxt bizə hücum eləyə bilərlər? Bura gəlib çıxmaq üçün onlara nə qədər vaxt lazım olar?

— Nə deyə bilərəm! Belə yolla!.. Mən düşünürəm, iki gündən sonra onlar artıq burda olacaqlar. Uzağı iki gündən sonra!

“Lənətə gəlmiş yataq, — Droqo düşündü. Zəncirlə bağlanıbmış kimi uzan burda”. Heç xəstələnməyin yeriydi! Prosdoçimonun yalan deyə biləcəyi onun ağlına da gəlmirdi. O, dərhal inandı, hər şey belədi ki var, o hətta havanın da dəyişdiyini hiss elədi, təkcə havanın yox, günəş işığı da başqa cür olmuşdu.



downloaded from KitabYurdu.org

— Prosdoçimo, — çətinliklə nəfəs alaraq dedi, — get, Lukanı çağır, mənim denşikimi... yox, zəng eləmək mənasızdır, o aşağıda olmalıdır, dəftərxanada, nə vaxt ona mənim üçün kağız veriləcəyini gözləyir, tez get, xahiş eləyirəm!

— Mən bu dəqiqə, cənab mayor! — Prosdoçimo artıq gedə-gedə cavab verdi. — Daha öz xəstəliyiniz haqda düşünməyin, divarın üstünə çıxın, özünüz hər şeyi görəcəksiniz!

O hətta qapını da arxasınca bağlamağı unudaraq qaçıb getdi. Onun addım səslərinin dəhlizdə necə uzaqlaşdığı eşidilirdi, sonra sükut çökdü.

“Allahım, elə elə ki, mən özümü yaxşı hiss eləyim, yalvarıram sənə, heç olmasa, bir həftəliyə, — həyəcanının öhdəsindən gəlməyə gücü çatmayan Droqo pıçıldadı.

Dərhal ayağa qalxmaq istədi; nəyin bahasına olur-olsun ayağa qalxmaq və divarın üzərinə qalxmaq istəyirdi, simeoniyə görünmək, hamıya göstərmək istəyirdi ki, o bu məsələyə laqeyd deyil, o öz komanda məntəqəsindədir və həmişə olduğu kimi üzərinə düşən vəzifəni yerinə yetirir, çünki tamamilə sağalıb.

Gup!! Dəhlizdən gələn havaçəkən nəticəsində qapı gurultu ilə çırpıldı. Dərin sükutda bu gurultu və



downloaded from KitabYurdu.org

məşum zərbə Droqonun duasına cavab kimi səsləndi. Nəyə görə Luka hələ də gəlmirdi? Bu axmağa vur-tut iki mərtəbənin pilləkənini qalxmaq üçün nə qədər vaxt lazımdı?

Droqo denşiki gözləmədən yataqdan qalxdı və dərhal da başı hərləndi. Amma tədricən baş hərlənməsi keçdi. İndi o, güzgünün qabağında dayanmışdı və qorxmuş halda öz saralmış, üzgün sifətinə baxırdı. "Bunun hamısı saqqal saxlamağımdandır", Covanni özünə təsəlli verməyə cəhd elədi və təkcə bir gecə köynəyində inamsız halda otaqda dolaşıb üzqırxanı axtarmağa başladı. Amma nəyə görə axı Luka gəlib çıxmırdı?

Gup! Havaçəkənin hərəkətə gətirdiyi qapı təzədən çırpıldı.

— Səni görüm lənətə gələsən! — Droqo qapıya doğru yönələrək donquldandı, qapını bağlamaq istəyəndə denişikinin yaxınlaşan addım səslərini eşitdi.

Səliqə ilə üzü qırxılmış və geyinmiş halda — düzdü, indi hərbi geyimi onun əynindən asılqanda olduğu kimi sallanırdı — mayor Covanni Droqo otaqdan çıxdı və ona həmişə olduğundan xeyli uzun görünən dəhlizlə getməyə başladı. Hər an komandirindən yapışa bilsin deyə Luka onunla



downloaded from KitabYurdu.org

yanaşı gedir, yalnız bircə addım geri qalırdı, çünki komandirinin ayaq üstə güclə durduğunu görürdü. İndi başhərlənməsi dalğa-dalğa gəlirdi və hər başağrısı dalğası gələndə də Droqo divara söykənərək, bu dalğanın keçməsini gözləmək üçün dayanmalı olurdu. O düşünürdü: "Mən həddən artıq həyəcanlanıram, əsəblərim şıltaqlıq eləyir, amma ümumilikdə, hər halda, halım yaxşıdır.

Baş hərlənməsi, doğrudan da, keçdi və Droqo istehkamın yuxarı terrasına qalxdı. Burda bir dəstə zabit baxış borusu ilə düzənliyin qayalarla örtülməmiş düzbucaq şəklindəki sahəsinə baxırdılar. Covanni alışmadığı günəş işığından gözlərini qıyaraq laqeyd halda salamlara cavab verirdi. Ona elə gəlirdi — bəlkə də o, indi hər şeyi qara rəngdə görməyə köklənmişdi — kiçik zabitlər onunla bir qədər başdansovdu görüşürlər, sanki o, bilavasitə onların komandirləri deyildi, yəni sözün əsl mənasında da onların müqəddəratını həll eləyə bilməzdi. Doğrudanmı onlar onu bitmiş birisi hesab eləyirdilər?

Bu xoşa gəlməyən fikirləri müharibə haqdakı həyəcanverici fikirlər sıxışdırıb çıxardı. Hər şeydən əlavə Droqo Yeni istehkamın üzərindən nazik tüstü burumlarının qalxdığını gördü, demək orda yenidən



downloaded from KitabYurdu.org

keşik çəkirdilər, artıq fövqəladə ölçülər götürmüşdülər, bütün qarnizon döyüş hazırlığı vəziyyətinə gətirilmişdi, onu, komendantın köməkçisini isə heç məlumatlandırmamışdılar da. Əgər Prosdoçimo öz təşəbbüsü ilə gəlməsə və onu çağırmasaydı, o, təhlükə haqda düşünmədən hələ indiyə qədər də yataqda uzanmışdı.

Droqonun varlığını kəskin və gücsüz bir qəzəb bürüdü, gözləri dumanlandı, sürahiyə söykənmək lazım gəldi, lakin o indi hər hərəkətini ölçüb-biçirdi ki, başqaları onun vəziyyətinin nə qədər pis olduğunu hiss eləməsinlər. O, özünü hədsiz dərəcədə yalqız, düşmənlərlə əhatə olunubmuş kimi hiss eləyirdi. Doğrudur, burda ona bağlı olan bir neçə cavan leytenant var idi — məsələn, Moro. Amma cavan zabitlərin dəstəyi çoxmu idi onun üçün?!

Bu an o, arxasında "farağat!" komandası eşitdi. Droqo boylandı və sürətlə yaxınlaşan podpolkovnik simeonini gördü. Onun sifəti qızarmışdı.

— Mən artıq yarım saatdı səni hər yerdə axtarıram! — o, Droqoya müraciət eləyərək ucadan səsləndi. — Nəsə eləmək lazımdır! Nəsə qərar qəbul eləməliyik!

Onun sifətində mərhəmət ifadəsi var idi; dalğın halda qaşlarını çatdı, sanki bu dəqiqə ona dünyada



downloaded from KitabYurdu.org

hər şeydən vacib olan Droqonun məsləhəti idi. Bu sözlər Droqonu tərksilah elədi, sanki qəzəbini görünməz bir əl silib apardı, halbuki onu aldatdıqlarını çox gözəl başa düşürdü. Simeoni Droqonun guya yataqdan qalxa bilməyəcyini zənn eləyəndə yanılmış və onun haqqında düşünməyi yaddan çıxartmışdı. Bütün qərarları o özü qəbul eləmiş və işlər görülüb qurtarandan sonra Droqonu baş verənlər haqda məlumatlandırmağı qərara almışdı. Amma kimsə Droqonın Qalada gəzdiyini ona çatdırmışdı və o da qaçıb gələrək bunu ən yaxşı niyyətlə elədiyini göstərmək istəyirdi.

— Mən general stassidən teleqram almışam, — simeoni dedi, Droqonun sual verəcəyindən ehtiyatlanaraq başqaları eşitməsin deyə onu kənara çəkdi. — Başa düşürsənmi, elə bu anlarda iki polk gəlməlidir, bəs onları harda yerləşdirək?

— Kömək üçün iki polk? — Droqo heyrətlənmiş halda təkrar soruşdu.

Simeoni teleqramı ona göstərdi. General məlumat verirdi ki, təhlükəsizlik məqsədi ilə və düşmən tərəfinin hər cür təxribat xarakterli hərəkətlərinin qarşısını almaq məqsədi ilə iki polk — 17-ci piyada polku və daha bir gücləndirilmiş yüngül artilleriya polku kömək üçün Qalanın qarnizonuna



downloaded from KitabYurdu.org

verilir. Mümkün olduğu qədər qarnizonu əvvəlki ölçülərdə bərpa eləmək və yeni gələn əsgər və zabitləri yerləşdirmək lazımdı.

— Mən hələlik bir bölüyü Yeni istehkama göndərdim. Sən necə hesab eləyirsən, düzmü eləmişəm? — simeoni əlavə elədi və cavab vermədən təzədən soruşdu, — sən artıq onları görübsən?

— Hə-hə, hər şeyi düz eləyibsiz, — Covanni çətinliklə dedi.

Simeoninin sözləri onun qulaqlarında kəsikkəsik və mənasız səslər kimi əks olunur, ətrafında hər şey xoşagəlməz halda yırğalanırdı. Droqonun halı pisləşdi, birdən boğazı tutuldu və ayaq üstə qala bilmək üçün bütün qüvvəsini cəmləşdirməli oldu. "oy Allahım, oy Allahım, — o, ürəyində dua eləyirdi, — heç olmasa, azacıq da olsa, mənə kömək elə!"

Öz vəziyyətini gizləmək üçün baxış borusunu əlinə götürdü (simeoninin o məşhur baxış borusunu) və şimala doğru yönəltdi; dirsəyi ilə məhəccərə söykəndi, yoxsa ayaq üstə qala bilməyəcəkdi. Axx, düşmənlər, heç olmasa, azacıq da gözləsəydilər... Axı ona qüvvəsini bərpa eləmək üçün, yəqin ki, bir həftə də bəs elərdi. Onlar neçə illərlə gözləmişdilər, onda nəyə görə bir neçə gün də gözləməsinlər, cəmi bir neçə gün!?



downloaded from KitabYurdu.org

Baxış borusunu çölün üçbucaq şəklindəki sahəsinə yönəltdi, orda heç nə, heç bir həyat əlaməti görməyəcəyini ümid eləyirdi. Bütün ömrü boyu düşməni gözləyən Droqo indi bax bunu arzulayırdı.

Orda heç nə görməyəcəyini ümid eləyirdi, amma hansısa qara zolaq çöldə köndələninə uzanmış və həm də hərəkət eləyirdi, adamların qaynasan kütləsi və arabalar şimaldan Qalaya doğru enirdilər. Bunlar artıq sərhədi müəyyənləşdirən ölüvay silahlı dəstələr deyildi. Nəhayət, şimallıların ordusu görünməyə başlamışdı və nə biləsən...

Bu zaman baxış borusunun görmə şüşəsi fırlandı — su qıfda fırlanan kimi — hər şey tamamilə qaralana kimi tutqunlaşmağa başladı. Huşunu itirən Droqo parçadan tikilmiş kukla kimi məhəccərdən asıla qaldı. Simeoni vaxtında onu tuta bildi. O, Droqonun cansız bədənini qucaqlayanda mahudun üstündən belə onun dik-dik dayanmış qabırğalarını hiss elədi.

## XXVIII

Gün keçdi, gecə keçdi, mayor Covanni yataqda uzanmış, zaman-zaman çənin ritmik bul-bulunu eşidirdi, bundan əlavə heç nə, hərçənd Qalada hər



downloaded from KitabYurdu.org

keçən dəqiqə ilə həyəcanlı bir canlanma yaranırdı. Dünyadan təcrid olunmuş Droqo uzanmış və öz orqanizminə qulaq verirdi, ümid eləyirdi ki, itirilən taqəti günlərin birində ona qayıdacaq. Həkim Rovina bunun bir neçə günün içində baş verəcəyini demişdi. Qoy belə olsun, amma neçə gün? Düşmən hücum eləyəndə o, heç olmasa, ayaq üstə dura, yuxarı terrasa qədər qalxa biləcəkdimi? Bəzən Droqo çarpayıdan qalxırdı. Ona elə gəlirdi özünü bir qədər yaxşı hiss eləyir. Kimsənin köməyi olmadan güzgüyə qədər gedirdi ki, güzgüdən ona baxan torpaq rəngli sifəti, çuxura düşmüş yanaqları isə illüziyaya heç bir ümid yeri saxlamırdı. Başının hərlənməsindən gözləri dumanlanır, səntirləyərək yatağına qayıdır və onu sağalda bilməyən həkimi lənətləyirdi.

Döşəmənin üzərindəki günəş işığının zolağı öz gündəlik yolunun bir qədərini getmişdi. Deməli saat azından on bir idi, həyətdən hansısa adət eləmədiyi səslər eşidilirdi və Droqo hələ də hərəkətsiz halda yataqda uzanmış, baxışlarını tavana dikmişdi. Birdən otağa qalanın komendantı podpolkovnik simeoni girdi.

— Necəsən? — o, gümrah səslə soruşdu. — Yaxşısan? Nəsə... məncə rəngin çox solğundur.



downloaded from KitabYurdu.org

— Bilirəm, — Droqo soyuq cavab verdi. — Şimallılar çoxmu irəliləyiblər?

— İrəliləyiblər də sözdü, — simeoni dedi. — onların artilleriyası artıq silsilənin üzərinə qaldırılıb. İndi onu orda quraşdırırlar... Sən bağışla ki, mən vaxtında gələ bilmədim... Bizdə, burda əsl cəhənnəmdir... Günortadan sonra bizə kömək gələcək, mən yalnız indi beş dəqiqə vaxt tapa bildim...

— Sabah... — Droqo dedi və səsinin necə titrəməsinə özü də heyrətləndi, — sabah ayağa qalxacağıma ümid eləyirəm. Heç olmasa, sənə azacıq da olsa, kömək elərəm.

— Oy, yox-yox, bunu başından çıxart, əsası odu tezliklə sağal və düşünmə ki, mən səni unutmuşam. Məndə sənin üçün hətta çox gözəl xəbər var: bu gün sənin arxanca əla kareta gələcək. Müharibə müharibədir, amma dostluq hər şeydən üstündür... — o, özünü ələ alaraq dedi.

— Kareta? Mənim arxamca? Niyə mənim arxamca?

— Di... əlbəttə, sənin arxanca, səni burdan aparmaq üçün. Sən əbədi olaraq burda qaxılıb qala bilməzsən. Şəhərdə səni daha yaxşı müalicə eləyəcəklər. Orda sən bir aydan sonra ayaq üstə



downloaded from KitabYurdu.org

qalxarsan. Burdakı işlər isə qoy səni narahat eləməsin, əsas çətinliklər artıq arxadadır.

Droqo onsuz da üşütmə içindəydi. Onu — hər şeyini düşmənlə qarşılaşmağa qurban vermiş, otuz ildən artıq yalnız yeganə ümidlə yaşayan onu məhz indi, düşmən gəlib qapının ağzında dayananda Qaladan qovurdular!

— Sən mənim razılığımı soruşmalıydın, — o, qəzəbdən titrəyən səslə cavab verdi. — Mən yerimdən tərpənməyəcəyəm, mən burda olmaq istəyirəm və sənin zənn elədiyin qədər də ağır xəstə deyiləm. Bax, sabah ayağa qalxacağam...

— Allah xatirinə, həyəcanlanma, heç kim səni məcbur eləmir, həyəcandan halın daha da pis olar, — simeoni zorla şəfqətlə gülümsəyərək dedi. — Amma mənə elə gəldi ki, belə sənə daha yaxşı olacaq, həm də Rovina deyir...

— Rovina nə deyə bilər? Omu sənə kareta çağırmağı məsləhət gördü?

— Yox-yox, kareta haqda bizim söhbətimiz belə olmayıb. Amma o, sənin şəraitini dəyişməyini xeyirli hesab eləyir.

Nəhayət, Droqo simeoni ilə dostcasına danışmağı, əvvəllər yalnız ortislə elədiyi kimi qəlbini



downloaded from KitabYurdu.org

ona açmağı qərara aldı. Ən sonda simeoni də insandı.

— Simeoni, qulaq as, — o, başqa tonla sözə başladı. — sən axı bilirsən ki, burda, Qalada... hamı yalnız bir ümidin xatirinə xidmət eləməyə qalırdı... Bunu izah eləmək çətindir, amma sən ki məni başa düşməlisən. — (Yox, o heç nəyi izah eləyə bilmirdi. Elə şeylər var, belə adamlara çatmır.) — Əgər bizə... əgər bu ümid olmasa...

— Başa düşmədim, — simeoni hirsləndiyini gizlətmədən dedi. (Bu çılğınlıq nə üçündür, o düşündü, — doğrudanmı xəstəlik Droqonu uşaq kimi eləyib?)

— Amma sən başa düşməlisən axı, — Covanni öz dediyində təkid elədi. — otuz ildən artıq mən burda oturmuşam və gözləyirəm... Mən nə qədər imkanları qaçırdım. Otuz il sənə zarafat gəlməsin və bu otuz ili mən ancaq düşmənin nə vaxt gələcəyini gözlədim. Sən tələb eləyə bilməzsən ki, məhz indi... məhz indi mən gedim... Eləyə bilməzsən, mənim qalmaq haqqım var, əgər bu artıq...

— Yaxşı, — simeoni sərt tərzdə dilləndi. — Mən sənə yaxşılıq elədiyimi düşünürdüm, sənsə belə nankorluqla cavab verirsən. Belə çıxır, zəhmət çəkməyə dəyməzmiş... Mən məxsusən iki atlı



downloaded from KitabYurdu.org

göndərdim, sənin karetanı buraxmaq üçün məxsusi olaraq bir batareyanın göndərilməsini yubatdım.

— Amma mən ki səni məzəmmətləmirəm, — Droqo cavab verdi. — Mən hətta sənə minnətdaram ki, sən bunları xeyirxahlıq niyyəti ilə eləyibsən, mən başa düşürəm. — (oy, bu əclafın könlünü ələ almaq necə də əzabdır," — deyə o düşünürdü.) — Axı kareta burda qala bilər. Bundan əlavə, mən axı belə səfərə tab gətirmərəm, — o, fikirləşmədən əlavə elədi.

— Sən elə indicə sabah ayağa qalxacağını dedin, indisə hətta karetaya minə də bilmirsən, bağışla, sən özün də nə istədiyini bilmirsən...

Droqo öz səhvini düzəltməyə cəhd elədi:

— Amma bunlar tamamilə ayrı-ayrı şeylərdir, belə səfəri başa vurmaq başqa işdir, baxış meydançasına qalxmaq tamam başqa iş... Mənim üçün hətta ora oturacaq da gətirə bilərlər, əgər özümdə zəiflik hiss elərəmsə, otura bilərəm. — (Əvvəlcə o "stul" demək istədi, sonra isə bunun mənasız anlaşılacağını düşündü.) — Mən orda keşik çəkilməsinə nəzarət elərəm... heç olmasa, hər şeyi görə bilərəm.

— Onda qal. Qal! — simeoni üzünü qırışdıraraq dedi. — Amma mən gələn zabitləri hara yerləşdirəcəyimi bilmirəm, onları dəhlizdə və ya



downloaded from KitabYurdu.org

zirzəmidə yerləşdirə bilmərəm ki! Sənin otağına isə üç çarpayı qoymaq olardı...

Droqo dəhşətə gəldi. Gör simeoninin istədiyi nəymiş? Droqonu — onu burdan göndərməyi qərara almışdı... otağı boşaltmaq üçün? Təkcə bundan ötrümü? Qayğı, dostluq demək boş şeymiş? Droqo düşünürdü: "Mən söhbətin lap əvvəlindən bunu başa düşməliydim; belə əclafdan nə gözləmək olar.

Droqonun susmasından ürəklənən simeoni yenidən öz sözünü dedi:

— Üç çarpayı burda çox rahatlıqla yerləşər. İkisi bu divarın boyunca, üçüncüsü bax orda, küncdə. Görürsən? Droqo, əgər sən mənə qulaq assan, — o, tamamilə saymazyana tərzdə dedi, — əgər sən mənə qulaq assan, onda mənim işimi çox asanlaşdırarsan. Axı həqiqətən də — açıq danışdığım üçün məni bağışla — bu vəziyyətdə sənin burda qalmağının nə xeyri var?

— Yaxşı, — Covanni onun sözünü kəsdi. — Mən hər şeyi başa düşdüm, indisə xahiş edirəm, çıx get. Mənim başım ağrıdı.

— Bağışla, — simeoni dedi. — İnadkarlığım üçün məni bağışla, amma mən bu söhbəti elə bu dəqiqə qurtarmaq istəyirəm. Kareta artıq yoldadır. Rovina sənin gedişini bəyənir, otaq boşalır, sən də şəhərdə



downloaded from KitabYurdu.org

tez sağalarsan. Sonra da mən səni, xəstə adamı burda saxlamaqla üzərimə az məsuliyyət götürmüş olmuram... bədbəxtlik baş verərsə? Sənə bütün ciddiyyəti ilə deyirəm: bu, böyük məsuliyyətdir.

— Qulaq as, — Droqo dedi, artıq hər cür müqavimət göstərməyin mənasız olduğunu başa düşmüşdü. O, gözünü günəş işığının zolağından çəkə bilmirdi; zolaq divarla qalxır, uzanır və onu köndələninə kəsirdi. — Bağışla ki, mən imtina eləyirəm, amma mən qalmaq istəyərdim. Mən sənə heç bir maneçilik törətmərəm, söz verirəm; hətta yazılı öhdəçilik də verə bilərəm. Çıx get, simeoni, məni rahat burax, yəqin ki, mənim ömrümdən çox qalmayıb, icazə ver, burda qalım, axı otuz ildən artıq mən bu otaqda yatıram...

Simeoni diqqətlə xəstə yoldaşına baxaraq susdu, sonra bədxahcasına gülümsədi və dedi:

— Əgər mən bunu səndən rütbəcə böyük yoldaşın kimi tələb eləyərəmsə? Əgər mənim əmrim belədirsə? Sən buna nə deyirsən? — o, sözlərinin ona təsirindən həzz alaraq fasilə verdi. — Ah, mənim əzizim Droqo, bunları sənə demək mənim üçün xoş deyil, amma sənin əsgər mətinliyin hara getdi?.. Həm də sən təhlükəsiz yerə gedirsən, çoxusu bu dəqiqə sənin yerində olmaq istəyərdilər. Mən sənin kədərləndiyini



downloaded from KitabYurdu.org

ehtimal eləyirəm, amma həyatdan çox şey tələb eləmək olmaz, ağılla düşünmək lazımdır... Mən sənin denşikini göndərəcəyəm və sən yır-yığış elə. Saat ikidə kareta burda olmalıdır. Beləliklə, sonra görüşərik...

Bu sözləri deyərək simeoni Droqoya yenidən etiraz eləməyə vaxt vermədən cəld otaqdan çıxdı, qapını sərt şəkildə çırpdı və öz dediyində təkid elədiyinə görə özündən tamamilə razı qalan birisi kimi qərarlı addımlarla dəhlizlə uzaqlaşdı.

Ortalığa əzici sükut çökdü. Bul! — divarın arxasında çən bul-bul eləməyə başladı. Bundan sonra otaqda yalnız Droqonun kəsik-kəsik nəfəs alması eşidilirdi — daha doğrusu, nəfəs alması yox, xırıltısı. Mülayim günün günorta çağıydı; hətta daşlar da azacıq qızmağa başlamışdılar. Uzaqdan şaquli yamaclardan axan suyun yeknəsəq səsi eşidilirdi, düşmən dağ silsilələrinin arxasıyla öz qüvvələrini Qalaya doğru gətirirdi. Çölün ortasından çəkilən yolla əsgərlər və arabalar yaxınlaşdıqca-yaxınlaşırdılar. İstehkamın maneə nöqtələrində artıq hər şey hazır idi, təchizat qaydaya salınmış, əsgərlər öz yerlərinə göndərilmiş, silahlar yoxlanılmışdı. Hamının baxışları şimala doğru yönəlmişdi, hərçənd dağların ucbatından heç nə görmək olmurdu (bütün



downloaded from KitabYurdu.org

çöl yalnız Yeni istehkamdan aydın görünürdü). Yadellilərin bura sərhədləri dəqiqləşdirmək üçün gəldikləri o uzaq günlərdə olduğu kimi, Qalada hamı həyəcan içindəydi, sevinc qorxu ilə bir sərhəddə kəsişirdi. Hər halda, bir kimsənin Droqo haqda düşünmək heç ağlına da gəlmirdi, Droqo isə Lukanın köməyi ilə artıq geyinmiş və getməyə hazır idi.

## XXIX

Kareta, doğrudan da, tamamilə layiqli idi, hətta burdakı dərələrarası yollar üçün həddən artıq təntənəli idi. Əgər qapısında polkun gerbi olmasaydı, onu hansısa varlı ağanın karetası kimi də qəbul eləmək olardı. Qozlada iki nəfər oturmuşdu: arabaçı və Droqonun denşiki.

Kömək üçün gələnlərin ilk eşalonları gəlib çıxdığından Qalaya hakim kəsilən çaxnaşmada heç kim üzgün, solğun sifətli, pilləkənlə ağır-ağır düşən, vestibülü keçib həyətə çıxan arıq zabitə elə də xüsusi diqqət yetirmədi. Həyətdə isə zabiti artıq kareta gözləyirdi.

Bu an günəşin şəfəqlərinə qərq olmuş yaylada vadidən çıxıb gələn əsgərlərin, atların və eşşəklərin uzun cərgələri göründü. Yorğunluqlarına baxmayaraq, gücləndirilmiş marşla addımlayan



downloaded from KitabYurdu.org

əsgərlər Qalanı görən kimi addımlarını bir az da sürətləndirdilər. Cərgələrə başçılıq eləyən musiqiçilər isə sanki indicə çalmağa başlayacaqlarmışlar kimi musiqi alətlərini qablarından çıxardılar.

Bununla yanaşı, zabitlər Droqo ilə vidalaşırdılar — doğrudur, bəziləri və onlar da əvvəllər olduğu kimi elə də qızğınlıqla görüşmürdülər. Belə görünürdü, onun həmişəliyə getdiyini və artıq Qalanın idarə edilməsində heç bir rol oynamayacağını hamı başa düşürdü. Leytenant Moro və onunla birlikdə daha bir neçə adam yaxşı yol arzulamaq üçün Droqoya yaxınlaşdılar, amma gənclərin yaşlılarla münasibətinə xas olan nəzakətdən uzaq vidalaşma çox qısa çəkdi. Onlardan biri Droqoya məlumat verdi ki, komendant simeoni xahiş eləyir onu bir az gözləsin. O, indi məşğuldur. Ümumiyyətlə, qoy mayor Droqo bir az tələsməsin, cənab komendant mütləq gələcək.

Amma karetada yerini rahatlayan kimi də Droqo dərhal yola düşməyi əmr elədi. Onun xahişi ilə nəfəs almaq asan olsun deyə faytonun üstünü açmışdılar, ayaqlarını iki, ya da üç tutqun örtüklə bürümüşdülər və bu örtüklərin fonunda onun qılıncı daha gur parlayırdı.



downloaded from KitabYurdu.org

Fayton tullanaraq daş yolla hərəkət eləməyə başladı. Droqonun yolu indi onu axırıncı sığınacağına aparırdı. O hər təkanda başını yırğalayaraq oturacaqda dönürdü və gözlərini Qalanın sarımtıl divarlarından çəkə bilmirdi. Divarlar getdikcə alçaqda qalırdı.

Orda, yuxarıda, digər aləmdən təcrid olunmuş yerdə o, öz ömrünü yaşadı, orda düşmənləri gözləyərək otuz ildən artıq əzab çəkdi, indisə düşmən qapıda olanda, onu qovdular. O adamlar ki, şəhərdə oturmuşdular, yüngül və şən həyatdan zövq alırdılar, bax onlar təkəbbürlü, saymazyana təbəssümlə özgə şöhrətinin arxasınca aşırıma gəlmişdilər.

Droqo baxışlarını Qalanın sarımtıl divarlarından, kazarmaların və barıt anbarlarının dəqiq həndəsi cizgilərindən çəkə bilmirdi və acı göz yaşları simicliklə, ağır-ağır onun qırışlı üzüylə gilələnirdi. Necə də acınacaqlı final və sən bunu dəyişmək üçün heç nə eləyə bilməzsən.

Droqonun heç nəyi, sözün əsl mənasında heç nəyi qalmamışdı, bütün dünyada tək-tənhaydı və tamam xəstəydi. Onu cüzama tutulmuş adam kimi Qaladan qovmuşdular. "Axx, sizi görüm lənətə gələsiniz... axx lənətə gəlmişlər", — o donquldanırdı. Sonra qərara aldı: nə olacaqsa qoy olsun, daha heç



downloaded from KitabYurdu.org

nə haqda düşünmək lazım deyil, yoxsa qəzəbdən və inciklikdən ürəyi partlayacaqdı.

Günəş artıq qüruba enir, irəlidə isə xeyli yol var idi. Hər iki əsgər qozlada sakitcə söhbət eləyirdilər, onlar üçün getmək və ya qalmağın heç bir fərqi yox idi. Onlar həyatı necə varsa, elə də qəbul eləmişdilər, özlərini əlavə üzüntülərlə yükləmirdilər. Karetanın əla konstruksiyası var idi — əsl "təcili yardım" karetası idi, amma dəqiq çəkən tərəzinin əqrəbi kimi yoldakı hər çökəyə reaksiya verirdi. Dağ landşaftına qovuşan Qala isə getdikcə balacalaşır, alçalırdı; divarları bu bahar günündə hansısa qəribə çalarlara bürünürdü.

Kareta yaylanın kənarına, dərəyə düşmək üçün eniş başlayan yerə yaxınlaşanda: "Yəqin ki, mən Qalanı axırıncı dəfə görürəm, — deyə Droqo düşündü — Əlvida, Qala!" Amma onun şüuru bir qədər dumanlanmışdı və o, xahiş eləməyə ürək eləmədi ki, atları saxlasınlar ona axırıncı dəfə öz Qalasına, bu qədər əsrlər keçəndən sonra nəhayət öz vəzifəsini yerinə yetirməyə başlayan istehkamına baxmağa imkan versinlər.

Nəticədə Droqonun gözləri sarımtıl divarlarda, maili istehkamlarda, sirlə dolu qala bürclərində, havalar mülayimləşəndən sonra qaralmağa başlayan,



downloaded from KitabYurdu.org

yanlardan yüksələn qayalarda qaldı. Hansısa an Droqoya elə gəldi ki, Qala divarları birdən göyə ucaldı və günəşin şəfəqləri altda işıq saçdı, amma dərhal da bu mənzərə kəsildi, Qala otlarla örtülmüş dağların arxasında gizləndi və yol vadiyə doğru enməyə başladı.

Saat beşdə onlar yolun kənarındakı dərə boyunca uzanan karvansaraya çatdılar. Yuxarıda üst-üstə yığılan kədərli dağlar ilğımlanır, dağlar yaşıllıqla və qırmızıya çalan, yəqin ki, heç vaxt insan ayağı dəyməyən çılpaq qayalarla örtülmüşdü. Aşağıda isə dərə guruldayırdı.

Kareta karvansaranın qabağındakı balaca meydanda dayananda yanlarından muşketyorlar batalyonu keçib gedirdi. Droqo bir-birinin ardınca keçən gəncləri, tərli və hədsiz yorğunluqdan qızarmış üzləri, heyrətlə onu süzən gözləri görürdü. Yalnız zabitlər ona hərbi salam verirdilər. Uzaqlaşan danışıqların içində o, ünvanına deyilənləri seçə bildi: "Qocaciyəz hər cür rahatlığı olan faytonda gedir!" Amma bu zarafata heç kim gülmədi. Bu adamlar döyüşə gedirdilər, o isə qorxaqcasına dərəyə qaçırdı. Əgər sifətinə baxıb onun da ölümün qarşısına getdiyini başa düşməsəydilər, yəqin əsgərlər düşünərdilər. "Ay qəribə zabitdir ha.



downloaded from KitabYurdu.org

Droqo heç cür onu duman kimi bürüyən hansısa qəribə bir keyimə ilə mübarizə apara bilmirdi: gah yırğalanır, gah xəstəlik öz sözünü deyirdi, gah şüuru əzab verirdi — bax həyat şərəfsizcəsinə belə qurtarırdı. İndi o, hər şeyə etinasız idi, hər şeyə. Doğma şəhərinə qayıtması, ayaqlarını sürtə-sürtə öz köhnə, qədim evində gəzməsi və ya uzun aylar ərzində yataqda uzanıb qalacağı, darıxmaqdan və təklikdən əzab çəkəcəyi fikridən dəhşətə gəlirdi. Tələsəsi bir yeri yox idi və o, karvansarada gecələməyi qərara aldı.

Bütün batalyonun keçib getməsini, çəkmələrin qaldırdığı tozun yatmasını və dağ çayının gurultusunun arabaların cırıltısını batırmasına gözləyib, Lukanın çiyninə söykənərək ağır-ağır karetadan çıxdı.

Evin kandarında bir qadın oturmuşdu və diqqətlə nəsə toxuyurdu. Qadının ayaqlarının yanında kobudcasına düzəldilmiş beşikdə uşaq yatırdı. Droqo heyranlıqla uşağın necə gözəl yatmasına baxırdı: uşaq qətiyyən böyüklər kimi yox, dərin və sakit uşaq yuxusuna dalmışdı. Bu balaca varlıq hələ həyəcanverici yuxular görməmişdi, onun balaca ürəyi heç bir arzusu olmadan və təəssüf yaşamadan təmiz havada qayğısız halda sakitcə



downloaded from KitabYurdu.org

döyünürdü. Droqo ayaq üstə dayanaraq yatan uşağa baxır, ürəyi isə yandırıcı qəhərdən sıxılırdı. O özünü, onun necəsə tanımadığı və görmədiyi özgə Droqonu yatmış vəziyyətdə təsəvvür eləməyə cəhd elədi. Təxəyyülü onun öz bədəninin cizgilərini çəkirdi: heyvani yuxuya dalmış və narahat halda diksinirdi, ağzı yarıaçıq idi, ağır nəfəs alırdı, çənəsi sallana qalmışdı. Amma nə vaxtsa axı o da bu uşaq kimi yatmışdı, o da nə vaxtsa əziz və günahsız uşaq idi, daha hansısa xəstə bir zabit yox. Ola bilsin ki, ona da beləcə bir xəstə zabit acı heyrətlə baxırmış. "Zavallı Droqo" — bu bənzətmənin nə qədər qəribə olduğunu dərk eləyərək düşündü. Axı o həqiqətən də, bütün dünyada tək idi, özündən başqa kimin ona ürəyi yanacaqdı?

## XXX

Hansısa yataq otağının dərin kreslosunda yuxudan oyandı. Əsrarəngiz gecə idi, pəncərədən içəriyə təmiz hava dolurdu. Droqo etinasız halda səmaya baxırdı; səma tamamilə göy rəngə çalır, vadilərin bənövşəyi kölgələrini, dağ zirvələrini isə hələ də günəş şəfəqləri işıqlandırırdı. Qala uzaqda qalmışdı, burdan onun yerləşdiyi aşırım görünmürdü.



downloaded from KitabYurdu.org

Belə gecə hətta elə də xoşbəxt olmayan adamlara da səadət hissi bəxş eləməliydi. Covanni qaranlığa qərq olmuş şəhəri, qəlblərin bahar yorğunluqlarını, sahildəki sevgililəri, artıq işıqlanan pəncərədən süzülüb gələn fortepiano səslərini, uzaqdan eşidilən parovoz səsini özüyçün təsəvvür elədi. Dərhal da fikirlərini şimal çölündə qərar tutmuş düşmən düşərgəsinin işıqlarına, küləkdə yırğalanan Qala fanarlarına, döyüş ərəfəsindəki yuxusuz və gözəl gecəyə yönəltdi. Hamının hansısa, lap kiçik də olsa, nəyəsə ümid eləməyə haqqı var. Ondan başqa hamının...

Aşağıda, ümumi zalda bir kişi mahnı oxuyurdu. Sonra ona biri də qoşuldu, onlar məhəbbət haqdakı hansısa xalq mahnısını oxuyurdular. Göyün lap ənginliyində, göylüyün dibi olmayan yerdə bir neçə ulduz sayrışırdı. Droqo otaqda tək idi, denşik bir-iki stəkan içki içmək üçün aşağı düşmüşdü. Künclərdə və mebellərin üzərindəki şübhəli kölgələr tündləşirdi. Bir anlığa Droqoya elə gəldi ki, dözə bilməyəcək (hər halda, onu heç kim görmürdü və heç kim bunu bilməyəcəkdi). Hə, hansısa bir anlığa mayor Droqoya elə gəldi ki, sinəsini sıxan üzüntü yükünün altında indicə ürəyi partlayacaq.



downloaded from KitabYurdu.org

Məhz onda onun şüurunun ən uzaq küncündə ilk dəfə olaraq yeni, dəqiq və qorxunc bir fikir alışıbyandı: Ölüm haqdakı fikir.

Ona elə gəlirdi ki, zamanın axını sehrli bir qaydada dayanıb. Əvvəlcə burulğan var idi, axır vaxtlar onu dartıb üzüaşağı aparırdı. Sonra birdən hər şey yoxa çıxdı, yastı dünya hərəkətsiz halda donubqaldı və saatların əqrəbləri naməlum bir istiqamətdə hərəkət eləməyə başladı. Onun yolu sona çatmışdı, o indi özünü yeknəsəq, boz dənizin boşalmış sahilində görürdü, ətrafda isə nə bir ev, nə bir ağac, nə bir insan vardı və qədim zamanlardan da beləydi.

Uzuq sərhədlərdən nəyinsə tədricən böyüyərək və kölgə kimi qatılaşaraq ona tərəf irəlilədiyini hiss elədi — bu artıq saatların, həftələrin və ya ayların söhbətiydi, amma əgər həftələr və aylar səni ölümdən ayıra bilmirdisə, heç nəyə dəyməzdilər. Belə çıxırdı ki, onun bütün ömrü bunca masqaraya dönmüşdü; mənasız qürurdan, mübahisəni udmaq istəyindən o, hər şeyi itirmişdi.

Pəncərədən o tərəfdəki göylük tamam qatılaşmışdı. Amma qərbdə, dağların bənövşəyi siluetləri üzərində hələ də işıqlı zolaqlar görünürdü. Otağa isə qaranlıq çökmüşdü — yalnız adamda



downloaded from KitabYurdu.org

qorxu yaradan mebelin cizgilərini, ağ yatacaqları və işıldayan qılıncı seçmək olurdu. Bəli, bu aydın idi: o, burdan çıxa bilməyəcəkdi.

Qaranlıqda oturaraq və aşağıda gitaranın müşayiəti ilə oxunan oynaq mahnıya qulaq asaraq Covanni Droqo onda yeni, son ümidin necə doğduğunu hiss eləyirdi. Bütün yer üzündə tək olan, lazım olmadığı üçün artıq yük kimi Qaladan atılan, hamının yaddan çıxardığı, özünə inanmayan və zəifləmiş xəstə zabit hələ də hər şeyin itirilmədiyinə ümid eləyirdi. Belə ki, məhz indi ona axırıncı döyüşə girmək kimi inanılmaz bir şans verilmişdi və bu döyüş onun bütün yaşadıqlarına haqq qazandıracaqdı.

Bəli, Droqonıun üzərinə onun axırıncı düşməni hücum eləyirdi. Ona oxşayan, onun kimi dəhşətlərdən və qorxudan ürəyi parçalanan insanlar yox, onun kimi eyni maddədən yaranmış, yaralamaq, sifətlərinə baxmaq mümkün olan insanlar yox, nəsə güclü və məkrli bir düşməndi. Təkcə qala divarları arasında döyüş gurultuları və bahar səmasının altında çılğın hayqırtılar arasında döyüşmürlər, təkcə dostlarınla çiyin-çiyinə verib və onların iştirakından güc alıb döyüşmürlər, mütləq deyil barıt tüstüsünün və tozun dözülməz qoxusunda, yalnız



downloaded from KitabYurdu.org

şöhrət haqda düşünüb döyüşəsən. Hər şey düşkün meyxananın şamlarla işıqlandırılmış otağında, büsbütün tək olduğu zaman baş verir.

Bu həmin o döyüş deyildi ki, ondan qayıdanda günəşli səhərdə çiçəklərdən tac qoyasan və gənc qadınlar sənə təbəssüm bəxş eləyələr. Burda tamaşaçılar yox idi, heç kim "afərin" deyə qışqırmayacaqdı.

Bəli, bu, onun arzularında təsəvvür elədiyi döyüşlərdən daha sərt döyüş olacaqdı. Hətta ən təcrübəli yaşlı döyüşçülər belə bu döyüşdə iştirak eləmək istəməzdilər. Çünki sən cavan olanda və bədənin güclü olanda açıq səmanın altında, qızğın döyüşdə şeypurların qələbə sədaları altında həlak olmaq daha yaxşıdır; əlbəttə, aldığın yaradan, uzun sürən işgəncələrdən sonra qospital çarpayısında ölmək pisdir, amma söndürülmüş lampaların və dərman şüşələrinin arasında, doğmalarının ürək parçalayan oxşamalarıyla öz yatağında ömrünü başa vurmaq daha pisdir. Amma heç kimə məlum olmayan yad bir kənddə, adi otel çarpayısında bu dünyada özündən sonra heç bir yadigar qoymadan qoca və əlil halda ölmək lap acınacaqlıdır.

"Bax beləcə, Droqo ürəklən, sənin axırıncı kartın qalıb, sən ölümü bir əsgər kimi qarşılamalısan, qoy



downloaded from KitabYurdu.org

heç olmasa, sənin uğursuz həyatın gözəl sonluqla başa çatsın. Sən, nəhayət, taledən qisas almalısan; heç kim səni tərifləməyəcək, heç kim səni qəhrəman adlandırmayacaq, amma artıq elə buna görə də bu çağırışı qəbul eləməyə dəyər. Kölgənin sərhədini mətin addımlarla keç, paradda olduğu kimi qürurla, sinəni irəli ver və hətta gülümsə, əgər bacararsansa. Hər halda, sənin vicdanın elə də ləkələnməyib və Allah səni bağışlaya bilər".

Son həyat burumlarının onun ətrafında getdikcə necə daha möhkəm sıxıldığını hiss eləyən Droqo özü özünə duaya oxşar belə sözlər deyirdi. Bütün keçmişinin, bütün həyata keçməyən arzularının və çəkdiyi təhqirlərin batdığı dərin quyudan onun heç vaxt hesaba almağa cürət eləmədiyi bir qüvvə qalxırdı. Covanni Droqo sözlə ifadə edilməyən bir sevinclə birdən başa düşdü ki, o tamamilə sakitdir və az qala, özü tezliklə bu sınaqdan keçməyə can atır. "Demək, həyatdan hər şeyi tələb eləmək olmazmış? Simeoni, sən beləmi hesab eləyirsən? İndicə Droqo sənə göstərər".

"Cəsarətli ol, Droqo". Və o, mübarizə aparmağı, təslim olmamağı, qorxunc fikrə gülməyi sınaqdan keçirtdi. Canındakı bütün gücü bu ümidsiz hücuma qoymuşdu, sanki təkbaşına bütöv bir ordu ilə



downloaded from KitabYurdu.org

döyüşməyə gedirdi. Dərhal da əvvəlki qorxuları dağıldı, xəyalları ölgünləşdi, ölüm əvvəlki qorxunc cizgilərini itir, təbiətin qaydalarına uyğun olaraq nəsə sadə bir şeyə çevrildi. Mayor Covanni Droqo, xəstəliyin və illərin əldən saldığı adam sinəsini irəli verərək nəhəng qara qapının üzərinə gedirdi və qapının laylarının açılaraq işığa yol verdiyini görürdü.

İndi Qalanın qoruyucu məntəqələrindəki üzücü həyat, ölgün şimal çölünü nəzərdən keçirməsi, həyatda uğur qazana bilmədiyinə görə ümidsizliyə qapılması, uzun illər gözləməsi ona boş bir şey kimi gəldi. İndi hətta Anqustinaya da həsəd aparmamaq olardı. Bəli, Anqustina dağların zirvəsində öldü, tufanın burulğanında, həyatdan, doğrudan da, gözəl köç elədi. Amma gücsüzləşmiş, rədd edilmiş, yad adamların arasına düşmüş Droqonun vəziyyətində ömrü qəhrəmanlıqla başa vurmaq daha cəlbedici idi.

Onu yalnız bir şey kədərləndirirdi: bu dünyadan belə miskin vəziyyətdə ayrılması; bədəni quruyub, sümükləri çıxıb, dərisi bürüşük və solğundur. “Anqustinanın bəxti gətirdi”, — Covanni düşündü, — o, gəncliyinin ən qaynar çağında öldü və aradan bu qədər illər keçməsinə baxmayaraq yaddaşlarda ucaboylu, düz qamətli, qadınları özünə cəzb eləyən



downloaded from KitabYurdu.org

alicənab sifətli cənc oğlan kimi qalmışdı — onun üstünlüyü bunda idi. Amma nə biləsən, bəlkə həlledici ana qədəm qoyanda o da əvvəlki kimi olacaqdı, qoy lap elə gözəl olmasın (Droqo heç vaxt gözəl olmamışdı), amma bütün cavanlıq gücü yerində olsun”. Bu fikirlə özünə uşaq kimi təsəlli verirdi, çünki indi özünü heyrət ediləcək dərəcədə azad və xoşbəxt hiss eləyirdi.

Sonra onun beyninə başqa fikir gəldi:” Əgər bunlar hamısı yalandısa, onda necə olsun? Birdən onun bu cəsarəti müvəqqəti sərxoşluq olsa? Bütün bunlar sadəcə əsrarəngiz qürubla, ətirli küləklə, fiziki üzüntülərdən sonra olan fasilə ilə, aşağıdan eşidilən mahnıyla izah olunurdusa, onda necə olsun? Bəlkə bir neçə dəqiqədən və ya bir neçə saatdan sonra o, yenidən əvvəlki zəif və məğlub edilmiş Droqo olacaqdı?

“Yox, bu haqda düşünmə, Droqo, bəsdir iztirab çəkdin, ən qorxulusu artıq arxadadır. Hətta ağrılar yenidən səni məğlub edəcəksə də, hətta musiqi daha sənə təsəlli verməyəcəksə də və bu gözəl gecə məşum dumana qərq olacaqsa da, sən özünə haqq qazandıra biləcəksən. Əsası artıq arxadadır və heç kim bunu səndən ala bilməz”.



downloaded from KitabYurdu.org

Otaq tamam qaranlıqlaşdı; yalnız ağaran yatağı çox çətinliklə seçmək olurdu, qalan hər şey qapqara olmuşdu. Tezliklə ay görünəcəkdi.

Droqo onu görə biləcəkdimi, ya ay doğmamışdan əvvəl gedəcəkdi? Otağın qapısı cırıldayaraq açılır; bəlkə də külək, ya da belə narahat yaz gecələrində evdə meydan oxuyan yelçəkən açmışdı. Bəlkə o, səssiz addımlarla içəri girmişdi və indi də Droqonun kreslosuna yaxınlaşırdı? Covanni sonuncu gücünü toplayaraq kresloda qəddini düzəltdi, mundirinin boyunluğunu hamarladı, bir daha pəncərədən çölə baxdı, ulduzlu səmadakı axırıncı öz parçasına ani olaraq baxdı; qaranlıqda onu heç kim görməsə də, gülümsəyirdi.



downloaded from KitabYurdu.org